BAKI BİZNES UNİVERSİTETİ

İBAD ABBASOV
TƏRBİZ ƏLİYEV

# QEYRİ - NEFT SƏNAYESİNİN İQTİSADİYYATI

**Dərslik**

Dərslik Azərbaycan Respublikası
Təhsil Nazirinin 02.11.2017 tarixli
363 saylı əmri ilə təsdiq edilmişdir.

BAKI - 2018

**Elmi redaktor:** i.e.d., professor, Əməkdar Kənd Təsərrüfatı işçisi İ.H.İbrahimov

**Rəyçilər:** i.e.d., professor, Əməkdar Elm Xadimi B.X.Ataşov
i.e.d., professor V.H.Abbasov

**Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, 2018, 267 s.**

Respublikada ilk dəfə bu məzmunda və strukturda yazılan dərslikdə qeyri-neft sənayesinin xarakterik xüsusiyyətləri, strukturu, formalaşmasının əsas prinsipləri, milli iqtisadiyyatda onun rolu və əhəmiyyəti göstərilmiş, qeyri-neft sənaye sahələrinin təkamül yolu ilə inkişafı, mövcud sosial-iqtisadi durumu, ixrac potensialı çoxillik statistik məlumatlar əsasında kompleks şəkildə tərtib edilib qiymətləndirilmiş, müxtəlif ehtiyat imkanları aşkara çıxarılmış və onların səmərəli istifadə yolları, eləcə də sahələrin strateji inkişafının başlıca istiqamətləri göstərilmişdir.

Dərslikdə eyni zamanda aqrar sahənin formalaşması və inkişafı, rabitə və informasiya texnologiyalarının, tikinti, turizm sənayesinin inkişafı məntiqi ardıcıllıqla şərh edilmiş, qeyri-neft sənayesində sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı istiqamətləri açıqlanmış, sahibkarlığın dövlət tənzimlənməsi və sahələrin proqramlar əsasında inkişafının üstünlükləri və sosial-iqtisadi nəticələri verilmişdir.

Dərslik ali məktəblərin bakalavr və magistr pillələrində təhsil alan tələbələr, doktorantlar, iqtisad yönümlü universitetlərin professor, müəllimləri, ixtisasartırma kurslarının dinləyiciləri üçün nəzərdə tutulmuşdur.

© Abbasov İ.M.
Əliyev T.N.

# GİRİŞ

Qloballaşan dünyada o dövlətlər dinamik və sabit inkişaf edir ki, onlar gələcəyə hədəflənən düşünülmüş strategiyaya malikdir. Son 10 il ərzində Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri dövründə ölkəmizin iqtisadi qüdrəti daha da artmışdır.

Respublikada sahibkarlığın inkişafında hərtərəfli şəraitin yaradılması, zəngin təbii sərvətlərdən və regionların potensialından səmərəli istifadə, qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması, yerli məhsulların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində görülən tədbirlər ölkə iqtisadiyyatının yüksələn xətlə inkişafını təmin etmişdir.

Ölkədə müasir sənaye sahələrinin yaradılması və sənayenin infrastruktur təminatının yaxşılaşdırılması üzrə çoxsaylı layihələrin icra edilməsi onun yeni inkişaf mərhələsinə keçməsinə imkan vermişdir.

Azərbaycanda qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin davamlı inkişaf meylləri beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına yönəldilən strategiyanın nəticələri olaraq Davos İqtisadi Forumunun reytinqində Azərbaycan iqtisadiyyatı rəqabət davamlılığına görə 37-ci, MDB-də isə 1-ci yerdə göstərilmişdir.

Ölkənin qeyri-neft potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etmək gücündə olan sənaye sektorunun yaradılması və inkişaf etdirilmə-

si zəruriliyi həm ölkənin daxili iqtisadi inkişaf modelinin, həm də dünya iqtisadiyyatının müasir inkişaf meyllərinin tələbləri ilə bağlıdır. Məhz, ona görə də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsində" qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi prioritet sahələr kimi qeyd edilmiş və onun diversifikasiyasının zəruriliyi ön plana çəkilmişdir. Qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi həm regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, həm də dövlət büdcəsinin gəlirlərinin artırılması və onun müxtəlif mənbələrdən formalaşdırılması, ixrac gəlirlərinin artırılması, idxalı əvəz edən və ixracyönümlü, geniş çeşidə malik sənaye məhsullarının istehsalı baxımından önəmli hesab edilir.

Bununla yanaşı, kənd təsərrüfatı, turizm və informasiya – kommunikasiya texnologiyaları ölkədə qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir.

Qeyri-neft sənaye sahələrində mövcud problemləri həll etmək, ehtiyat imkanlarından səmərəli istifadəyə nail olmaq üçün təşkilati – iqtisadi mexanizmləri və metodları kökündən dəyişdirmədən lazımı məqsədə çatmaq mümkün deyildir. Belə bir şəraitdə yeni düşüncə tərzinə və yaradıcılıq imkanlarına malik kadrların hazırlanmasına zəruri ehtiyac duyulur.

"Qeyri-neft sənayesinin iqtisadiyyatı" fənninin məqsədi ölkənin qeyri-neft sənaye sahələrinin inkişafı, ölkə iqtisadiyyatının strukturunda yeri, əhalinin məhsullara və xidmətlərə olan tələbatların ödənilməsində rolu və əhəmiyyəti, eləcə də həmin sahələrin perspektiv inkişaf istiqamətləri haqqında iqtisadçı bakalavrlara zəruri biliklər verməkdən ibarətdir.

Dərslik 15 bölmədən ibarət olmaqla, burada tədris edilən



kursun obyekti, predmeti, məqsədi, vəzifələri və metodları ilə yanaşı qeyri-neft sənayenin xarakterik xüsusiyyətləri, formalaşmasının prinsipləri, onun milli iqtisadiyyatda rolu və əhəmiyyəti göstərilmiş, emal sənayesinin ayrı-ayrı alt sahələrinin təşkilati-iqtisadi xüsusiyyətləri, maliyyə və ixrac imkanları təhlil edilib qiymətləndirilmiş, aqrar – sahənin, tikintinin, turizmin, rabitə və informasiya texnologiyaları sferalarının inkişafı istiqamətləri açıqlanmış, sahibkarlığın dövlət tənzimlənməsi və sahələrin proqramlar əsasında inkişafının üstünlükləri və sosial-iqtisadi nəticələri verilmişdir.

Dərsliyin nəzəri-metodoloji əsaslarını Azərbaycan Respublikasının qanunları, ölkə Prezidentinin Fərman və Sərəncamları, qeyri-neft sənayesinin inkişafına dair dövlət proqramları və onların icrası ilə əlaqədar qarşıya qoyulan məqsəd və vəzifələr təşkil etmişdir.

Dərsliyin informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, qeyri-neft sənayesinin mövcud vəziyyəti və inkişafı ilə əlaqədar İqtisadiyyat Nazirliyinin hazırladığı icmallar, ayrı-ayrı Səhmdar Cəmiyyətlərinin, birliklərin, müştərək müəssisələrin, MMC-lərin, ilkin uçot və hesabat sənədlərinin məlumatları, eləcə də araşdırılan məsələlərin məzmunu ilə əlaqədar internet saytlarının materialları təşkil etmişdir.

Dərslik təsdiq edilmiş fənn proqramına uyğun yazılmışdır və ali məktəblərin bakalavr və magistr pillələrində təhsil alan tələbələr, doktorantlar, fənni tədris edən müəllimlər, ixtisasartırma kurslarının dinləyiciləri üçün nəzərdə tutulmuşdur.

# MÖVZU 1. KURSUN OBYEKTİ, PREDMETİ, MƏQSƏDİ VƏZİFƏLƏRİ VƏ METODLARI

## 1.1. Kursun məzmunu, məqsədi və vəzifələri.

Azərbaycan Respublikası 2000-ci ildən başlayaraq dünyada ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmiş və iqtisadiyyatın inkişaf səviyyəsini səciyyələndirən əsas makroiqtisadi göstərici – ümumi daxili məhsulun (ÜDM) həcminin artım sürətinə görə bir çox dünya ölkələrini geridə qoymuş, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasında liderliyi qoruyub saxlamışdır. Belə müsbət inkişaf meyli sənayenin qeyri-neft sektorunda baş vermişdir. Əgər 2000-ci ildə qeyri-neft sənayesinin xüsusi çəkisi 2,5% təşkil etmişdirsə, 2015-ci ildə onun səviyyəsi 69,3%-ə çatmışdır.

Qeyri-neft sənayesi-neftqazçıxarma və neft emalı sektorları istisna olmaqla iqtisadiyyatın bütün fəaliyyət sahələrini (yeyinti və yüngül sənaye, kimya və neft-kimya, metallurgiya, maşın, mexanizm, elektrik avadanlıqları, nəqliyyat vasitələrinin istehsalı, rabitə və telekommunikasiya, elektroenergetika, ticarət və iaşə, turizm, aqrar sahə, sosial xidmətlər sferası və sairə) özündə cəmləşdirir.

Həmin fəaliyyət sahələrinin hər biri öz spesifik xüsusiyyətləri ilə (xammal bazası yerləşdirilməsinin prinsipləri, texniki -texnoloji xüsusiyyətləri, kooperasiya əlaqələri, istehsal etdikləri məhsulların xalq təsərrüfatı əhəmiyyəti, istifadə dərəcəsi və sairə) fərqlənirlər. Onlar, öz növbəsində, istehsal vasitələri və alətləri istehsal edən sahələrə, onların fasiləsizliyini təmin edən xidmət təyinatlı fəaliyyət sferası, eləcə də əhaliyə müxtəlif növ sosial xidmətlər (ticarət, iaşə, səhiyyə, təhsil, pullu xidmətlər, rabitə və sairə) göstərən sahələrə ayrılırlar.

Qeyri-neft sənayesinə daxil olan sahələrdə fəaliyyətin əsas mərkəzini iqtisadiyyatın mühüm həlqəsi olan müəssisələr təşkil edir. Cəmiyyət üçün zəruri olan məhsullar istehsal edən və xidmətlər göstərən müəssisələr mülkiyyət formasından asılı



olmayaraq – ictimai tələbatın ödənilməsi və mənfəət alınması məqsədi ilə məhsul istehsal edən və satan, xidmətlər göstərən hüquqi şəxs kimi müstəqil təsərrüfat subyektidir.

Məhz müəssisələr ölkə iqtisadiyyatının ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində istehsal və təşkilati strukturunu əmələ gətirir və məhz burada əsas iqtisadi proseslər baş verir, istehsalın texnologiyası və keyfiyyəti problemləri kəsişir, iqtisadi və sosial münasibətlər formalaşır, ictimai və xüsusi mənafelər mövcud olur. Müəssisələr müəyyən maddi nemətlər istehsalı məqsədilə müvafiq formada təşkil olunan və istiqamətləndirilən istehsal resurslarının – maddi və əmək resurslarının – mürəkkəb birliyini, qarşılıqlı əlaqə və asılılığını və habelə kəmiyyət asılılığını əks etdirirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2016-cı ilin əvvəlinə ölkə ərazisində 2583 vahid sənaye müəssisələri fəaliyyət göstərmiş və onların 2552 vahidi və yaxud 98,8%-i qeyri-neft sənayesində cəmlənmişdir. Həmin müəssisələrin 48,4%-i kiçik və 51,6%-i orta və iri müəssisələridir.

Kursun məqsədi – İqtisadçı-bakalavrlara bazar münasibətləri şəraitində qeyri-neft sənayesi sahələrinin xüsusiyyətləri ilə tanış etmək, onların inkişaf meyllərini açıqlamaq, ölkə iqtisadiyyatının inkişafında, əhalinin məhsullara və xidmətlərə olan tələbatının ödənilməsində rolu və əhəmiyyəti haqqında zəruri bilikləri verməkdir.

Həmin məqsədə çatmaq üçün dərslikdə aşağıdakı vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla şərh edilmişdir:

- qeyri-neft sənayesinin xarakterik xüsusiyyətlərinin, strukturunun, əlaqələrinin, formalaşmasının əlamətlərinin, əsas prinsiplərinin və ölkə iqtisadiyyatındakı rolunun açıqlanması;
- emal sənayesinə daxil olan alt-sahələrin, aqrar-sahələrin, tikintinin, turizmin, xarakterik xüsusiyyətlərinin və inkişafının mövcud vəziyyətinin araşdırması, iqtisadi potensiallarının qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyən edilməsi.

## 1.2. Kursun öyrənilməsinin zəruriliyi.

"Qeyri-neft sənayesinin iqtisadiyyatı" fənninin öyrənilməsinin zəruriliyi aşağıdakılarla şərtləşir:

- qeyri-neft sənayesinə daxil olan sahələrdəki müəssisələrin təşkili, idarə olunması və yerləşdirilməsi prinsipləri, sahə əlaqələri, zaman və məkan hüdudlarında diversifikasiyasının zəruriliyi;
- qeyri-neft sənayesinin ölkə iqtisadiyyatının inkişafında mühüm rolu və əhəmiyyəti;
- əhalinin xalq istehlakı mallarına və bütün növ xidmətlərə olan tələbatının ödənilməsi;
- ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi;
- idxalı əvəz edən və ixracyönümlü məhsul istehsalının zəruriliyinin sosial-iqtisadi və beynəlxalq əhəmiyyəti;
- sahibkarlıq fəaliyyətinin qeyri-neft sənaye sahələrində inkişaf etdirilməsinin vacibliyi;
- xarici investisiyaların qeyri-neft sənayesinə və xidmət sferalarına cəlb edilməsinin zəruriliyi və nəticələri;
- əhalinin məşğulluğunun təmin edilməsi;
- iqtisadi fəaliyyət sahələrinin dövlət tənzimlənməsinin prinsipləri, metodları və xüsusiyyətləri haqqında iqtisadi bilik almaq istəyənlər geniş məlumat vermək və onların intellektual səviyyəsini yüksəltməkdən ibarətdir.

İqtisadiyyatın strukturlaşması iqtisadi resursların və güclərin təmərküzləşdirilməsi, onların daha əhəmiyyətli və strateji məqsədlərin reallaşdırılmasına yönəldilməsini şərtləndirir. Dövlətin həyata keçirdiyi struktur siyasəti onun strateji və taktiki vəzifələrinin yerini yetirilməsinin mühüm vasitəsi kimi mövcud struktur dəyişikliklərinə olan münasibəti ifadə edir. Bu siyasət başda təkrar istehsal olmaqla, sosial, sahəvi, regional problemlərin həll edilməsinə yönləndirilir. Dövlətin struktur siyasətinin əsas xarakterik xüsusiyyəti onun daha uzunmüddəti əhatə etməsidir. Belə ki, bu siyasət çərçivəsində həyata keçirilən və tətbiq edilən tədbirlər öz nəticələrini müəyyən bir dövrdən sonra (bəzi hallarda onilliklər tələb olunur) göstərə bilir. Dövlətin struktur siyasətinin həyata keçirilməsində vacib amil kimi investisiya və onun maliyyələşdirilməsi əsas götürülür. Yəni ki, struktur siyasəti birbaşa olaraq dövlətin investisiya siyasətilə bağlıdır. Hər bir ölkə özü üçün müvafiq olan struktur siyasətini işləyib, həyata keçirməlidir. Çünki dünya iqtisadiyyatı və ölkələrin milli iqtisadiyyatları müasir şəraitdə elə bir inkişaf xüsusiyyətinə malikdir ki, onların strukturları ayrı-ayrılıqda böyük bir iqtisadi subyektdir. İctimai əmək bölgüsü sisteminə müvafiq olaraq hər bir ölkənin iqtisadiyyatı öz milli xüsusiyyətlərinə uyğun ayrı – ayrı sahələrin, sferaların, regionların məcmusundan ibarətdir və onların bir-birilə qarşılıqlı əlaqəsi, fəaliyyət mexanizmi fərqli xüsusiyyətləri ilə seçilir. Belə ki, hər bir ölkənin sosial-iqtisadi inkişafının tarixi mərhələsinin ayrı-ayrı dövrləri və ya fazaları struktur dəyişikliklərinin özünəməxsus yəni xarakterik xüsusiyyətlərini özündə əks etdirir. Milli iqtisadiyyatın strukturunun genişliyi onun çox istiqamətliliyinin nəticəsidir. Odur ki, iqtisadiyyatın strukturuna müəyyən bloklar daxilində yanaşma daha məqbul hesab edilir. Blokların formalaşmasına münasibət də birmənalı deyildir. Bu istiqamətlərin seçilməsinin bir neçə nümunəsinə müraciət edək:

1. İqtisadiyyatın siyasi-iqtisadi strukuru – sferalar, ərazilər, mülkiyyət növləri üzrə proporsional bölüşdürülmüş məhsuldar qüvvələrin məcmusu;

2. İqtisadiyyatın təşkilatı strukturu – təşkilatı və idarəetmə səviyyəsinə, mənafe səviyyəsinə, həm səviyyəsin müəyyən dərəcələri ilə müqayisədə bacarıqlarına görə milli iqtisadiyyat səviyyəsində qruplaşdırılması;

3. İqtisadiyyatın funksional strukturu – maddi istehsal və

qeyri-maddi istehsal sferasından ibarət olmaqla, onların hər biri də müvafiq sahələrindən və bu sahələrin hər biri də müvafiq alt sahələrdən ibarətdir;

4. İqtisadiyyatın təkrar istehsal strukturu – bütün təkrar istehsal dövriyyəsini əhatə edir: istehsal, bölgü, mübadilə, istehlak və bununla bağlı digər elementləri;

5. İqtisadiyyatın texnoloji strukturu – eyni tipli məhsul və xidmət qrupları istehsalın texnoloji bazası kimi qəbul edilir;

6. İqtisadiyyatın resurs strukturu – cəmiyyətin hədsiz tələbatının maksimum və daha dolğun ödənilməsi zəruriyyətinin nəticəsidir.

### 1.3. Kursun obyekti, predmeti və subyektləri.

"Qeyri-neft sənayesinin iqtisadiyyatı" kursunun obyekti iqtisadi fəaliyyət sahələri, onların tərkibinə daxil olan istehsal müəssisələri, xidmət şəbəkələri və onların təsərrüfat fəaliyyətidir.

Bazar münasibətləri şəraitində mövcud istehsal münasibətlərinin doğurduğu obyektiv iqtisadi qanunların iqtisadi qanunların iqtisadi fəaliyyət sahələrində və onlara daxil olan müəssisələrdə formalaşan təsərrüfat – kommersiya fəaliyyətindəki təzahür formaları, mövcud olan ümumi qanunauyğunluqlar, prinsiplər, metodlar, istehsal və qeyri-istehsal amilləri, məhsul istehsal edən müəssisələrin iqtisadiyyatı və idarə edilməsi məsələləri kursun predmetidir.

Daha geniş mənada "Qeyri-neft sənayesinin iqtisadiyyatı" tədris kursunun predmeti rəqabət mübarizəsi şəraitində iqtisadi fəaliyyət sahələrinin tərkibinə daxil olan müəssisələrin təşkilati-iqtisadi və hüquqi aspektlərinin formalaşması problemləri, məhsulun (işin, xidmətin) həcminin artırılması, istehsal xərclərinin azaldılması, rentabelliyin yüksəldilməsi, strateji idarəetməyə əsaslanan səmərəli təsərrüfatçılıq metodlarının



aşkar olunması və istifadə edilməsi haqqındakı biliklərin öyrənilməsi və öyrədilməsidir.

Qeyri-neft sənayesinin subyektlərinə iqtisadi fəaliyyət sahələrinə daxil olan müəssisələr, fərdi sahibkarlar, innovasiya və sosial infrastruktur şəbəkələri daxildir.

Ölkə iqtisadiyyatın sahə strukturunun formalaşmasına müxtəlif amillər təsir edir. Bu amillər isə aşağıdakılarıdır.

- Ayrı-ayrı sahələr arasında kəmiyyət nisbətləri;
- Sahələr arasında istehsal əlaqələri;
- Konkret vəziyyətdə – müəyyən dövr ərzində sahələrin fəaliyyətini xarakterizə edən uyğun göstəricilərin nisbəti.

İqtisadiyyat sahələrinin statistik təsnifatı aşağıdakı kimidir:

- Sənaye;
- Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq;
- Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
- Su təchizatı, tullantıların təmizlənməsi və emalı;
- Tikinti;
- Ticarət və nəqliyyat vasitələrinin təmiri;
- Nəqliyyat və anbar təsərrüfatı;
- Turizm və ictimai iaşə;
- İnformasiya və rabitə;
- Sosial və digər xidmətlər.

Ölkə iqtisadiyyatının inkişafını təmin etmək üçün dövlətin struktur siyasəti və iqtisadiyyat sahələrinin düzgün idarəetmə mexanizminin seçilməsi vacib şərtlərdəndir. Seçilmiş struktur siyasəti iqtisadiyyatın sahə quruluşunun düzgün qiymətləndirilməsinə, proqnozlaşdırılmasına və onu tənzimləməsinə şərait yaratmalıdır. İqtisadiyyatın ayrı-ayrı sahələrinin milli iqtisadiyyatdakı xüsusi çəkisi və inkişaf imkanları fərqlidir. İqtisadiyyatın sahəvi quruluşu dedikdə keyfiyyətcə eyni tipli olan təsərrüfat subyektlərinin məcmusu nəzərdə tutulur.

## 1.4.Kursun tədqiqat metodları.

Tədqiqat metodlarının təsnifatını açıqlamazdan əvvəl metod və metodologiya anlayışlarının mahiyyətini və fərqini nəzərdən keçirək.

Böyük İqtisadi Ensiklopediyada:

Metod – hər hansı məqsədin tədqiqat və ona nail olunması, konkret vəzifələrin həlli üsulları kimi göstərilmişdir.

Metodologiya – tətbiq olunan metodların məcmusu olub, statistik məlumatların toplanması, işlənilməsi və təhlilinin elmi cəhətdən əsaslandırılmış təşkili qaydalarını müəyyən edən, sosial-iqtisadi proseslərin statistik tədqiqatının üsul, qayda və metodlarının məcmusudur.

Məlumdur ki, elm özünün inkişaf tarixində həqiqətləri dərk etmək üçün bir çox üsul (metod, qayda) və fəndləri işləyib hazırlamış və elmi araşdırmalarda geniş istifadə etmişdir.

İqtisadi hadisələrin mahiyyətinə varmaq, onların inkişaf qanunlarını dərk etmək və fəaliyyət mexanizmini aşkara çıxarmaq yalnız elmi cəhətdən əsaslandırılmış tədqiqat metodlarından istifadə olunduqda mümkündür. Müasir iqtisadi təcrübədə tədqiqatın aşağıdakı metodlarından istifadə edilir: sistemli yanaşma, təhlil, sintez, deduksiya (ümumidən xüsusiyə), induksiya, (xüsusidən ümumiyə), reduksiya, müqayisə, məntiqi keçid, analogiya, iqtisadi-riyazi modelləşdirmə və sairə.

Dərketmə metodu olan dialektika isə bu metodların köməyi ilə cəmiyyətin, təbiətin və idrakın inkişaf qanunauyğunluqlarını və bu inkişafdakı əlaqələri konkretləşdirir. İqtisadi proses və hadisələrin düzgün və ətraflı dərk olunması konkret iqtisad elmləri üçün əsas elmi metod olan dialektik metod vasitəsilə mümkündür, çünki bu metod hadisə və proseslərin fasiləsiz, mütəhərrik vəziyyətdə, ətrafla sıx və qırılmaz ümumi əlaqə, qarşılıqlı asılılıq və qarşılıqlı təsir vəziyyətində öyrənir.

Dialektik metodun köməyi ilə iqtisadi hadisə və proseslərin real inkişafını-kəmiyyət və keyfiyyət dəyişikliklərini və buna səbəb olan daxili ziddiyyətlərin (əksiliklərin vəhdəti və mübarizəsi) mahiyyətini dərk etmək və yeni inkişaf səviyyəsinə qalxmaq naminə onların həlledilmə qaydalarını müəyyənləşdirmək mümkün olur. Bütün bunlara görə də tədqiqat və təhsil işində dialektik metod ən mükəmməl elmi metod hesab edilir.



"Qeyri-neft sənayesinin iqtisadiyyatı" kursunun tətbiqi mahiyyət daşıması məzmunca empirik səciyyəli tədqiqat metodlarından istifadəsini ön plana çəkir. Sənaye sahəsinin başlıca ünsürünü təşkil edən müəssisələrdə ayrı-ayrı iqtisadi məsələlərin öyrənilməsində statistik müşahidə və müqayisəli təhlil metodları böyük əhəmiyyət kəsb edir. Onlar xüsusi və ümümiləşdirici iqtisadi göstəriciləri toplamağa, müəssisənin iqtisadi və sosial inkişaf subyektləri ilə müqayisə etməyə imkan verir.

Müəssisə iqtisadiyyatının nəzəri və tətbiqi məsələlərinin təhlilində riyazi modellər, təsviri qrafika metodlardan da geniş istifadə olunur.

Bu metodlar – konkret iqtisadi vəziyyətdən asılı olaraq *ayrı-ayrı iqtisadi* göstəricilərin təsir və əks təsir əlaqələrinin düzgün və obyektiv qiymətləndirilməsinə imkan yaradır, eləcə də onun nəticələri müxtəlif ehtimal və proqnozlaşdırma metodları müəssisənin təsərrüfat strategiyasının hazırlanmasında və bunun köməyilə bazarın gələcək konyunkturasına uyğunlaşmağa nail olmaqda və sahibkarlıq qərarlarının qəbulunda istifadə edilir.

Qeyd edilən metodlarla yanaşı sənaye müəssisələrində ayrı-ayrı sosial – iqtisadi problemlərin öyrənilməsi, qısa müddət ərzində çoxaspektli (çoxcəhətli) məlumatların toplanmasında sosioloji sorğu üsulundan (anketlərin köməyi ilə) istifadə olunur. Ayrı-ayrı investisiya-innovasiya layihələrinin işlənilməsi, hadisələrin qiymətləndirilməsi prosesində ekspert və eksperiment üsullarından da istifadə olunur.

Təsnifləşdirilən həmin metodlardan istifadə qarşıda duran məqsəd və vəzifənin məzmunu ilə şərtləşir və onlar tək və kompleks şəkildə tədqiqatçılar tərəfindən istifadə və tətbiq oluna bilər.

## 1.5. "Qeyri-neft sənayesinin iqtisadiyyatı" kursunun digər fənlərlə əlaqəsi.

Qeyd edildiyi kimi, qeyri-neft sənayesində spesifik xüsusiyyətləri ilə biri – birindən fərqlənən istehsal və xidmət sferaları cəmləşmişdir. Onların hər biri mürəkkəb sosial – iqtisadi və texniki – texnoloji sistem kimi xarakterizə edilir. Deməli, orada həyata keçirilən istehsal – təsərrüfat fəaliyyəti, fasiləli və fasiləsiz proseslər həm təbii – texniki, həm də ictimai elmlər tərəfindən öyrənilir.

Təbii-texniki elmlər istehsalın maddi ünsürləri olan əmək predmetlərinin, əmək vasitələrinin və istehsal olunan məhsulun xassələrini, habelə istehsal prosesi zamanı xammal və materiallarda baş verən fiziki, texniki və kimyəvi dəyişiklikləri öyrənməklə məşğul olurlar. Təbiət elmləri habelə - insanla təbiət arasındakı "qarşıdurma"nın bir cəhəti kimi – istehsal prosesinin insan fiziologiyası və psixologiyasına təsiri məsələlərini də tədqiq edirlər. Bunlarla yanaşı ictimai elmlər həm də insanların istehsaldakı münasibətlərini, yaradılan məhsulun onların arasındakı bölgü qaydaları və ölçüləri, istehsalın iştirakçılarının sosial-psixoloji və digər ictimai münasibətlərini öyrənirlər. Həmin ictimai-iqtisadi münasibətlərin ayrı-ayrı tərəflərini isə şaxələnmiş şəkildə konkret iqtisad elmləri tədqiq edirlər.

Kursun iqtisadi fənlər arasında yeri və əhəmiyyəti firma və müəssisələrin ölkə iqtisadiyyatının özülünü təşkil etməsi ilə xarakterizə olunur. Kursun nəzəri əsasını "Makro iqtisadiyyat" elminin müddəaları, praktiki bazasını isə - mikroiqtisadiyyat" təşkil edir. Bununla yanaşı kurs "Sənayenin iqtisadiyyatı", "Aqrar sahənin iqtisadiyyatı", "Tikintinin iqtisadiyyatı", "Nəqliyyatın iqtisadiyyatı", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Menecment", "Əməyin iqtisadiyyatı və sosiologiyası", "Marketinq", "Qiymətqoyma", "Biznesin təşkili", "Maliyyə-kredit" və sair fənlərlə sıx sürətdə əlaqədardır.



# MÖVZU 2. QEYRİ-NEFT SƏNAYESİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ, STRUKTURU VƏ ƏLAQƏLƏRİ

## 2.1. Sənaye iqtisadiyyatının xarakterik xüsusiyyətləri.

İqtisadiyyatın dayanıqlığı, bütövlüyü və dinamikliyini təmin edən bir-biri ilə qarşılıqlı əlaqəsi olan sahələrin məcmusunu əks etdirir.

Sahə hər hansı bir sistemin ayrılmış bir hissəsidir. İqtisadiyyat sahəsi oxşar texnologiyalar əsasında eynicinsli məhsullar istehsal edən müəssisələrin məcmusudur. Bütünlükdə iqtisadiyyat geniş struktura malik sistemdir. Onun tərkib elementləri bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqdadır. İqtisadiyyatın strukturunun formalaşması, başda ictimai əmək bölgüsü olmaqla, insanların tələbatlarının artması və dəyişməsi, elmi-texniki tərəqqi, istehsal qüvvələrinin mürəkkəbləşməsi kimi uzunmüddətli proseslərin təsiri nəticəsində formalaşmışdır. Belə ki, iqtisadiyyatın strukturunun formalaşması ictimai əmək bölgüsü ilə əlaqədardır. İctimai əmək bölgüsü cəmiyyət üzvlərinin müəyyən məhsul üzrə ixtisaslaşmışdır və onun üç forması var: ümumi ictimai əmək bölgüsü, xüsusi ictimai əmək bölgüsü və fərdi ictimai əmək bölgüsü. İctimai əmək bölgüsünün nəticəsi olaraq iqtisadiyyat ixtisaslaşma əsasında sahələrə ayrılır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (AR DSK) mövcud metodologiyasına görə, iqtisadiyyatın qeyri-neft sektorunun sahələrinin statistik təsnifatı fəaliyyət növləri üzrə aşağıdakı kimidir:

- sənaye (xam neft və təbii qaz hasilatı, neft emalı sferası istisna olmaqla);
- kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq;
- emal sənayesi;

- elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
- su təchizatı, tullantıların təmizlənməsi və emalı;
- tikinti;
- ticarət və nəqliyyat vasitələrinin təmiri;
- nəqliyyat və anbar təsərrüfatı;
- turistlərin yerləşdirilməsi və ictimai iaşə;
- informasiya və rabitə;
- maliyyə və sığorta fəaliyyəti;
- daşinmaz əmlakla əlaqədar əməliyyatlar;
- peşə, elmi və texniki fəaliyyət;
- təhsil;
- əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi;
- inzibati və yardımçı xidmətlərin göstərilməsi;
- istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət;
- digər sahələrdə xidmətlərin göstərilməsi.

Qeyd olunan bu sahələr iqtisadi təyinatına və istehsal xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Lakin bu sahələr hər biri iqtisadi cəhətdən olduqca əhəmiyyətli olub bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqdadırlar və müxtəlif səbəblərdən dolayı milli iqtisadiyyatda qeyri-bərabər inkişafa malikdirlər. Belə ki, ölkələr dünya təsərrüfatında daha çox sənaye ölkələri, aqrosənaye ölkələri, xidmət sahələri inkişaf etmiş ölkələr kimi təsnifləşdirilir. AR DSK-nın məlumatlarına görə, 2015-ci ildə ÜDM- in strukturunda sənayenin xüsusi çəkisi 33,9% təşkil etmişdir. Odur ki, Azərbaycan hələ sənaye ölkəsi statusu ala bilməmişdir. İl ərzində ÜDM-in 69,3%-i qeyri-neft sənaye sektorunun payına düşmüşdür.

Ölkənin iqtisadi inkişafında xüsusi rol oynayan və milli iqtisadiyyatın ən vacib sahəsi olan sənaye ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında, o cümlədən onun strateji məqsədlərinin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Belə ki, sənaye məhsullarının yüksək texnoloji istehsalı müasir şəraitdə ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasında vacib rol oynayır. ABŞ, Yaponiya, Almaniya, Cənubi Koreya və digər belə ölkələri özlərinin güclü sənaye istehsalı malları vasitəsilə dünya bazarlarını ələ almış və dünya təsərrüfatında xüsusi yer tutmuşlar.

Qeyri-neft sənaye sektoru aşağıdakı xarakterik xüsusiyyətlərə malikdir:

- kənd təsərrüfatında istehsal edilən məhsullar emal sənayesinin bir çox sahələri (qida, içki, geyim, dəri məmulatları və s.) üçün əsas xammal kimi istifadə edilir;
- kimya və neft-kimya sənayesinin məhsulları texnoloji cəhətdən sıx əlaqədə olan müəssisələr üçün ilkin xammal və reagent kimi, digər iqtisadi fəaliyyət sahələrində isə (əczaçılıq, rezin və plastik məmulatlar, tikinti, kompüter və elektron avadanlıqları, mebel, avtomobil və onun qoşquları istehsalında, kənd təsərrüfatı və yeyinti məhsullarının qablaşdırılması üçün taraların (kisə, qab, həsir və s.) hazırlanmasında xammal kimi istifadə edilir;
- əmək cisimlərinə təsir, onun formasının dəyişdirilməsi kimyəvi-fiziki təsir metodlarının tətbiqi ilə texnoloji prosesdə həyata keçirilir;
- ayrı-ayrı məhsulların istehsal, xidmətlərin göstərilməsi prosesində dar ixtisaslaşan, müxtəlifliyi ilə seçilən maşın, avadanlıq, alət, cihaz, dəzgah və s. istifadə olunur;
- qeyri-neft sektoru sahələrinin xammal bazasının spesifik xarakter alması;
- ayrı-ayrı emal sahələrinin yüksək fond və material tutu-

muna malik olması;

- sahələrin enerji istehlakına tələbatının mütəmadi olaraq artması;
- canlı əməyə çəkilən xərclərin məbləğinin və xüsusi çəkisinin yüksək olması;
- köməkçi işçilərin xüsusi çəkisinin yüksək səviyyədə saxlanılması;
- kombinələşdirmə prosesinin dinamik xarakter alması.

## 2.2. Qeyri-neft sənaye sahələrinin sosial - iqtisadi əlamətləri.

Bütünlükdə qeyri-neft sənaye sahələri: istehsal vasitələri istehsal edən sahələrə (maşınqayırma, metallurgiya, elektrotexnika), istehlak vasitələri (xammal, hazır məhsul) və xidmət göstərən sahələrə bölünür. Onlar mülkiyyət növünə görə - dövlət, bələdiyyə, xüsusi (xarici, birgə); ölçülərinə görə: kiçik, orta və iri müəssisələrə, eləcə də fəaliyyət növlərinə görə təsnifləşirlər. AR DSK-nın məlumatlarına görə, 2015-ci ildə ölkə ərazisində fəaliyyət göstərən bütün təsərrüfat subyektlərinin 10,6%-i dövlət; 1,7%-i bələdiyyə və 88,7%-i xüsusi mülkiyyətdə olmuşdur. Həmin nisbət 2010-cu ildə uyğun olaraq: 11,7%; 1,9% və 86,4% təşkil etmişdir.

Qeyd edilənlərlə yanaşı adı çəkilən sahələr aşağıdakı digər əlamətlərinə görə də təsnifləşirlər (şəkil 2.2.1.):

- Məhsulun təyinatına görə: istehsal vasitələrinin istehsalı və istehlak vasitələri istehsalı. Bu sahələrin müəssisələri elmi-texniki tərəqqi əsasında istehsalın səmərəliliyinin yüksəldilməsində və intensivləşdirilməsində həlledici rol oynayırlar. Başqa sözlə, həmin müəssisələr elmi-texniki tərəqqinin təminatçılarıdırlar.
- Əhalinin maddi və mədəni həyat səviyyəsinin yaxşılaşdırılması, əsasən, istehlak şeyləri istehsal edən müəssisələr tərəfindən həyata keçirilir. Belə müəssisələrə misal olaraq, yeyinti və yüngül sənaye müəssisələrini göstərmək olar.
- İstehsal etdikləri xammal və materialların xarakterinə görə.

Hasiledici və emaledici sənaye müəssisələri fərqləndirilir. Hasiledici müəssisələr təbiətin vermiş olduğu sərvətləri əldə edirlər. Bu növ müəssisələrə metal filizlərinin, daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı, həmin sferada xidmət göstərən infrastrukturlar daxildir. Emaledici sənaye müəssisələri isə həmin sahələrdən çıxarılan, eləcə də kənd təsərrüfatı məhsullarını sənayesi xammal kimi emal edirlər.

İl ərzində işləmə müddətlərinə görə qeyri-neft sənayesi müəssisələri üç qrupa ayrılır:

- bütün il boyu fasiləsiz işləyən sənaye müəssisələri (məsələn, domna sobaları, marten peçləri, neftayırma zavodları və s.);
- bütün il boyu fasiləli işləyən sənaye müəssisələri (məsələn, maşınqayırma zavodları);
- mövsümü işləyən sənaye müəssisələri (məsələn, şəkər, konserv, pambıqtəmizləmə və s. zavodlar).

Kapitalın mənsubiyyəti və ona nəzarətə görə: milli, əcnəbi, qarışıq.

Məsuliyyət bölgüsünə görə: tam məsuliyyətli, məhdud məsuliyyətli.

Sahibkarlığın təşkilati-hüquqi formasına görə: tam şərikli, etimada əsaslanan şəriklik, məhdud məsuliyyətli cəmiyyət, əlavə məsuliyyətli cəmiyyəti, istehsal kooperativi, birliklər.

*Cədvəl 2.2.1.*

**Qeyri-neft sənaye sahələri müəssisələrinin iqtisadi-sosial əlamətlərinin təsnifatı.**

Sənaye sahələrinin iqtisadi-sosial əlamətləri

| Əlamət | Növlər |
|---|---|
| Məhsulun təyinatına görə | İstehsal vasitələrinin istehsalı |
| | İstehsaldakı vasitələrinin istehsalı |
| İstehsal etdikləri xammal və materialların xarakterinə görə | Hasilat |
| | Emal |
| İl ərzində işləmə müddətlərinə görə | Fasiləsiz işləyən sənaye müəssisələri |
| | Mövsümü işləyən sənaye müəssisələri |
| Kapitalın mənsubiyyəti və ona nəzarətə görə | Milli (dövlət) |
| | Xarici (müştərək) |
| | Qarışıq |
| Mənsubiyyət bölgüsünə görə | Tam məsuliyyətli |
| | Məhdud məsuliyyətli |
| Sahibkarlığın təşkilati-hüquqi formasına görə | Tam ehtimala əsaslanan şərikli |
| | Məhdud əlavə məsuliyyətli cəmiyyəti |
| | Səhmdar cəmiyyəti, konsern, konsorsium, MSQ Holding, birliklər |
| | Kiçik müəssisələr istehsal kooperativləri. |



## 2.3. Sahənin texniki-texnoloji əlamətləri.

Qeyri-neft sənaye sahələrində müəssisələr aşağıdakı texniki- texnoloji əlamətlərinə görə fərqlənirlər (sxem2.3.1.):

- istehsalın təşkili tipinə görə sənaye müəssisələrinin üç tipi: kütləvi, seriyalı və fərdi tipləri olur:

- kütləvi istehsal tipli müəssisələrdə həcmcə böyük, lakin həmcins və istehsalı daima təkrarlanan məhsullar istehsal edilir;

- seriyalı istehsal tipli müəssisələrdə məhsullar seriyalarla buraxılır və onlar müəyyən dövrlərdən bir təkrarlanır;

- fərdi istehsal tipli sənaye müəssisələrində geniş nomenklaturada və çox hallarda onların istehsalı təkrarlanmayan məhsullar istehsal edilir.

- istehsalın təşkili üsuluna görə fərdi, dəstəli və axınlı istehsal üsuluna malik olan sənaye müəssisələri fərqləndirilir.

- mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsinə görə sənaye müəssisələri üç növə: tam mexanikləşdirilmiş; qismən mexanikləşdirilmiş sənaye müəssisələri; kompleks mexanikləşdirilmiş sənaye müəssisələrinə bölünürlər.

- istehsal amilinin üstünlüyünə görə: əməktutumlu, kapitaltutumlu, materialtutumlu.

İxtisaslaşdırılma dərəcəsinə görə müəssisələr ixtisaslaşdırılmış, universal və qarışıq müəssisələrə ayrılır. İxtisaslaşdırılmış müəssisələrdə hazırlanma texnologiyasına görə oxşar, konstruktiv quruluşuna görə eyni və mütəmadi olaraq təkrarlanan məmulatlar hazırlanırsa, müəssisələrdə bir neçə adda məmulatlar istehsal olunur və onlar çox təkrarlanmır və ya vaxtaşırı təkrarlanır. Qarışıq müəssisələr isə hər iki növün əlamətlərini özündə əks etdirir.




***Sxem 2.3.1. Qeyri-neft sənaye sahələri müəssisələrinin texniki-texnoloji əlamətlərinə görə təsnifatı.***



İstehsal mərhələsini əhatə etməsinə görə sənaye müəssisələri üç qrupa ayrılırlar:

a) məhsulun hazırlanmasının bir mərhələsini edən sənaye müəssisələri; belə müəssisələrə metaləritmə, porşen, şin, diyircəkli yastıq, reduktor, karbürator və s. bu kimi məmulatlar istehsal edən zavodları göstərmək olar;

b) məhsulun hazırlanmasının iki və ya daha çox mərhələsini əhatə edən sənaye müəssisələri; bu növ müəssisələrə əyirmə, toxuma və bəzəkvurma sexləri olan toxuculuq fabriklərini misal gətirmək olar;

c) məhsulun hazırlanmasının bütün mərhələlərini əhatə müəssisələri; belə müəssisələrə misal olaraq avtomobil, traktor, soyuducu və s. bu kimi tamamlanmış məhsullar istehsal edən müəssisələri göstərmək olar.

Məhsulun hazırlanmasındakı roluna görə də istehsal özü də əsas. köməkçi və xidmətedici istehsal proseslərinə ayrılır. Lakin xammal və materialın hazır məhsula çevrilməsi prosesində əsas istehsal avadanlıqları, qurğuları, kompleksləri iştirak edirlər. Bu zaman emal edilən məmulatın forması, ölçüləri və daxili strukturlarının dəyişilməsi baş verir. Fasiləli istehsal prosesləri həyata keçirilən emal müəssisələrində texnoloji prosesin xarakterini adətən istehsalın təşkılatı şərtləri - texnoloji ardıcıllığa görə avadanlıqların istehsal meydançalarında düzgün quraşdırılması, anbarların təyinatı onların məkanca düzgün yerləşdirilməsi, nəqliyyat marşrutlarının istiqaməti və uzunluğu müəyyən edir.

Kimya və neft kimya, ağac emalı, mebel istehsalı və digər emal sahələrində texnoloji qurğular geniş tətbiq edilir.

Sahədə ixtisaslaşma, kooperativləşdirmə və kombinələşdirmə texniki-texnoloji əlamətləri və formaları üzrə təsnifləşirlər (sxem 2.3.2.):

Sahə üzrə ixtisaslaşma – ictimai və ya şəxsi tələbatı ödə-

mək üçün məhdud nomenklaturada məhsul istehsalının nisbətən uzun dövr üçün hazırlanmasını təmin etmək məqsədilə hər hansı sahəsinin uyğunlaşdırılması deməkdir.

Müəssisədaxili ixtisaslaşdırma müəyyən texnoloji əməliyyatların yerinə yetirilməsi üçün onların sex, istehsal sahəsi və iş yerləri arasında bölüşdürülərək cəmləşdirilməsidir.

Beynəlxalq ixtisaslaşdırma isə iqtisadi əməkdaşlıq birliklərinə daxil olan ölkələr arasında baş verir.

İstehsalın ixtisaslaşması bir çox hallarda ölkənin ərazilərində də baş verir; buna sənaye mərkəzləri, iqtisadi regionları və sənaye rayonlarını göstərmək olar.

Müəssisələr üzrə istehsalın ixtisaslaşdırılmasının əşya üzrə, hissə üzrə və texnoloji ixtisaslaşma formaları vardır.

İxtisaslaşdırmanın əşya forması bilavasitə istehlakçıya çatan hazır məhsul istehsalının bu və ya digər müəssisədə cəmləşdirilməsi deməkdir. Əşya üzrə ixtisaslaşdırmaya avtomobil, dəzgah, soyuducu, mebel istehsal edən müəssisələri misal gətirmək olar.

Hissələr üzrə ixtisaslaşdırma forması sonradan istehsalda istifadə edilmək və hazır məhsulu dəstləşdirmək məqsədilə onun ayrı-ayrı hissələrinin buraxılışını bu və ya digər müəssisəsində təmərküzləşdirilməsi ilə səciyyələnir.

Kooperativləşdirmə müəyyən bir məhsulun birgə istehsalı ilə məşğul olan müəssisələr arasındakı uzunmüddətli təsərrüfat əlaqələrinin formasıdır.

Təcrübədə kooperativləşdirmənin aşağıdakı formalarını fərqləndirirlər:

- aqreqat üzrə;
- hissələr üzrə;
- texnoloji mərhələlər üzrə;
- ərazi və sahələr üzrə.

İctimai əmək bölgüsü və istehsalın təmərküzləşməsi onun ic-






***Sxem 2.3.2. İxtisaslaşma, kooperativləşdirmə və kombinələşdirmənin texniki – texnoloji əlamətlərinin (formalarının) təsnifatı.***

timai təşkili formalarından biri olan kombinələşməni şərtləşmişdir. Sənaye sahələri üzrə kombinələşdirmə - texnoloji, iqtisadi, təşkilati baxımdan əlaqəli olan müxtəlif sahələrə məxsus ayrı-ayrı istehsalların, məhsul buraxmaq qabiliyyətlərinin mütənasibliyini təmin etmək şərtilə, vahid istehsal kompleksində birləşdirilməsidir.

Başqa sözlə, kombinələşdirmə maddi-texniki bazasına və ya texnoloji istehsal üsulunun ümumiliyinə və habelə xammal və materialların müştərək istifadəsinə görə müxtəlif istehsalların məkanca eyni ərazidə, bir müəssisədə təmərküzləşdirilmişdir.

Əmək predmetlərinin emalının ayrı-ayrı mərhələlərinin birləşdirilməsi xarakterindən asılı olaraq kombinələşmənin 3 forması mövcuddur:

1. Xammalın – hazır məhsulun alınmasına qədər-ardıcıl emalına görə;
2. Xammalın kompleks emalına görə;
3. Tullantılardan istifadəyə görə.

İstehsallar arasında əlaqələrin xarakterindən asılı olaraq, kombinələşmə üç tipə: şaquli, üfüqi və qarışıq tiplərə bölünür.

Şaquli kombinələşmə xammalın ardıcıl olaraq emal edilərək yarımfabrikat və hazır məhsula çevrilməsini nəzərdə tutur.

Üfüqi kombinələşmə xammalın kompleks emalı ilə əlaqədardır. Bu kombinələşmə növü ilkin xammalın emalının bir neçə axınının mövcudluğunu nəzərdə tutur ki, nəticədə bir neçə sahənin məhsulu alınır. Üfüqi kombinələşməyə misal neft-kimya kombinatlarını göstərmək olar. Burada neft məhsulları ilə yanaşı kimya məhsulları da alınır.

Qarışıq kombinələşmə o halda olur ki, xammalın bir növünün ardıcıl emalından əsas yarımfabrikat və ya hazır məhsul, tullantılardan isə əlavə yarımfabrikat və ya əlavə hazır məhsullar alınır.

Qeyd etmək lazımdır ki, kombinələşmə istehsalın ictimai təşkilinin forması kimi müxtəlif istehsal müəssisələri arasında daha sıx təsərrüfat əlaqələrini formalaşdırır.



## 2.4. Sahənin strukturunun ünsürlər üzrə qruplaşdırılması.

Azərbaycanda sənayenin mövcud strukturunun mülkiyyət növləri üzrə qruplaşdırılması göstərir ki, 2010-cu ildə bütün sənaye müəssisələrinin 20,7%-i dövlət; 79.2%-i qeyri-dövlət mülkiyyətində olmuş və 2015-ci ildə onların sayı dövlət mülkiyyətinin xeyrinə 28 vahid artdığından nisbət uyğun olaraq: 22,3% və 77,7 təşkil etmişdir. Qeyri-dövlət mülkiyyətində olan bütün sənaye müəssisələrinin 2010-cu ildə 89,6%-i xüsusi; 6,1%-i xarici və 4,3%-i birgə (qarışıq) mülkiyyətdə olduğu halda, 2015-ci ildə onların xüsusi çəkisi uyğun olaraq 87,3%; 8,9% və 3,8% olmuşdur. AR DSK-nın məlumatlarına görə, 2015-ci ildə mədənçıxarma sənayesinin qeyri-neft bölməsində fəaliyyətdə olan müəssisələrin 56,1%-i kiçik və 43,9-i orta və iri; emal sənayesində onların xüsusi çəkisi olaraq 54,2% və 45,8% elektrik enerjisi, qaz, buxar, istehsalı, onların bölüşdürülməsi və təchizatı sferasında 19,2% və 80,8%; su təchizatı, tullantıların təmizlənməsi və emalı sferasında 24,5% və 75,5% səviyyəsində formalaşmışdır. (sxem 2.4.1).




*Sxem 2.4.1. Qeyri-neft sənaye müəssisələrinin iqtisadi fəaliyyət növləri və işçilərin sayına görə qruplaşdırılması (yekuna görə, faizlə).*

Sənayenin ünsürlər üzrə ölkə iqtisadiyyatındakı payını (mövqeyini) qiymətləndirərkən aydın olur ki, əgər 2010-cu ildə yaranan bütün əlavə dəyərin 51,7%-i, ümumi mənfəətin 63,7%-i, işçilərin ümumi sayının – 12,4%-i, əsas fondların 55,9%-i və əsas kapitala yönəldilən investisiyaların 43,2%-i sənayedə gerçəkləşmiş, sonrakı 5 ildə həmin göstəricilərinin əksəriyyəti üzrə neqativ mövqe meyl müşahidə edilir (cədvəl 2.4.1.).

*Cədvəl 2.4.1.*

**Azərbaycanın iqtisadiyyatında sənayenin payı (faizlə).**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Əlavə dəyər | 51.7 | 53.8 | 49.4 | 45.4 | 41.0 | 34.0 |
| Ümumi mənfəət | 63.7 | 64.9 | 60.2 | 55.7 | 50.7 | 42.0 |
| Xalis mənfəət | 66.1 | 66.8 | 61.2 | 57.1 | 52.4 | 43.0 |
| İşçilərin orta illik sayı | 12.4 | 13.0 | 12.7 | 13.1 | 12.8 | 12.1 |
| Orta aylıq nominal əmək haqqı | 136.3 | 142.4 | 148.1 | 148.4 | 156.3 | 173.3 |
| Əsas fondlar | 55.9 | 56.6 | 57.9 | 57.9 | 59.9 | 60.4 |
| Əsas kapitala investisiyalar | 43.2 | 41.9 | 42.0 | 43.4 | 43.4 | 53.3 |

*) *Azərbaycanın sənayesi. Bakı, "DSK", 2016, s.13*

2010-cu ildə ölkə üzrə istehsal edilən sənaye məhsulunun (işin, xidmətin) 23,6%-i hazır məhsul qalığını 77,1%-i, əsas kapitala yönəldilən investisiyaların 31,4%-i, əsas istehsal fondlarının 26,9%-i və sənayedə muzdla işləyənlərin 86,4%-i həmin sənaye sferasında formalaşdığı halda, 2015-ci ildə həmin göstəricilərin səviyyəsi uyğun olaraq: 39,3%; 64,1%; 16,2% və 88,0% təşkil etmişdir. Müqayisə dövründə qeyri-neft sektorunda istehsal edilən məhsulun bütün sənayedəki xüsusi çəkisi 13 bənd, əsas kapitala yönəldilən investisiyanın xüsusi çəkisi isə 15,2 bənd azalmisdir (cədvəl 2.4.2.).



*Cədvəl 2.4.2.*

**Qeyri-neft sənaye sahələrinin xüsusi çəkisi (yekuna görə faizlə).**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| İstehsal edilən məhsul (iş, xidmət) | 23,6 | 22,0 | 23,8 | 25,9 | 30,4 | 39,3 |
| Hazır məhsul qalığının | 77,1 | 88,6 | 75,7 | 81,4 | 77,7 | 64,1 |
| Əsas kapitala yönəldilən investisiyalar | 31,4 | 43,7 | 36,7 | 32,4 | 22,4 | 16,2 |
| Əsas istehsal fondları | 26,9 | 28,7 | 28,5 | 29,4 | 28,8 | 27,2 |
| Sənayedə muzdla işləyənlər | 86,4 | 86,7 | 86,9 | 87,9 | 88,2 | 88,0 |

*) *"Azərbaycanın sənayesi" Bakı, "DSK", 2016 statistik məcmuəsinin məlumatları əsasında hesablanıb tərtib edilmişdir.*

Sənayenin qeyri-neft sənaye sektorunda məhsul istehsalının iqtisadi fəaliyyət növləri üzrə strukturuna nəzər yetirdikdə aydın olur ki, 2010-2015-ci illərdə mədən çıxarma sənayesinin qeyri-neft bölməsinin xüsusi çəkisi 4,2 bənd, emal sənayesi 8,4 bənd, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı 3,1 bənd, su təchizatı, tullantıların təmizlənməsi və emalı sferasında göstərilən xidmətlərin xüsusi çəkisi 0,4 punkt artmışdır (cədvəl 2.4.3).

*Cədvəl 2.4.3.*

**Sənayenin qeyri-neft sənaye sektorunda məhsul istehsalının (işin, xidmətin) strukturu (iqtisadi fəaliyyət növləri üzrə), yekuna nisbətən (faizlə).**

| Sahələr | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 23,6 | 22,0 | 23,8 | 25,9 | 30,4 | 39,3 |
| o cümlədən: Mədənçıxarmanın qeyri-neft bölməsi | 2.5 | 2.5 | 2,6 | 3,1 | 20,2 | 6.7 |
| Emal sənayesi o cümlədən: | 15,9 | 14,3 | 15,3 | 15,3 | 20,2 | 24,3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qida məhsullarının istehsalı | 1,5 | 1,5 | 1,5 | 1,5 | 2,0 | 2,5 |
| İçki istehsalı | 0,6 | 0,5 | 0,5 | 0,5 | 0,8 | 0,8 |
| Tütün məmulatlarının istehsalı | 0,08 | 0,1 | 0,06 | 0,06 | 0,1 | 0,1 |
| Toxuculuq sənayesi | 0,1 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,1 |
| Geyim istehsalı | 0,1 | 0,1 | 0,11 | 0,13 | 0,2 | 0,2 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 0,08 | 0,06 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Ağac emalı və ağac məmulatlarının istehsalı | 0,05 | 0,04 | 0,04 | 0,05 | 0,1 | 0,1 |
| Kağız və karton istehsalı | 0,04 | 0,1 | 0,05 | 0,06 | 0,1 | 0,1 |
| Poliqrafiya fəaliyyəti | 0,1 | 0,1 | 0,13 | 0,15 | 0,11 | 0,2 |
| Kimya sənayesi | 0,45 | 0.6 | 0,6 | 0,6 | 0,82 | 1,4 |
| Əczaçılıq məhsullarının istehsalı | 0,0 | 0,01 | 0,01 | 0,01 | 0,01 | 0,01 |
| Rezin və plastmas məmulatlarının istehsalı | 0,2 | 0,2 | 0,2 | 0,23 | 0,2 | 0,4 |
| Tikinti materiallarının istehsalı | 1,7 | 0,8 | 1,0 | 1,2 | 1,7 | 1,8 |
| Metallurgiya sənayesi | 0,5 | 0,6 | 1,1 | 0,9 | 0,9 | 0,9 |
| Hazır metal məmulatlarının istehsalı | 0,5 | 0,3 | 0,5 | 0,3 | 0,4 | 0,6 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,3 |
| Elektrik avadanlıqlarının istehsalı | 0,3 | 0,5 | 0,6 | 0,6 | 0,5 | 0,4 |
| Maşın və avadanlıqların istehsalı | 0,6 | 0,5 | 0,5 | 0,8 | 0,9 | 0,8 |
| Avtomobil və qoşquların istehsalı | 0,01 | 0,01 | 0,01 | 0,02 | 0,3 | 0,4 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 0,04 | 0,03 | 0,03 | 0,04 | 0,04 | 0,05 |
| Mebel istehsalı | 0,2 | 0,14 | 0,13 | 0,014 | 0,1 | 0,2 |
| Zərgərlik, musiqi, idman və tibb avadanlıqların istehsalı | 0.05 | 0,01 | 0,03 | 0,03 | 0,02 | 0,01 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 0,3 | 0,3 | 0,4 | 0,6 | 0,9 | 2,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 4,6 | 4,7 | 5,3 | 5,6 | 6,0 | 7,7 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 0,6 | 0,5 | 0,6 | 0,7 | 0,8 | 1,0 |

*)Azərbaycanın sənayesi. Bakı, "DSK", 2016, s. 31,32.



Baş verən pozitiv dəyişikliklər qeyri-neft sənaye sektorunun maddi-texniki bazasının yeniləşdirilməsi və bütünlükdə ölkədə aparılan iqtisadi islahatların nəticəsində baş vermişdir. Bütün dünya dövlətlərində iqtisadi artımın azaldığı dövrdə 2015-ci ildə ölkədə fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 54,4 milyard manatlıq və ya 2014-cü illə müqayisədə 1,1% çox ümumi daxili məhsul istehsal edilib. Qeyri-neft ÜDM-in həcmi 37,6 milyard manat olub. Əlavə dəyərin 33,9 %-i sənayedə, 12,1%-i tikintidə, 10,0%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,4%-i nəqliyyat və anbar təsərrüfatı, 2,7%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,0%-i informasiya və rabitə, 19,4%-i isə digər sahələrdə istehsal edilib. Bundan əlavə 2015-ci ildə sənayedə istehsal olunan məhsulların həcmi 2,4% artaraq 26,2 milyard manat olub.

Sənayenin qeyri-neft sektorunda əvvəlki illə müqayisədə 8,4 faizlik artım baş verib. Sənayedə qeyri-dövlət sektorunun payı 76,4% olub. Ümumi istehsalın 87,1%-i sənaye məhsulunun istehsalı, 12,9%-i isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb. Qeyri-neft sektorunun inkişafına sərf edilən 8796,3 milyon manatlıq vəsaitin 1229,2 milyon manatı (ümumi sənayenin 7,7%-i) qeyri-neft sənayesi sektorunun inkişafına yönəldilib. Qeyri-neft sektorunda işləyənlərin sayı 1469,5 min nəfərə çatıb.

### 2.5. Sahənin restrukturizasiyası.

"Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında göstərilən əsas prioritetlər içərisində-iqtisadiyyatın strukturunun inkişafı məsələlərinə xüsusi yer ayrılmışdır. Konsepsiyada qeyd edilir ki, qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal, sosial və bazar infrastrukturu şəbəkəsi yaradılacaq, təsərrüfatçılığın və idarəçiliyin mütərəqqi formalarından istifadə genişləndiriləcəkdir.

Bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Konsepsiyanın əhatə etdiyi dövrdə ölkədə polad istehsalı, neft-qaz emalı və neft-kimya kompleksləri, gübrə, gəmiqayırma və sement zavodları inşa ediləcəkdir. Alüminium sənayesi inkişaf etdiriləcək, ilkin alüminium istehsalı artırılacaq, özəl sektorun iştirakı ilə son məhsulun istehsalına qədər texnoloji zəncir qurulacaq, bu sahənin ixrac potensialı genişləndiriləcəkdir.

Sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqi stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciyi yaradılacaqdır. İqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması qeyri-neft emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı dövlət investisiya siyasətində əsas istiqamət olacaqdır. Bu baxımdan, hər bir iqtisadi rayonun potensialı nəzərə alınmaqla xüsusi iqtisadi zonalarının yaradılması və sənaye şəhərciklərinin qurulması mümkün addımlardandır. Konsepsiyada göstərilən həmin müddəalar artıq reallığa çevrilmişdir. Sumqayıtda Sənaye Parkı, Kimya Sənaye Parkı uğurla fəaliyyət göstərir. Mingəçevir şəhərində yüngül sənaye təyinatlı Park yaradılır. Başqa təyinatlı sənaye parkların Gəncə və Şirvan şəhərlərində yaradılması planlaşdırılır. Neftçala rayonunda Sənaye Məhəlləsi, Pirallahı qəsəbəsində əczaçılıq təyinatlı Sənaye Parkının təşkili haqqında ölkə Prezidenti müvafiq Sərəncam imzalamışdır. Ələt qəsəbəsində beynəlxalq miqyaslı Azad Ticarət zonası öz inkişafının başlanğıc mərhələsindədir. Adı çəkilən Konsepsiyada eyni zamanda qeyd edilir ki, "qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması da dəstəklənəcəkdir".



Bütün bunların həyata keçirilməsi üçün restrukturizasiya və sənaye müəssisələrinin təşkilatı strukturunun təkmilləşdirilməsinin vacibliyini ön plana çəkir. İlk növbədə mövcud sənaye müəssisələrində daha mobil idarə strukturunun formalaşdırılması idarə aparatında menecerlər institutunun yaradılması, onların səlahiyyətlərinin artırılması tələb olunur. Digər tərəfdən, ölkə ərazisində sənaye və emal sahələrinin, bütünlükdə məhsuldar qüvvələrin bərabər yerləşdirilməsi hesabına Abşeron yarımadasının iqtisadi yükünün azaldılması, eləcə də sənaye sahələri arasında mütənasibliyin gözlənilməsi qeyri-neft sektorunun regionlarda inkişafına təminat yaratmış olacaqdır. Hər bir ölkədə sənayeni inkişaf etdirməklə xalq təsərrüfat kompleksinin səmərəli fəaliyyətini təmin etmək, ictimai istehsalın iqtisadi səmərəliliyini yüksəltmək və əhalinin rifahının yaxşılaşdırılmasına nail üçün qlobal iqtisadi və sosial problemlərin həllini sürətləndirilməlidir. Bütün bunlar isə, nəticə etibarılə sənayenin, onun struktur bölmələrinin fəaliyyətində köklü dəyişikliklərin edilməsi və müəssisələrin restrukturizasiyası ilə mümkündür.

Restruktrurizasiya ingiliscədən (restructuring) – hər hansı obyektin strukturunun yenidən qurulması kimi məna verir. Struktur latıncadan (struktura) qayda, yerləşmə, quruluş mənasını verir. "Restrukturizasiya əsasən biznesin-təsərrüfatın idarəetmə və satış sisteminin, heyətin idarə edilməsinin təkmilləşdirilməsidir".

Bir sıra iqtisadçı-alimlər "islahat" və "restrukturizasiya" anlayışlarının eyni məna daşıdığını və vahid məzmuna malik olduqlarını izah etməyə cəhd edirlər. Belə ki, onların təbirincə desək, "islahat" müəssisənin strategiyasına və yenidən təşkilinə, "resturukturizasiya" isə əsasən müəssisənin və onun istehsal etdiyi məhsulların çeşidinin dəyişdirilməsini nəzərdə tutur. Real təcrübədə restrukturizasiyanın aparılmasında əsas məqsəd - qısa müddət ərzində müəssisəni böhran vəziyyətindən çıxarmaq və onun uzunmüddətli dövr üçün rəqabət qabiliyyətini bərpa etməkdir.




***Sxem 2.5.1. Sənaye müəssisələrinin restrukturizasiyasının əsas məqsədi, formaları və növləri.***



Həmin məqsədə çatmaq üçün restrukturizasiyanın – operativ, strateji, funksional və sistemli formalarından, eləcə də adaptasiya olunan, qabaqlayıcı, texniki-texnoloji, maliyyə və təşkilati növlərindən hər bir sahədə yaranan real şərait çərçivəsində istifadə ediilr. Belə forma və növlərin qısa məzmunu 2.5.1. saylı sxemdə əks etdirilmişdir.

Beynəlxalq təcrübədə qeyri-neft sektorunda fəaliyyət göstərən emal sənayesi müəssisələrində restrukturizasiya istehsalın diversifikasiyası əsasında həyata keçirilir. Bu zaman əvvəlcə investisiya strategiyası formalaşır, onun əsasında müəssisədə restrukturizasiya aparılır, istehsalın diversifikasiyasının müxtəlif metodlardan istifadə etməklə diversifikasiyanın səviyyəsi, layihənin səmərəliyi və risklərin qiymətləndirilməsi həyata keçirilir və əldə edilən gəlirin bir hissəsi investorla mülkiyyət sahibinin sərəncamına verilir. (sxem 2.5.2.)

Şərh edilən metodiki və əməli aspektlər bir daha onu göstərir ki, müəssisələrdə aparılan restrukturizasiya moda məqsədi ilə deyil, obyektiv şəraitin tələbindən irəli gələn zərurətlə həyata keçirilir.

Restrukturizasiyanı məhz müəssisənin fəaliyyətinin praktiki olaraq bütün istiqamətlərini əhatə edən dəyişikliklərin kompleks xarakterinin zəruriliyi şərtləndirir. Biznesin uğuru və səmərəliyi restrukturizasiyanın aparmasının məqsədli təşkilindən çox asılıdır.

Restrukturizasiya nəinki islahatlaşmanın ən səmərəli və böyük investisiya tələb etməyən üsulu, eləcə də müəssisənin ödəmə qabiliyyətinin yüksəldilməsi və onun ləğvindən qaçmanın yeganə üsuludur.

Normal fəaliyyət göstərən iqtisadiyyatda bütün müəssisələr dövri olaraq restrukturizasiya müraciət edirlər. Çünki xarici mühit həmişə dəyişir. Digər tərəfdən, inkişaf müəssisənin müvəffəqiyyətinin və mövcudluğunun əsas tərkib hissəsidir.




***Sxem 2.5.2. Emal sənayesi müəssisələrində istehsalın diversifikasiyası əsasında restrukturizasiya prosesinin prinsipial sxemi.***






***Sxem 2.5.3. Müəssisənin restrukturizasiyasını şərtləşdirən səbəblər əsas istiqamətlər və gözlənilən enerji effekti.***

Göründüyü kimi, müəssisənin restrukturizasiyasını şərtləndirən əsas amil bazarın istehsal olunan məhsula tələbatının olması və keyfiyyəti, müəssisənin ənənəvi xərcləri və son nəticəsi əsas götürülür. Restrukturizasiyada əsas istiqamətlər isə müəssisənin maliyyə və təşkilati restrukturizasiyası, müəssisə aktivlərinin hərəkətinin çevikliyinin təmin edilməsidir. Müəssisənin restrukturizasiyasında gözlənilən səmərə onun fayda verməyən sahələrin ləğv edilməsi, fəaliyyət dairəsinin genişləndirilməsi hesabına xərclərin azaldılması, sahibkarlıq risklərinin azaldılması və güzəştlərin tətbiqinin müəssisənin fəaliyyətinin çevik idarə edilməsinə zəmin yaratması ilə əlaqələndirilir. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (06.XII.2016) özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrin islahatının davam etdirilməi nəzərdə tutulur. Burada məqsəd əmlakdan istifadənin səmərəliliyinin artırılmaqdan və onun idarə olunmasının təkmilləşdirilməsindən ibarətdir. Aydın olur ki, restrukturizasiya müəssisənin ağır böhran vəziyyətindən çıxarılması, maliyyə vəziyyətinin sağlamlaşdırılması, xarici mühitin dəyişilməsini və yeni strategiyanın tələblərini nəzərə almaqla fəaliyyətin yenidən qurulması vasitəsidir. Müəssisənin restrukturizasiyanın aparılması zərurəti ilk növbədə, onun ağır maliyyə vəziyyəti, müəssisənin iflası, mülkiyyətinin müəyyən hissəsinin və imicinin itirilməsi təhlükəsi, istehsalın səmərəlilik səviyyəsinin və investisiya cəlbediciliyinin aşağı olması ilə əlaqədardır. Belə halların yaranması bir sıra daxili və xarici səbəblərlə izah olunur. Bunlar isə ölkə sənayesinin restrukturizasiya olunmasının zəruriliyini göstərir.



# MÖVZU 3. QEYRİ-NEFT SƏNAYESİNİN FORMALAŞMASININ ƏSAS PRİNSİPLƏRİ VƏ İNKİŞAF STRATEGİYASI

## 3.1. Qeyri-neft sənaye iqtisadiyyatı milli iqtisadiyyatın tərkib hissəsidir.

Azərbaycan Respublikası 2000-ci ildən başlayaraq, dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrilmiş və iqtisadiyyatın inkişaf səviyyəsini xarakterizə edən makro-iqtisadi göstərici – Ümumi Daxili Məhsulun həcmi 2015-ci ildə 54,4 mlrd. manata çatmışdır ki, bu da bazis ilinə görə 11,6 dəfə artım deməkdir. Həmin dövrdə onun adambaşına düşən nominal həcmi yüksələrək 5703,7 man. (5558,7 ABŞ-dolları) təşkil etmişdir (cədvəl 3.1.1.)

*Cədvəl 3.1.1.*

**Azərbaycanda Ümumi Daxili Məhsulun və onun adambaşına düşən həcmi*)**

| İllər | Cəmi | | Əhalinin hər nəfərinə düşən | | 1$=manat |
|---|---|---|---|---|---|
| | milyon manatla | milyon manatla | manatla | dollarla | |
| 2000 | 4718,1 | 5272,8 | 593,2 | 662,9 | 0,8948 |
| 2001 | 5315,6 | 5707,7 | 661,7 | 710,5 | 0,9313 |
| 2002 | 6062,5 | 6235,9 | 747,5 | 768,9 | 0,9722 |
| 2003 | 7146,5 | 7276,0 | 872,7 | 888,5 | 0,9822 |
| 2004 | 8530,2 | 8680,4 | 1030,4 | 1048,5 | 0,9827 |
| 2005 | 12522,5 | 13238,7 | 1494,3 | 1579,8 | 0,9459 |
| 2006 | 18746,2 | 20983,0 | 2208,2 | 2471,6 | 0,8934 |
| 2007 | 28360,5 | 33050,3 | 3296,6 | 3841,7 | 0,8581 |
| 2008 | 40137,2 | 48852,5 | 4603,7 | 5603,2 | 0,8216 |
| 2009 | 35601,5 | 44297,0 | 4033,2 | 5018,2 | 0,8037 |
| 2010 | 42465,0 | 52909,3 | 4753,0 | 4753,0 | 0,8026 |
| 2011 | 52082,0 | 65951,6 | 5752,9 | 5752,9 | 0,7897 |

*Cədvəl 3.1.1.-in ardı*

| | | | | | |
|---|---|---|---|---|---|
| **2012** | 54743,7 | 69683,9 | 5966,1 | 5966,1 | 0,7856 |
| **2013** | 58182,0 | 74164,4 | 6258,3 | 6258,3 | 0,7845 |
| **2014** | 58977,8 | 75188,4 | 6258,3 | 6264,1 | 0,7844 |
| **2015** | 54352,1 | 52969,6 | 5703,7 | 5703,7 | 1,0261 |

**)Azərbaycanın statistik Göstəriciləri. Bakı, "DSK", 2015, s. 382; "Sosial iqtisadi inkişaf" "Aylıq statistik bülleten" №12. Bakı, "DSK", 2015, s. 10*

ÜDM-in artmasında yüksək dönüş həddi 2005-ci ildən müşahidə edilir. Məhz sonrakı 10 ildə ÜDM-in həcmi 4,4 dəfə, onun adambaşına düşən məbləği isə 3,8 dəfə artmışdır. Bu müddət ərzində özəl sektorun sürətli inkişafı ÜDM-in qeyri-dövlət bölməsində xüsusi çəkisinin ildən-ilə artmasına təminat yaratmışdır.

Nəticədə həmin göstəricinin səviyyəsi 2005-ci ildə 77,8% -dən 2015-ci ildə 81,2%-ə çatmış və belə əsaslı dəyişiklik digər iqtisadi fəaliyyət sahələrində də təmin edilmişdir (cədvəl 3.1.2.)

*Cədvəl 3.1.2.*

**Azərbaycanda Ümumi Daxili Məhsulda qeyri-dövlət bölməsinin payı (faizlə)*)**

| Sahələr | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Ümumi daxili məhsul-cəmi | 77,8 | 81,7 | 82,5 | 81,5 | 82,5 | 81,9 | 81,2 |
| O cümlədən: Sənaye | 84,5 | 87,4 | 88,1 | 87,3 | 87,4 | 86,1 | 83,0 |
| Tikinti | 90,4 | 72,0 | 75,3 | 76,0 | 84,5 | 84,3 | 84,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 97,8 | 99,7 | 99,3 | 99,4 | 99,4 | 99,8 | 99,8 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 97,8 | 99,2 | 99,7 | 99,7 | 99,8 | 99,8 | 99,6 |



*Cədvəl 3.1.2.-in ardı*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Nəqliyyat və anbar təsərrüfatı | 37,5 | 75,3 | 78,1 | 77,7 | 77,1 | 78,5 | 81,7 |
| İnformasiya və rabitə | 80,2 | 78,6 | 76,3 | 76,6 | 76,8 | 80,0 | 81,0 |
| Sosial və sair xidmətlər | 31,8 | 47,0 | 49,4 | 49,1 | 51,5 | 55,2 | 57,8 |

**) Azərbaycanın Statistik Göstəriciləri. Bakı, "DSK", 2016, s.383.*

2000-2015-ci ildə müsbət inkişaf meyli özünü qeyri-neft sektorunda da göstərmiş, müvafiq dövr ərzində qeyri-neft ÜDM-in həcmi 6,2 dəfə artım nümayiş etdirərək, 37670 mlyn. manata çatmışdır.

2010-2015-ci illərdə qeyri-neft sənaye sektoru üzrə ÜDM-in istehsal həcmi 2 dəfə, o cümlədən emal sənayesi məhsulları (işləri, xidmətləri) 127,4%, kənd təsərrüfatı məhsulları 2,5 dəfə, tikinti məhsulları 2,1 dəfə, pərakəndə əmtəə dövriyyəsi 2 dəfə, turistlərin yerləşdirilməsi və ictimai iaşə xidməti 3,4 dəfə, elektrik enerjisi, qaz buxar istehsalı, onların bölüşdürülməsi və təchizatı 2,7 dəfə; su təchizatı, tullantıların təmizlənməsi və emalı 185,8%; informasiya və rabitə xidməti 137,5%, nəqliyyat və anbar təsərrüfatı üzrə yerinə yetirilən işlərin həcmi 117,6%, əhaliyə göstərilən bütün növ pullu xidmətlərin həcmi 158,0% artmışdır.

2014-cü ildə ölkənin qeyri-neft sektorunda 35,9 mlrd. manatlıq məhsul istehsal edilmiş, xidmətlər göstərilmiş və bütünlükdə onun 61,4%-i ticarət, nəqliyyat vasitələrin təmiri, tikinti, eləcə də sosial və digər xidmətlərin payına düşmüşdür.

Qeyri-neft sənayesinin məhsul istehsalında mədənçıxarma sənayesinin payı 1,6%, emal sənayesinin xüsusi çəkisi 69,8%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının payı 25,4%, su təchizatı, tullantıların təmizlənməsinin payı isə 3,2% təşkil etmişdir.

Artımın qeyri-neft emal sənayesi sahələri üzrə 2014-cü ildə qida məhsullarının istehsalında (1,4%), tikinti materialları-

nın istehsalında (22,2%), metallurgiya sənayesində (11,0%), kimya sənayesində (32,0%), meşə və avadanlıqların quraşdırılması və təmiri sahəsində (41,0%), içki istehsalında (8,1%), elektrik avadanlıqları istehsalında (12,1%), hazır metal məmulatlarının istehsalında (6,2%), geyim istehsalında (59,9%), sair nəqliyyat vasitələrinin istehsalında (3,4 dəfə), mebel istehsalında (8,3%), avtomobil və qoşquların istehsalında (58,2%) və s. bölmələrdə artmışdır.

Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü 3.1.1 saylı sxemdə göstərilmişdir.




***Sxem 3.1.1. Qeyri-neft sektorunda yaranan əlavə dəyərin iqtisadi fəaliyyət üzrə bölgüsü.***

Sxemdən göründüyü kimi, 2015-ci ildə qeyri-neft sektorunun əksər sahələrində, o cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (6,6%), ticarət, nəqliyyat vasitələrinin təmiri (10,9%), turistlərin yerləşdirilməsi və ictimai iaşə



(14,0%), informasiya və rabitə (6,8%), sosial və digər xidmətlər (1,7%) sahələrində yaradılan əlavə dəyərin artım sürəti əvvəlki ilin müvafiq dövrünə nisbətən yüksək olmuşdur. ÜDM-nin artımına ən böyük müsbət töhfəni ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsi (14% bəndi) vermişdir.

Qeyri-neft sektorunda baş verən müsbət dəyişiklik bütünlükdə sənaye istehsalının sahə strukturunda bir sıra dəyişikliklərin baş verməsinə şərait yaratmışdır. Bununla yanaşı əczaçılıq, rezin və plastmas məmulatları, tikinti materialları, kompüter və digər avadanlıqların, sair nəqliyyat vasitələrinin xüsusi çəkisi sabit qalmış, yalnız mebel istehsalının, zərgərlik məmulatları, musiqi alətləri, idman malları və tibb avadanlıqlarının istehsalının sənaye strukturundakı xüsusi çəkisi nisbətən azalmışdır. Bu sahələrdə baş verən nisbi geriliyin aradan qaldırılması üçün qeyri-neft sektorunda enerji və resurslara qənaət edən ekoloji təmiz texnologiyaların istehsalının stimullaşdırılması, sənayenin ayrı-ayrı sahələrinin bir-biri ilə uzlaşmış şəkildə fəaliyyət göstərməsi diqqət mərkəzində saxlanılmalıdır.

### 3.2. Qeyri-neft sənayesinin davamlı inkişafına təsir göstərən amillər.

Aparılan təhlilin nəticəsi göstərdi ki, ölkənin qeyri-neft sektorunun davamlı inkişafına və onun ixrac imkanlarının genişləndirilməsinə mənfi təsir göstərən bir sıra problemlər qalmaqdadır və onları aşağıdakı kimi təsnifləşdirmək olar:

- iqtisadiyyatda uzun müddət yanacaq-energetika sektorunun əsas aparıcı qüvvə kimi çıxış etməsi;
- qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən tədbirlərin icrasında olan ləngimələr;
- perspektivli və potensial inkişafa malik sahələrə, müəssisələrə investisiya qoyuluşlarında səmərəli və güzəştli yanaşma probleminin qalması;

- ölkədə müasir elmi və intellektual potensialın dağınıqlığı;

- bu sahədə yüksək ixtisaslı, peşəkar mütəxəssislərin, intellektual qabiliyyətli insanların hazırlanmasının aşağı səviyyəsi;

- innovasiya fəaliyyətinin inkişafını təmin edəcək tənzimləmə mexanizminin və infrastrukturun kifayət qədər inkişaf etməməsi;

- müasir keyfiyyət standartlarının tətbiqinin kifayət qədər formalaşmaması;

- regional inkişafda hələ ki, fərqlərin mövcudluğu və qeyri-neft sənaye müəssisələrinin inkişafının mərkəzə meylliyi;

- istehsal fondlarının, texnoloji avadanlığın amortizasiyasının yüksəkliyi, yeni və müasir avadanlıqların tətbiq əmsalının aşağı olması;

- məhsul istehsalında material və enerji tutumluğunun səviyyəsinin yüksəkliyi;

- idarəetmə sisteminin və menecmentin peşəkarlıq səviyyəsinin müasir tələblərə cavab verməməsi.

- qeyri-neft sektorunda əsas sahə olan qeyri-neft sənayesində olan texniki və texnoloji bazanın mütərəqqi inkişafdan geriliyi;

- qeyri-neft sənaye müəssisələrinin rəqabətqabiliyyətli, innovasiyayönümlü məhsul istehsalına meylli olmaması;

- qeyri-neft sənaye sahələrinin, müəssisələrinin ixrac potensialının xüsusi çəkisinin tədiyyə balansında, xarici ticarətdə aşağı göstəriciyə malik olması və sair problemlər.

Azərbaycanın qeyri-neft sektorunda davamlı inkişafa nail olmaq və bu sahədə mövcud problemləri aradan qaldırmaq, ayrı-ayrı sahələrin inkişafını təmin etmək üçün qeyri-neft sektoruna xarici investisiyaların fəal cəlb edilməsi, istehsalda müasir texnologiyaların istifadəsinə münbit şərait yaradılması və mütərəqqi menecment metodlarının istehsala tətbiqinin stimullaşdırılması, bazara çıxarılan məhsul və xidmətlərin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, maliyyə bazarlarına çıxış imkanlarının genişləndirilməsi, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinin maliyyə təminatının yaxşılaşdırılması, onların təşəbbüslərinin dəstəklənməsi innovasiya fəaliyyətinin genişləndirilməsi qeyri-neft sektorunda yuxarıda göstərilən problemlərin həll olunmasına təminat yarada bilər.



### 3.3. İnnovasiyalı inkişafa əsaslanan qeyri-neft sənayesinin yaradılması.

Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramının həyata keçirilməsində dövlət dəstəyini müəyyən edən prinsiplərə aşağıdakılar aid edilir:

- dövlətlə özəl sektor arasında qarşılıqlı və səmərəli əlaqənin qurulması və inkişaf etdirilməsi;
- proqramın maliyyələşmə sisteminin müəyyən edilməsi;
- təkmil infrastruktur şəbəkəsinin yaradılması;
- qeyri-neft sənaye sahələri, müəssisələri ilə elmi təşkilatlar, ali təhsil müəssisələri arasında birgə əməkdaşlıq əlaqələrinin təşkili;
- qeyri-neft sənaye sahələrində innovasiya fəaliyyətinin geniş miqyaslı fəaliyyətinə yardımın göstərilməsi;
- rəqabət mühitinin sağlamlaşdırılması.

Həmin prinsiplərə əsaslanaraq inkişaf etməkdə olan qeyri-neft sənayesi ənənəvi sahələrlə yanaşı, yeni məhsul istehsalı üzərində qurulan müasir tipli sahələrin yaranması ilə də xarakterizə olunmalıdır. Son illər həmin sferanın strukturunda aparılan keyfiyyət dəyişiklikləri artıq ölkədə həyata keçirilən sistemli iqtisadi siyasətin tərkib hissəsinə çevrilmişdir. Bu siyasətin uğurla həyata keçirilməsi isə mövcud ehtiyatlardan maksimum, lakin qənaətlə istifadə edərək, onların qeyri-neft sənayesinin tələbatlarının ödənilməsinə yönəldilməsi, köhnə istehsal

fondlarının və texnologiyalarının istehsalatdan tədriclə çıxarılması, daxili və xarici investisiyaları cəlb etməklə yeni texnoloji bazanın yaradılması prosesinin davam etdirilməsinə ehtiyac duyulur. Digər tərəfdən, xammalyönümlü iqtisadiyyatdan keçid, hasilat və emal sənayesi sahələri arasında əlaqənin gücləndirilməsi, ixracyönümlü və idxal əvəz edən genişçeşidli emal məhsulların istehsalı yaxın gələcəkdə qeyri-neft sənaye sahələrində əsas hədəflərdən birinə çevrilməlidir. Bunun üçün sənaye istehsalının inkişafında innovasiyatutumlu bazanın yaradılması, onun səmərəliliyinin yüksəldilməsinə cavab verən sahə strukturunun formalaşması prosesi təmin edilməlidir.

Azərbaycanda innovasiyalı inkişafa əsaslanan, rəqabət qabiliyyətli qeyri-neft sənayesinin formalaşması aşağıdakı tədbirlərin və istiqamətlərin icrası kontekstində mümkün olacaqdır:

- qeyri-neft sənaye sahələrinin strukturunun və texnoloji bazasının təkmilləşdirilməsi;
- qeyri-neft sənaye sahəsində texnoloji tərəqqiyə, yeni nəsil avadanlıq istehsalına yönəlmiş istiqamətliyin inkişafı;
- yeni elmtutumlu, resursaqənaətedici və bioməhsulların, nana-texnologiyaların istehsalının təşkili;
- qeyri-neft sənaye sahələrinin təkmil infrastruktur sisteminin yaradılması;
- qeyri-neft sənaye sahələrinin inkişafında innovasiyayönümlü istiqamətin aparıcılığının təmin edilməsilə, intellektual qabiliyyətli və yüksək ixtisaslı kadr heyətinin hazırlanması;
- qeyri-neft sənaye sahələrinə investisiya qoyuluşlarını stimullaşdırmaqla, yerli xammal və resurslarından rəqabətqabiliyyətli məhsul istehsalına nail olunması;
- səmərəliliyin, məhsuldarlığın və rəqabətqabiliyyətinin artırılmasına əsaslanaraq sahə strukturunun, istehsal prosesinin restrukturizasiyasının həyata keçirilməsi;
- qeyri-neft sənaye sahələri ilə digər sahələr arasında səmərəli təsərrüfat münasibətlərinin yaradılmasının sürətləndirilməsi;
- intensiv regional və texnoloji inteqrasiyanın qurulması; qeyri-sənaye sahələrinin fəaliyyətinin yeni bazarlara yönəldilməsi;
- qeyri-sənaye sahələrində ixracyönümlü məhsulların istehsalına nail olunması;
- qeyri-neft sənayesinin regional inkişafına nail olunması; qeyri-neft sənayesində ənənəvi sahələrin inkişafının təmin edilməsi, bu sahələrdə rəqabət mühitinin genişləndirilməsi;
- istehsal prosesində, məhsul istehsalında beynəlxalq standartların tətbiq edilməsi.

### 3.4. Sənaye siyasəti və qeyri-neft sektorunun inkişaf prioritetləri.

Ölkə iqtisadiyyatının dayanıqlığının və davamlılığının təmin olunması üçün iqtisadiyyat sahələrində əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliklərinin aparılması zəruridir.

Müasir şəraitdə Azərbaycanda sənaye siyasətinin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- siyasət çox uzun müddətə deyil, nisbətən orta müddətə yönəldilməlidir, yəni çox da uzun müddətli olmamalıdır;
- sənayenin inkişafında emal sənayesinin inkişafı ön planda olmalı, xüsusilə özəl biznesin inkişafı yönümlü olmalıdır;
- infrastrukturun inkişafına yönəldilməlidir;
- investisiyalari stimullaşdıran olmalıdır;
- iqtisadiyyatimizin rəqabətqabiliyyətini artırmalıdır;
- iqtisadiyyatımızı dünya iqtisadiyyatına qovuşduran, inteqrasiya etməsinə təkan verən olmalıdır.

Sənaye siyasəti işlənib hazırlanarkən xarici ölkələrin təcrübələri nəzərə alınmaqla yanaşı, bu siyasətin ölkənin milli me-

yarları və milli mənafeyi baxımından dəyərləndirilməsi aparılmalıdır. Məhz bu tələblər hazırda uğurla icra edilən "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında" nəzərə alınmışdır.

Müasir inkişaf mərhələsində hökumətin sənaye siyasətinin istiqamətləri aşağıdakılardır:

- hökumət iqtisadi fəaliyyətini özəlləşdirmə, iqtisadi islahatlar və struktur dəyişiklikləri istiqamətində təşkil edir;
- həm hasilat sənaye sahəsində, həm də emal sənaye sahəsində kiçik, daha çevik manevretmə qabiliyyətinə malik olan müəssisələrin sayını artırır, sənayedə kiçik və orta sahibkarlığı inkişaf etdirir.
- sənaye kompleksinin inkişafını təmin edə biləcək yeni, daha mütərəqqi və stimullaşdırıcı vergi, kredit, qanunvericilik siyasətini həyata keçirir;
- sənaye kompleksinin texnoloji və elmi - texniki cəhətdən yeniləşməsini təmin edə biləcək gömrük və xarici ticarət siyasətini həyata keçirir;
- daxili bazanın qorunmasını təmin edə biləcək gömrük və xarici ticarət siyasətinin həyata keçirir;
- xarici investisiyaların ölkə sənayesinə cəlb edilməsini stimullaşdırır.

Bununla yanaşı qeyri-neft sektorunun inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

- restrukturizasiya və özəlləşdirmə prosesinin sürətləndirilməsi;
- satiş bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun olan sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;
- müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- azad rəqabət mühitinin inkişaf etdirilməsi;



- investisiyalarin təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi;
- ənənəvi milli sənətkarlıq sahələrinin inkişafı;
- elmtutumlu istehsalın inkişaf etdirilməsi məqsədilə tətbiqi elmlərin, müasir şəraitdə bazar konyunkturunun tələblərinə uyğun elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi.

Ölkədə həyata keçirilmiş iqtisadi siyasətin və islahatları davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədi 2016-cı ilin dekabr ayında "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" təsdiq edilmişdir. Yol xəritəsində nəzərdə tutulmuş əsas məqsədlər aşağıdakılardan ibarət olacaqdır:

- gəlir səviyyəsini və məşğulluğu artırmaq;
- iqtisadiyyatı qeyri-neft sahələri istiqamətində diversifikasiya etmək;
- bütün iqtisadiyyatda səmərəliliyi və rəqabətliliyi artırmaq;
- cari hesab balansını davamlı şəkildə yaxşılaşdırmaq.

Yol xəritəsinin ikiqat missiyası aşağıdakı kimi müəyyənləşdirilib:

- ixrac sektorlarında rəqabətlilik və Birbaşa Xarici İnvestisiyalar;
- daxili bazarlarda səmərəliliyin artırılması və idxalın yerli istehsalla əvəzlənməsi.

Deməli, sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirilməsi, yerli resurs və xammala işləyən, ixracqabiliyyətli məhsullar istehsal edən sənaye komplekslərinin yaradılması, rəqabətdavamlı sənaye istehsalının genişləndirilməsi qeyri-neft sənayesinin əsas inkişaf prioritetləri hesab edilir.

## MÖVZU 4. MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA QEYRİ-NEFT SƏNAYESİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

### 4.1. İqtisadiyyatın və sənayenin sahə strukturunda baş verən dəyişikliklər.

Ölkə iqtisadiyyatı onun sərhədləri hüdudunda formalaşmış ictimai istehsal prosesidir. Başqa sözlə, ölkə iqtisadiyyatı onun dayanaqlığını, bütövlüyünü və dinamizmini təmin edən bir-biri ilə qarşılıqlı əlaqəli olan bölmələrin (sahələrin) və qaydaya salınmış (sistemləşdirilmiş) əlaqələrin məcmusunu əks etdirir. İqtisadiyyat özü geniş strukturaya malik bir sistemdir.

Milli iqtisadiyyatın strukturunun genişliyi onun çox istiqamətliliyinin nəticəsidir.

Odur ki, iqtisadiyyatın strukturuna aşağıdakı bloklar daxilində yanaşmaq məqsədəuyğun hesab edilir. (sxem 4.1.1.).

İqtisadiyyatın siyasi-iqtisadi strukturu -- sferalar, ərazilər, mülkiyyət növləri üzrə proporsional bölüşdürülmüş məhsuldar qüvvələrin məcmusu;

İqtisadiyyatın təşkilatı strukturu – təşkilatı və idarəetmə səviyyəsinə, mənafe səviyyəsinə, həm səviyyəsin müəyyən dərəcələri ilə müqayisədə bacarıqlarına görə milli iqtisadiyyat səviyyəsində qruplaşdırılması;

İqtisadiyyatın funksional strukturu – maddi istehsal və qeyri-maddi istehsal sferasından ibarət olmaqla, onların hər biri də müvafiq sahələrindən və bu sahələrin hər biri də müvafiq alt sahələrdən ibarətdir;

İqtisadiyyatın təkrar istehsal strukturu -- bütün təkrar istehsal dövriyyəsini əhatə edir: istehsal, bölgü, mübadilə, istehlak və bununla bağlı digər elementləri;

İqtisadiyyatın texnoloji strukturu – eyni tipli məhsul və xidmət qrupları istehsalın texnoloji bazası kimi qəbul edilir;

İqtisadiyyatın resurs strukturu - cəmiyyətin hədsiz tələbatının maksimum və daha dolğun ödənilməsi zəruriyyətinin nəticəsidir;



İqtisadiyyatın sosial strukturu - özündə müxtəlif mülkiyyət formalarına əsaslanan və onlara uyğun istehsal münasibətləri yaradan fərqli sosial - iqtisadi situasiyaları əks etdirir.

Sahə strukturu - iqtisadiyyatın müxtəlif sahələri arasında münasibətlərlə, onların ümumi milli iqtisadiyyatdakı xüsusi çəkisi ilə müəyyənləşir. Bu və ya digər sahələrə üstünlük verilməsi onların iqtisadi və texnoloji səviyyəsi və istiqamətləri əsasında müəyyənləşdirilir;

Regional struktur -- istehsal və elmi-texniki potensialın ölkə ərazisi üzrə bərabər yerləşdirilməsini, istehsal kooperasiyasının inkişafı hədlərinin müəyyənləşdirilməsini əks etdirir.

Xarici iqtisadi münasibətlər və xarici ticarət strukturu – ölkənin beynəlxalq əmək bölgüsündə mövqeyini, ixrac və idxalın xüsusiyyətlərini, kapitalın və işçı qüvvəsinin beynəlxalq hərəkətini, dünya iqtisadiyyatına inteqrasiya səviyyəsini nəzərdə tutur.

Ölkə iqtisadiyyatın sahə strukturunun formalaşmasına aşağıdakı amillər təsir göstərir:

- ayrı-ayrı sahələr arasında kəmiyyət nisbətləri;
- sahələr arasında istehsal əlaqələri;
- konkret vəziyyətdə - müəyyən dövr ərzində sahələrin fəaliyyətini xarakterizə edən uyğun göstəricilərin nisbəti.

Milli iqtisadiyyatın əsasını sənaye təşkil edir. O, iqtisadiyyatın aparıcı sahəsi olub, özünün digər sahələrdən fərqləndirən aşağıdakı xüsusiyyətləri ilə səciyyələnir:

1. Sənayenin, xüsusilə onun elektroenergetika, maşınqayırma və kimya sənayesi kimi sahələrinin inkişafı bütünlükdə iqtisadiyyatda elmi-texniki tərəqqinin sürətləndirilməsi üçün əsasdır.

2. Sənaye, xüsusilə ağır sənaye, bütün iqtisadiyyatın özülü, ölkənin bütün subyektlərinin iqtisadi inkişafının və geniş təkrar istehsalının əsasıdır.

3. Ölkənin müdafiə qabiliyyəti xeyli dərəcədə sənayenin inkişafı səviyyəsi ilə müəyyən edilir.




*Sxem 4.1.1. Milli iqtisadiyyatın strukturunu əks etdirən əsas bloklar.*



4. Ölkə vətəndaşlarının xalq istehlakı malları ilə təminatı yüngül və yeyinti sənayesinin inkişafından asılıdır.

Ölkədə sənaye istehsalının sahə strukturuna nəzər yetirdikdə aydın olur ki, təkcə 2010-2015-ci illərdə mədənçıxarma sənayesinin qeyri-neft sahələrinin xüsusi çəkisi 4,2 punkt, emal sənayesi 8,4 bənd; elektrik enerjisi, qaz, buxar istehsalının bölüşdürülməsi və təchizatı 3,1 bənd artmış, emal sənayesinin alt sahələrində də (qida məhsullarının istehsalı, kimya sənayesi, maşın və avadanlıqların quraşdırılması və təmiri və digər sahələrdə) nisbi artım təmin edilmişdir.

Son 10 (2005-2015) ildə sənaye istehsalı 2,8 dəfə, orada əsas fondların dəyəri 3,9 dəfə; əsas kapitala yönəldilən vəsaitlərin məbləği 2 dəfə, orta aylıq əmək haqqı 4,1 dəfə artmış lakin əlavə dəyərin ÜDM-də payı 15,4 bənd, investisiyaların ölkə iqtisadiyyatdakı payı 19,1 bənd azalmışdır.

Azərbaycanda sənayenin inkişafını müəyyən edən təbii ehtiyatlar, ixtisaslı kadrlar, əmək ehtiyatları, onların əmək vərdişləri və istehlakçı potensialı ölkədə kifayət qədərdir. Lakin bu imkanlardan səmərəli istifadə edilmir, son məhsul istehsal edən sənaye sahələrinin payı azdır.

Respublikada sənaye sahələrinin ərazi təşkilində də uyğunsuzluqlar çoxdur. Ölkədə istehsal edilən sənaye məhsullarının 60%-i, əsas istehsal fondlarının, 57%-i Abşeron iqtisadi rayonunda təmərküzləşir.

Ölkənin təsərrüfat sahələri, xüsusilə sənaye müəssisələri müxtəlif təbii və sosial-iqtisadi amillərin təsiri ilə formalaşmış sənaye qovşaqlarında təmərküzləşir. Bakı-Sumqayıt, Gəncə-Daşkəsən, Şirvan-Salyan, Mingəçevir-Yevlax, Göyçay, Naxçıvan, Lənkəran, Şəki, Xaçmaz respublikada olan əsas sənaye qovşaqlarıdır.

Bu uyğunsuzluqlara baxmayaraq, sənaye inkişaf edir. Bununla belə, emal sənayesinin bir çox alt sahələrində istehsalın texniki – texnoloji səviyyəsinin aşağı olması orada rəqabət qabiliyyətli məhsul istehsalına mənfi təsir göstərir. Nəticədə, beynəlxalq standartlara tam cavab verməyən məhsulların bir

qismi satılmır.

Deməli, qarşıdakı dövrlərdə başlıca hədəf ölkə sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün daha təsirli təşkilati – texniki, iqtisadi, innovativ tədbirlərin həyata keçirilməsinə istiqamətlənməlidir.

## 4.2. Milli iqtisadiyyatın investisiya təminatı.

Ölkənin iqtisadi inkişafını, onun rəqabətqabiliyyətini və dünya ölkələrində inteqrasiyanı xarakterizə edən əsas göstəricilərdən biri də ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmidir. İnvestisiya fəaliyyəti ölkədə ümumi sosial-iqtisadi şəraitin yüksəlməsinə, əlavə iş yerlərinin açılmasına, yeni texnologiyaların tətbiq edilməsinə və öz töhfəsini verir. İnvestisiya latın sözü "nəyəsə kapital sərf etmək" anlamına gəlir. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan respublikasının qanununda investisiyaya gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan obyektlərdə investisiya müxtəlif formalarda həyata keçirilir və ayrı-ayrı cəhətlərinə görə fərqləndirilir.

Portfel (maliyyə) investisiya – vəsaitin səhmlərə, istiqrazlara və digər qiymətli kağızlara, başqa müəssisələrin aktivlərinə yerləşdirilən qoyuluşlardır. Qiymətli kağızlar isə pay (səhmlər) və borc (istiqrazlar) və s. formada olurlar.

Portfel (maliyyə) investisiya həyata keçirilərkən investor divident, yəni qiymətli kağızlara gəlir əldə etməklə, öz maliyyə kapitalını artırır.

Real investisiya (kapital qoyuluşu) – material və qeyri-material aktivlərə pulun avans edilməsidir. Real (birbaşa) investisiya – yeni müəssisələrin yaradılmasına, fəaliyyətdə olan müəssisələrin yenidən qurulmasına, texnika ilə yenidən silahlanmasına qoyuluşlardır.






*Sxem 4.2.1. İnvestisiyanın mahiyyəti və ayrı-ayrı cəhətlərinə görə təsnifatı.*

Birbaşa investisiya – pul vəsaiti qoymaq üçün obyektin seçilməsində investorun bilavasitə iştirakını nəzərdə tutur.

Dolayı investisiya-maliyyə vasitəçiləri vasitəsilə - kommersiya bankları, investisiya kompaniyaları və fondları və s. həyata keçirilir.

Xüsusi investisiya – qeyri-dövlət mülkiyyətli hüquqi şəxslərin və vətəndaşların sahibkarlıq fəaliyyəti obyektlərinə vəsait qoyuluşunu ifadə edir.

Dövlət investisiyası - dövlət, unitar və bələdiyyə müəssisələri və habelə ayrı-ayrı büdcələrin və büdcədənkənar fondların kapital qoyuluşunu ifadə edir.

Risksiz investisiya – investisiyanın elə obyektlərə qoyuluşunu xarakterizə edir ki, gözlənilən gəlir və kapitala real risk yoxdur və praktiki olaraq real mənfəət götürülməsi təmin edilməlidir;

Aşağı riskli investisiya elə obyektlərə kapital qoyuluşunu xarakterizə edir ki, burada risk orta bazar səviyyəsindən aşağıdır;

Orta riskli investisiya kapitalın elə obyektlərə qoyuluşunu ifadə edir ki, bu halda risk orta bazar səviyyəsinə uyğun gəlir;

İnvestisiya fəaliyyətinin obyektləri kimi aşağıdakılar qəbul edilir:

Yüksək riskli investisiya onunla müəyyən edilir ki, həmin qrupun obyekti üzrə risk adətən orta bazar səviyyəsindən yüksəkdir.

- qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.);
- iqtisadiyyatin bütün sahələrində yeni yaradılan və modernləşdirilən əsas fondlar və dövriyyə vəsaiti;
- məqsədli pul əmanətləri;
- elmi-texniki məhsul və mülkiyyətin digər obyektləri;
- əmlak hüququ və intellektual mülkiyyət hüququ.

Bazar iqtisadiyyatı modelini özünə inkişaf yolu seçmiş



müstəqil Azərbaycanın iqtisadi siyasətinin geniş miqyaslı islahatlar çərçivəsində həyata keçirilməsinin bazasını 1994-cü ildə formalaşan "neft strategiyası" təşkil etmiş və onun uğurla həyata keçirilməsi beynəlxalq əməkdaşlığın genişlənməsinə əsaslı təkan vermiş və 1995-2015-ci illərdə ölkə iqtisadiyyatına müxtəlif mənbələrdən 220 mlrd. dollar həcmində investisiya yönəldilmişdir ki, onun da 47,4% xarici investisiyalardır. Həmin dövrdə müxtəlif sosial – iqtisadi layihələrin, proqramların icrasına 26510 mlyn. dollar maliyyə kreditləri ayrılmış, istehsalın texniki səviyyəsinin yüksəldilməsinə isə 121 mlrd. daxili investisiya sərf edilmişdir.

Ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyanın həcmi də ildən-ilə artmışdır. Bu prosesdə dünyanın inkişaf etmiş ölkələrinin aparıcı şirkətləri – xarici və müştərək müəssisə statusunda yaxından iştirak edirlər. Azərbaycanın müxtəlif iqtisadi fəaliyyət sahələrində - Türkiyə, ABŞ, Böyük Britaniya, BƏƏ, Niderland, İsveçrə, Almaniya, Rusiya, Fransa və başqa ölkələri təmsil edən müştərək müəssisələr investisiya yatırımı baxımdan daha fəaldırlar.

### 4.3. Qeyri-neft sənayesinin investisiya təminatının yaxşılaşdırılması əsasında inkişaf etdirilməsi.

Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə işlənilən və həyata keçirilən regional və sahə proqramları, milli iqtisadiyyatın əsas sektorları üzrə tərtib edilən strateji yol xəritəsi ən azı 2020-ci ilə qədər qeyri-neft sənayesində aşağıdakı inkişaf hədəflərinin icrasına təminat yaradacaqdır:

- qeyri-neft ÜDM-nin həcminin iki dəfədən çox artırılması;
- qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 dollara çatdırılması;
- qeyri-neft sənayesi üzrə ÜDM-in orta illik real artım sürətinin 7%-dən çox yüksəldilməsi;

- qeyri-neft sənayesində davamlı artım sürətinin təmin edilməsi, bu sahələrə investisiya yatırımlarının iki dəfəyə yaxın artırılması;

- qeyri-neft sənayesində inkişaf potensialının yüksəldilməsi, bu sahələrdə innovasiyayönümlü məhsul istehsalının genişləndirilməsi;

- qeyri-neft sənayesində çoxsahəli, innovasiyayönümlü güclü strukturun yaradılması.

Buna nail olmaq üçün ilk növbədə qeyri-neft sənaye sahələrinin investisiya təminatı əsaslı şəkildə yaxşılaşdırılmalıdır. Lakin 2010-2015-ci illərdə dövrdə qeyri-neft sənayesinə cəmi 4588 mlyn. man. investisiya qoyulmuşdur ki, bu da bütün sənaye üzrə eyni təyinatlı vəsaitin 11,7%-ni təşkil etmiş neft sektoruna yönəkdilən həmin vəsaitin həcmi 2,4 dəfə, qeyri-neft sektorunda isə-127% artmışdır.

*Cədvəl 4.3.2.*

**Qeyri-neft sənaye əsas istehsal fondlarının aşınma səviyyəsi*) (faizlə).**

| Sahələr | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Sənaye-cəmi | 34,0 | 38,3 | 31,8 | 30,8 | 30,7 | 31,3 |
| Mədənçıxarma sənayesinin qeyri-neft sferaları | 63,5 | 53,7 | 50,2 | 51,8 | 50,6 | 49,3 |
| Emal sənayesi | 56,9 | 54,8 | 53,7 | 54,1 | 46,8 | 57,1 |
| Elektrik enerjisi, qaz, buxar istehsalı, onların bölüşdürülməsi və təchizatı | 33,8 | 41,3 | 24,4 | 18,6 | 20,3 | 34,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 43,1 | 47,0 | 47,3 | 43,4 | 55,3 | 41,9 |

**) Azərbaycanın sənayesi. Bakı, "DSK", 2016, s. 85,86.*



Bütün bunların nəticəsidir ki, qeyri-neft sənaye sahələrində əsas istehsal fondlarının aşınma dərəcəsi hələ də yüksək olaraq qalır. (cədvəl 4.3.2.). Emal sənayesinin ayrı-ayrı alt sahələrində ƏİF-in aşınma dərəcəsi daha yüksəkdir. Məsələn, metal məmulatlarının istehsalı müəssisələrində ƏİF-in aşınma səviyyəsi 2015-ci ildə 71,1%, sair nəqliyyat vasitələrinin istehsalında 67,3%; qida məhsulları istehsalında 60,7%; ağac emalı və ağacdan məmulatların istehsalı üzrə 64,6%; neft emalı zavodlarında 65,1%; kimya sənayesində 54,6%, içki istehsalında 55,9%; geyim istehsalında 53,6% təşkil etmişdir.

İstehsalın texniki səviyyəsinin aşağı olması ixracyönümlü emal məhsullarının istehsalına da mənfi təsir göstərir.

İxracın strukturunda neft, qaz və neft məhsullarının xüsusi çəkisi 92%-dən yuxarıdır. İdxalın strukturunda 26,7%-ni maşın, mexanizm, elektrik avadanlıqları və onların hissələri; 17,2%-ni qarametal və onlardan hazırlanan məmulatlar; 10,6%-ni ərzaq məhsulları; 3,0%-ni əczaçılıq məhsulları və digər –mebel, sement, plastik kütlə, nəqliyyat vasitələri və onların hissələri - məhsullar təşkil edir.

Bütün bu faktlar qeyri-neft sənaye sektorunun investisiya təminatını aşağıdakı şəkildə yaxşılaşdırılmasını tələb edir:

- istehsal avadanlığının yüksək mənəvi və fiziki aşınmasının aradan qaldırılması;

- qeyri-neft sənayesində məhsulun rəqabətqabiliyyətliyinin və investisiya fəallığının artırılması;

- potensial satış bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun sənaye müəssisələrinin fəaliyyətinin bərpası;

- müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;

- yeni obyektlərin yaradılması və müasir tələblərə uyğun qurularaq fəaliyyət sahələrinin, yaxud mövcud sexlərinin genişləndirilməsi;

- istehsalın texniki-iqtisadi səviyyəsini yüksəltməklə müəssisənin və ya ayrı-ayrı struktur bölmələrin, sexlərin texniki-texnoloji cəhətdən silahlandırılması;

- qeyri-neft sənayesinin sürətli inkişafının təmin edilməsi;

- emal fəaliyyət növlərinin stimullaşdırılması;

- müəssisənin dövriyyə vəsaitlərinin investisiya təminatı;

- yeni və orijinal məhsulların istehsalı və mövcud məhsulların modernləşdirilməsi;

- intellektual dəyərlərin inkişaf etdirilməsi və sair zəruri tədbirlərə. Onların icrası nəticə etibarı ilə qeyri-neft sənayesinə daxil olan ənənəvi sahələrin (kimya, maşınqayırma, metallurgiya, yüngül, yeyinti və s.) maddi-texniki bazasının təkmilləşdirilməsinə, onların rəqabətyönümlü məhsul istehsal etməsinə, infrastruktur sisteminin təkmilləşdirilməsinə təminat yaradacaqdır.

### 4.4. Qeyri-neft sənaye sahələrinin ixrac potensialından səmərəli istifadə olunması.

Dünya təsərrüfat sisteminin qloballaşması şəraitində beynəlxalq əmək bölgüsünün dərinləşməsi prosesləri intensivləşməkdədir. Belə bir şəraitdə milli iqtisadiyyatların inkişaf etdirilməsinin optimal modelləşdirilməsi, milli iqtisadi maraqların qorunması, iqtisadiyyatın diversifikasiyalaşdırılması, bütövlükdə milli iqtisadiyyatın xammal və təbii resurslardan asılılıq amillərinin azaldılması kimi prioritet vəzifələri ortaya çıxır. Şübhəsiz, bu məsələlərdə dövlətin iştirakı, müdaxiləsi və iqtisadi siyasətinin formalaşdırılması prosesləri mühüm əhəmiyyət kəsb edir. Bununla belə, ixracın həvəsləndirilməsi və ixrac potensialının artırılması dövlətin tənzimləmə alətləri vasitəsilə elə təşkil edilməlidir ki, xarici ticarət dövriyyəsi real milli ehtiyatlar və potensial əsasında formalaşsın və səmərəli nəticələr əldə edilsin.



İxracdan səmərəli istifadə ilə əlaqədar Nobel mükafatı laureatı, rus əsilli ABŞ iqtisadçı Vasiliy Leontyev "Leontyev effekt" elmi əsərində bildirir ki, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr əlavə əmək sərfi tələb edən xammal və yarımfabrikatları idxal etməli, bunun əvəzində isə əməktutumlu hazır məhsulları ixrac etməlidir.

"Azərbaycan 2020: gələcəyə baxış "İnkişaf Konsepsiyasında"... ölkənin regionun ticarət mərkəzinə çevrilməsi, qeyri-neft sektoru üzrə adambaşına düşən ixracın məbləğinin 1000 ABŞ dollarına çatdırılması" prioritet istiqamət kimi göstərilmişdir. Konsepsiyada nəzərdə tutulan prioritetlərin icrası kontekstində "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"-nda əsas istiqamətlərdən biri kimi sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması istiqamətində təsirli tədbirlərin həyata keçirilməsi qeyd edilmişdir.

Bütünlükdə, ixrac potensialının tənzimlənməsində bir sıra metodlardan və nizamlama alətlərindən (elementlərindən) istifadə edilir. Onların təsnifatı 4.4.1. saylı cədvəldə verilmişdir.

Cədvəl 4.4.1. göründüyü kimi ixrac potensialının tənzimlənməsi nəzəri baxımından müxtəlif metodları, çoxfunksiyalı mexanizmləri mövcuddur və dövlətin əsas vəzifəsi ölkənin iqtisadi inkişaf və ixrac konsepsiyasına adekvat olaraq, qeyri-neft sektorunun ixrac potensialının optimal tənzimlənməsi siyasətini formalaşdırmaq, onun praktiki reallaşdırılması mexanizmlərini hazırlamaq və həyata keçirməkdən ibarətdir. İxrac potensialının artırılmasında xarici ticarətin liberallaşdırılması vacib şərtdir və bu məsələ suverenliyimizin ilk illərində öz həllini tapmışdır. Bununla belə, ixracın tənzimlənməsində təşkilati və maliyyə-kredit metodlarına da üstünlük verilməlidir.

*Cədvəl 4.4.1.*

**İxrac potensialının tənzimlənməsi mexanizminin metodları və nizamlaması elementləri.**

| Metodları | Nizamlama elementləri |
|---|---|
| Hüquqi | Qanunlar |
| | Normativ aktlar |
| | Dövlət proqramları |
| | Konsepsiyalar |
| | Strategiyalar |
| İnzibati | Kvotalar |
| | Lisenziyalaşdırma |
| İqtisadi | İxrac strukturunun inkişafı |
| | Vergi güzəştləri |
| | İxrac-ticarət zonalar |
| | İxrac-sənaye məhəlləri |
| Birbaşa | İxracatçıların rüsumdan azad edilməsi |
| | İxracın güzəştli kreditləşdirilməsi |
| | Dövlət sifarişi |
| Dolayı | Vergi dərəcələri |
| | Gömrük rüsumları |
| | Kredit-pul amili |

İxrac potensialının tənzimlənməsində "iqtisadiyyatın açıldığı" səviyyəsi də az əhəmiyyət kəsb etmir. Əgər ölkənin xarici ticarət dövriyyəsinin məcmusu Ümumi Daxili Məhsulun (ÜDM) ümumi həcminin 25%-i və yaxud ondan yuxarıdırsa, bu halda ölkə iqtisadiyyatını "açıq iqtisadiyyat" hesab etmək olar. Azərbaycanda ÜDM-in tərkibində xarici ticarət dövriyyəsi 2000-2015-ci illərin məlumatlarına görə orta hesabla 61,5% təşkil edir. Bu fakt ölkədə "açıq iqtisadiyyat"ın mövcud olduğunu sübut edir.

"Açıq iqtisadiyyat"ın ən mühüm göstəricilərdən biri də ixrac kvotasıdır.



Azərbaycanda qeyd edilən illər ərzində ixrac kvotasının səviyyəsi orta hesabla 41,6% təşkil edir ki, bu da beynəlxalq təcrübədə nəzərdə tutulan səviyyədən 1,7 dəfə yüksəkdir.

Qeyri-neft sənaye müəssisələrinin ixrac potensialını qiymətləndirərkən, sistemli yanaşmaya üstünlük verilməlidir. Bu zaman idarəetmənin mütərəqqi metodlarından və real informasiyadan istifadə etməklə müəssisənin maliyyə vəziyyəti, əmək, istehsal, elmi potensialından istifadənin səviyyəsi, əsas fondların yenilik dərəcəsi qiymətləndirilməli, eləcə də xarici amillərin təsiri nəzərə alınmalıdır. (sxem 4.4.1.).




***Sxem 4.4.1. Sənaye müəssisələrinin ixrac potensialının qiymətləndirilməsinin prinsipial modeli.***

Milli iqtisadiyyatın inkişafı ilə real iqtisadi fəaliyyət sahələrinin ixrac potensialından səmərəli istifadə arasında birbaşa asılılıq mövcuddur. Odur ki, qeyri-neft sənaye sektorunun inkişafının sürətləndirilməsi prioritetlərinin müəyyən edilməsi vacibdir. Bu proseslərdə bir sıra tənzimləmə metodlarından və mexanizmlərdən investisiya, pul-kredit, büdcə, valyuta rıçaqları, vergi və sair alətlərdən daha fəal istifadə edilməli, qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsində müvafiq inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi mühüm rol oynayacaqdır.

Həmin tədbirlər ilk növbədə sahənin investisiya təminatının əsaslı şəkildə yaxşılaşdırılması hesabına innovasiya prosesinin səmərəli təşkilinin aşağıdakı istiqamətlərinə söykənməlidir:

- orta və iri ölçülü emal sənayesi müəssisələrinin ən azı 50%-i daxili və xarici investisiyalar cəlb etməklə yenidən qurulmalı;
- qeyri-neft sənaye sektorunun alt sahələri üzrə uzunmüddətli dövrü əhatə edən innovasiya proqramının işlənilməsi və həyata keçirilməsi;
- alt sahələrin müəssisələrdə məqsədli innovasiya layihələri həyata keçirməklə yeni növ məhsul istehsalı mənimsəməli və onların ixracına təminat yaradılmalı;
- innovasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə mövcud idarəetmə strukturu əsaslı şəkildə təkmilləşdirməli;
- məhsulun keyfiyyəti menecmenti sisteminin tətbiqi nəticəsində xammal, material, enerji resurslarına qənaət edilməli, sertifikatlaşdırma prosesi intensiv xarakter müstəvisinə keçirilməli;
- rəqabət qabiliyyətin yüksəldilməsi məqsədilə məhsulun keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və istehsal edilən məhsulun nomenklaturasının diversifikasiyası olunması.



### 4.5. Qeyri-neft sənaye sektorunda biznes mühitinin yaxşılaşdırılması.

Azərbaycanda həyata keçirilən düşünülmüş gələcək sürətli inkişafa hədəflənən iqtisadi siyasət biznes mühitinin sağlamlaşdırılmasına, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılması yönəlmişdir.

Son illərdə ölkədə bürokratik maneələrin və sahibkarlığın inkişafına mane olan neqativ halların aradan qaldırılması dövlət tərəfindən mühüm addımlar atılmışdır. Belə ki, ölkə prezidentinin "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 25 oktyabr 2007-ci il tarixli sərəncamına əsasən ölkədə biznesə başlama proseduralarının sadələşdirən "bir pəncərə" prinsipi tətbiq edilmişdir. Hazırda "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyidir. "Bir pəncərə" prinsipinə əsasən biznes subyektlərinin dövlət qeydiyyatından keçirilməsi müddəti əvvəllər olduğu kimi ən azı 30 gün deyil, 3 gün müəyyən edılmiş və tələb olunan prosedurların sayı 15-dən 5-ə qədər azaldılmışdır.

"Azərbaycan Respublikası dövlət sərhədinin buraxılışı məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi mal və nəqliyyat vasitələrinə "icazə" blanklarının verilməsi də öz müsbət nəticəni verməkdədir.

Son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşmış, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artmış bir sıra inkişaf institutları yaradılmışdır. Bunlardan biri Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Pre-

zidentinin 7 oktyabr 2009-cu il tarixli fərmanı ilə Fondunun vəsaitlərinin istifadəsi qaydaları təkmilləşdirilmişdir. Bu fərmana əsasən kreditlərin minimal həcmi 10 min manata, maksimal həcmi isə 5 mln. manata qədər artırılmış, kreditin verilməsi mexanizmini təkmilləşdirilmiş, kreditin verilməsi haqqında qərarın qəbulu üçün lazım olan müddət 35 gündən 20 günə qədər azaldılmışdır. Hazırda Fond sahibkarlıq subyektlərinə 10000 manatdan 50000 manatadək - kiçik həcmli kreditlər, 50001 manatdan 250000 manatadək - orta həcmli kreditlər, 250001 manatdan 1000000 manatadək - böyük həcmli kreditlər, 1000001 manatdan 5000000 manatadək – iri həcmli kreditlər verir. Adı çəkilən Milli Fond tərəfindən verilən kreditlərin müddəti və faiz dərəcələri əsaslı şəkildə azaldılmışdır. Belə ki, həmin Fond tərəfindən ayrılan kiçik həcmli kreditlər üçün 2 ilədək, orta həcmli kreditlər 3 ilədək, böyük həcmli kreditlər 5 ilədək, iri həcmli kreditlər 7 ilədək verilir. İnvestisiya layihələrinin maliyyələşdirilməsi üçün verilən kreditlərin illik faiz dərəcəsinin ən yüksək həddi 6 faizə bərabərdir. Bu da ölkədə kommersiya banklarının verdiyi kreditlərin faiz dərəcəsindən ən azı 3 dəfə azdır. Araşdırmalar göstərir ki, adı çəkilən Milli Fond tərəfindən təkcə 2010-2015-ci illərdə 20,7 mindən çox investisiya layihəsinin maliyyələşdirilməsi məqsədilə 1289,5 mlyn. man. vəsait ayrılmışdır (cədvəl 4.5.1.).

Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi və yeni müəssisələrin yaradılması istiqamətində fəaliyyət göstərən inkişaf institutları içərisində Azərbaycan İnvestisiya Şirkətinin İxracın və İnvestisiyaların Təşviqi Fondunun rolu danılmazdır. Məhz onlar ölkə sahibkarların ixrac potensialının artırılmasında investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir.



*Cədvəl 4.5.1.*

**Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyələşdirilən investisiya layihələri**

| İllər | Maliyyələşdirilən investisiya sayı | İnvestisiya layihəsinin maliyyələşdirilməsinə yönəldilən güzəştli kredit, mlyn. man |
|---|---|---|
| 2010 | 1430 | 115.0 |
| 2011 | 1643 | 138.0 |
| 2012 | 2400 | 218.0 |
| 2013 | 4468 | 275.0 |
| 2014 | 5560 | 295.0 |
| 2015 | 5243 | 248.5 |
| **2010-2015-ci illərdə cəmi** | **20744** | **1289.5** |

Bütün bu nailiyyətlərə baxmayaraq hər il ölkə üzrə ləğv edilən bütün müəssisələrin təxminən 80%-ni xüsusi mülkiyyətdə olan sahibkarlıq subyektləri təşkil edir. Onların böyük əksəriyyəti investisiya qıtlığı səbəbindən inkişaf edə bilmir, rəqabətə davam gətirmədən fəaliyyətlərinə xitam verirlər. Odur ki, yaxın gələcəkdə qarşıda duran əsas məsələ biznes fəaliyyəti üçün əlverişli investisiya mühitinin yaradılmasıdır. Həmin mühit aşağıdakı bir sıra amillərin təsiri altında formalaşacaqdır:

- biznes fəaliyyətinin mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi;
- biznes fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi, prosesinin davam etdirilməsi;
- biznes inkişafına imkan güzəştli vergi, gömrük, kredit dərəcələrinin tətbiq edilməsi;
- dövlət və xüsusi bölmə tərəfindən biznesin inkişafına yönəldilən maliyyə vəsaitlərinin artırılması;

- biznes subyektlərinin xarici iqtisadi fəaliyyətinin inkişafına dair təsirli tədbirlərin həyata keçirilməsi;

- biznes innovasiya infrastrukturunun formalaşması və onun səmərəli fəaliyyəti üçün münbit şəraitin yaradılması;

- ölkədə adambaşına ümumi daxili məhsulun həcmi ilə müəyyən olunan daxili bazarın həcmi və bu bazarın həcminin artım sürətinin yüksəldilməsi hesabına daha böyük həcmdə investisiya cəlb edilməsi;

- stabil valyuta məzənnəsi və inflyasiyanın aşağı sürəti xarici investisiyanın cəlb edilməsində əhəmiyyətli rol oynayacaqdır;

- informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə imkanlarının genişləndirilməsi.

"Azəraycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (06.XII.2016) göstərilir ki, hazırda dünyada gedən siyasi və iqtisadi proseslər ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri – neft sənayesinin inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək kimi prioritetlərin ön plana çəkilməsini zəruri edir. Yol Xəritəsində 4 strateji məqsədin həyata keçirilməsi: 1) qlobal mühit və neft qiymətlərinin dəyişkənliyi maliyyə dayanıqlığının gücləndirilməsi, təbii ehtiyatlardan əldə edilən gəlirlərdən səmərəli istifadə, 2) özəlləşdirmə və dövlət müəssisələrində islahatlar aparılması, 3) insan kapitalının inkişafının sürətləndirilməsi və 4) biznes mühitinin daha da yaxşılaşdırılması nəzərdə tutulur. Bütün bunlar təkmilləşdirilmiş idarəetmə əsasında makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, tarazlaşdırılmış regional inkişafı təmin etmək və biznes mühitini yaxşılaşdırmaq əsasında mümkün olacaqdır.



# MÖVZU 5. MAŞINQAYIRMA VƏ ELEKTROTEXNİKA SƏNAYESİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

## 5.1. Maşınqayırma sənayesinin strukturu və təkamül yolu ilə inkişafı.

Maşınqayırma ağır sənaye kompleksi olub xalq təsərrüfatı üçün əmək alətləri, istehlak predmetləri və müdafiə xarakterli məhsullar istehsal edən bir sahədir. Maşınqayırma ümumilikdə xalq təsərrüfatının texniki təminat bazası olaraq istehsalatda əmək məhsuldarlığını yüksəltməklə, insanların maddi rifahının yaxşılaşmasına və dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xidmət edir. Maşınqayırmanın əsas sahələri – dəzgahqayırma, cihazqayırma, traktor və avtomobilqayırma, gəmiqayırma, təyyarəqayırma, kənd təsərrüfatı maşınqayırması, elektrotexnika, radiotexnika və avtomatika avadanlıqların hazırlanmasıdır.

Dünyada ilk dəfə 1848-ci ildə neftin sənaye üsulu ilə hasilatına başlanması ilk metal emalı zavodunun tikintisini (1858-ci il) şərtləşdirmişdir.

Deməli maşınqayırma sənayesinin inkişafı Azərbaycanda neftçıxarma sənayesinin XIX əsrin sonlarında və XX əsrin əvvəllərində olan inkişafı ilə üzvi sürətə bağlıdır. Xaricdən idxal edilmiş avadanlıq sonrakı dövrlərdə Nobel qardaşlarının, Rotşildin, Tağıyevin, Muxtarovun, Benkendorfun emalatxanalarında təmir olunurdu. Bu emalatxanalar gələcək maşınqayırma zavodlarının əsasının təşkil etmişdir.

XIX əsrin 2-ci yarısında Bakıda neftayırma zavodlarının istifadəyə verilməsi sonrakı illərdə neft-kimya sənayesinin və gəmiqayırmanın inkişafı ilə əlaqədar bu sahələrə xidmət göstərən maşınqayırma və metal emalı müəssisələrinin yaradılması və inkişafına təkan vermişdir. Artıq 1913-cü ilədək Bakı və

onun ətrafında 12 maşınqayırma zavodu, Birinci dünya müharibəsi başlanmazdan əvvəl isə 127 mexaniki, metal emalı müəssisələri fəaliyyət göstərmiş və orada 8 min nəfərdən çox fəhlə çalışırdı.

İkinci dünya müharibəsi illərində, yəni 1939-1945-ci illərdə keçmiş SSRİ-nin bir çox sənaye şəhərlərindən Bakıya köçürülən maşınqayırma zavodlarında əsasən döyüş sursatı, silah və hərbi texnika üçün ehtiyat hissələri istehsal edilirdi. Həmin illərdə Azərbaycanın maşınqayırma müəssisələrinin istehsal güclərinin 95%-i hərbi texnika və döyüş sursatlarının istehsalına yönəldilmişdir.

Maşınqayırmanın aparıcı sahəsi kimi respublikanın neft maşınqayırması yüksək dərəcədə ixtisaslaşdırılmış istehsal kompleksi kimi çıxış edirdi. Burada ümumi metallurgiya, tökmə və metiz bazasına malik olan bir sıra iri zavodlar cəmləşmişdir. Sonrakı dövrlərdə keçmiş Sovetlər İttifaqının neftçıxarma sənayesinin 70%-ə qədər avadanlığının Azərbaycanın neftmaşınqayırma sənayesi tərəfindən istehsal olunması bu sürətli inkişafdan xəbər verirdi.

İttifaq dövründə maşınqayırma kompleksinin iri müəssisələrinin əsas məhsullar kimi neft-mədən avadanlıqları, elektrik mühərrikləri (400 min ədəd), güc transformatorları (2500 ədəd), lüminiset elektrik lampaları (15 min ədəd), elektrotermik (100 min evt.) və elektroqaynaq (15 mln. ədəd) avadanlıqları, alçaq və yüksək gərginlikli aparatlar, avtobus və yük avtomobilləri (3000 ədəd), hava soyuducuları (400 min ədəd), elektrik və qaz qızdırıcıları, mətbəx maşınları (25 min ədəd) və s. göstərmək olar.

Azərbaycanın maşınqayırma sənayesi 150-ilə yaxın bir dövrdə tarixi inkişaf yolu keçmiş və onun idarəetmə strukturu dəfələrlə dəyişmişdir.



## 5.2. Neft maşınqayırma sənayesinin formalaşması və inkişafı.

İlk dəfə 1935-ci ildə Azərbaycanda neft-qaz maşınqayırma sənayesi birliyi yaradılmış və sonradan neft-mədən avadanlıqlarının və alətlərinin istehsalı və təmiri müəssisələrin birləşdirilməsi əsasında Ümumittifaq Neftmaşınqayırma Tresti "Azneftmaş" yaradıldı və bu da sonralar Ümumittifaq Sənaye Birliyi (ÜSB) "Soyuzneftmaş"a, daha sonra isə "Azneftkimyamaş" Dövlət Şirkətinə çevrildi.

Suverenlik illərində ölkə iqtisadiyyatında aparılan struktur dəyişiklikləri həmin sahədə də öz əksini tapmışdır. Belə ki, Dövlət Mülkiyyətinin özəlləşdirilməsinin İkinci Dövlət Proqramına uyğun olaraq 2001-ci ilin mart ayında ölkə Prezidentinin müvafiq sərəncamı ilə "Azneftkimyamaş" Dövlət Şirkətinin bazasında eyniadlı Açıq Səhmdar Cəmiyyəti yaradıldı. Bununla Azərbaycanın Neft Maşınqayırma Sənayesi yeni bir mərhələyə qədəm qoydu. Cəmiyyətin müəssisələrində hazırda 127 çeşiddə, 620-dən artıq tip-ölçüdə geoloji-kəşfiyyat, qazma, neftçıxarma, quyuların təmiri və mədənlərin abadlaşdırılması üçün maşın və avadanlıqlar, alətlər və ehtiyat hissələri, habelə kimya sənayesi, kənd təsərrüfatı və digər sahələr üçün müxtəlif məhsullar istehsal edilir.

Son illər Azərbaycanda həyata keçirilən sənaye siyasətinə uyğun həmin ASC-nin tərkibində uzun illər fəaliyyət göstərən, lakin texniki-texnoloji cəhətdən köhnəlmiş və Bakı şəhərinin mərkəzində ekoloji təhlükə yaradan və böyük ərazini əhatə edən, bir çox neft maşınqayırma zavodları ləğv edilmiş və onların yararlı əmlakı və istehsal funksiyaları digər zavodlara həvalə olunmuşdur. Hazırda "Azneftkimyamaş" ASC-nin tərkibində 9 Törəmə maşınqayırma SC və 4 Sahə İnstitutu fəaliyyət

göstərir.

Həmin müəssisə və təşkilatlar İSO 9001-2000 sertifikatının tələblərinə uyğun olaraq istehsal edilən avadanlığın keyfiyyətinin idarə edilməsi menecmentini müvəffəqiyyətlə həyata keçirir. Eyni zamanda neft-qaz avadanlıqlarının böyük qismi Amerika Neft İnstitutunun (APİ) spesifikasiyalarına uyğun istehsal edilir.

Neft maşınqayırma sənayesinin investisiya təminatının aşağı olması istehsalın texniki səviyyəsinin yüksək keyfiyyətli və yeni çeşidli məhsul istehsalına imkan verməməsi, istehsalın diversifikasiyasının ləng həyata keçirilməsi ayrı-ayrı törəmə SC-lərdə məhsulun istehsal həcminə, satışına və ixracına mənfi təsir göstərir.

"Azneftkimyamaş" ASC üzrə istehsal edilən məhsulun daxili və xarici bazarda satışına qiymət verərkən aydın olur ki, ayrı-ayrı illər ərzində onların 59,5%-dən 81,7%-ə qədəri – SOCAR-a 7,4%-dən 18,4%-ə qədəri – isə əksəriyyəti MDB dövlətləri (Rusiya, Ukrayna, Qazaxıstan, Türkmənistan və Özbəkistan) olmaqla xarici ölkələrə ixrac edilir (cədvəl 5.2.1.).

Hazırda Azərbaycan ərazisində ümumi maşınqayırma sənayesinə aid edilən bir sıra müəssisələr Müdafiə Sənayesi Nazirliyinin tərkibindədir. Onlar istehsal etdikləri müdafiə təyinatlı 370 adda məhsul öz keyfiyyəti ilə fərqlənir. Xarici – iqtisadi fəaliyyətin genişləndirilməsi kontekstində ölkə ərazisində müştərək mülkiyyətə malik bir sıra yeni maşınqayırma müəssisələri fəaliyyətə başlamışdır. Artıq Azərbaycanda "Oka", "Azsamand", "Aziz", "Lifan" minik avtomobilləri, "Belarus traktoru", "MAZ" avtomobili istehsal edilir, onların sayı və tipi (növü) genişlənir.



*Cədvəl 5.2.1.*

**"Azneftkimyamaş" ASC-nin törəmə müəssisələri üzrə ixrac edilən məhsulların xüsusi çəkisi, faizlə*)**

| Törəmə SC - lərin adları | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Bakı Neft Maşınqayırma Zavodu | 0,6 | 4,3 | 15,2 | 11,5 | 6,7 | 22,4 |
| "Bakı fəhləsi" m/z | 15,2 | 6,0 | 6,3 | 5,2 | - | 30,4 |
| Suraxanı m/z | 7,5 | 11,4 | 46,3 | 3,4 | 19,7 | 27,1 |
| Sabunçu m/z | 35,4 | - | - | - | - | - |
| B. Sərdarov ad. m/z | 1,7 | 8,7 | 2,4 | 3,6 | 5,4 | 23,8 |
| Zabrat m/z | 50,5 | 51,1 | 30,3 | - | - | 15,5 |
| Müəssisələr üzrə orta göstərici | 11,1 | 8,3 | 20,6 | 18,7 | 22,3 | 23,7 |
| "Azneftkimyamaş" ASC üzrə | 9,3 | 7,4 | 17,8 | 13,8 | 17,3 | 18,4 |

*) Cədvəl ASC-nin ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında tərtib edilib hesablanmışdır.

## 5.3. Avtomobil və sair nəqliyyat vasitələrinin istehsalının inkişafı.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, 01.01.2016 tarixə ölkədə avtomobil, onların qoşquları və digər nəqliyyat vasitələri istehsal edən 14 müəssisə fəaliyyət göstərir ki, onların da 35,7%-i dövlət, 64,3%-i qeyri-dövlət mülkiyyətindədir. Bununla yanaşı, bu istehsal sferasında sənaye fəaliyyəti ilə məşğul olan 19 nəfər fərdi sahibkar vardır. Müqayisə edilən dövrdə həmin müəssisələr tərəfindən istehsal edilən sənaye məhsulunun (işin, xidmətin) həcmi 8,8 dəfə; orada istifadədə olan ƏİF-in dəyəri 110,5%; əsas kapitala yönəldilən investisiyanın məbləği isə - 5,4 dəfə artmışdır. Azərbaycan ərazisində istehsal edilən minik avtomobillərin sayı 2010-2015-ci illərdə 148%; yüklərin daşınması üçün qoşqular və yarımqoşquların sayı 114,5% artmış, lakin yük avtomobillərin sayı 48,5%, ehtiyat hissələrin və ləvazimatların dəyəri 8,9 dəfə azalmişdir.

"Gəncə avtomobil zavodu İstehsalat Birliyi 2004-cü ilin dekabr ayından fəaliyyət başlanmış və sonrakı 3 il ərzində müəssisədə "OKA", "UAZ", "ÇAN-QAN" markalı avtomobillərin yığımı həyata keçirilmiş, lakin 2007-ci ilin mart ayından etibarən Belarusun Minsk avtomobil və traktor zavodları ilə bağlanmış müqaviləyə əsasən Gəncə avtomobil zavodunda yeni yığım xətləri quraşdırılıb, müxtəlif markalı traktor və MAZ avtomobillərinin istehsalına başlanılıb. Bu istehsalat Birliyində Rusiyanın "KamAZ" və "MAZ" markalı iritonnajlı yük maşınlarının buraxılışı da təşkil edilmişdir. Azərbaycanın "Azsamond" avtomobillərinin istehsalına 2005-ci ildən başlanıb. İran tərəfi ilə əldə olunmuş razılığa əsasən, avtomobillərin ehtiyat hissələri bütünlükdə İrandan gətirilir və Şamaxı Avtomobil Zavodunda montaj olundu. Zavodun fəaliyyətə başladığı vaxtdan 1500-dən



artıq avtomobil istehsal edilmiş və satılmışdır.

Azərbaycanda "İsuzu" ticari avtomobillərinin istehsalı "AzGroup"a daxil olan "Az Universal Motors" şirkəti tərəfindən reallaşdırılır. Satış isə "Aztexnika" şirkəti tərəfindən aparılır. Azərbaycanda da kiçik və orta tonnajlı ticari yük avtomobilləri arasında "İsuzu" liderdir. Qida, nəqliyyat, topdansatış və s. şirkətlər tərəfindən "İsuzu" ticari avtomobilləri geniş istifadə olunur. Bu baxımdan rəsmi satış və servis böyük əhəmiyyətə malikdir. Bu işi üzərinə götürən "Aztexnika" şirkəti Yaponiyanın "İsuzu" şirkətinin Azərbaycanda rəsmi distributoru olaraq satış və servis xidmətini yüksək səviyyədə həyata keçirir.

Bütün bu nailiyyətlərin nəticəsidir ki, Azərbaycana gətirilən avtomobil və sair nəqliyyat vasitələrinin sayı 2010-2015-ci illərdə kəskin azalmış, yalnız traktorların idxalı 146,9% artmışdır.

## 5.4. Elektronika sənayesinin formalaşması və inkişafı.

Keçən əsrin 70-80-ci illərində neft maşınqayırma sənayesi ilə yanaşı elektrotexnika, cihazqayırma, elektronika, radiotexnika kimi daha yeni sahələrin inkişafına nail olunmuşdur. Həmin dövrdə Azərbaycanda istismara verilən ən iri elektrotexnika müəssisələri içərisində: Bakıda – kondisioner, soyuducu, akkumulyator, lampa və transformatorlar hazırlayan zavodlar, Şamaxıdakı "Star" televizor, Mingəçevirdə kabel zavodu, Salyanda su qızdırıcıları (kalonka) zavodu, radioelektronika sahəsində Bakıda Elektron Hesablama Maşınları (EHM) zavodu, Bakı radio, "İqlim", "EİM", "Alov", "Peyk", "Dalğa", Nord", "Azon", və s. qeyd etmək olar.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında Sumqayıt şəhərində ümumi sahəsi 250 hektar olan Texnologiyalar Parkının yaradılması Azərbaycanın elektrotexnika sənayesinin gələcək innovativ inkişafının və ölkənin

qeyri-neft sektorunun inkişafının təməlini qoymuşdur.

Sumqayıt Texnologiyalar Parkının ağır maşınqayırma zavodunda tikinti-quraşdırma, elektroenergetika, maşınqayırma və digər sahələrdə istifadə olunan metal konstruksiyalar, ağır tonnajlı, körpülü kranlar, hidroturbinlər, külək generatorları, dəqiq mexanika zavodunda qeyri-standart avadanlıq və mürəkkəb konstruksiyalı maşın-mexanizm elementləri və digər məhsullar hazırlanır. Buradakı müəssislərin ən böyüyü 6500 çeşiddə məhsul istehsal edən kabel zavodudur. Zavodun məhsullarından məişət avadanlıqlarında, kontakt sistemində geniş istifadə olunur. Yüksək gərginliyə davam gətirən güc kabellərinin MDB məkanında, qonşu Türkiyə və İranda, hətta bir sıra Avropa ölkələrində analoqu yoxdur. Texnoparkda Günəş kollektoru qazanları, həmçinin bir çox sahələrdə tələbat duyulan yüksək keyfiyyətli, standartlarla uyğun məhsullar istehsal edən digər zavodlar da fəaliyyət göstərir. Bu gün STP Azərbaycanın istənilən güşəsində tikilən elektrik stansiyalarını, yarımstansiyaları yüksək gərginlik kabelləri və digər zəruri məmulatlarla təmin edir.

Azərbaycanda yenidən təşkil edilən elektrotexnika müəssisələrindən biri də Suraxanı rayonunda yerləşən iri qabaritli transformatorlar zavodudur. "ATEF Şirkətlər Qrupu"-na daxil olan zavod 1998-ci ildə özəlləşdirilən Bakı mayesiz transformatorlar zavodu, Qaraçuxur qəsəbəsində transformatorlar və elektrotexnika avadanlıqları istehsal edən zavod, eləcə də Hövsan qəsəbəsindəki Metal konstruksiya zavodu daxildir.

Zavodlarda müxtəlif təyinatlı və gərginlikli yağ və güc transformatorları, açıq və qapalı tipli yarımstansiyalar, mühafizə və idarəetmə panelləri, elektrotexnika avadanlıqları, radiatorlar, bloklar, şkaflar, ümumilikdə 200 çeşiddən artıq tam hazır məhsul və hissələr istehsal olunur. Bu məhsullar Kanada, Cənubi Afrika Respublikası, İraq, Bəhreyn, Bolqarıstan, Rusiya, Ukrayna, Moldova, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Gürcüstan və digər ölkələrə ixrac olunur.



Ölkə ərazisində 41 vahid elektrik avadanlıqları istehsal edən müəssisələr fəaliyyət göstərir. Onların 12,2%-i dövlət, 87,8%-i qeyri-dövlət mülkiyyətindədir. Elektrik avadanlıqları istehsal edən bütün müəssisələrin 2015-ci ildə 61%-i kiçik; 39%-i isə orta və iri müəssisələrdir.

Emal sənayesinin həmin alt sahəsində 65 nəfər fərdi sahibkar sənaye fəaliyyəti ilə məşğuldur ki, onların da sayı qeyd edilən illər ərzində 162,5% artmışdır. Nəticədə, bu alt sahədə sahibkarlıq subyektləri tərəfindən istehsal edilən məhsulun (işin, xidmətin) həcmi 2010-cu ildə 75,0 mlyn. manatdan, 2015-ci ildə 102,5 mlyn. manata çatmış və yaxud 136,7% artmışdır. Müqayisə dövründə elektrik avadanlıqları istehsal edən müəssisələrdə sənaye məhsulunun fiziki həcm indeksi orta hesabla 123% təşkil etmişdir.

Lakin elektrik avadanlıqları istehsal edən müəssisələrin investisiya təminatı zəifdir. Belə ki, 2010-2015-ci illərdə bu istehsal sahəsində cəmi 94,5 mlyn. man. daxili investisiya yönəldilmişdir ki, onun da mütləq həcmini məcburi amortizasiya ayırmaları təşkil etmişdir. Nəticədə sahədə əsas fondların dəyəri 3,6 dəfə; onların yeniləşmə səviyyəsi orta hesabla 10% artmış və nəticədə, ƏİF-in aşınma səviyyəsi 2010-cu ildə 74,1%-dən 2015-ci ildə 33,5%-ə enmişdir.

Əlbəttə, bu texniki – texnoloji uğur son 15 ildə respublika ərazisində tikilib istifadəyə verilən yeni elektrotexnika müəssisələrinin hesabına əldə edilmiş, bir sıra əsas növ elektrik avadanlıqlarının istehsalı xeyli artmışdır. (cədvəl 5.4.1.).
Azərbaycanda elektrotexnika sənayesinin inkişafı ilə əlaqədar həyata keçirilən təşkilati-iqtisadi və innovativ tədbirlərə baxmayaraq idxalın tərkibində həmin sahənin məhsullarının həcmi və xüsusi çəkisi yüksələn xətlə artmaqdadır.

*Cədvəl 5.4.1.*

**Azərbaycanda mühüm növ elektrik avadanlıqlarının natural ifadəsində istehsalı *)**

| Məhsulların adları | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Dəyişən cərəyan elektrik mühərrikləri, ədəd | - | 209 | 316 | 541 | 236 | - | x |
| Güc transformatorları, ədəd | 393 | 331 | 190 | 173 | 321 | 746 | 189,8 |
| 1 kv-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, min ton | 0,7 | 0,8 | 2,1 | 0,52 | 1,3 | 3,5 | 5 dəfə |
| Məişət kondisionerləri, ədəd | 2184 | 4288 | 5726 | 9435 | 1275 | 180 | 8,2 |
| Məişət soyuducuları, ədəd | 3590 | 4106 | 5165 | 6662 | 3690 | 2798 | 77,9 |

**) Azərbaycan sənayesi, Bakı "DSK", 2016, s. 134,135.*



Ölkənin maşınqayırma sənayesinin digər sahələri ilə yanaşı elektrotexnika sənayesində də qeyri-neft sektorunun tərkib hissəsi kimi yaxın gələcəkdə onun əsaslı şəkildə inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır:

- müasir texnologiyalara əsaslanan elektrotexnika müəssisələrində 1 SO seriyadan müvafiq beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- innovasiyayönümlü və elmtutumlu istehsalın inkişaf etdirilməsi;
- müəssisələrin istehsal fondlarının aktiv hissəsinin yeniləşdirilməsi və dövriyyə vəsaitlərinin investisiya təminatının yaxşılaşdırılması;
- özəl sektor – dövlət təşkilatları arasında uğurlu koordinasiya sisteminin qurulması;
- yeni və idxalı əvəz edən məhsulların istehsalına investisiyaların yönəldilməsi;
- elmtutumlu rəqabətqabiliyyətli və ixracyönümlü elektrotexnika məhsullarının istehsalının intensivləşdirilməsi;
- azad rəqabət mühitinin inkişaf etdirilməsi;
- istehsal müəssisələrinin innovasiya sahəsində müştərək əlaqələrinin genişləndirilməsi və sairə.

## 5.5. Kompüter və elektrik avadanlıqları sənayesinin inkişafı.

Azərbaycanın emal sənayesinin aparıcı qeyri-neft sahələrindən biri də elektron avadanlıqları istehsal edən müəssisələridir. Hələ Sovet İttifaqının mövcudluğu dövründə respublikada bir sıra ənənəvi müəssisələr fəaliyyət göstərirdi. Onların bir hissəsi keçən əsrin 70-80-ci illərdə yaradılmışdır. Suverenlik illərində Dövlət Mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət

Proqramına uyğun həmin müəssisələr özəl sahibkarlıq subyektlərinə çevrilmiş, bir qismi Hərbi Sənaye Nazirliyinin tabeliyinə verilmiş, 2005-ci ildə yaradılan "Kür" elektron avadanlıqları istehsal müəssisəsi Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində yaradılmışdır.

Statistik məlumatlarına görə, 2005-2015-ci illər ərzində kompüter və digər elektron avadanlıqları istehsal edən müəssisələrdə məhsulun (işin, xidmətin) həcmi 10,2 dəfə orada əsas fondların dəyəri 4,3 dəfə artmış, lakin işçilərin sayının 39,1% azalmasına baxmayaraq, bir işçinin orta aylıq əmək haqqı 5,85 dəfə artmışdır. Ölkə sənayesinin qeyri-neft sektorunda həmin sahənin payı müqayisə dövründə artmış və 2015-ci ildə 0,2% təşkil etmişdir. Həmin dövrdə sənaye məhsulunun fiziki həcm indeksinin orta göstəricisi 100,6%; istehlakçıların qiymət indeksinin orta həddi isə 106,3% təşkil etmişdir.

Əldə edilən nailiyyətlərdə Bakı Cihazqayırma zavodunun, Gəncə Cihazqayırma zavodunun, "Sənayecihaz" Elmi İstehsalat Müəssisənin, "Kür" Elektron Avadanlıqları İstehsalı MMC-nın və başqalarının fəaliyyəti danılmazdır.

Araşdırmalar göstərir ki, təkcə 2010-2015-ci illər ərzində həmin zavodlarda 9,7 min ədəd kassa aparatları, 83 min ədəd televizor, 68,2 min ədəd mayelərin məsrəfi üçün cihazlar, 525 ədəd klaviatura, 923 ədəd monitorlar, 139 ədəd çap qurğuları, 2480 ədəd peyk antenləri istehsal edilmişdir.

Qeyd edilən illər ərzində həmin istehsal sferasında ƏİF-in 62,3%-i yeniləşmiş və nəticədə onların aşınma səviyyəsi 17,8% təşkil etmişdir. Bu da beynəlxalq təcrübədə məşğul hesab edilir. Bununla belə, yalnız 2012-ci ildə kompüter və digər elektron avadanlıqları istehsal sferasında 20,4 min. manat məbləğində innovasiya məhsulu buraxılmış və sonrakı illərdə bu istiqamətdə fəaliyyət dayandırılmışdır. Görünür elə bu səbəbdən



də son illər həmin sferada istehsalı mümkün ola bilən bir çox istehlak mallarına olan tələbat idxalın hesabına ödənilir.

Ölkədə kompüter və elektron avadanlıqları sənayesinin inkişafı üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsinə zəruri ehtiyac duyulur:

- sahənin investisiya təminatının yaxşılaşdırılması hesabına istehsalın həcminin artırılması, idxalı əvəz edən məhsulların istehsalının mənimsənilməsi;
- innovasiyayönümlü məhsulun istehsalı üçün məqsədli müştərək layihələrin işlənilməsi və həyata keçirilməsi;
- əhalinin hər 100 nəfərinə düşən kompüterlərin sayının artırılması üçün milli məhsulun həcminin və çeşidinin artırılması, regional satış məntəqələrinin yaradılması və güzəştli kredit sisteminin tətbiq edilməsi;
- mövcud elektronika müəssisələrində radio və televiziya qəbuledicilərinin yeni nəslinin istehsalının genişləndirilməsi hesabına idxalın azaldılması;
- hesablama maşınlarının, kalkulyatorların, kassa aparatlarının mövcud müəssisələrdə istehsalının intensivləşdirilməsi və yeni növ məhsulun mənimsənilməsi;
- klaviatura, monitor və çap qurğularının istehsalının və çeşidlərinin artırılması;
- Hərbi Sənaye Nazirliyinin tabeliyində olan cihazqayırma müəssisələrində idxalı əvəz edən elektron avadanlıqlarının istehsalının təşkili;
- fəaliyyətdə olan dövlət və özəl müəssisələrdə İSO tipli müvafiq beynəlxalq standartların tətbiqi prosesinin genişləndirilməsi;
- kompüter və elektron avadanlıqları sənayesi üzrə uzunmüddətli dövrü əhatə edən innovativ inkişaf proqramının işlənilməsi və həyata keçirilməsi.

# MÖVZU 6. QARA VƏ ƏLAVƏ METALLURGİYA SƏNAYESİNİN İNKİŞAFI

## 6.1. Sənayenin xammal və maddi texniki bazası.

Metallurgiya – materialların, vacib yarımmaterialların və qeyri - materialların yerindən, filizlərdən, duzlardan çıxarılması və istifadə olunması üçün tətbiq olunan üsullar toplusudur.

Metallurgiya iki istiqamətdən – qara və əlvan metallurgiyalardan ibarətdir.

Metallurgiya sənayesi ağır, çox mərhələli və yüksək enerji tutumlu bir sənayedir. Neft və qazdan fərqli olaraq, filiz faydalı qazıntılarının daşınması, nəqli də problem olaraq qalır və baha başa gələn bir prosesdir. Ona görə də metaləritmə müəssisələrinin mümkün qədər yatağın, dağ-mədən kompleksinin yanında və ya yaxınlığında tikilməsi məqsədə-uyğun sayılır.

Azərbaycan ərazisində metallurgiyaya dair qədimdən məlumatlar olsa da, demək olar ki, sənaye miqyaslı işlərə Simens qardaşları tərəfindən XIX əsrin ortalarında başlanmışdır. Bu məşhur alman şirkəti Gədəbəydə misəritmə zavodu tikərək ətrafdakı mis yataqlarını istismar etmiş və fəaliyyəti dövründə xeyli mis və qızıl hasil edərək Almaniyaya aparmışdır.

Metallurgiya sənayesi üçün əsas xammal bazası filiz yataqlarıdır. Azərbaycanın dövlət balansında ehtiyatları təsdiq olunmuş 20-dən artıq filiz yatağı qeydə alınmışdır. Onların əksəriyyəti mis, qızıl, polimetal, dəmir və alunit filizi yataqlarıdır. Bunlardan əlavə, dəyərli metallardan olan gümüş, kobalt, civə, molibden, xrom və s. metalların ehtiyatların da hesablanmışdır.

Geoloji ədəbiyyatlarda filiz yataqlarının müxtəlif təsnifatları verilir və adətən, onlar 6-8 qrupa bölünürlər. Sənayeçilər isə bütün metalları rənglərinə görə 2 böyük qrupa - qara və əlvan metal qruplarına ayrılır.



Qara metallar - dünya iqtisadiyyatında istifadə olunan metalların 90 faizindən çoxu bu metalların payına düşür ki, onun da çoxunu müxtəlif tipli poladlar təşkil edir. Polad istehsalı üçün əsas mineral xammal dəmir filizidir. Dünyanın 100-ə yaxın ölkəsində dəmir filizi yataqları aşkar edilir. Qara metallardan dəmir, manqan və xromun Azərbaycan ərazisində müxtəlif illərdə bir neçə yatağı aşkar edilib. Lakin onlardan keyfiyyət və kəmiyyət göstəricilərinə görə sənayenin tələbatını ödəyə bilən yalnız Daşkəsən qrupu dəmir filizi yataqlarıdır. Filizin ümumi ehtiyatları 265 mlyn. ton cuvarında təsdiq edilmişdir.

Əlvan metallar - Azərbaycan ərazısində əlvan metalların böyük əksəriyyətinin təzahürlərinə rast gəlinsə də, əsasən mis, sink, qurğuşun, alüminium, kobalt, civə və molibdenin, nəcib metallardan isə qızılın sənaye əhəmiyyətli yataqları qeydə alınmışdır.

Alüminiumun istehsalına yararlı digər mineral xammal – alunit filizinin ölkəmizdə bir neçə yatağı və təzahürü qeydə alınmışdır. Onların arasında Daşkəsən rayonunda yerləşən Zəylik yatağı öz ehtiyatlarının həcminə görə mühüm əhəmiyyət daşıyır və yataqdakı filizlərin balans ehtiyatı 173 mlyn. ton təsdiq edilmişdir ki, bu da həmin yatağın dünyanın eynitipli nəhəng yataqları sırasında yer almasina imkan verir.

Nəcib metallar - bu cür metallardan Azərbaycan ərazisində ən çox yayılan qızıldır. Gümüşə ayrıca yataq şəklində rast gəlinməsə də, ehtiyatları digər filizlərin tərkibində hesablanmış, platinin isə nişanələri ayrı-ayrı yerlərdə qeyd edilmişdir.

Hazırda metallurgiya sənayesinin güclü inkişafı üçün ölkəmizdə bütün imkanlar mövcuddur: siyasi sabitlik və təhlükəsizlik; əlverişli maliyyə - iqtisadi şərait (vergi siyasəti, biznes – investisiya mühiti); zəngin mineral-xammal bazası, o cümlədən metal tullantısı; bol enerji ehtiyatlarının olması; metala tələbatı olan sənaye və tikinti sahələri; səriştəli kadrlar və əmək ehti-

yatları; yeni istehsal sahələrinin yaradılması imkanları və s. Bütün bunlar təhlil edilərək "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında metallurgiya sənayesinin inkişafı ilə əlaqədar mühüm tədbirlər, o cümlədən, ölkədə polad istehsalı zavodunun inşası, habelə alüminium sənayesinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Hazırda Azərbaycan respublikasının ərazisində 27 qara və 75 əlvan metallurgiya təyinatlı müəssisələr fəaliyyət göstərir.

Metallurgiya sənayesi qeyri-neft sənaye sektorunun önəmli sahəsidir və onun inkişafı üçün aşağıdakı imkanlar mövcuddur:

1. Bol rəngi olan xammal bazasının və müxtəlif metal tullantılarının olması;
2. Yerli enerji ehtiyatının – neft və təbii qazın olması;
3. Metal tələbatlı sahəyə və tikinti sahələrinin olması;
4. Təcrübəli kadr və əmək ehtiyatlarının olması;
5. Mövcud maddi - texniki baza əsasında yeni sahələrin yaranma imkanı.

Ölkədə metallurgiya sənayesinin yaradılması, bu sahənin inkişafı, arada yeni texnologiyaların tətbiqi məqsədilə ölkə Prezidentinin 23 aprel 2013-cü il tarixli sərəncama uyğun "Azərbaycan Polad Istehsal Kompleksi" QSC təsis edilmişdir. Bu kompleksin inkişafı ilə əlaqədar "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"-nın mühüm tədbirlər nəzərdə tutulmuşdur.

## 6.2. Qara metallurgiya sənayesinin inkişafı.

Qara metallurgiyaya dəmir filizinin çıxarılması və saflaşdırılması, çuqun və poladın əridilməsi, prokat və ferroərintilərin istehsalı daxildir. Azərbaycanın ən iri qara metallurgiya mərkəzi – Sumqayıt, Bakı və Daşkəsəndir. Daşkəsən Azərbaycanın ən iri dağ - mədəni sənayesi mərkəzidir. Daşkəsəndəki dəmir filizi yatağı yaxınlığında filiz saflaşdırma kombinatı fəaliyyət göstərir



Qeyd edildiyi kimi, sahənin ən iri müəssisəsi sahələri dövlətə məxsus olan "Azərbaycan Polad Istehsalı Kompleksi" QSC–dir. Bu kompleks Gəncə şəhərinin və Daşkəsən rayonunun ərazilərində dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən polad istehsalı kompleksinin layihələndirilməsini, tikintisini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir

Buna görə də QSC Daşkəsən Filizsaflaşdırma Kombinatının fəaliyyətinin səmərəliliyini təmin edərək istehsal olunan dəmir filizinin keyfiyyətinin və həcminin artırılmasını və Gəncə şəhəri ərazisində Polad istehsalı Kompleksinin yaradılmasını qarşıya mühüm vəzifə kimi qoymuşdur.

Azərbaycanda özəl sektorda ən iri metallurgiya zavodları "Baku Steel Company" və "Bakı Polad tökmə" ASC-dir. "Baku Steel Company"-nin 2007-ci ildə illik istehsal gücü 386456 ton, Bakı Polad tökmə"nin isə 70770 ton olmuşdur. Bu müəssisələrdə uyğun olaraq hazırda 1722 və 450 nəfər işçi çalışır.

Azərbaycanın qara metallurgiya sənayesində baş verən kəmiyyət və keyfiyyət dəyişkənlikləri bu sahələrdə istehsal edilən əsas növ məhsulların natural ifadədə həcminə də öz təsirini göstərmişdir. ARDSK – nın məmulatlarına görə, 2010–2015–ci illər ərzində ölkədə dəmir filizinin istehsalı 2,2 dəfə, mis filizi 5,3 dəfə; bentonit 3,1 dəfə; armatur 169,8 %; qızıl 106,5 %; metalların üst təbəqələrinin emalı üzrə sair materiallar 55,9 dəfə artmış, qara metaldan məftil və kanatlar, polad borular və tökmə polad istehsalı azalmışdır (cədvəl 6.2.1).

*Cədvəl 6.2.1.*

**Azərbaycanda qara metallurgiya sənayesində əsas növ məhsul istehsalı (min. tonla) *)**

| Məhsulların adları | İllər | | | | | | 2010/ 2015-ci illərdə artim sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Dəmir filizi | 57,8 | 214,3 | 207,3 | 141,4 | 91,4 | 127,6 | 2,2 |
| Polad tökmə | 306,5 | 379,1 | 444,2 | 255.2 | 324,1 | 302,0 | 98, 5 |
| Polad borular | 36,5 | 98,4 | 61,8 | 60,8 | 35,9 | 29,8 | 81,6 |
| Armatur | 131,4 | 161,4 | 244,8 | 233,4 | 251,5 | 223,2 | 169,8 |
| Qara metaldan məftil və kanatlar | 0,402 | 0,499 | 0,323 | 0,484 | 0,390 | 0,234 | 58,2 |
| Metalların üst təbəqələrinin emal üzrə sair metallar | 1175 | 3846 | 8954 | 4975 | 18784 | 6569 7 | 55,9 |

*) *Azərbaycanın sənayesi. Bakı "DSK", 2016, - s. 131.*

## 6.3. Əlvan metallurgiya sənayesinin inkişafı.

Azərbaycanda ən perspektivli əlvan metallurgiya ölkəsidir. Daşkəsən – alunit, Naxçıvan MR–də vod – from molibden, qurğuşun – sink; Kəlbəcər, Laçın, Göygöl, Tovuz, Gədəbəy rayonları isə qızıl və mis yataqları ilə zəngindir.

Ölkəmizdə qeyri - neft sektorunun (sənayesinin) inkişafı kontekstində yeni yaradılan əlvan metallurgiya müəssisələri iqtisadiyyat üçün əhəmiyyətli olan mis, qizil və gümüş istehsalının mənimsənilməsinə imkan vermişdir. Əlvan metallar içərisində alüminiumun istehsalının tarixi daha dərindir. Hələ 1954-cü ildə Daşkəsən filizsaflaşdırma müəssisənin yaradılması əlvan metal külçəsinin – alüminiumun alınmasına başlamışdır.



İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə avtomobillərin elektrik cihazlarının və s. istehsalında alüminium hissələrindən daha çox istifadə edilir.

Hazırda Azərbaycanda müasir alüminium sənayesi yaradılır. 21 yanvar 2012-ci ildə ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən hadisə «DET Al» Alüminium Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) - «Gəncə Alüminium» zavodunun (GAZ) açılışı baş vermişdir ki, bu da respublikamızda müasir səviyyədə alüminium sənayesinin yaradılması üçün birinci addım atılmışdır.

"DET Al" Kompleksdə məhsul istehsalı 3 zavodda sistemli şəkildə həyata keçirilir. Birinci mərhələdə zavoda ildə 50 min ton ilkin alüminim istehsal ediləcəkdir.

Gəncə «DET Al» Alüminium kompleksinin ikinci mərhələsində 50 min ton alüminium istehsal edərək 84 vannadan ibarət elektroliz korpusları, gil-torpaq qəbulu anbarlarının tikintisi nəzərdə tutulmuşdur.

Uzun müddət ərzində istismarda olan Sumqayıt alüminium zavodunda (SAZ) 2000-ci illərdə aparılan yenidənqurma işləri yüksək səmərə verməmiş, logistika təminatında yaranan əsaslı çətinliklər zavodun dayanıqlı iqtisadi inkişafına mənfi təsir göstərmişdir. Ölkəmizin sənayeləşmə siyasəti çərçivəsincə Sumqayıt şəhərində yeni texnoparkların yaradılması SAZ-ın da yeni innovasiya layihələri çərçivəsində fəaliyyətinin bərpası nəzərdə tutulmuşdur.

Alüminim sənayesinin fəaliyyətini xarakterizə edən əsas texniki-iqtisadi göstəricilərin sistemli yanaşma əsasında təhlili göstərir ki, alüminium istehsalının əsas xammalı hesab edilən alüminium oksidinin (gil-torpağın) istehsalı son illər 362,7 min

tonla 36,6 min ton arasında dəyişmiş, müxtəlif obyektiv və subyektiv səbəblərdən onun istehsalı 2010-cu ildə dayandırılmışdır.

Lakin əlvan metallar istehsal edən digər müəssisələrdə məhsul istehsalının natural istifadədə həcmində əsaslı dönüş yaranmış, mis filizləri və kondensatları 5,3 dəfə; qızıl istehsalı 106,5%; alüminium qapı və pəncərə bloklarının sayı 191,6% artmış, gümüşün istehsalı isə 90,2% azalmışdır (Cədvəl 6.3.1).

***Cədvəl 6.3.1.***

**Azərbaycanda qara metallurgiya sənayesində əsas növ məhsul istehsalı (min. tonla) *)**

| Məhsulların adları | İllər | | | | | | 2010/2015-ci illərdə artim sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Gil – torpaq (alüminium oksidi) | - | 6,2 | 101,8 | 141,4 | - | - | x |
| Mis filizləri və kondensatları ,ton | 184,4 | 615,1 | 504,7 | 329 | 674,6 | 969,2 | 5,3 |
| Qızıl, kq | 2092 | 1775 | 1562 | 1619 | 1873 | 2229 | 106,5 |
| Gümüş, kq | 1348 | 1216 | 626 | 630 | 239,5 | 132,5 | 9,8 |
| Bentonik | 18,1 | 20,7 | 36,7 | 97,7 | 81,9 | 56,8 | 3,1 |
| Alüminium qapı və pəncərə blokları, min ədəd | 14,3 | 15,8 | 19,1 | 21,1 | 23,4 | 27,4 | 191,6 |

*) *Azərbaycanın sənayesi. Bakı "DSK", 2016, - s. 35; 178;*



Qara və əlvan metallurgiya sənayesində baş verən pozitiv dəyişikliklər təhlilin əhatə etdiyi dövrdə bir çox məhsullar üzrə ixracın artmasına, idxal məhsullarının tərkibində isə dəyişikliyin baş verməsinə şərait yaratmışdır. Buna baxmayaraq, qara və əlvan metallurgiya sənayesi sahələrində idxal – ixrac əməliyyatlarının daha səmərəli təşkil üzrə çoxsaylı ehtiyat imkanları mövcuddur.

### 6.4. Qara və əlvan metalların idxalı – ixracının strukturunda baş verən dəyişiklik.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə 2010-2015-ci illərdə az qiymətli metallar və onlardan hazırlanan məmulatların ixracının həcmi 106%, o cümlədən mis və onlardan hazırlanan məmulatlar 32,1 dəfə; az qiymətli metallardan alətlər, qurğular; bıçaq, qaşıq və çəngəllər 7,8 dəfə; az qiymətli metallardan hazırlanan digər məmulatlar – 115,3% artmış, qara metaldan qurğuşun, sink və onlardan hazırlanan məmulatların ixracı isə - kəskin şəkildə azalmışdır (cədvəl 6.4.1.)

Lakin ölkəmizdə qara və əlvan metallurgiya sənayesinin sürətli inkişafı kontekstində orada istehsalı mümkün olan məhsulların idxalı hələ də dinamik xarakter almamışdır. Hesablamalar göstərir ki, əgər 2010-cu ildə az qiymətli metal və onlardan hazırlanan məmulatların idxalı eyni adlı məhsulların ixracını 7,34 dəfə üstələmişdirsə, 2015-ci ildə bu göstərici 14 dəfə səviyyəsinə çatmışdır. Belə ki, 2010-2015-ci ildə həmin qrupdan olan məhsulların idxal 2 dəfə; o cümlədən qara metaldan və qalaydan hazırlanan məmulatların hər birinin idxalı 2,2 dəfə; nikel və ondan hazırlanan məmulatların idxalı 20,8 dəfə, mis və ondan hazırlanan məmulatlar 5,9 dəfə artmış və yüksək artım sürəti digər məmulatlar üzrə də müşahidə edilir (cədvəl 6.4.2.).

*Cədvəl 6.4.1.*

**Azərbaycanda az qiymətli metallar və onlardan hazırlanan məmulatların ixracının əmtəə strukturu (min. ABŞ dolları)*)**

| Məhsulların adları | İllər | | | | | | 2010/2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Cəmi | 26 221,4 | 231 592,8 | 218 426,3 | 187 565,6 | 141 799,8 | 133 815,6 | 106,0 |
| Qara metallar | 76 989,8 | 94 314,4 | 58 670,8 | 42 926,9 | 9 076,8 | 18303,3 | 23,8 |
| Qara metallardan məmulatlar | 35 193,0 | 109 821,7 | 54 999,5 | 53 443,8 | 34 844,3 | 16612, | 47,1 |
| Mis və ondan hazırlanan məmulatlar | 8 764,8 | 10 510,6 | 5 718,9 | 5 095,4 | 5 762,6 | 9890,1 | 112,8 |
| Nikel və ondan hazırlanan məmulatlar | | | | | 2,6 | 2,2 | x |
| Alüminium və ondan hazırlanan məmulatlar | 2 683,9 | 12 689,6, | 94 929,4 | 82 816,2 | 86 780,6 | 86 148,0 | 32,1 |
| Qurğuşun və onlardan hazırlanan məmulatlar | 2 032,9 | 3 342,7 | 3 625,4 | 2 600,5 | 2 940,7 | 1381,0 | 67,9 |
| Sink və ondan hazırlanan məmulatlar | 273,7 | 92,4 | 19,8 | - | - | 15,6 | 5,7 |
| Az qiymətli metallardan alətlər, qurğular, bıçaq, qaşıq və çəngəllər | 171,4 | 666,6 | 403,0 | 569,9 | 2 164,1 | 1332,4 | 7,8 |
| Az qiymətli metallardan hazırlanan digər məmulatlar | 111,9 | 154,8 | 59,5 | 112,9 | 193,9 | 129,0 | 115,3 |

*) *Azərbaycanın xarici ticarət. Bakı "DSK", 2016, 52-59.*



*Cədvəl 6.4.2.*

**Azərbaycanda az qiymətli metallar və onlardan hazırlanan məmulatların idxalının əmtəə strukturu (min. ABŞ dolları) *)**

| Məhsulların adları | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Cəmi | 925 168.1 | 1 331 597 | 1 467 525,8 | 1 301 316,9 | 1 245 249,3 | 1872385,8 | 2,0 |
| Qara metallar | 226 996,2 | 416 047 | 440 217,3 | 318 297,3 | 394 518,2 | 350 625,4 | 154,5 |
| Qara metallardan hazırlanan məmulatlar | 560 202,8 | 755 898,4 | 870 305,7 | 751 591,3 | 621 097,2 | 1236178,2 | 2,2 |
| Mis və ondan hazırlanan məmulatlar | 21 511,9 | 26 135,2 | 28 517,9 | 28 443,2 | 38 267,7 | 128170,3 | 5,9 |
| Nikel və ondan hazırlanan məmulatlar | 418,3 | 2 015,9 | 635,3 | 1 712,7 | 41 983,6 | 8713,4 | 20,8 |
| Alüminium və ondan hazırlanan məmulatlar | 46 297,9 | 57 276,6 | 51 413,0 | 41 600,9 | 56 614,6 | 70918,6 | 153,2 |
| Qurğuşun və onlardan hazırlanan məmulatlar | 676,8 | 365,6 | 430,9 | 493,5 | 296,8 | 682,0 | 100,8 |
| Sink və ondan hazırlanan məmulatlar | 9 630,5 | 6 0007,5 | 3 073,7 | 2 228,5 | 4 378,2 | 4582,1 | 47,6 |
| Az qiymətli metallardan hazırlanan alətlər | 39 542,3 | 45 466,1 | 46236,2 | 63 597,4 | 56 226,3 | 39494,2 | 99,9 |
| Az qiymətli metallardan hazırlanan məmulatlar | 19 764,3 | 21 695,6 | 26154,1 | 29 186,8 | 31 043,1 | 32050,1 | 162,2 |

Az qiymətli qara və əlvan metallardan hazırlanan məmulatların idxal – ixrac strukturunun qeyd edilən səpkidə dəyişməsi onların ölkə üzrə eyni adlı göstəricilərinin tərkibindəki xüsusi çəkisinin artmasını da şərtləşdirmişdir (sxem 6.4.3.).




***Sxem 6.4.3. Azərbaycanda az qiymətli metallar və onlardan hazırlanan məmulatların idxal – ixracının xüsusi çəkilişi, faizlə.***

### 6.5. Qara və əlvan metallurgiya sənayesinin inkişafının başlıca istiqamətləri.

Bütünlükdə, Azərbaycanda qara və əlvan metallurgiya sənayesində aparılan islahatlar, struktur dəyişiklikləri, digər təşkilati, texniki – texnoloji xarakterli tədbirlər öz müsbət nəticəsini verməkdədir. Lakin həmin sənaye sahəsində, innovasiya-



yönümlü iqtisadiyyatın formalaşdırılması kontekstində, istifadə olunmayan çoxsaylı ehtiyat imkanları mövcuddur və yaxın gələcəkdə həmin ehtiyatlardan səmərəli istifadə etmək və sahənin inkişafının təmin etmək məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- ilk növbədə, qara metallurgiya sənayesini idxal edilən xammal yükündən kənarlaşdırmaq lazımdır. Bunun üçün Daşkəsən Dəmir Filiz yatağının müasir texnologiya əsasında istismarı təşkil edilməlidir;
- bu sənaye sahəsində Klasterin yaradılması xammal təchizatı, məhsulun istehsalı, satışı, nəqli, ixracı proseslərinin daha az xərclə idarə olunmasına təminat yaratmış olacaqdır;
- qara və əlvan metallar üzrə yeni yataqların öyrənilməsi tədqiqi, kəşfiyyatı və işləməsi istiqamətində səylərin artırılması;
- qara metallurgiyanın müasir standartlara və bazar tələblərinə uyğun son məhsullarının istehsalının təşkili məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi;
- respublikada alüminiumdan, digər əlvan metallardan və onların qırıntılarından istifadə edərək son məhsul istehsalının genişləndirilməsi;
- respublikada qiymətli metalların (qızıl, platin və s.) istehsalı və istifadəsinin təkmilləşdirilməsi;
- polad istehsalı prosesində yeni inovasiya texnologiyalarının tətbiqinə nail olmaq;
- qara və əlvan metallurgiya sənayesində İKT–nin geniş tətbiqi əsasında idarə edən və idarə olunan proseslərin bütün mərhələ və pillələrində vahid elektron nəzarət sisteminin yaradılması;
- polad istehsalında birbaşa reduksiya metodunun tətbiqi ətraf mühitin, təmiz və sağlam qalmasına təminat yaratmış olacaqdır.

# MÖVZU 7. AQRAR SAHƏNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

## 7.1. Aqrar sahənin əhəmiyyəti və digər sahələrlə əlaqəsi.

Aqrar sahə ölkə iqtisadiyyatının bir çox istehsal və xidmət sahələrini özündə birləşdirən mürəkkəb sosial – iqtisadi sistem olmaqla əsas məqsədi – kənd təsərrüfatı üzrə xammalların istehsalı, onların emal edilməsi nəticəsində əldə edilən çoxçeşidli ərzaq məhsullarının istehlakçılara çatdırılmasından ibarətdir. Aqrar sahənin tərkibində kənd təsərrüfatı aparıcı rol oynayır.

Kənd təsərrüfatı - bitki və heyvan mənşəli məhsulların istehsal olunması, bunların keyfiyyət və səmərəliliyinin yüksəldilməsi, bu məhsulların uyğun şərtlərdə mühafizəsi, işlənib qiymətləndirilməsi və satışa çıxarılmasına deyilir.

Kənd təsərrüfatı, iki təməl istehsal əsasında formalaşır. Bunlar bitki mənşəli istehsal və heyvan mənşəlı istehsaldır. Kənd təsərrüfatı insan fəaliyyətinin ən başlıca və qədim sahəsidir. Dünyada elə bir ölkə yoxdur ki, orada kənd təsərrüfatı və ona yaxın olan meşə təsərrüfatı, ovçuluq, balıqçılıqla məşğul olunmasıdır. Dünya əhalisinin 1 milyard nəfəri, yəni iqtisadi fəal əhalinin yarıya qədəri bu sahələrdə çalışır.

Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək üçün əlverişli torpaq - iqlim şəraiti mövcuddur.

Ölkədə adambaşına 0,2 hektar torpaq sahəsi düşür Azərbaycanın kənd təsərrüfatında bitkiçilik heyvandarlığa nisbətən üstün inkişaf edib. Kənd təsərrüfatı məhsulunun 61%-ni bitkiçilik, 39%-ni isə heyvandarlıq verib. Lakin son illərdə bu nisbət dəyişilmiş və 2015-ci ildə heyvandarlıq məhsullarının xüsusi çəkisi 51% bitkiçilik məhsulları isə - 49% təşkil etmişdir. Göründüyü kimi həmin sahələr ölkənin kənd təsərrüfatının əsasını təşkil edir.

Azərbaycanın əlverişli iqlim şəraiti, torpaq örtüyü əkin



sahələrində müxtəlif növ bitkilərin becərilməsinə: imkan verir. Xüsusilə pambıqçılıq, tərəvəzçilik, tütünçülük və üzümçülük Azərbaycanın kənd təsərrüfatının ixtisaslaşmış sahələri hesab olunur. Aqrar sahə adətən aşağıdakı sahələrlə əlaqələndirilir:

- kənd təsərrüfatını maddi-texniki baza ilə təmin edən istehsal sahələri;
- kənd təsərrüfatı üzrə xammalın emalı sahələri;
- infrastruktur bloku: kənd təsərrüfatı məhsullarının daşıması, tədarükü və ticarəti, sahənin kadrlarla təmin edilməsi, meliorasiya və irriqasiya xidməti, kənd təsərrüfatı yönümlü infrastruktur və tikinti sahələri. Aqrar sahənin ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyəti aşağıdakılarla xarakterizə olunur:
- aqrar sahədə ölkənin iqtisadi fəal əhalinin 36,7%-i (1,7 milyon nəfər) çalışır;
- əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayır, yoxsulluğun azaldılmasına əhəmiyyətli təsir göstərir;
- aqrar sahə xalq təsərrüfatının sahələrinin məhsullarının istehlak etdiyi əsas sahədir;
- etibarlı xammal bazasıdır və ərzaq təhlükəsizliyində əsas rol oynayır;
- ölkənin sosial iqtisadi inkişafında mühüm rol oynamaqla ÜDM-in 6,2%-i istehsal olunur, ölkədəki əsas fondların 6,2%-i burada cəmləşdirilir və s.

Aqrar sahənin maddi texniki bazasını təmin edən bir çox iqtisadi fəaliyyət sahələri ilə də sıx əlaqədədir. Onlar: qaz və neft emalı, kimya və neft - kimya, maşınqayırma və elektrotexnika, yüngül və yeyinti sənayesi, nəqliyyat, ticarət, iaşə, ali və orta ixtisas məktəbləri, logistika və sairə daxildir. Tarixən Azərbaycanda ixtisaslaşdırılmış heyvandarlıq, quşçuluq, pambıqçılıq, taxılçılıq, baramaçılıq, arıçılıq, meyvəçilik və tərəvəzçilik sahələri inkişaf etdirilmişdir. Aqrar sahə xammal bazası kimi ölkə əhalisinin tələbatını və ərzaq təhlükəsizliyini təmin

edən çoxçeşidli məhsul istehsalına imkan yaratmışdır. Aqrar sahənin əlaqələri və tərkibinin prinsipial sxemi 7.1 saylı sxemdə əks etdirilmişdir.

| | | | | |
|---|---|---|---|---|
| Kimya və neft kimya | Aqrar sahənin iqtisadi fəaliyyət növləri ilə əlaqəsi | Aqrar sahənin əlaqələri və tərkibi | İxtisaslaşan sahələr | Heyvandarlıq |
| Qaz emalı | | | | Quşçuluq |
| Neft emalı | | | | Pambıqçılıq |
| Maşınqayırma | | | | Taxılçılıq |
| Elektrotexnika | | | | Üzümçülük |
| Yüngül və yeyinti sənayesi | | | | Baramaçılıq |
| Tikinti | | | | Tütünçülük |
| Nəqliyyat | | | | Arıçılıq |
| Ticarət və iaşə | | | | Tütünçülük |
| Ali və orta ixtisas məktəbləri | | | | Meyvəçilik və tərəvəzçilik |
| Logistika | | | | Ət məhsulları |
| Pambıq | Xammal bazası | | Hazır məhsulun istehsalı sahələri | Süd məhsulları |
| Kəsilmiş ət | | | | Çörək və bulka məmulatları |
| Yetişdirilən balıq | | | | Qənnadı məmulatları |
| Şəkər çuğunduru | | | | Spirtli içkilər |
| Dənli bitkilər | | | | Alkoqolsuz içkilər |
| Digər xammallar | | | | Meyvə - tərəvəz konservləri |
| | | | | Digər məhsullar |

***Sxem 7.1.1. Aqrar sahənin əlaqələri və tərkibi.***

Qeyd edildiyi kimi Azərbaycanın kənd təsərrüfatında bitkiçilik və heyvandarlığın xüsusi çəkisi getdikcə yeniləşir. Əkinə yararlı torpaq sahələrinin geniş yayılması, yüksək temperaturlu günlərin üstünlük təşkil etməsi həmin sahələrin inkişafına təminat yaratmışdır.

Azərbaycanda ixtisaslaşdırma dərəcəsinə görə bir-birindən fərqlənən üç qrup kənd təsərrüfatı rayonu mövcuddur. Onlara:



- suvarılan kənd təsərrüfatı rayonları (Kür – Araz, Lənkəran, Samur - Dəvəçi ovalıqları, Naxçıvanın Arazboyu düzənlikləri);
- dəmyə kənd təsərrüfatı rayonları (dağətəyi və orta dağlıq əraziləri);
- otlaq və heyvandarlıq rayonlar.

Azərbaycanda kənd təsərrüfatının ixtisaslaşan sahələrinə pambıqçılıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik, kartofçuluq, badamcıqlıq, arıçılıq, tütünçülük, çəltikçilik və digərləri daxildir.

Aqrar sahənin qeyd edilən istiqamətlər üzrə diqqəti çəkən inkişafı ilə yanaşı onun intensivləşdirilməsinin aşağıdakı prioritet istiqamətlərinə diqqət artırmalıdır:

- torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmini;
- kənd təsərrüfatının suvarma və meliorasiya təminatını bərpası
- aqrar bölmənin maddi texniki bazasının möhkəmləndirilməsi;
- aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafının dəstəklənməsi ;
- rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması ;
- aqrar bölmənin maliyyə vəziyyətinin yaxşılaşdırılması;
- aqrar bölmənin hüquqi normativ bazasının təkmilləşdirilməsi;
- aqrar bölmənin elmi – metodiki təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi.

## 7.2. Aqrar emal sənayesinin formalaşması və inkişafı.

Aqrar emal sənayesinin əsasını kənd təsərrüfatının xammal bazası, hazır məhsul istehsal edən müəssisələr və logistikası sistemi təşkil edir. Azərbaycanda regionların sosial - iqtisadi inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramlarında, eləcə də "Kənd təsərrüfatı məhsulları istehsal-

çılarına dövlət dəstəyi haqqında" ölkə Prezidentinin sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində dinamik inkişafını təmin edən amillərdən olmuşdur. Bütün bunlar kənd təsərrüfatı məhsullarının ÜDM-in tərkibindəki xüsusi çəkisini artmasına təminat yaratmışdır (cədvəl 7.2.1.).

*Cədvəl 7.2.1.*

**Azərbaycanda ÜDM-in tərkibində kənd, meşə və balıqçılıq təsərrüfatı məhsullarının xüsusi çəkisi faizlə*)**

| İllər | Ümumi daxili məhsul (ÜDM) mlyn. man | Kənd meşə və balıqçılıq təsərrüfatı məhsulların həcmi mlyn. man | Kənd, meşə və balıqçılıq, təsərrüfatı məhsullarının ÜDM–də xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| 2005 | 12522,5 | 1867,7 | 14,9 |
| 2010 | 42465 | 3968,1 | 9,3 |
| 2011 | 52082 | 4685 | 9,0 |
| 2012 | 54743,7 | 5037,1 | 9,2 |
| 2013 | 58182 | 5446 | 9,4 |
| 2014 | 59014,1 | 5432,1 | 9,2 |
| 2015 | 54352,1 | 5837,9 | 10,7 |

*) *Azərbaycanın sənayesi. Bakı "DSK", 2016, - s. 35; 178;*

Əldə edilən, nailiyyətlərdə aqrar sferada həyata keçirilən digər təşkilati tədbirlərin təsiri də danılmazdır. Əkinəyararlı torpaq sahələrinin məhdudluğu nəzərə almaqla, hər hektar sahədən yüksək məhsuldarlıq əldə edilməsi məqsədlə 700-ə yaxın özəl toxumçuluq və tingçilik təsərrüfatı yaradılmış, reproduksiyalı toxum satışına qiymətinin müvafiq olaraq 30-40%-i



və ting satışına görə 30% əlavə maliyyə vəsaiti ayrılmış və nəticədə sahibkarlarda yüksək keyfiyyətli toxum və ting istehsalını artırmağa maraq yaranmışdır

Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlıq da dinamik inkişafını intensiv şəkildə davam etdirir. Heyvandarlığın intensiv inkişaf etdirilməsində mühüm rol oynayan süni mayalama tədbirləri ildən-ilə genişlənir. Cənubi Qafqaz regionunda ilk dəfə olaraq ölkəmizdə süni mayalanma mərkəzi fəaliyyət göstərir.

"Kənd təsərrüfatı məhsulları istehsalçılarını toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 avqust tarixli sərəncamına müvafiq mineral gübrələrin, "Aqrolizinq" ASC tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına alınan kənd təsərrüfatı texnikasının və texnoloji avadanlığın saxlanılması üçün xüsusi anbarların tikilməsi və alınan mineral gübrələrin paylanması üçün ayrı-ayrı bölgələri əhatə edən regional loqistik bazaların yaradılması istiqamətində işlər davam etdirilir. Artıq Şəki, Sabirabad, Xaçmaz regional logistikası bazalar tikilib istifadəyə verilmişdir ki, bu da ölkədə ərzaq təhlükəsizlik probleminin həllinə öz töhfəsini verməkdədir.

Həyata keçirilən digər təşkilati tədbirləri içərisində iri özəl taxılçılıq təsərrüfatlarının yaradılması öz müsbət nəticəsini verir.

Aqrar sektorda emalçılar ilə istehsalçılar arasında kooperasiya münasibətlərinin möhkəmləndirilməsi, fermerlərin dövlətin dəstək mexanizmlərindən daha səmərəli istifadə etməsi məqsədilə regionlarda 50 başlıq südlük cins iribuynuzlu təsərrüfatların yaradılmasına başlamışdır.

Yerli istehsal sahələrinin yenidən qurulması və uğurla həyata keçirilən aqrar islahatların aparılması bir sıra yerli qida məhsullarını istehsalının artmasına və ölkəmizə idxalının azal-

masına səbəb olmuşdur. Yerli məhsullar daxili bazarımızı zənginləşdirmiş, əsas qida məhsullarına idxaldan asılılığımızı azaltmışdır.

Azərbaycanda aqrar (qida, içki və tütün) sənaye istehsal edilən məhsulların həcminə görə emal sənayesi sahələri arasında 1-ci yeri tutur. 2015ci ildə qida, tütün məhsullarının və içkinin istehsalı milyard manata çatmış, və 2005-ci illə müqayisədə 2,3 dəfə artmışdır. Aqrar emal sənayesində 2015-ci ildə fəaliyyət göstərən 652 müəssisədə 31,6 min nəfər işçi çalışmışdır.

Şəkər, yumurta, tərəvəz və meyvə konservləri, marqarin, un, çörək və çörək məhsulları, ət və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 90%-dən yüksəkdir.

Müasir texnologiyalara əsaslanan aqrar-emal müəssisələri şəbəkəsinin formalaşması nəticəsində, ölkədə emal məhsullarının istehsalı üzrə dinamik artım təmin edilmişdir.

Bütünlükdə 2004-2015-ci illərdə ölkə ərazisində 9 çörək məmulatı istehsalı;

- tutumu 152 min ton olan 6 logistik mərkəz;
- 3 ixtisaslaşdırılmış yaşıl market (o cümlədən 9 min tonluq 3 logistik mərkəz, 500 ədəd fermer mağazası);
- illik istehsal gücü 3,1 min ton quş əti, 11 milyon ədəd damazlıq və 26,4 milyon ədəd əmtəəlik yumurta, 2,8 milyon ədədlik inkubator olan 5 quşçuluq təsərrüfatı;
- 2700 başlıq 6 cins heyvandarlıq kompleksi;
- 45,4 ha ərazidə 9 istixana kompleksi;
- gündəlik istehsal gücü 97 ton olan 6 çörək zavodu;
- illik emal gücü  min ton olan meyvə - tərəvəz emal zavodu;
- illik emalı gücü 25 min ton olan 2 süd zavodu;
- illik istehsal gücü 22 min ton olan un istehsalı müəssisəsi;
- 100 ha ərazidə çay plantasiyası və çayın ilkin emalı



müəssisəsi;

- illik istehsal gücü 129,7 min ton qüvvəli yem olan 3 yem zavodu yaradılmışdır.

Son illərdə 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kredit verilmiş, bu da istehsalın artmasına, ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatlarına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisələrinə 171 milyon manat güzəştli kreditlərin verilməsi daxili tələbatın yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, bu məhsulların ixracına da imkan yaratmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı"da qeyd edir ki, ölkənin qeyri-neft sektorunun inkişafında əsas prioritet sahə olan kənd təsərrüfatının inkişafına yönələn ardıcıl islahatlar və yeni texnologiyaların cəlb edilməsi davam etdiriləcəkdir. Aqrar bölmənin inkişafı istiqamətləri aşağıdakılardan ibarətdir:

- aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin inkişafı, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasının stimullaşdırılması, əsas ərzaq məhsulları ilə özünütəminetmə tədbirlərinin davam etdirilməsi;
- bitkiçilikdə və heyvandarlıqda ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və bu sahədə təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması;
- iri taxılçılıq və ya toxumçuluq, tingçilik, üzümçülük inəkçilik, fındıqçılıq, intensiv bağçılıq təsərrüfatlarının yaradılması;
- regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və satışı məqsədi ilə istixana, soyuducu və taxıl anbar komplekslərinin (logistika mərkəzlərinin) yara-

dılmasının davam etdirilməsi;

- aqrar bölmənin və emal infrastrukturunun maddi texniki bazasının möhkəmləndirilməsi və bazar prinsipləri əsasında fəaliyyət göstəriləcək yeni strukturların yaradılması və s.

Göründüyü kimi, aqrar sahənin davamlı inkişafının qarşıya qoyduğu bu vəzifələrin bir qismi ümumrespublika və makroiqtisadi səciyyə daşıyır.

### 7.3. Aqrar sahənin təşkilati, texniki-iqtisadı durumu və investisiya təminatı.

Azərbaycanda aqrar sfera və onun əsasən xammal bazası sayılan kənd təsərrüfatı ölkədə ərzaq təhlükəsizliyinın təmin edilməsində mühüm rol oynayır. Bu sferanın (sahənin) inkişafı onun maddi-texniki bazasının möhkəmləndirilməsindən asılıdır. Son 15 ildə kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyanın məbləği 3755 mlyn. man. təşkil etmişdir ki, onların da 74,3%-i daxili investisiyalardır. Buna baxmayaraq, hazırda kənd təsərrüfatının maddi-texniki bazası zəifdir. Belə ki, 2015-ci ildə ölkədə kotanların sayı 1990-cı ilə nisbətən 4,4 dəfə, kultivatorların sayı 7,2 dəfə, toxum səpənlərin sayı 6,4 dəfə, otbiçənlərin sayı 3 dəfə, sıxıb bağlayanların sayı 4,8 dəfə azalmışdır. Hazırda kənd təsərrüfatında 1990-cı il səviyyəsinə çatmaq üçün təqribən 10 min kotan, 6 min kultivator, 7,5 min toxumsəpən, 4 min otbiçən, 3 min ot sıxıb bağlayan tələb olunur. Bu sahədə həyata keçirilə bilən tədbirlərə mənfi təsir göstərilən amillərdən biri mövcud müəssisələrin böyük əksəriyyətinin kiçik müəssisələr statusunda olmasıdır.

Həyata keçirilən tədbirlər nəticəsində aqrar sferanın əhatə etdiyi sahələrdə əsas istehsal fondlarının (ƏİF) dəyəri 3292,0 mlyn. manat artmışdır. Nəticədə, əsas kapitala yönəldilən investisiyalarla ƏİF-in dəyəri arasında əsasən üzvü əlaqə yaranmışdır (sxem 7.3.1).






*Sxem 7.3.1.* **Aqrar sferanın əhatə etdiyi sahələrdə əsas kapitala yönəldilən investisiyanın əsas istehsal fondlarının dəyəri arasındakı asılılıq.**

Həmin üzvü əlaqə bütünlükdə kənd təsərrüfatı müəssisələri və sair təşkilatlarda ƏİF-in strukturuna öz təsirini göstərmişdir. Belə ki, 2005-2015-ci illərdə həmin müəssisələrdə binaların, tikililərin və ötürücü qurğuların xüsusi çəkisi 3,3%; nəqliyyat vasitələrin xüsusi çəkilişi 0,3%; işçi və məhsuldar mal-qaranın xüsusi çəkisi 1,2% artmış, maşın və avadanlıqların xüsusi çəkisi isə 2,6 % azalmışdır. Bütünlükdə ƏİF-in tərkibində onların aktiv hissəsinin xüsusi çəkisi müqayisə edilən dövrdə 19,5%-dən 18,4%-ə enmişdir ki, bu da ƏİF-in texniki səviyyəsinin aşağı olmasından xəbər verir (cədvəl 7.3.1.).

*Cədvəl 7.3.1.*

**Kənd təsərrüfatı müəssisələri və sair təşkilatlarda əsas istehsal fondlarının strukturu (faizlə) *)**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| Cəmi o cümlədən: | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
| Binalar, tikililər, ötürücü qurğular | 77,4 | 70,9 | 77,7 | 77,0 | 76,9 | 80,7 |
| Maşın və avadanlıqlar | 13,8 | 19,5 | 15,1 | 15,4 | 14,5 | 11,2 |
| Nəqliyyat vasitələri | 3,4 | 3,4 | 4,7 | 4,9 | 4,9 | 3,7 |
| İşçi və məhsuldar mal-qara | 2,3 | 1,7 | 1,3 | 1,2 | 1,2 | 3,5 |
| Çoxillik əkmələr | 0,9 | 0,9 | 0,8 | 1,0 | 1,0 | 0,1 |
| sair | 2,2 | 3,6 | 0,4 | 0,5 | 1,5 | 0,8 |

**) Azərbaycanın statistik göstəriciləri Bakı, "DSK", 2016, s.495*



## 7.4. Aqrar sektorun istehsal vasitələri ilə təmin edilməsində "Aqrolizinq" ASC-nin rolu.

Aqrar sahənin istehsal vasitələrinə olan tələbatın ödənilməsində "Aqrolizinq "ASC-nin fəaliyyəti danılmazdır. Həmin cəmiyyət ölkə iqtisadiyyatında aparılan struktur dəyişikliklərinin məntiqi nəticəsinə yaradılmışdır. 1997-ci ildə Nazirlər Kabinetinin müvafiq, qərarı ilə Material Ehtiyatları Nazirliyi ləğv edildi. Onun bazasında "Azərkontrak Dövlət Kontrakt Kooperasiyası" yaradıldı. "Azərkirayə" müəssisəsi "Azərkontrakt" SC-nin sərəncamına verildi. 1999-cu ilin dekabrında isə "Azərkirayə"nin bazasında "Azərilizinq" müəssisəsi yaradıldı. Hələ o zaman, müəssisənin yaradılmasında məqsəd mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatlara, o cümlədən xarici firma və şirkətlərə mümkün olan hər cür lizinq xidmətləri göstərmək idi.

İlk vaxtlar "Azərilizinq" öz fəaliyyətində yerqazan və yol inşaatı texnikasının, nəqliyyat vasitələrinin və ixtisaslaşdırılmış nəqliyyatın, kiçik mexanikləşdirmə vasitələrinin, elektron-ölçü və məişət texnikasının qısa və uzunmüddətli lizinqi ilə məşğul olurdusa, tədricən onun fəaliyyət dairəsi daha da genişləndi. Artıq bu xidmət növləri ilə yanaşı, "Azərilizinq" öz müştərilərinə maşın və mexanizmlərin, nəqliyyat vasitələrinin xidmət heyəti ilə birgə təqdim olunması, ağır çəkili və uzun ölçülü yüklərin daşınması, habelə lizinqə verilən texniki vasitələrin təmiri və onlara xidmətin göstərilməsi kimi yüksək səviyyəli lizinq əməliyyatları təklif edirdi.

Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü il tarixli sərəncamı əsasında "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. "Aqrolizinq" ASC-nın əsas funksiyaları kənd təsərrüfatı məhsulları istehsalçılarına maddi-texniki xidmətlər göstərməkdən, onları yeni texnika və

texnoloji avadanlıqlar, ehtiyat hissələri, mineral gübrələr, xəstəlik və zərərvericilərə qarşı mübarizə preparatları və cins damazlıq heyvanlarla təmin etməkdir. Hazırda cəmiyyətin tabeçiliyində 55 rayon aqroservis filialı və onların nəzdində 100-dən çox mexanikləşdirilmiş dəstə, 4 regional təchizat bazası və 3 logistik gübrə bazası fəaliyyət göstərir.

"Aqrolizinq" ASC fəaliyyətə başladığı 2005-ci ildən bu günə qədər 11 min ədəd kənd təsərrüfatı texnikası və 67 dəst texnoloji avadanlıqlar alınmış və quraşdırılmış, 500 min ton azot, superfosfat və nitroammofoska gübrəsi və 381,8 ton herbisid və pestisidlər gətirərək məhsul istehsalçılarının ixtiyarına verilmişdir. Göstərilən tədbirlərin həyata keçirilməsi üçün cəmiyyətə təkcə 2005-2010-cu illər ərzində dövlət büdcəsindən, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan və Dövlət Neft Fondundan, habelə Yaponiya hökumətinin ayırdığı qrant hesabına 328,9 mlyn. manat vəsait ayrılmışdır. Ayrılmış vəsaitin 161 mlyn. manatı kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqların, 85,7 mlyn. manatı mineral gübrə və pestisidlərin, 4,1 mlyn. manatı buğda toxumunun və 9,5 mlyn. Manatı cins damazlıq heyvanların alınmasına istifadə olunmuşdur.

Ümumiyyətlə, "Aqrolizinq" ASC tərəfindən 2005-2014-cü illərdə 20985 ədəd kənd təsərrüfatı texnikaları, o cümlədən 1815 ədəd taxılyığan kombayn, 6304 ədəd traktor və 12866 ədəd traktora qoşulan digər kənd təsərrüfatı texnikaları alınmış, kənd təsərrüfatı istehsalçılarına satılmış və yaxud lizinqə verilmişdir. Belə ki, 14564 ədəd kənd təsərrüfatı texnikaları, o cümlədən 527 ədəd taxılyığan kombayn, 5241 ədəd traktor və 8796 ədəd traktora qoşulan digər kənd təsərrüfatı texnikaları 8415 nəfər hüquqi və fiziki şəxslərə lizinqə verilib və ya lizinq yolu ilə satılıb.

Lizinq xidmətləri ilə yanaşı, Səhmdar Cəmiyyətin rayonlardakı aqroservis filialları vasitəsilə fermerlərə müxtəlif xidmətlər də göstərilir. 2014-cü ildə "Aqrolizinq" ASC-yə məxsus



1483 ədəd taxılyığan kombayn və 5483 ədəd müxtəlif markalı traktorlar və onlara qoşulan kənd təsərrüfatı texnikalarının iştirakı ilə dənli bitkilərin biçini, şum işləri və digər aqrotexniki xidmətlərin həyata keçirilməsi təmin edilmişdir.

Ölkə Prezidentinin 2014-cü il 16 aprel tarixli fərmanı əsasında Nazirlər Kabinetinin 2014-cü il 13 avqust qərarı ilə təsdiq edilmiş qaydalara əsasən "Aqrolizinq" ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının ilkin dəyərinə 40 faiz həcmində güzəşt tətbiq edilir. Həmin güzəştlərin ödənilməsi üçün dövlət büdcəsindən 500 min manat vəsait yönəldilmişdir.

Səhmləri 100% dövlətə məxsus olan, nizamnamə kapitalı 194,5 mlyn. manat təşkil edən, Kənd Təsərrüfatı Nazirliyinin idarəçiliyində fəaliyyət göstərən "Aqrolizinq" ASC 2016-cı ilin 6 ayı ərzində kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə 22,5 mlyn. manatlıq müxtəlif təyinatlı maşın və avadanlıqlar satmışdır. Onların içərisində 296 ədəd müxtəlif növ traktor, 121 ədəd taxıl yığan kombayn, 106 ədəd kotan, 31 ədəd ot dırmığı, 19 ədəd bağarası frez, 13 ədəd ot və küləş presləyən maşın, 8 ədəd ot biçən və 141 ədəd müxtəlif maşın və avadanlıqlar olmuşdur.

Beləliklə "Aqrolizinq" ASC aqrar sahənin müasir istehsalı vasitələri ilə təminatında öz rolunu aşağıdakılarda göstərmişdir:

- mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas vəsaitlər sürətlə təzələnir;
- lizinq həm də sahibkarlığın fəallaşdırılması hesabına büdcəyə vergi daxilolmalarının artırılmasıdır;
- istehsal sferasına investisiyaları fəallaşdırır;
- məhsul istehsalçılarının maliyyə vəziyyətini yaxşılaşdırır;
- kiçik və orta biznesin rəqabət qabiliyyətliliyini yüksəldir;
- satış bazarında rəqabət qabiliyyətli məhsulların istehsalı

üçün yeni maşın və mexanizmlərin, texnologiyaların əldə edilməsinə imkan verir;

- yeni iş yerlərinin yaradılmasını təmin edir;
- məhsulun itkisiz yığılması, daşınması və saxlanmasına münbit şərait yaradır.

## 7.5. Aqrar sahəsinin qeyri-neft sənaye sahələrinin inkişafına təsiri.

Aqrar sahənin inkişafı digər qeyri-neft sənaye sahələrinin inkişafına da öz müsbət təsirini göstərir. Həmin sahələrə aşağıdakıları aid etmək olar:

- toxuculuq sənayesi;
- geyim sənayesi;
- dəri və dəri məmulatları istehsalı sferası;
- ayaqqabı istehsalı;
- çörək və un məmulatları sferası;
- kənd təsərrüfatı maşınları və avadanlıqları istehsal edən sahələr;
- nəqliyyat sferası;
- ticarət və iaşə;
- yeyinti sənayesi;
- kimya, neft-kimya və elektron texnika sənayesi;
- məhsulların qablaşdırılması üçün karton istehsalı sferası;
- kənd təsərrüfatı məhsullarının marketinqi ilə məşğul olan sosial infrastruktur obyektləri və s.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ərzaq bazarının inkişafı şəraitində kənd təsərrüfatı məhsullarının satışı və bölgüsünün formalaşdırılmasının zəruriliyi önəmli rol oynayır. Beləliklə, kənd təsərrüfatı məhsullarının tədarük sistemi, topdansatış bazarlarındakı konyunktur dəyişikliklərinə çevik şəkildə reaksiya göstərmək iqtidarında olmalıdır. İnkişaf etmiş ölkələrdə topdansatış bazarlarının fəaliyyəti xüsusi qanunvericilik aktları vasitəsilə tənzimlənir. Bu zaman bazarın təşkilati qaydaları əməliyyatların aparılmasının qaydaları, eləcə də təsərrüfat subyektlərinin hüquqi statusu, kənd təsərrüfatı əmtəə istehsalçılarının müflisləşdirilməsi və bankla bağlı qarşılıqlı münasibətlərin hüquqi prosedurları müəyyənləşdirilir. Topdansatış bazarları sistemində ən mühüm strukturlardan biri kontrakt əsasında əsas növ kənd təsərrüfatı məhsullarının region fondlarının formalaşması üzrə tədarük təşkilatları hesab edilir. Ölkənin ərzaq məhsullarına olan tələbatında prioritet rol oynayan məhsul növləri seçilməli, həmin məhsul növlərinin regional və topdansatış strukturları formalaşdırılmalıdır.

Ərzaq təhlükəsizliyi taxıl məhsulları və süd məhsulları üzrə formalaşdırılmalıdır. Hansı ki, bu məhsullar ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində prioritet rola malikdir. Təbii ki, regional və topdansatış strukturlarının formalaşdırılması həmin prioritet sahələrin maddi-texniki resurslara olan tələbatını, qiymət siyasətinin tənzimlənməsini, həmin sahədə fəaliyyət göstərən əmtəə istehsalçılarının kredit resurslarına olan tələbatının ödənilməsini, maliyyə proteksionizmini və digər məsələləri də əhatə etməlidir. Dövlətin mərkəzləşdirilmiş orqanları regional strukturlarla birlikdə müəyyənləşdirilmiş prioritet məhsullarının istehsal həcmlərini konkret 5 il ərzində müəyyənləşdirilməli və bu zaman əhalinin tələbatı, eləcə də sənayenin xammala olan ehtiyacları dövlətin ərzaq ehtiyatları fondunun həcmi və sair əsas götürülməlidir. Topdansatış bazarlarının infrastrukturlarından biri də ərzaq tədarükü korporasiyaları hesab edilir ki, bura da satış təşkilatları, istehsal ticarət birlikləri, topdan ərzaq satışı bazaları və s. Aiddir. İnfrastruktur sistemləri vasitəsilə kənd təsərrüfatı əmtəə istehsalçıları istehsal eldikləri əsas növ heyvandarlıq məhsullarını reallaşdırırlar. Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə yaradılan infrastruktur sistemləri, o cümlədən təşkilati strukturlar satıcılarla alıcılar arasındakı vasitəçilərin sayının azaldıl-

masına səbəb olur ki, bu da məhsulun qiymətinin sabitləşdirilməsində əhəmiyyətli rol oynayır. Kənd təsərrüfatı məhsullarının ticarətində aralıq vasitəçilərin sayının azalması qiymətlərin səviyyəsinin aşağı olmasına gətirib çıxarır. İnkişaf etmiş ölkələrdə ticarət vasitəçiləri, yəni möhtəkirlər təbəqəsinin xüsusi çəkisi 5-10% arasında dəyişdiyi halda, hazırda respublikamızda bu təbəqənin xüsusi çəkisi bir sıra hallarda 50-60%-ə bərabər olur.

Kənd təsərrüfatı məhsullarının tədarükü sistemi aqrar-əmtəə istehsalçılarının maliyyə fəaliyyətinin gəlirliyinin təmin edilməsinə yönəldilmiş tədbirlərdən biridir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətini zərərlə başa çatdırması satış fəaliyyətində yaranan uyğunsuzluqlardan qaynaqlanır. Belə ki, satış fəaliyyətinin nəticələri zərərlə başa çatdığı halda kənd təsərrüfatı əmtəə istehsalçılarının müflisləşməsi təhlükəsi qaçılmaz xarakter daşıyır. Kənd təsərrüfatı əmtəə istehsalçılarının müflisləşməsi isə kənd ərazilərinin inkişafında destruktiv tendensiyaların yaranmasına və bütövlükdə istehsal prosesinin daxil olmasına gətirib çıxarır və eləcə də ölkənin ərzaq təhlükəsizliyi sistemində qərarlaşan destruktiv təzahürlər kimi dəyərləndirilməlidir. Odur ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının müflisləşməsinin qarşısının alınmasına yönəldilmiş tədbirlər aktivləşdirilməli və bu zaman istehsal və satış proseslərindəki uyğunsuzluqlar aradan qaldırılmalıdır. Bundan əlavə, dövlət tərəfindən müflisləşmə təhlükəsinin ardan qaldırılması ilə bağlı sanasiya tədbirləri həyata keçirilməlidir ki, bu tədbirlər nəinki istehsal böhranının qarşısının alınmasına, eləcə də məhsul istehsalının artırılmasına yönəldilmiş dövlət himayəçilik tədbirlərinin həyata keçirilməsini özündə əks etdirir. Bu yolla müflisləşmə təhlükəsi olan təsərrüfat subyektlərinin maliyyə vəziyyəti yaxşılaşdırılmalı, onların səmərəli geniş təkrar istehsal rejimində işləməsi üçün zəruri olan tədbirlər həyata keçirilməlidir.



# MÖVZU 8. YÜNGÜL SƏNAYENİN İNKİŞAFI

## 8.1. Yüngül sənayenin xarakterik xüsusiyyətləri və tarixi inkişaf meylləri.

Yüngül sənaye emal sənayesinin alt sahələrinə daxil olub, qeyri–neft sənaye sektorunun tərkib hissəsini təşkil edir. Bu sənaye sahəsi özünün strukturu, xammal bazası və spesifik xüsusiyyətləri ilə fərqlənir. Yüngül sənaye özünəməxsus tarixi inkişaf yolu keçmiş və hazırda mürəkkəb texnologiyalara əsaslanan, çoxçeşidli xalq istehlakı malları istehsal edən sahədir.

Yüngül sənaye əhalini parça, geyim, ayaqqabı əşyalarla təmin edən sahələr qrupundan ibarət olan sahə və yarımsahələri özündə birləşdirir. O emal sənayesinə aid olmaqla toxuculuq, ayaqqabı, gön – dəri, xəz – dəri, tikiş və s. bu kimi sahələri özündə birləşdirir. Onun alt – sahələrinin təsnifatı 8.1.1. saylı sxemdə əks etdirilmişdir.




*Sxem 8.1.1. Yüngül sənayenin alt sahələrinin təsnifatı.*

Özündə 20-dən çox alt sahələri birləşdirən yüngül sənaye kənd təsərrüfatı, maşınqayırma və kimya sənayesi ilə sıx əlaqəli fəaliyyət göstərən sahədir. Kənd təsərrüfatını yüngül sənayeni ayrı-ayrı xammal növləri ilə, maşınqayırma - avadanlıqlarla, kimya sənayesi isə liflərlə və boyalarla təmin edir.

Azərbaycanın qədim və ənənəvi sahələrindən biri olan yüngül sənaye ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı baxımından mühüm potensiala malikdir. Ölkənin yüngül sənaye müəssisələri əsasən pambıq, yun, barama, və gön-dəri xammalı məhsullarının emalına əsaslanır. Yüngül sənayedə istehsal edilən məhsullardan geyim kimi istifadə etməkdən başqa mebel, aviasiya, avtomobil, yeyinti, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə və s. sahələrdə istifadə edilir.

Azərbaycanda ən iri toxuculuq fabriki Zeynalabdin Tağıyev tərəfindən 1897-ci ildə yaradılmış və "Tağıyevin Qafqaz Səhmdar Cəmiyyəti lifli məmulatlar emal edən fabrik" adı altında fəaliyyətini davam etdirmişdir.

Sonralar bu fabrik genişləndirilərək ən güclü müəssisəyə çevrilmişdir.

Yüngül sənaye sahəsində öz xüsusi çəkisi olan Şəki istehsal birliyidir. Bu birliyin əsası, hələ 1827-ci ildə Şəki (Nuxa) ipəkçilik manufakturası cəmiyyəti, bir qədər sonra 1829-cu ildə Şəkidə Xanabad ipəkçiliyi məktəbi fəaliyyətə başlamış, Xanabad ipək müəssisəsi tikilməklə fabrikin əsası qoyulmuşdur. Birliyə çevrilən bu müəssisə ən güclü sənaye kombinatı olub, 1986-cı ildə 37,2 mln. manatlıq ipək parça istehsal edərək, SSRİ-də təbii ipək parça istehsalının 19%-i verməklə yüksək iqtisadi gəlir əldə etmişdir. XIX əsrin ortalarında Qafqazda emal olunan xam ipəyin 2/3-ni Azərbaycan verirdi. 1861-ci ildə Şəkidə böyük baramaaçma fabriki tikildi. 1887-ci ildə təşkil olunmuş "Qafqaz ipəkçilik stansiyasının" Azərbaycanda fəaliyyət göstərən Şəki, Ağdam, Qax və s. şöbələrinin ipək mədəniyyətini əhali arasında yayması, barama istehsalının xeyli artmasına təsir etmişdir.



Yüngül sənaye müəssisələrindən, Ordubad ipək müəssisəsi də qədim tarixə malikdir. Özünün məhsulu ilə şöhrət qazanmışdır.

Qarabağ ipək kombinati 1926-28-ci illərdə yaradılaraq, yüksək səviyyədə toxuculuq dəzgahları ilə təchiz edilmişdi.

Yazılı məlumatlara görə Azərbaycanda xalçaçılıq çox qədimdən - eramızdan əvvəl tunc dövründə başlamışdır. Azərbaycanda boyaçılığın tarixi xalçaçılıqla bir dövrə düşür. Lakin bu sahələrin sənaye baxımdan inkişafı XVIII əsrin sonunda və XIX əsrdə geniş vüsət almışdır. Gəncə toxuculuq kombinati, Gəncə xalça-mahud kombinatı 1927-ci ildə yaradılmışdır. Həmin illərdə çox zəif gücə malik kombinat yalnız 70-80-ci illərdə genişləndirilmiş və gücü 10 dəfələrlə artırılaraq yüksək nəticələr qazanılmışdır.

Azərbaycanda yüngül sənayenin inkişafı əsasən yerli xammalın hesabına təmin edilmişdir.

Respublikada pambıq, yun, ipək (barama), gön – dəri, quş tükü və s. bu kimi təbii xammal növləri üzrə istehsal sahələri hələ qədim dövrlərdən inkişaf etdirilmişdir (cədvəl 8.1.1.).

Sovet İttifaqı dövründə respublikada pambığın ilkin emalından tutmuş, ondan hazır məhsul istehsalına qədər texnoloji prosesi özündə cəmləşdirən kompleks müəssisələr mövcud idi. Yüngül sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış müəssisələr əsasən Bakı, Sumqayıt, Gəncə, Şəki, Yevlax, Xankəndi şəhərlərində, eləcə də Ordubad inzibati rayonunda fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrasına uyğun təkcə 2006-2014-cü illərdə müasir avadanlıqlarla təchiz edilmiş yeni yüngül müəssisələri yaradılmış və bir sıra mövcud müəssisələr yenidən qurulmuşdur.

*Cədvəl 8.1.1.*

**Azərbaycanda yüngül sənaye sahəsi üçün təbii xammal istehsalının 1940-2015-ci illər üzrə dinamikası.**

| | 1940 | 1960 | 1980 | 1990 | 2000 | 2010 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Pambıq istehsalı, 1000 t | 154,2 | 365,5 | 753,5 | 542,9 | 91,5 | 38,2 | 35,2 |
| Pambıq əkin sahələri, 1000 ha | 188,1 | 220,2 | 249,6 | 263,9 | 101,2 | 30,2 | 18,7 |
| Məhsuldarlıq, ton/ha | 0,81 | 1,65 | 3,01 | 2,05 | 0,9 | 1,26 | 1,88 |
| Yun (fiziki çəkidə), 1000 t | 4,2 | 8,8 | 10,7 | 11,2 | 10,9 | 15,6 | 17,0 |
| Qoyun və keçilər 1000 ədəd | 2546,9 | 4850,7 | 5306,4 | 5513,6 | 5773,8 | 8331,2 | 8677,1 |
| Barama, 1000t | 2,4 | 3,1 | 5,0 | 4,9 | 0,1 | 0,01 | 0,24 |



## 8.2. Yüngül sənayedə baş verən institusional dəyişiklik.

AR DSK-nın məlumatlarına görə 01.01.2016-cı il tarixə ölkənin yüngül sənayesində 298 müəssisə fəaliyyət göstərir, lakin onların sayı 2010-cu ilə nisbətən 76 vahid və yaxud 20,3% azalmışdır ki, bu da toxuculuq, geyim və ağac məmulatlarının istehsalı üzrə alt sahələr üçün xarakterikdir. Bütünlükdə, 2015-ci ildə bütün yüngül sənaye müəssisələrinin 32,6%-i mebel; 22,8%-i toxuculuq; 17,5%-i geyim, 11,7%-i ağac məmulatları; hər biri 7,7% olmaqla dəri məmulatları və ayaqqabıların istehsalı, eləcə də kağız və karton istehsalı sferasında cəmləşmişlər.

Yüngül sənaye müəssisələrinin işçilərinin sayına görə bölgüsünə nəzər yetirərkən aydın olur ki, 2010-cu ildə bütün müəssisələrin 84,5%-i-kiçik; 15,5%-i- orta və iri müəssisələr təşkil etmişdir, lakin 2015-ci ildə həmin nisbət orta və iri müəssisələrin xeyrə uyğun olaraq: 62,7% və 37,3% nisbətində formalaşmışdır.

Yüngül sənaye müəssisələrinin mülkiyyət növləri üzrə bölgüsü qeyd edilən illər ərzində əsasən dəyişməmiş və qeyri - dövlət mülkiyyətində olan müəssisələrin xüsusi çəkisi 90% civarında olmuşdur (cədvəl 8.2.1.).

Respublikanın emal sənayesinin digər alt sahələrindən fərqli olaraq, yüngül sənaye müəssisələrində fərdi sahibkarların sayı 2010-2015-ci illərdə 473 nəfər və yaxud 199% artmışdır. Dəri, dəri məmulatları və ayaqqabı istehsalı sferası istisna olmaqla digər alt sahələrdə fərdi sahibkarların sayı 106,7%-lə 196,2% arasında artmış, ən aşağı göstərici ağac məmulatları istehsalında (106,7%), yüksək göstərici isə adı çəkilən kağız və karton istehsalı sferasında mümkün olmuşdur (cədvəl 8.2.2.).

*Cədvəl 8.2.1.*

**Azərbaycanın yüngül sənayesinin alt – sahələri üzrə fəaliyyət göstərən müəssisələrin sayı, (vahid)*)**

| Alt sahələr | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Toxuculuq sənayesi | 85 | 77 | 72 | 72 | 66 | 68 | 80,0 |
| Geyim istehsalı | 90 | 80 | 75 | 75 | 57 | 52 | 57,8 |
| Dəri və dəri məmulatlarının istehsalı | 21 | 20 | 21 | 23 | 22 | 23 | 109,5 |
| Ağacdan məmulatların istehsalı | 73 | 72 | 68 | 51 | 48 | 35 | 47,9 |
| Kağız və karton istehsalı | 20 | 18 | 24 | 20 | 19 | 23 | 115,0 |
| Mebellərin istehsalı | 85 | 77 | 72 | 84 | 94 | 97 | 114,1 |
| Alt – sahələr üzrə cəmi: | 374 | 344 | 332 | 325 | 306 | 298 | 79,7 |






*Sxem 8.2.1. Azərbaycanda yüngül sənaye müəssisələrinin işçilərin sayına və mülkiyyət formasına görə bölgüsü (yekuna görə, faizlə).*

*Cədvəl 8.2.2.*

**Azərbaycanın yüngül sənayesinin alt sahələri üzrə fərdi sahibkarların sayı (nəfər)***

| Alt sahələr | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | |
| Toxuculuq sənayesi | 115 | 122 | 128 | 119 | 125 | 135 | 117,4 |
| Geyim istehsalı | 733 | 805 | 847 | 757 | 829 | 947 | 129,2 |
| Dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalı | 184 | 193 | 195 | 170 | 180 | 177 | 196,2 |
| Ağacdan məmulatların istehsalı | 671 | 724 | 788 | 747 | 724 | 716 | 106,7 |
| Kağız və karton istehsalı | 32 | 36 | 45 | 44 | 57 | 62 | 193,7 |
| Mebellərin istehsalı | 749 | 787 | 866 | 812 | 876 | 920 | 122,8 |
| Alt - sahələr üzrə Cəmi: | 2484 | 2667 | 2869 | 2649 | 2791 | 2957 | 119,0 |

*) *Azərbaycanın sənayesi. Bakı, "DSK". 2016, s. 112, 113; 114; 116, 117; 138.*



### 8.3. Yüngül sənayedə məhsul istehsalında baş verən dəyişikliklər.

Sahədə baş verən institusional dəyişiklik nəticə etibarı ilə 2010-2015-ci illərdə istehsal edilən məhsulun həcminin 118,1% artmasına təminat yaratmışdır. Məhsul istehsalı həmin dövrdə dəri, dəri məmulatları və ayaqqabı istehsalı sferasında 41,6%, mebel istehsalında 12,2% azalmış, lakin kağız və karton istehsalında 2,8 dəfə, geyim istehsalında 151,6%, ağac məmulatları istehsalında 135,5% toxuculuq sənayesində isə 104,4% artmışdır. Nəticədə 2015-ci ildə sahə üzrə istehsal edilən 189,1 mlyn. manatlıq məhsulun 27,8%-i geyim, 24%-i mebel, 17%-i kağız və karton; 16,2%-i toxuculuq sənayesi üçün xarakterik olmuşdur (cədvəl 8.3.1.).

Təkcə, 2010-2015-ci ildə toxuculuq sənayesi müəssisələrində əsas kapitala 75,1 mlyn. manat; geyim istehsalında 47 mlyn. manat; dəri, dəri məmulatları və ayaqqabı istehsalında 11,5 mlyn. manat; ağac məmulatları istehsalında 184,5 mlyn. manat; kağız və karton istehsalında 51,6 mlyn. manat; mebel istehsalında isə 117,9 mlyn. manat daxili investisiyaya yönəlmişdir. Qeyd edilən illər ərzində toxuculuq sənayesində əmək haqqı 123,1% geyim istehsalında 145,8%, ağac məmulatları istehsalında 158,1%, kağız və karton istehsalı sferasında 2,1 dəfə və mebel istehsalında 167% artmışdır. Hazırda respublikada 50-dən çox kiçik pambıqtəmizləmə müəssisəsi olsa da, böyük pambıq-parça müəssisəsi ancaq Bakı, Gəncə və Mingəçevirdə yerləşir. Müasir tipli 14 pambıqtəmizləmə zavodu var. Bunlar əsasən Ağcabədi, Yevlax, Dəliməmmədli, Ləki, Daşburun, Bərdə, Ucar, Sabirabad, Tərtər, Şirvan, İmişli, Salyan, Sarıcallar, Horadiz zavodlardır. Ölkədə kifayət qədər xammalın olmasına baxmayaraq, yun malların bazasında toxuculuq zəif inkişaf etmiş və bu sahədə yalnız xalçaçılıq üstünlük təşkil edir.

*Cədvəl 8.3.1.*

**Azərbaycanın yüngül sənayesinin alt – sahələri üzrə istehsal edilən məhsulun (işlərin, xidmətlərin) həcmi (mlyn. manat*)**

| Alt sahələr | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti % |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Toxuculuq sənayesi | 29,4 | 52,3 | 57,7 | 51,2 | 48,7 | 30,7 | 104,4 |
| Geyim istehsalı | 34,7 | 38,5 | 36,8 | 40,0 | 54,5 | 52,6 | 151,6 |
| Dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalı | 20,9 | 20,0 | 29,6 | 21,3 | 19,1 | 12,2 | 58,4 |
| Ağacdan məmulatların istehsalı | 12,1 | 14,4 | 11,8 | 15,1 | 19,1 | 16,4 | 135,5 |
| Kağız və karton istehsalı | 11,5 | 27,9 | 17,3 | 19,8 | 28,1 | 32,0 | 2,8 dəfə |
| Mebellərin istehsalı | 51,5 | 45,7 | 38,7 | 43,9 | 42,7 | 45,2 | 78,8 |
| Alt – sahələr üzrə Cəmi: | 160,1 | 198,8 | 191,9 | 191,3 | 212,3 | 189,1 | 118,1 |

*) *Azərbaycanın sənayesi. Bakı, "DSK": 2016, s. 29, 30.*



Sovetlər dövründə respublikada adambaşına 18 metr parça istehsal edilmişdir, lakin 2015-ci ildə bu göstərici bir metr təşkil edir. (10103 min kv. m: 97500 min nəfər). Yun istehsalında isə 1940-cı illə müqayisədə son 20 ildə artım müşahidə olunur. Bu artım qoyun və keçilərin sayının artması ilə də izah oluna bilər.

Əgər 1940-cı ildə ölkə üzrə cəmi 25465,7 min baş keçi və qoyun saxlanılırdısa artıq 1980-ci ildə 5306,4 min baş keçi və qoyun, 2000-ci ildə 8331, 2 min baş qoyun və keçi, 2015-ci ildə isə 8677,1 min baş qoyun və keçilər saxlanılmışdır. Bu isə bilavasitə respublikada yun istehsalının həcminə təsir göstərir. Yun istehsalı 1940-cı ildə 4,2 min ton, 1980-ci ildə 10,7 min ton, 2000-ci ildə 10,9 min ton və 2015-cü ildə isə 15,6 min ton yun istehsal olunmuşdur. Deməli 1940-cı illə müqayisədə 1990-cı ildə 2,66 dəfə, 2000-ci illə müqayisədə 2,59 dəfə, 2015-cü illə müqayisədə isə 4 dəfə çox yun istehsal edilmişdir.

*Barama istehsalı* da tədqiq olunan dövr ərzində ildən ilə kəskin olaraq azalmışdır. Belə ki, hələ 1940-cı ildə 2,4 min ton barama toplanıldığı halda 2010-cu ildə 0,01 min ton, 2013-cü ildə isə cəmi 0,001 min ton barama istehsal olunmuşdur. Respublikanın müxtəlif iqtisadi rayonlarında, qəsəbə və kəndlərində tut ağacları becərilir və geniş sahələrdə əkilir.

Əlbəttə, bütün bu faktlar yüngül sənayenin alt sahələrində bir çox məhsulların istehsal həcminə öz təsirini göstərmişdir.

Statistik məlumata görə 2010-2015-ci illərdə pambıq mahlıcı istehsalı 42,1%, hazır ipək parçalar 63%, xalça və xalça məmulatları 87,9%, ipəkdən hazırlanan məmulatlar 63,4%, dəri məmulatları 82,7%, ayaqqabı istehsalı 67,1%, yataq otağı üçün mebel 45,8%, yemək və qonaq otaqları üçün mebel 55,1%, ofis və ticarət müəssisələri üçün mebel 80,8%, metal yaylı döşəklər 60,6%, kağız və karton taralar 27,9%, taxta qapı və pəncə-

rə blokları 21,9%, kişilər üçün köynəklər 4,1% azalmış, 10 adda yüngül sənaye məhsullarının istehsalında (hazır pambıq parça, ondan yataq ağları, iplik, corab məmulatları, alt - trikotaj, iş geyimləri, parket, taxta tara, kağızdan əl dəsmalları və süfrələr divan və kreslo) yüksək artım sürəti təmin edilmişdir.

## 8.4. Yüngül sənaye məhsullarının ixrac və idxalın strukturu.

AR DSK-nın məlumatlarına görə, 2010-2015-ci illərdə toxuculuq materialların və məmulatlarının ixracı 23,2%, o cümlədən ipəyin ixracı 73,5%, xalça və döşəmə örtüklər 55,2%; hazır toxuculuq məmulatları 20,5% azalmış, pambığın ixracı 122,7%; xüsusi parçalar 133,3%; paltar və geyim ləvazimatları 165,1% artmışdır. Həmin dövrdə ayaqqabı, baş geyimləri, çətirlər, lələklər və süni güllərin ixracı isə 4,5 dəfə çoxalmışdır. Onların tərkibində ayaqqabı, getrlər və analoji məmulatların ixracı 4,1 dəfə, baş geyimləri və onların hissələri 5,7 dəfə artmışdır.

Araşdırmalar göstərir ki, 2015-ci ildə Türkiyəyə və Rusiya Federasiyasına 4,6 min ton pambıq lifi, həmin ölkələrlə yanaşı Ukrayna və Uzaq xarici dövlətlərə 8,4 min ton parça ipliyi, 11 ölkəyə 6560,7 min kv. metr sintetik kompleks saplar, ofis, mətbəx, yataq və digər mebellər ixrac olunmuşdur. Həmin ölkələrin içərisində Rusiya Federasiyası, Qazaxıstan, Tacikistan, Gürcüstan, İtaliya, BƏƏ və digər ölkələrin adlarını çəkmək olar.

Lakin bütün bunlara baxmayaraq, yüngül sənaye mallarına olan daxili tələbatın 90%-i idxalın hesabına ödənilir. AR DSK-nın məlumatlarına görə, təkcə 2010-2015-ci illərdə idxal edilən toxuculuq materialları və məmulatlarının həcmi 146,1%,



o cümlədən ipək 9,5 dəfə, yun və qaba heyvan tükü 120,8%, bitki mənşəli toxuculuq lifləri, kağız iplikdən parçalar 9,3 dəfə, pambıq – keçə, kəndir, ip 2,6 dəfə, trikotaj parçalar 2,3 dəfə, trikotaj geyim əşyaları 2,2 dəfə, xüsusi parçalar 165,1%, xalçalar və digər toxunma döşəmə örtükləri 141,0%, kimyəvi liflər 148,7%, pambıq 106%, paltar və geyim ləvazimatları 170,4% artmışdır.

Qeyd edilən illər ərzində yüngül sənaye məhsulları əsasən Çin və Türkiyədən gətirilmiş və daxili bazar həmin mallarla doldurulmuşdur. Respublikamızda 97 vahid mebel istehsalı ilə məşğul olan müəssisələrin olduğu halda, idxal edilən oturacaq mebellərin sayı 175%, ağacdan ofis, yataq və mətbəx mebellərin sayı 2,2 dəfə artmışdır. Həmin məhsullar dünyanın 22 ölkəsindən (Türkiyə, Çin, Rusiya, İtaliya, Almaniya, İspaniya, İngiltərə, İran, Bolqarıstan, Fransa, Polşa, Hindistan, Avstriya, Ukrayna. Vyetnam, Malayziya, BƏƏ, Sinqapur və s.) Azərbaycana gətirilmişdir.

Qeyri – neft sənaye sektorunun bu mühüm sahəsinin əsaslı şəkildə inkişafına nail olmaq və bunun əsasında idxaldan asılılığı kəskin azaltmaq üçün "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"ndə prioritet istiqamətlər müəyyənləşdirilmişdir ki, onların da içərisində pambıqçılığın. baramaçılığın və heyvandarlığı inkişafı mühüm yer tutur.

## 8.5. Yüngül sənayenin perspektiv inkişaf istiqamətləri.

Azərbaycanda yüngül sənayenin mövcud iqtisadi durumunun, texniki – texnoloji səviyyəsinin, innovasiya aktivliyinin və ixrac imkanlarının mövcud vəziyyətinin təhlili və qiy-

mətləndirilməsi nəticəsində qeyri – neft sənaye sektorunda çoxlu ehtiyat imkanlarının olduğu aşkar edilmişdir. Ölkə əhalisinin xalq istehlakı mallarına olan tələbatının gündən günə artması, keyfiyyət amilinə üstünlük verilməsi yüngül sənayesi sahəsinin yaxın və uzaq perspektivdə yenidən qurulması və innovativ inkişafı istiqamətində kompleks xarakterli təşkilatı – iqtisadi, texniki - texnoloji, ekoloji sosial, institusional tədbirlərin həyata keçirilməsinin vacibliyini şərtləşdirmişdir. Bu amillər Azərbaycanda yüngül sənaye sahəsinin inkişafı üçün geniş imkanların istifadəsinə təkan verir. Onlara aşağıdakıları aid etmək olar:

- yüngül sənaye sahəsində güclü tarixi ənənələrin mövcudluğu;
- zəngin yerli xammal bazasının olması (pambıqçılıq, baramaçılıq, heyvandarlıq, kimya sənayesi - süni və sintetik liflər istehsalı sahəsi);
- nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafı mövqe;
- Mərkəzi Asiya və Xəzər regionuna birbaşa çıxış;
- ölkənin potensial ixrac bazarlarına yaxınlığı;
- Beynəlxalq Ticarət yollarının istifadəsində yaxından iştirak;
- bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;
- dövlət mülkiyyətində olan toxuculuq və tikiş müəssisələrinin əksəriyyətinin özəlləşdirilməsinin başa çatması;
- ölkənin enerji təhlükəsizliyi və enerji daşıyıcılarına malik olması;
- Avropa İttifaqı tərəfindən Azərbaycan üçün toxuculuq və tikiş məhsullarına heç bir kvotanın tətbiq edilməməsi.

Yüngül sənayenin inkişafının daha da sürətləndirilməsi



və məhsuldarlığın artırılması məqsədilə məhsuldar toxum növlərinin artırılması, suvarma sistemlərinin təkmilləşdirilməsi, emal sənayesinin iqtisadi və texnoloji cəhətdən yaxşılaşdırılması, məhsulun tədarükü, saxlama, qablaşdırma, daşıma, marketinq, aqroservis sistemlərinin, baytarlıq, damazlıq xidməti şəbəkəsinin yeni təsərrüfatçılıq şəraitinə uyğun qurulması məqsədəuyğun olardı.

Dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət Proqramına uyğun hələ 10-15 il əvvəl səhmdar cəmiyyətinə çevrilən yüngül sənaye müəssisələrinin əsas fondlarının aktiv hissəsinin (işçi maşınları və avadanlıqlarının) 80-90%-nin istismar müddətinin başa vurduğunu və 2015-ci ildə toxuculuq sənayesində ƏİF-in aşınma dərəcəsinin 52%, geyim istehsalında 53,65%-nin, ağac emalı və ağacdan məmulatların istehsalında 64,6%, mebel istehsalında 64,2% olduğunu nəzərə alsaq, onda həmin sahələrin maddi – texniki bazasının əsaslı şəkildə yeniləşdirilməsinin vacibliyi öz aktuallığını saxlayır. Son illər yüngül sənaye sferasında müştərək müəssisələrin yaradılması həmin geriliyin aradan qaldırılmasında mühüm əhəmiyyətin kəsb edir. Buna baxmayaraq sferada maddi – texniki təminatı, problemi qalmaqdadır. Respublikanın geniş şəbəkəyə malik maşınqayırma sənayesinin potensialından geniş istifadə edilməsi və yüngül sənaye müəssisələrinin maşın və avadanlıqlarının istehsalının təşkil edilməsi məqsədəuyğun hesab edilir. Bəzi texnoloji cəhətdən çox da mürəkkəb olmayan avadanlıqların istehsalı da daxil olmaqla, onlara lazım olan hissələrin istehsalının dəzgahqayırma sənayesində təşkilinin təmin edilməsi zəruridir. Eyni zamanda bu dəzgahqayırma sənayesi üçün də geniş perspektivlər açmaqla yanaşı onun təkmilləşdirilməsinə, daha mürəkkəb avadanlıqlarının istehsalına nail olunması və yeni iş yerlərinin açılması üçün şərait yarada bilər.

Yüngül sənayenin perspektiv inkişafı ilə əlaqədar tərtib edilən "Azərbaycan Respublikasında qeyri – neft sənayesinin inkişaf proqramı"nda aşağıdakı tədbirlərin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmışdır. Aşağıdakı tədbirlər yüngül sənayenin inkişafına imkan verə bilər:

- respublikada mövcud yerli sənaye müəssisələrinin yenidən qurulması və fəaliyyətinin dəstəklənməsi;
- müasir texnologiyalar əsasında xammal bazası nəzərə alınmaqla yeni müəssisələrin yaradılması və yerli xammal bazasının möhkəmləndirilməsi;
- kiçik və orta biznesi təmsil edən emal və istehsal müəssisələrinin yaradılmasında xarici ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi;
- dövlətin müəssisələrə modernləşmə istiqamətində zəruri dəstəyin göstərilməsi;
- bu sahədə fəaliyyət göstərən müəssisələrə güzəştli kreditlərin verilməsi, onların mənfəət vergisinin azaldılması;
- sərmayələrin cəlbinə və investisiya layihələrinin dəstəklənməsinə əlverişli mühitin yaradılması;
- Azərbaycanda qədim ənənələrə malik yüngül və toxuculuq sənayesində, əsasən də geyim və digər geniş istehlak mallarının istehsalı sahəsində fəaliyyətin genişləndirilməsi və məhsulun keyfiyyətinin yüksəldilməsi istiqamətində müasir texnologiyaya əsaslanan investisiya layihələrinin işlənib hazırlanması və həyata kecirilməsi;
- yüksək keyfiyyətli və ekoloji cəhətdən təhlükəsiz məhsul istehsalına imkan verən yeni texnologiyaların və nou-hauların tətbiq edilməsi, rəqabətqabiliyyətinə malik olan əl ilə toxunan xalçaların istehsalının genişləndirilməsi, bu sahədəki müəssisələrin fəaliyyətinin dəstəklənməsi və s.



# MÖVZU 9. YEYİNTİ SƏNAYESİNİN İNKİŞAFI

## 9.1. Yeyinti sənayesinin xarakterik xüsusiyyətləri və inkişafı.

Yeyinti sənayesi ölkənin aparıcı emal sahələrindən biri olub özündə qida məhsulları, içki istehsalı məmulatlarının istehsalı ilə məşğul olan müxtəlif texniki-texnoloji proseslərə və infrasturuktura malik, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan sosial iqtisadi kompleksdir. Yeyinti sənayenin alt sahələri öz tərkibində müxtəlif müəssisələri birləşdirməklə xammalın ilkin emalından (şəkər, tərəvəz, süd, tütün və s.) tutulmuş onun təkrar emalım (çörək bişirmə, şirniyyat, pivə istehsalı və s.) da əhatə edir. Yeyinti sənayesi hesabına ölkənin ərzaq fondu formalaşdırılır və ölkədə strateji ərzaq ehtiyatı yaradılır.

Milli ərzaq məhsulları bazarının keyfiyyətcə qiymətləndirilməsi, onun strukturunda dərin emal məhsullarının xüsusi çəkisindən asılı olur. Son nəticədə qida məhsulları istehsal həcmindən, onların çeşidlərindən, keyfiyyət və qiymətındən yalnız əhalinin həyat səviyyəsi deyil, həmçinin onun fiziki yaşamı da asılıdır. Buna görə də yeyinti sənayesini xalq təsərrüfatı kompleksində kənd təsərrüfatı ilə birlikdə ərzaq təhlükəsizliyini və onun vasitəsilə iqtisadi və siyasi müstəqilliyi və son nəticədə isə dövlətçiliyi təmin edən xüsusi strateji sosial əhəmiyyətli sahələrə aid edirlər.

Keçən əsrin 90-cı illərindən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, kənddə aqrar islahatların həyata keçirilməsi, xüsusilə sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması, məhsulun alış qiymətlərinin sərbəstləşdirilməsi, ərzaq və yeyinti məhsullarının emal edən sənaye müəssisələrinin özəlləşdirilməsi və s. bu kimi tədbirlər dövlət mül-

kiyyətində olan və kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sənaye müəssisələrini də əhatə etmiş və nəticədə yeyinti sənayesi sahəsində də yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olmuşdur. "1995-1999-cu illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"na əsasən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan emal yeyinti sənayesi müəssisələrinin hamısı özəlləşdirilmək üçün Dövlət Əmlakı Komitəsinin sərəncamına verilmiş və səhmdar cəmiyyətlərə çevrilmişdir. Son illərdə emal yeyinti sənayesi sahəsində islahatların aparılması üçün hüquqi baza yaradılmış, bir sıra yeni qanunlar ("Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Tütün və tütün məmulatı haqqında", "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının qanunları) qəbul edilmişdir.

Yeyinti sənayesi Azərbaycanda istehsal edilən məhsulların miqdarına və bu sahədə məşğul olan əhalinin sayına görə də sənaye sahələri arasında ön yerlərdən birini tutur.

Respublikamızda yeyinti sənayesinin inkişaf etdirilməsi ilə bağlı bir sıra üstünlüklər vardır:

- yeyinti sənayesinin tarixi ənənələri;
- yeyinti sənayesinin istehsalı üçün zəngin xammal bazası;
- ölkəmizdə yetişdirilən meyvə-tərəvəz məhsullarının bir çoxunun dünyada analoqunun olmaması;
- bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;
- nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe.

Potensial ixrac bazarlarına yaxınlıq qeyd edilənlər bu sənaye sahəsinin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Sahənin inkişaf etdirilməsi məqsədilə, daxili və xarici bazar üçün məhsul istehsalı həcminin artırılması, həmçinin əsaslı vəsaitlərin ilk növbədə fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən silahlandırılmasına yönəldilməsi, xarici investisiyaların, ekspertlərin, texnologiya və nou-hauların cəlb edilməsi, digər yeyinti məhsulları istehsalçıları ilə əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması, MDB və yaxın xarici ölkələrinin bazarlarına keyfiyyətli məhsulun ixrac edilməsi, yeyinti sənayesinin inkişafı üçün xammal mənbəyi hesab edilən kənd təsərrüfatı məhsullarının bölgələr üzrə inkişafı, daxili və xarici istehlak bazarının tələbatının rəqabətədavamlı yeyinti məhsullarla təmin edilməsi, yeyinti sənayesi üçün xammal və hazır məhsulun ekoloji təmizliyinin və keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılması, emal sənayesi üçün tələb olunan avadanlıqların respublikamızda istehsalının təşkil edilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ölkəmizdə qida sənayesində yeni bir səhifə açmışdır. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsidir. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- ölkədə ərzaq məhsulları istehsalını artırmaq;
- əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;
- ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək;
- ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq.

Proqramın icrası dövründə həmin vəzifələrin icrası nəticəsində ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrakturun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləş-

dirilməsinə və hər bir vətəndaşın ərzaq məhsullarına çıxışının təmin olunmasına əlverişli şərait yaradılmışdır. Yeyinti sənayesində: ət və ət məhsulları, şərab, çay, konserv, mineral sular, müxtəlif alkoqollu və alkoqolsuz içkilər, tütün və tütün məmulatları, balıq və balıq məhsulları, şəkər, şirə və digər əhalinin tələbatını ödəyən çox nomenklaturalı və çeşidli məhsullar istehsal edir. Suverenlik illərində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına, sənayenin və kənd təsərrüfatının inkişafına dair sahə proqramlarına uyğun adı çəkilən məhsulların istehsalı üzrə mövcud müəssisələrin yenidən qurulması və yeni müəssisələrin yaradılması istiqamətində düşünmüş, sistemli yanaşmaya və kompleksliliyə söykənən tədbirlər həyata keçirilmiş və maddi-texniki baza əsaslı şəkildə yaxşılaşdırılmışdır.

## 9.2. Yeyinti sənayesində institusional dəyişiklik və sahənin maddi-texniki bazasının mövcud durumu.

ARDSK-nın məlumatlarına görə 01.01.2016-cı il tarixə qida məhsulları istehsalı ilə 382, içki istehsalı ilə 120 və tütün məmulatlarının istehsalı üzrə 7 müəssisə fəaliyyət göstərir. Onlar 95,9%-i qeyri dövlət sektorundadır 54,8%-i kiçik 45,2%-i orta və iri müəssisələrdir. Təhlil göstərirki, 2010-2015-ci illər ərzində sənayesində qeyd edilən alt sahələrində fəaliyyət göstərən müəssisələrin sayı bütünlükdə 49 vahid, o cümlədən kiçik müəssisələrin sayı 152 vahid azalmış, orta və iri müəssisələrin sayı isə 110 vahid artmaqla, onların bütün müəssisələrin tərkibindəki xüsusi çəkisi 2010-cu ildə 78,2%-dən 2015-ci ildə 45,2%-ə enmişdir. Qeyd edilən illər ərzində yeyinti sənayesinin adı çəkilən üç alt sahəsində fərdi sahibkarların sayı 164,1% artaraq 2015-ci ilin sonunda 4304 nəfərə çatmışdır. Həmin illər ərzində sahəyə 719 mlyn. manat (68,2%-i) qida məhsulları istehsalına,121 mlyn. man (16,8%-i) içki istehsalına, 108 mlyn. manat (15,0%-i) isə tütün məmulatlarının istehsalı sferasına yönəldilmişdir.



Təhlilin əhatə etdiyi dövrdə yüngül sənayedə əsas istehsal fondlarının dəyəri 2,5 dəfə artaraq 1465 mlyn. manata çatmışdır. Qeyd edilən dövrdə qida məhsulları istehsalı sferasında əsas fondların yerləşmə səviyyəsi orta hesabla 8,2%, içki istehsalında isə 6,6% təşkil etmişdir. Buna baxmayaraq, 2015-ci ildə qida məhsulları istehsalında ƏİF-in aşınma dərəcəsi 60,7%, içki istehsalında 55,9% təşkil etmişdir. Sahənin innovasiya aktivliyi aşağıdır. Texnoloji innovasiyası üçün xarakterikdir və bu fəaliyyət əsasən müştərək müəssisələrdə həyata keçirilir.

Araşdırmalar göstərir ki, 2004-2014-cü illərdə respublikanın 7 rayonunda (Astara, Biləsuvar, Kürdəmir, Lənkəran, Qazax, Qəbələ və Xaçmaz) müxtəlif gücə malik konserv zavodları; Bakı şəhəri və Naxçıvan şəhəri və digər 7 rayonda (Şərur, Ağsu, Bərdə, İsmayıllı, Lənkəran, Şəmkir və s) çörək məmulatları istehsalı zavodları, 10 rayonda (Abşeron, Ağcabədi, Babək, Biləsuvar, Lənkəran, Qəbələ, Salyan, Tərtər, Tovuz, Zaqatala) çörək məmulatları istehsalı zavodları tikilib istifadəyə verilmiş və orada yüksək keyfiyyətli və çoxçeşidli ərzaq məhsulları istehsal edilir. Konserv sənayesi müəssisələrində meyvə-tərəvəz, o cümlədən meyvə və balıq məhsulları emal edilir. Xammal bazalarına yaxın olan meyvə-tərəvəz konservi müəssisələri Xaçmaz iqtisadi rayonunda çoxdur. Bu sahə üzrə Quba-Xaçmazda konserv kombinatı, Quba, Qusar və Xudat şəhərlərində konserv zavodu fəaliyyət göstərir. Naxçıvan iqtisadi rayonunda Ordubad, Şəki-Zaqatala iqtisadi rayonunda Şəki, Qəbələ, Balakən, Qax, Nic, Aran iqtisadi rayonunda Ucar, Göyçay, Sabirabad, Lənkəran-Astara iqtisadi rayonunda Lənkəran və Masallı əsas konserv sənayesi mərkəzləridir.

Xəzər dənizinin və Kür çayının balıq ehtiyatlarından istifadə edilməsi əsasında Aran iqtisadi rayonunda Bankə balıq kombinatı, Mingəçevir, Hacıqabul və Xıllı balıq zavodları işləyir. Bunlardan başqa, Lənkəran-Astara iqtisadi rayonunda yerləşən Lənkəran balıq zavodu, Nərimanabad bahalı kombinatı,

Quba-Xaçmaz iqtisadi rayonunda olan Xudat balıq kombinatı, Abşeron iqtisadi rayonuna aid olan Hövsandakı balıq kombinatı, H.Z.Tağıyev qəsəbəsindəki zavod əsas balıq emalı müəssisələridir. Respublikanın su anbarlarında, şirin sulu göllərində, həmçinin digər sututarlarında balıq yetişdirmə zavodları vardır. Onların çoxu Kürün mənsəbində yerləşən Neftçala rayonunun ərazisindədir.

Hazırda ölkə ərazisində 45-dən çox alkoqollu içki, 35 pivə istehsal edən müəssisə fəaliyyət göstərir. Respublikada mövcud olan müalicə əhəmiyyətli mineral sularının qablaşdırılması vacibdir. Bu məqsədlə istifadəyə yararlı olan mineral sulara İstisu, Sirab, Badamlı, Vayxır, Dandağ aiddir. Artıq bu istiqamətdə bir neçə müəssisə fəaliyyət göstərir. Şahbuzda və Naxçıvanda "Badamlı", Naxçıvanda "Sirab" kimi sudoldurma müəssisəsi vardır. Naxçıvan şəhərində olan "Badamlı" zavodu 1949-cu ildə, "Sirab" zavodu 1976-cı ildə tikilmişdir. Bakı, Gəncə, Xırdalan, Salyan və Xaçmazda pivə zavodları yerləşir. Respublikamızda ABŞ-ın dünya miqyasında məşhur olan "Koka- Kola" şirkətinin filialı fəaliyyət göstərir (Xırdalan yaxınlığında). 1 oktyabr 1999-cu ildə isə Sulutəpə qəsəbəsində "Pepsi-Kola" sularının istehsalı üzrə müəssisə açılmışdır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə qida sənayesi sahəsində iri sənaye müəssisələri fəaliyyət göstərməkdədir. 1991-ci ildə Azərbaycanda fəaliyyətə başlayan "Azersun Holding" MMC qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən, ölkənin qabaqcıl şirkətidir. Qida sektorunda, Azərbaycanı istehsalçı və ixracatçı ölkə halına gəlməsində böyük rol oynayan "Azersun Holding", tərkibində fəaliyyət göstərən zavodların güclü istehsal potensialı ilə yanaşı geniş ixracat şəbəkəsinə sahibdir. "Azersun Holding" MMC-də Sun Tea Azərbaycan, Bakı Yağ Fabriki, Zeytun Emalı Fabriki, Qafqaz Konserv Zavodu, Azərbaycan Şəkər İstehsalat Birliyi, Zaqatala Fındıq Fabriki, Qənd İstehsalı Fabriki, Qida Paketləmə Müəssisəsi, Azərbaycan Duz İstehsalatı Birliyi, Biləsuvar Konserv Zavodu kimi iri qida sənayesi müəssisələri fəaliyyət göstərməkdədir. "Gilan Holding" şirkətlər qrupuna Qəbələ Konserv zavodu, Qəbələ Fındıq Emalı zavodu, Bakı Jalə suları zavodu, Gilan Alko spirt zavodu, Makaron zavodları, Dəyirmanlar, süd emalı zavodları və digər qida sənayesi müəssisələri daxildir.



Son illər Sumqayıt şəhərində istifadəyə verilən "Bismak" Qida sənaye kompleksi MMC və "Sağlam qida" aqrar sənaye məhsulları istehsalı öz möhtəşəmliyinə, əhatə dairəsinə, məhsul çeşidinin sayına və keyfiyyətinə görə seçilir və onların məhsullarının bir hissəsi xarici ölkələr ixrac edilir

Yeyinti sənayesinin mühüm sahələrinə aid olan ətin emalı Bakı, Gəncə, Şəki, Mingəçevir, Naxçıvan, Ağdam, İmişli, Lənkəran və Xırdalanda yerləşən ət kombinatlarında aparılır.

Ət əsasən kiçik sexlər bütün rayonlarda fəaliyyət göstərir.

Sənayenin çörəkbişirmə sexləri ölkənin daxili tələbatını ödənilməsinə xidmət edir. Hazırda çörəkbişirmə üzrə şəhərlərlə yanaşı kənd və qəsəbələrdə də kiçik müəssisələr (mini dəyirmanlar və çörəkbişirmə sexləri) yaradılır, onların şəbəkəsi getdikcə genişləndirilir.

### 9.3. Yeyinti sənayesi məhsullarının istehsalı.

Son 10 ildə sahənin maddi-texniki bazasının yaxşılaşdırılması nəticəsində istehsal edilən məhsulun (işin, xidmətin) həcmi qida məhsulları istehsalı müəssisələrində 2,3 dəfə, içki istehsalında 2,8 dəfə artmış tütün istehsalında isə 8,2% azalmışdır. Yüksək artım sürəti son 5 ildə daha dinamik olmuşdur. Nəticədə istehsal edilən məhsulun (işin, xidmətin) həcmi 2010-cu ildə 2117,5 mlyn. manatdan 2015-ci ildə 2768,9 mlyn. manat çatmış və yaxud 130,8% artmışdır. Ayrı-ayrı alt sahələr üzrə məhsul istehsalının həcmi 9.3.1. saylı sxemdə əks etdirilmişdir.




***Sxem 9.3.1. Yeyinti sənayesinin alt sahələrində məhsul istehsalının (işin, xidmətin) həcmi, mlyn. manatla.***

Yeyinti sənayesinin qeyd edilən istiqamətlər üzrə yeniləşməsi və inkişafı əsas qida, içki və tütün məmulatlarının həcmini yüksələn xəttlə artmasına təminat yaratmışdır. Belə ki, 2010-2015-ci illərdə respublika üzrə ət istehsalı 117,2%, kolbasa məmulatları - 2,3 dəfə, müxtəlif yağlılıq dərəcəsi olan süd 113,4%, pendir və kəsmik 12%, kərə yağı 114,4%, konservləşdirilmiş tərəvəz və yodlaşdırılmış duz 4,3 dəfə artmış, yalnız yeməli balıq 29,2%, təbii çay 43,1% azalmışdır.

Qeyd edilən illər ərzində mineral və qazlı suların istehsalı 161,1%, alkoqolsuz içkilər 125,2%, səməni pivəsi 111,3 artış, şampan şərabı 6,2 dəfə, üzüm şərabı 11,5%, araq 12,9%, brendi (konyak) 21,4 dəfə, fermentləşdirilmiş tütün 15%, papiros və siqaretlər isə 9,7% azalmışdır (cədvəl 9.3.1).

Üzümün ilkin emalı zavodları onun becərildiyi rayonlarda yerləşir. Son məhsul olan şərab və konyak zavodları Bakıda



(1 və 2 saylı), Gəncədə, Göyçayda, Şəmkirdə, Göy-göldə, Şamaxıda və Naxçıvanda fəaliyyət göstərir. Azərbaycanın şərab zavodları 60 markadan çox şərab, o cümlədən 17 növ turş şərab ("Bayan", "Alşərab", "Sadıllı", "Mədrəsə", "Novruzlu", "Qarakənd"), 20 növ portveyn tipli tünd desert şərabı ("Ağstafa", "Alabaşlı", "Ağdam", "Qızıl şərbət", "Qara yeri", "Qara Çanaq", "Mil", "Göytəpə", "Qarabağ", *Şahbuz", "Azərbaycan", "Şamaxı", "Kürdəmir") və konyaklar ("Göy-göl" 3,4,5 ulduzlu, "Bakı", "Yubileyni") istehsal edirdilər.

Pambıq çiyidi Şirvanda olan yağ-ekstraksiya zavodunda emaldan keçir. Sonra onun məhsullarından alınan qliserin sabun hazırlamaq üçün Gəncə yağ-piy kombinatına göndərilir. Bakı Sumqayıt və Gəncədə qənnadı fabrikləri fəaliyyət göstərir.

Azərbaycanda yeyinti sənayesinin yuxarıda göstərilən istehsal obyektləri ilə yanaşı çayın ilkin emalı üzrə Lənkəran-Astara iqtisadi rayonunda fabriklər, Bakı və Lənkəran şəhərlərində çay çəkilib-bükülməsi fabrikləri yerləşir.

Azərbaycan istehsal edilənçaylar "XXI əsr Avropanın qızıl mükafatına", 2005-ci ildə Madriddə keçirilən "Keyfiyyət və texnologiyaya görə" müsabiqəsində Lənkəranın "Təbii çay"ı Avropanın daha bir "Qızıl medalına layiq görülmüşdür.

## 9.4. Yeyinti məhsullarının idxal-ixracının strukturu və coğrafiyası.

Yeyinti sənayesində əldə edilən uğurlara baxmayaraq, idxal edilən məhsulların tərkibində yeyinti məhsullarının xüsusi çəkisi hələ də yüksəkdir. Həmin göstərici 2010-2015-ci illərdə 18,7% -dən 14,8%-ə enmişdir. Onun müqabilində eyni qrupdan ixrac edilən məhsulların xüsusi çəkisi 2010-2015-ci illər ərzində artıb-azalan xətlə dəyişmiş, lakin baza ilinə nisbətən 2015-ci ildə 4,34 bənd yüksəlmişdir.

*Cədvəl 9.3.1.*

**Azərbaycanda içki istehsalı və tütün məmulatlarının natural istifadə istehsalı *)**

| Məhsulların adları | İllər | | | | | | 2010-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Mineral və qazlı sular, min dkl | 5073 | 6400 | 7809 | 7923 | 7946 | 8174 | 161,1 |
| Alkoqolsuz içkilər, min dkl | 19866 | 20978 | 25362 | 26658 | 28269 | 24885 | 125,1 |
| Şampan şərabı, min dkl | 2,7 | 19,5 | 26,8 | 16,3 | 9,2 | 4,5 | 16,1 |
| Araq, min dkl | 884,9 | 820,6 | 696,7 | 844,9 | 668,0 | 770,7 | 87,1 |
| Üzüm şərabı, min dkl | 1170 | 754,7 | 1063 | 835,5 | 1003 | 1035 | 88,5 |
| Brend (konyak), min dkl | 81,4 | 112,7 | 87,4 | 132,5 | 134,2 | 3,8 | 4,7 |
| Fermentləşdirilmiş tütün, min ton | 3771 | 3904 | 4757 | 5215 | 5149 | 4197 | 111,9 |
| Papiros və siqaretlər | 2,0 | 2,6 | 1,9 | 2,1 | 2,4 | 1,7 | 85,2 |
| Mlyn. ədəd | 2191 | 1965 | 1762 | 1009 | 2013 | 1979 | 90,3 |

*) *Azərbaycanın sənayesi. Bakı, "DSK", 2016*



İxracın yüksək artım sürəti diri heyvanlar və heyvan mənşəli məhsullar (4,3 dəfə), bitkimənşəli məhsullar (3,1 dəfə) və hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə və tütün (130,2%) məmulatları üzrə baş vermişdir (cədvəl 9.4.1.). ARDSK-nın məlumatlarına görə, 2015-ci ildə Rusiya və Qazaxıstana 36,7 min ton kartof, Rusiya, Gürcüstan və Qazaxıstana 83,3 min ton təzə tərəvəz; 18 ölkəyə 172,9 min ton təzə meyvə; 9 ölkəyə 4,3 min ton çay; 8 ölkəyə 23,5 min ton bitki yağı; 4 ölkəyə 27,2 min ton marqarin və digər qida qarışıqları ; əksəriyyəti MDB olmaqla 7 ölkəyə 220,8 min ton şəkər; 4 ölkəyə 924,3 ton makaron məmulatı; 13 ölkəyə 2,9 min ton meyvə və tərəvəz şirələri; 6 ölkəyə 194,5 min dkl üzüm şərabı; 7 ölkəyə 1,9 min ton tütün ixrac edilmişdir.

Yeyinti sənayesində həyata keçirilən idxal əməliyyatlarını araşdırarkən aydın olur ki, təhlilin əhatə etdiyi dövrdə diri heyvanlar və heyvan mənşəli məhsulların idxalı 2010-cu ildə 86,2 mlyn. ABŞ dolları 2015-ci ildə 136 mlyn. dollar dək artmış və yaxud artım sürəti 152,4% təşkil etmişdir. Bir qrup məhsulların ayrı-ayrı növləri üzrə idxal edilən yeyinti məhsullarının natural formada həcmini dəyişməsi göstərir ki, 2015-ci ildə 2010-cu ilə nisbətən, iri buynuzlu heyvan ətinin idxalı 128,2%; təzə və dondurulmuş balıq 130,3%; kərə yağı; digər süd yağları və pastalar 122,1%; quş yumurtaları 2,2 dəfə, kartof 2,6 dəfə, qarğadalı 2,7 dəfə, makaron məmulatları 2,2 dəfə, araq 3,2 dəfə; marqarin və digər qida qarışıqları 178,5%, düyü 154,6%; üzüm şərabı 8,7 dəfə, buğda unu 31% azalmışdır (cədvəl 9.4.1.)

*Cədvəl 9.4.1.*

**Yeyinti məhsullarının mal qrupları üzrə idxal-ixracının strukturu (milyon ABŞ dolları) [*]**

| Mal qrupları | idxal | | | | | | 2010-2015-ci illərdə artım sürəti faizlə | ixrac | | | | | | 2010-2015-ci illərdə artım sürəti faizlə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 86,2 | 118,7 | 113,9 | 128,9 | 149,6 | 136,0 | 157,8 | 0,547 | 0,657 | 0,682 | 1,85 | 3,3 | 2,34 | 4,3dəfə |
| Bitki mənşəli məhsullar | 437,4 | 519,6 | 500,1 | 548,5 | 427,0 | 457,4 | 104,5 | 109,3 | 268,8 | 308,1 | 301,7 | 331,1 | 335,9 | 3,1dəfə |
| Heyvan və bitki mənşəli, piylər və yağlar | 93,7 | 95,1 | 107,2 | 75,6 | 88,1 | 83,8 | 89,4 | 188,3 | 173,7 | 221,8 | 227,9 | 190,3 | 153,3 | 81,4 |
| Hazır ərzaq məhsulları spirtli və spirtsiz içkilər, sirkə, tütün | 616,7 | 659,8 | 721,3 | 813,6 | 889,0 | 688,8 | 111,7 | 214,2 | 273,8 | 301,7 | 346,8 | 316,0 | 278,9 | 130,2 |
| Cəmi | 1234,0 | 1393,2 | 1442,5 | 1566,6 | 1553,7 | 1366,0 | 110,7 | 512,3 | 717,0 | 832,3 | 878,3 | 840,7 | 770,4 | 150,4 |
| Bütün idxaldakı xüsusi çəkisi, faizlə | 18,7 | 14,3 | 14,9 | 14,6 | 16,9 | 14,8 | x | 2,40 | 2,69 | 3,48 | 3,66 | 3,85 | 6,74 | x |



ARDSK-nın məlumatlarına görə, 2015-ci ildə Azərbaycana Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, Almaniya, Avstriya, Macarıstan, Moldava və Niderland ölkələrindən 45100 ədəd diri iri buynuzlu heyvanlar; 12 ölkədən 5787,6 min ədəd diri ev quşları; 10 ölkədən 5,1 min ton iribuynuzlu heyvan əti (onun 2,6 min tonu Hindistan; 2,0 min tonu Ukrayna); 11 ölkədən 7,4 min ton quş əti və əlavə ət məhsulları; 22 ölkədən 9,9 min ton təzə və dondurulmuş balıq 13 ölkədən 8,8 min ton süd və qaymaq 12 ölkədən kərə yağı, digər süd yağları və pastaları 15 ölkədən 9,1 min ton pendir və kəsmik 14 ölkədən kartof; 9 ölkədən təzə tərəvəz; 18 ölkədən təzə tərəvəz hər biri 15 ölkə təşkil etməklə çay və bitki yağı; 5 ölkədən şəkər; 11 ölkədən marqarin və digər qida qarışıqları; 7 ölkədən 1353,1 min ton buğda 9 ölkədən 5,8 min ton buğda unu); 12 ölkədən 26,6 min ton düyü 9 ölkədən 1,1 min ton ət kolbasası və digər anoloji məhsullar; 17 ölkədən 19,2 min ton şokolad və şokolad məhsulları 20 ölkədən 31,5 min ton çörək, unlu qənnadı məmulatlar; 14 ölkədən 5289,7 min dkl mineral və qazlı sular; 8 ölkədən 203,1 min dkl pivə; 7 ölkədən 23,1 min dkl üzüm şərabı 15 ölkədən 86,5 min dkl araq; 14 ölkədən tütün və 7 ölkədən 11522,8 mlyn. ədəd siqaret idxal etmişdir.

Azərbaycanın tanınmış alimlərinin və mütəxəssislərinin fikrincə, idxal edilən həmin yeyinti məhsulların tam əksəriyyətini Azərbaycanda istehsal etmək mümkündür. Araşdırmalar göstərir ki, təzə meyvə istisna olmaqla, 6 əsas növ yeyinti məhsulları ixrac edilən ölkələrin sayı idxal tərəfdaşlarının sayından xeyli azdır (sxem 9.4.1).

Lakin Azərbaycandan ixrac edilən yeyinti məhsulları öz bioloji tərkibinə və ekoloji təmizliyinə görə idxal edilən eyni adlı məhsullardan xarici bazarlarda daha yüksək qiymətə satılır. Bunu bir neçə idxal-ixrac edilən məhsulların timsalında nəzərdən keçirək.




*Sxem 9.4.1. Əsas növ yeyinti məhsulları üzrə idxal-ixrac tərəfdaşların sayı.*



*Cədvəl 9.4.2.*

**İdxal və ixrac edilən 1 ton yeyinti məhsullarının qiyməti (dollarla)** *)

| Məhsulların adları | İdxal edilən | İxrac olunan | Qiymət fərqi (±) |
|---|---|---|---|
| Kartof | 89,8 | 570 | + 480,2 |
| Təzə tərəvəz | 241,2 | 848 | + 606,8 |
| Təzə meyvə | 575,3 | 1272 | +696,7 |
| Çay | 2187,4 | 4548 | +2360,6 |
| Şəkər | 1092 | 960,5 | -131,5 |

*) Cədvəl Azərbaycanın xarici ticarəti "Statistika" məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı, "DSK", 2016, s 205-207, 223

Cədvəldən göründüyü kimi şəkər istisna olunmaqla ixrac edilən digər məhsulların 1 tonunun qiyməti idxal edilən məhsulların eyni miqdarda qiymətini orta hesabla 3,5 dəfə üstələyir. Deməli, xarici bazarın sistemli təhlili və marketinqin səmərəli təşkili konteksti ölkədə istehsal edilən yeyinti məhsullarının ixracı iqtisadi səmərə verə bilər. Eyni fikri yüngül sənaye məhsullarına da şamil etmək olar. Odur ki, Azərbaycanın qeyri-neft sektorunun aparıcı sahələrindən olan yeyinti sənayesinin innovasiya və diversifikasiya meylinin gücləndirilməsi və müəssisələrdə beynəlxalq standartların geniş tətbiqi onların ixrac potensialının yüksəldilməsinə əsaslı təkan vermiş olacaqdır.

## 9.5. Yeyinti sənayesinin inkişafının başlıca istiqamətləri.

Bir sıra məhsullar üzrə istehsal həcminin aşağı düşməsinin əsas səbəbi yerli xammal çatışmazlığıdır. Bu sahədə maddi-texniki və lagistik təminatı yaxşılaşdırmaq üçün İqtisadi İn-

kişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu aşağıdakı prioritet sahələr kimi müəyyən etmişdir:

- südlük və ətlik istiqamətli cins heyvandarlıq komplekslərinin yaradılması;
- quşçuluq təsərrüfatlarının yaradılması və ya bərpası;
- ət kəsimi və emalı müəssisələrinin yaradılması;
- çörək istehsalı zavodlarının tikilməsi;
- iri taxılçılıq və toxumçuluq təsərrüfatlarının yaradılması;
- süfrə (o cümlədən, kişmiş) və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, yeni üzümlüklərinin salınması və üzüm emalı müssisələrinin yaradılması;
- istixana komplekslərinin yaradılması;
- intensiv bağçılıq (alma, armud, gilas, nar, ərik, xirnik, gavalı və s.) və ya tingçilik təsərrüfatlarının yaradılması;
- meyvə-tərəvəz müəssisələrinin yaradılması;
- meyvə-tərəvəz və taxıl tədarükü, saxlanması, satışı, məqsədi ilə soyuducu anbar və taxıl anbarı komplekslərinin yaradılması;
- digər sənaye (yüngül, yeyinti, maşınqayırma və s.) müəssisələrinin yaradılması;
- kiçik sahibkarlığın (o cümlədən əlillərin, məcburi köçkünlərin, gənclərin və qadınların) .

Qeyd edilən istiqamətlərlə yanaşı aşağıdakı təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

- bütün növ kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin əsaslı şəkildə yenidən qurulması, regional səpkidə səmərəli təşkili, idarə edilməsi və stimullaşdırılması;
- mövcud emal sənayesi müəssisələrinin restrukurizasiyası, innovasiya fəaliyyətinin və istehsalın diversifikasiyasının



genişləndirilməsi əsasında idxalı əvəz edən ərzaq məhsullarının həcminin minimuma endirilməsi.

Yeyinti sənayesini inkişaf etdirmək və istehsal edilən məhsulların rəqabət qabiliyyətini yüksəltmək üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacib hesab edilir:

- bioloji komponentlərlə zəngin yerli xammaldan-istifadə etməklə yeni məhsulların mənimsənilməsi;
- məhsulun bioloji dəyərliliyinin və dad keyfiyyətinin təmin edilməsi;
- məhsulun qablaşdırılması üçün tara və avadanlıqlarla təminatın gücləndirilməsi, məhsulların sterilləşdirilməsi metodlarının tətbiq edilməsi;
- xammalın emala daxil olmasından başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün proseslərin mexanikiləşdirilməsi və avtomatlaşdırılması;
- məhsulun saxlanması, nəql və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı hesabına yeyinti məhsullarının alınması;
- istehsal edilən məhsulların keyfiyyətinin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması;
- özəlləşdirilən yeyinti sənayesi müəssisələrinin məqsədli innovasiya layihələri əsasında modernləşdirilməsi və yenidən qurulması üçün investisiya qoyuluşlarının həcminin artırılması.

Bütün bunlarla yanaşı yeyinti sənaye sahələrinin iqtisadi rayonlar üzrə inkişafının investisiya siyasətində prioritet kimi nəzərə alınması və həmin sahə üçün böyük əhəmiyyətə malik məişət kimyası sənayesinin inkişafına nail olmaq vacib şərtdir.

## MÖVZU 10. RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARININ İNKİŞAFI

### 10.1. Rabitə və poçt sferasının təkamül yolu ilə inkişafı.

Azərbaycanda poçt və rabitə sferası təkamül yolu ilə inkişaf etmişdir. Hələ qədim zamanlarda insanlar məlumat ötürücüsü kimi yüksəkliklərə tonqal yandırmaqla bir-birinə hər hansı bir hadisə barədə xəbər göndərirmişlər.

Daha sonralar isə qəbilə başçılarının biri tərəfindən digərinə yazılı məlumatların (namə) göndərilməsi bu məqsədlə təyin olunmuş bir neçə şəxs vasitəsi ilə əldən-ələ ötürməklə həyata keçirilmişdir. Zaman keçdikcə insanlar yeni metodlardan istifadə etməyə başlamış və məlumatların (məktubların) çatdırılması üçün xüsusi öyrədilmiş göyərçinlərdən istifadə etmişlər. Uzun müddət bu metoddan istifadə etdikdən sonra insanlar arasında daha geniş yazışmaların sayının artması daha etibarlı metodlardan istifadə zərurətini yaratmışdır. Belə ki, əvvəlcə poçtun (məktubların) daşınmasında dəvədən, yaxın məsafələrə isə poçtun daşınmasında atdan istifadə etməyə başlamışlar.

Təxminən XVIII əsrin əvvəlarində artıq poçtun (məktubların) daşınmasında karetadan istifadə edilmiş, eyni zamanda həmin dövrlərdə poçt-teleqraf rabitəsi də yaradılmağa başlanmışdır. XIX əsrin əvvəllərində poçt-teleqraf kontorlarının fəaliyyəti daha da genişləndirilmiş, ayrı-ayrı yerlərdə poçt departamentləri yaradılmış və onların fəaliyyətinə yeni xidmətlər (poçtla pulların, bağlamaların və sığortalı məktubla göndərişlər) də əlavə olunmuşdur.

Azərbaycan milli rabitəsi özünəməxsus zəngin inkişaf tarixinə malikdir. Hələ 1501-ci ildə Səfəvilər dövlətinin başçısı böyük Şah İsmayıl Xətai tərəfindən poçtun dövlət səviyyəsində çatdırılmasının təşkil edilməsinin təməli qoyulmuşdur.



Dünyada telefon rabitəsinin tarixi 1876-cı ildən başlayır. Bakıda isə telefon rabitəsi 1881-ci ildə yaradılmış, həmin il dekabrın 6-da ilk telefon xətti çəkilmişdır. 1885-ci ilə qədər Bakıda artıq 14 telefon xətti mövcud olmuşdur. Lakin Azərbaycanda ilk rabitə müəssisəsinin - poçtun yaranması 19-cu əsrin əvvəlinə aid edilir. Belə ki, 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti yarandıqdan bir neçə ay sonra - oktyabrın 6-da Poçt və Teleqraf Nazirliyi yaranmış, Ağa Aşurov nazir təyin olunmuş və nazirlik cümhuriyyətin süqutuna qədər fəaliyyət göstərmişdir.

SSRİ-nin yaranması ilə 1924-cü ildən başlayaraq əvvəlcə Bakıda, sonra isə ölkənin digər mühüm şəhərlərində telefon rabitəsi inkişaf etdirilməyə başlamışdır. 1928-1929-cu illərdə Bakı - Tiflis, Qroznı, Rostov, Moskva, Leninqrad şəhərləri ilə şəhərlərarası telefon rabitəsi, respublika daxilində isə Hacıqabul, Salyan, Kürdəmir, Ucar, Göyçay, Ləki, Yevlax, Bərdə, Ağdam, Stepanakert, Nuxa, Gəncə, Ağstafa, Qazax, Şamaxı, Xızı və Quba rayonları arasında telefon rabitəsi mövcud idi. Artıq (1946-1947-ci illərdə Azərbaycanda yeni iki ATS - Gəncə və Quba, 1948-ci ildə Naxçıvan və Xankəndində tutumu 200 nömrə olan ATS-lər istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə 1954-cü ildə Rabitə Nazirliyi yenidən yaradılmış və 1956-cı ildə Bakıda ilk televiziya mərkəzi yaradılaraq televiziya verilişləri yayımına başlanır. Azərbaycanda rabitə sisteminin əsas inkişaf dövrü 70-82-ci illərə düşür. Həmin illərdə respublikaya rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin bu sahənin inkişaf etdirilməsinə göstərdiyi xüsusi diqqət o dövrün rəsmi sənədlərində öz əksini tapır.

Bütünlükdə keçən əsrin 70-80-ci illərində rabitənin inkişafı üzrə qəbul edilmiş qərarların icrası nəticəsində, Elmlər Akademiyasında, Universitetlərdə və sahə institutlarında elek-

tronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika institutu, Kosmik tədqiqatlar mərkəzi, İnformasiya - Kommunikasiya elmi mərkəzi, "Neftqazavrtomatika" və s. kimi elmi tədqiqat müəssisələri yaradılmış, respublikaya ilk böyük elektron hesablama maşını – BESM – 6 gətirildi. Radiozavod, elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verilmişdir.

Keçən əsrin 90-cı illərinin birinci yarısında ölkədə bərqərar olan sabitlik nəticəsində, eləcə də "Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikası qanunun qəbul edilməsi ölkəyə xarici investisiyaların cəlb olunmasına təkan vermişdir. Rabitə sisteminin inkişafında əsl dönüş də elə bundan sonra başlanmışdır. Artıq 1990-cı ildən başlayaraq xarici rabitə şirkətləri, ilk növbədə Türkiyənin "Teletaş" və "Netaş" şirkətləri tərəfindən Bakıda, Sumqayıtda, Gəncədə və digər bölgələrdə müasir elektron tipli ATS-lər qurulmuş, "Aztelekom" İstehsalat Birliyində 2000 kanallı Beynəlxalq Telefon Stansiyası, 6150 kanallı respublika daxili Şəhərlərarası Telefon Stansiyası, ABŞ-ın "Motorola" şirkətinin investisiyası ilə sellülar rabitə xidməti göstərən "Baksell", Türkiyə rabitəçiləri ilə "Azərsell" və digər birgə müəssisələr yaradılmışdır. Mobil telefon rabitəsinin yaranması sahəsində əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyəti yüksəlmişdir.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 1992-ci ildə "Azərmarka", 1997-ci ildə "Azərpoçt", 1998-ci ildə "Azərekspresspoçt yaradılmış, 1999-cu ildə "Azərpoçt" İB Dövlət Müəssisəsi statusu almışdır.

Əgər 1993-cü ildə respublika ərazisində 164 radio-televiziya stansiyası fəaliyyət göstərmişdirsə 2005-ci ildə onların sayı 356-ya çatmış, sonrakı beş ildə həyata keçirilən struktur dəyişikliklıəri nəticəsində belə stansiyaların sayı 2015-ci ildə 281-ə enmişdir.



Müstəqilliyin ilk illərində obyektiv və subyektiv səbəblərdən poçt sahəsində kəskin geriləmə müşahidə edilmiş və bu geriləmə 1997-ci ilə qədər davam etmişdir. Poçt rabitəsi sahəsində tənəzzülü dayandırmaq və vəziyyəti stabilləşdirmək məqsədi ilə 1997-ci ildə qısa müddətli "Dirçəliş və inkişaf proqramı", həmçinin uzunmüddətli (1998-2003-cü illər) "Poçtun inkişaf konsepsiyası" hazırlanaraq həyata keçirilməyə başlandı.

Hazırda Azərbaycanda poçt və rabitə sferası sahəsindəki inkişaf səviyyəsinə görə iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha qabarıq şəkildə nəzərə çarpır. Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafını, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələndirmək olar. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahə hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir.

### 10.2. Sahənin maddi-texniki bazasının genişləndirilməsi.

XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun inkişafı sayəsində neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. Bunu şərtləşdirən başlıca amil isə informasiya və rabitə sferasının maddi-texniki bazasının əsaslı şəkildə yenidən qurulmasıdır. AR DSK-nın məlumatlarına görə, 01.01.2016-ci il tarixə ölkə ərazisində informasiya və rabitə

sferasında 2456 müəssisə və təşkilat mövcud olmuşdur ki, bu da 2010-cu illə müqayisədə 830 vahid çoxdur. Qeydiyyatda olan bütün müəssisələrin 2010-cu ildə 88,7 %-i; 2015-ci ildə isə - 84,1%-i kiçik müəssisə statusunda olmuşdur. Həmin illər ərzində informasiya və rabitə xidməti ilə məşğul olan fərdi sahibkarların sayı 3175 nəfərdən 6060 nəfərə çatmış və yaxud 190,9% çoxalmışdır.

İnformasiya və rabitə sferasına 2000-2015-ci illərdə 2732 milyon manat investisiya yönəldilmişdir ki, onun da 404,4 mlyn. manatı və yaxud 14,8% - xarici investisiyalardır. Həmin dövrdə 2683,5 mlyn. man. əsas istehsal fondları istifadəyə verilmişdir.

Bütün bunların nəticəsində adı çəkilən sferada əsas istehsal fondlarının balans dəyəri 948,3 mlyn. manatdan 2834 mlyn. manata çatmış və yaxud onların dəyəri 3 dəfə artmışdır.

Son 10 ildə yalnız Azərbaycanın regionlarında 600-dən çox avtomat-telefon stansiyaları (ATS), eləcə də 1000-ə yaxın poçt binası tikilmiş və yaxud əsaslı təmir edilmişdir. Yaradılan elektron ATS-lər əsasən El/4ETN tipli avadanlıqlara təchiz olunmuşdur. Bütünlükdə 2005-2015-ci illərdə ölkənin şəhər və rayonlarında quraşdırılan elektron ATS-lərdə 1203,2 min nömrə əhalinin sərəncamına verilmişdir. Onların 46,6%-i 52 inzibati rayonların, 40,8%-i Bakı, 5,8%-i Gəncə; 5,3%-i Sumqayıt şəhərinin payına düşmüşdür.

Təkcə 2010-2015-ci illərdə ölkənin şəhər və rayonları üzrə hər 100 ailəyə düşən telefon aparatlarının sayı artıb – azalan xəttlə dəyişmişdir. Məsələn, Abşeron rayonu üzrə həmin göstəricinin artım sürəti 120,4%; Naxçıvan MR üzrə 111%; Sumqayıtda 105,2%; Gəncədə 103,5%; digər 45 rayonda orta hesabla 152,6% artdığı halda, Naftalan, Lənkəran, Mingəçevir, Şirvan və Yevlax rayonlarında xeyli azalma müşahidə edilir. (cədvəl 10.2.1.)



*Cədvəl 10.2.1.*

**Şəhər və rayonlar üzrə hər 100 ailəyə düşən telefon aparatlarının sayı (ədəd)*)**

| Şəhər və rayonlar | İllər | | | | | 2010-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| Respublika üzrə -cəmi | 67 | 67 | 68 | 69 | 67 | 100,0 |
| O cümlədən: Naxçıvan Muxtar Respublikası | 55 | 55 | 68 | 69 | 61 | 111,0 |
| Bakı | 122 | 122 | 122 | 124 | 123 | 100,8 |
| Gəncə | 86 | 93 | 92 | 91 | 89 | 103,5 |
| Lənkəran | 72 | 71 | 70 | 69 | 67 | 93,1 |
| Mingəçevir | 91 | 89 | 88 | 88 | 83 | 91,2 |
| Naftalan | 91 | 78 | 74 | 74 | 69 | 75,8 |
| Sumqayıt | 77 | 83 | 81 | 81 | 81 | 105,2 |
| Şəki | 62 | 61 | 62 | 62 | 62 | 100,0 |
| Şirvan | 58 | 56 | 55 | 55 | 53 | 91,4 |
| Yevlax | 65 | 66 | 65 | 65 | 64 | 98,5 |
| Abşeron rayonu | 108 | 121 | 123 | 125 | 130 | 120,4 |
| Digər 45 rayon üzrə orta göstərici | 19 | 21 | 25 | 27 | 29 | 152,6 |

*) *Azərbaycanın Statistik Göstəriciləri. Bakı, "DSK", 2016, s. 600, 601.*

Tədqiq edilən iqtisadi fəaliyyət sferasının maddi-texniki bazasının yeniləşdirilməsi poçt xidmətlərinin təşkilində də özünü biruzə vermişdir. Belə ki, 2005-2015-ci illərdə ölkədə poçt şöbələrinin sayı 120,1%; o cümlədən kənd yerlərində 118,6%

poçtalyon və kuryerlərin sayı 126,7%, o cümlədən şəhər yerlərində 135,6%; kənd yerlərində 108,8% artmışdır.

Həmin illər ərzində ünvanlara göndərilən qazet və jurnalların sayı 6,4 dəfə; teleqramların sayı 30%, məktubların sayı 15,6% azalmış, lakin bağlamaların sayı 142,9%, hava nəqliyyatı ilə poçt göndərişlərin miqdarı 150% pul baratları və pensiya ödənişlərinin məbləği 135,3% artmışdır. Nəticədə, poçt xidmətlərinin dəyəri 9,9 milyon manatdan 38,1 milyon manata çatmış və yaxud 3,86 dəfə çoxalmışdır.

Bütünlükdə, 2015-ci ildə 3643 mlyn. man. mənfəət əldə edilmiş, zərərin məbləği isə mənfi 79,8 mlyn. man. təşkil etmişdir.

Əldə edilən yüksək maliyyətlərə baxmayaraq, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edilir ki, qarşıdaki illərdə informasiya və rabitənin infrastrukturu inkişaf etdiriləcək, ölkə əhalisinin bütün təbəqələrinin müasir elektron xidmətlərin göstərilməsi imkanları genişləndiriləcək, kənd yaşayış məntəqələri də daxil olmaqla ölkə ərazisində geniş zolaqlı, ucuz və keyfiyyətli internetə çıxış təmin ediləcəkdir. Distant təhsil, elektron ticarət, tele-tibb və digər müasir xidmət növlərinin geniş tətbiqinə nail olunacaq, elektron ticarət əqdləri iştirakçılarının müdafiəsini və təhlükəsizliyini təmin etmək üçün qanunvericilik təkmilləşdiriləcəkdir.

Bölgələrdə İKT-nin tətbiqi genişləndiriləcək, əhalinin rəqəmsal hazırlığı və ölkənin qlobal informasiya məkanına inteqrasiya səviyyəsi yüksələcəkdir. Bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, online lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi yaradılacaqdır. Ölkənin regionun İKT xidmətləri bazarına çıxışını təmin etmək məqsədi ilə tranzit informasiya magistrallarının, regional informasiya resurslarının və şəbəkə idarəetmə sistemlərinin qurulması kimi layihələr gerçəkləşdiriləcəkdir.



*Cədvəl 10.2.2.*

**Azərbaycanda poçt xidmətlərinin təşkilini xarakterizə edən göstəricilər*)**

| Göstəricilər | İllər | | | | | | 2005-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| Poçt xidmətləri (faktiki qiymətlərlə), min manat | 9871 | 21543 | 31225 | 31639 | 34100 | 38136 | 3,86 dəfə |
| Poçt şöbələrinin sayı, vahid | 1371 | 1596 | 1606 | 1610 | 1616 | 1646 | 120,1 |
| o cümlədən: şəhər yerlərində | 319 | 363 | 379 | 382 | 380 | 398 | 124,8 |
| Kənd yerlərində | 1052 | 1233 | 1227 | 1228 | 1236 | 1248 | 118,6 |
| Poçtalyon və kuryerlərin sayı, nəfər | 1114 | 1342 | 1398 | 1360 | 1422 | 1411 | 126,7 |
| o cümlədən: şəhər yerlərində | 741 | 955 | 964 | 944 | 1009 | 1005 | 135,6 |
| Kənd yerlərində | 373 | 387 | 434 | 416 | 413 | 406 | 108,8 |
| Göndərilmişdir: qazet və jurnallar, milyon ədəd | 17,3 | 5,3 | 4,9 | 4,1 | 2,7 | 2,7 | 15,6 |
| Məktublar, milyon ədəd | 6,4 | 7,1 | 5,4 | 5,5 | 6,1 | 5,4 | 84,4 |
| Bağlamalar, min ədəd | 65,0 | 162,0 | 135,0 | 135,4 | 117,1 | 92,9 | 142,9 |
| Pul baratları və pensiya ödənişləri, milyon ödəmə | 1,7 | 1,2 | 1,4 | 1,6 | 1,8 | 2,3 | 135,3 |
| Teleqramlar, milyon ədəd | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,14 | 70,0 |
| Hava nəqliyyatı ilə poçt göndərilmişdir, min ton | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,3 | 0,3 | 150,0 |

*) *Azərbaycanın Statistik Göstəriciləri. Bakı, "DSK", 2016, s.597.*

## 10.3. Rabitə və informasiya sferasında yeni xidmət növləri və formalarının tətbiqi.

Son illər informasiya – kommunikasiya texnologiyaları (İKT) ölkənin sosial-iqtisadi inkişafının bütün istiqamətlərdə kütləvi şəkildə tətbiq və istifadə olunur. Belə ki, "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"na (Elektron Azərbaycan)" uyğun olaraq, dövlət orqanlarının vətəndaşlara və təşkilatlara təqdim etdiyi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və onların təqdim olunma müddətlərinin azaldılması, dövlət orqanlarının işinin səmərəliliyinin artırılması məqsədilə müxtəlifməzmunlu layihələr həyata keçirilir. Əhalinin dövlət reyestrinin formalaşdırılması, vergi ödəyicilərinə E-xidmətlərin göstərilməsi, sahibkarlıq subyektlərinin qeydiyyata alınması üçün "Vahid pəncərə", elektron sağlamlıq kartı xidməti, gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılmış sistemlərinin tətbiqi, daşınmaz əmlakın milli kadastrı və qeydiyyatının şəbəkə informasiya sisteminin, təhsilin idarəolunmasının məlumat sisteminin yaradılması, elektron satınalmalar sisteminin, internet vasitəsilə ali məktəblərə tələbə qəbulu üzrə xidmət sisteminin, yaradılması deyilənlərə əyani misal ola bilər.

Azərbaycanda yüksək texnoloji tutumlu və rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunu gücləndirmək, infrastrukturunun modernləşdirilməsi, sahə üzrə iqtisadi-təşkilati islahatların aparılması, e-imzanın tətbiqi üçün Milli Sertifikat Xidməti Mərkəzinin və Milli Superkompyuter Mərkəzinin yaradılması, e-hökümətin formalaşdırılması üçün müxtəlif layihələrin həyata keçirilməsi məsələləri artıq real operatorudur və "Azerspace – 1 telekommunikasiya – peyki vasitəsi ilə teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, hökümət və korporativ müştərilərin tələblərinə cavab



verən yüksək etibarlı rabitə şəbəkələrinin təmin edilməsi istiqamətində fəaliyyət göstərməkdədir. "Azerspace -1" peykinin əlverişli orbital mövqedə (46° Şərq uzunluğu) yerləşməsi, "Azərkosmos" ASC-nin operativliyi və müştəri məmnuniyyəti siyasəti buna zəmin yaradır. Hazırda, Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 121 televiziya kanalı yayımlanır ki, bunun da 108-i əcnəbi, 13-ü yerli kanal, eləcə də, 20 radio kanalın yayımlandığı "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb.

"İnternet" iqtisadiyyatın inkişaf etdirilməsində mühüm rol oynayır. Belə ki, məhz internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaradılmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunması, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır. Bütün bu məqsədlərə çatmaq və nəzərdə tutulan işləri sistemli şəkildə həyata keçirmək üçün "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" hazırlanmışdır. Ölkədə rəqabətdavamlı və yüksək ixrac potensialı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu" və "Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Bu yeni qurumlar ölkə iqtisadiyyatının güclənməsinə, xarici investisiyaların cəlb edilməsinə, İKT məhsullarının, xidmətlərinin və formalarının genişlənməsinə, innovativ təşəbbüslərə maliyyə dəstəyi vermək istiqamətində mühüm rol oynayırlar.

Ölkədə "Elektron hökümət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və məmur-vətəndaş münasibətlərinin İT vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması

bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Ölkədə "Elektron hökümət"in zəruri infrastrukturları yaradılmışdır. "Elektron hökümət" portalı artıq fəaliyyət göstərir, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsi aparılır, elektron imzanın istifadəsi üçün infrastruktur və sertifikat xidmətləri mərkəzləri yaradılmışdır. Nəticədə e-imzanın tətbiqi genişlənir, dövlət orqanları tərəfindən müxtəlif elektron xidmətlər göstərilir. Hazırda "Elektron hökümət" portalına qoşulmuş dövlət qurumlarının elektron xidmətləri "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdim edilir.

Qeyd edilənlərlə yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial innovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılmışdır. Həmin mərkəz dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumdur.

Asan xidmət mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulmuşdur.

İnformasiya və rabitə sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində son 10 ildə göstərilən xidmətlərin həcmi də əsalı şəkildə artmışdır. Belə ki, 2005-2015-ci illərdə əhaliyə, fiziki və hüquqi şəxslərə göstərilən bütün rabitə və informasiya xidmətlərinin həcmi 3,4 dəfə, o cümlədən rabitə xidməti 3,1 dəfə, informasiya xidmətləri isə 6,9 dəfə artmışdır.



Rabitə xidmətlərinin təsnifatı üzrə artmasına nəzər yetirdikdə aydın olur ki, qeyd edilən illər ərzində internet xidməti 14,2 dəfə, DATA xidməti 11 dəfə, şəhər və kənd telefon və mobil və mobil telefon rabitəsi xidmətinin hər birinin həcmi 2,9 dəfə, sənədli elektron rabitəsi 2,3 dəfə, şəhərlərarası telefon rabitəsi 106,1%, digər xidmətlər isə 31 dəfə artmışdır.

İnformasiya xidmətlərinin tərkibində proqram təminatının işlənilməsi 9,3 dəfə, proqramların tərtib edilməsi, radio və televerlişlərin tranlyasiya edilməsi 7,1 dəfə, nəşriyyat fəaliyyəti 181,1%, digər informasiya xidmətlərinin həcmi isə 15,9 dəfə çoxalmışdır (cədvəl 10.3.1.).

Son 10 ildə radio–televiziya xidmətlərinin məzmununda da bir sıra kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Belə ki, radio-televiziya stansiyalarının və radio kanallarının sayının azalmasına baxmayaraq, radio-televiziya verlişlərinin sayı əsaslı şəkildə artmışdır.

Beləliklə mübağiləsiz qeyd etmək olar ki, son 10 ildə rabitə və informasiya sferasında yeni xidmət növləri və formalarının geniş tətbiqi ölkənin sosial–iqtisadi inkişafına öz töhvəsini vermişdir.

## 10.4. İnformasiya – kommunikasiya texnologiyaları sferasının inkişafı.

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) cəmiyyətin inkişafına təsir göstərən mühüm amillərindən birinə çevrilməsi artıq danılmaz faktdır. Təsadüfü deyil ki, dövlət strukturlarının və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini də əhatə edən İKT dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən və perspektivli sahələrindən biri sayılır.

Qloballaşan dünyanın tərkib hissəsi kimi Azərbaycanda da İKT-nin tətbiq səviyyəsi və ümumilikdə, cəmiyyətin həyat-

*Cədvəl 10.3.1.*

**İnformasiya və rabitə xidmətləri, faktiki qiymətlərlə, min manat.*)**

| Göstəricilər | İllər | | | | | | 2005-2015-ci illərdə artım sürəti faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| Cəmi | 480812 | 1179641 | 1439714 | 1528062 | 1623550 | 1641222 | 3,4 dəfə |
| ondan: rabitə xidmətləri | 443168 | 1087780 | 1283358 | 1341800 | 1389262 | 1379407 | 3,1 dəfə |
| o cümlədən: sənədli elektrik rabitəsi | 267 | 636 | 610 | 611 | 544 | 617 | 2,3 dəfə |
| şəhərlərarası telefon rabitəsi | 108774 | 170407 | 231194 | 195769 | 152478 | 115359 | 106,1 |
| şəhər-kənd telefon rabitəsi | 22658 | 53044 | 54890 | 56823 | 62015 | 67341 | 2,9 dəfə |
| mobil telefon rabitəsi | 295518 | 785413 | 872828 | 908262 | 915249 | 873396 | 2,9 dəfə |
| internet (genişzolaqlı daxil olmaqla) | 8636 | 42322 | 86326 | 98431 | 110884 | 122018 | 14,2 dəfə |
| DATA xidməti | 1419 | 8482 | 11687 | 17018 | 18308 | 15602 | 11 dəfə |
| digər xidmətlər | 5896 | 27476 | 25823 | 64886 | 129784 | 185074 | 31,4 dəfə |
| İnformasiya xidmətləri | 37644 | 91861 | 156356 | 186262 | 234288 | 261815 | 6,9 dəfə |
| O cümlədən: nəşriyyat fəaliyyəti | 14257 | 15958 | 18448 | 21696 | 29164 | 25900 | 181,1 |
| Proqramların tərtib edilməsi, radio və televerlişlərin translyasiya edilməsi | 8074 | 27530 | 44621 | 56041 | 60497 | 57319 | 7,1 dəfə |
| proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər | 9856 | 19238 | 35275 | 47722 | 69497 | 91345 | 9,3 dəfə |
| digər xidmətlər | 5457 | 29135 | 58012 | 60803 | 75130 | 87251 | 15,9 dəfə |



ına müsbət təsir göstərən addımlar atılması ölkəmizin bu sahədə mühüm irəliləyişlərə nail olmasından xəbər verir. Son 20 il ərzində İKT-nin inkişafı istiqamətində atılmış ardıcıl addımlar nəticəsində bu gün Azərbaycan informasiya cəmiyyətinin quruculuğu prosesini keyfiyyətcə yeni mərhələyə çıxarmış və innovasiyalar sahəsində ölkəmizin regional mərkəz statusunu gücləndirmişdir.

Dövlət siyasətinin prioritetini təşkil edən İKT-nin hərtərəfli inkişaf etməsində bugünkü sosial-iqtisadi inkişaf modelinin həyata keçirilməsində zəruri əsaslar yaratmış "Əsrin müqaviləsi"nin imzalanması böyük rol oynamışdır. İKT-nin inkişafı üçün hüquqi bazanın yaradılmasında böyük rol oynayan, 2003-cü ildə təsdiq edilən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"da ölkəmizdə informasiya cəmiyyətinə keçid prosesinin sürətlənməsinə təkan vermişdi.

Həmin Milli Strategiyanın əsas məqsədi ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə sosial-iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsidir.

İnformasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyaya uyğun, son illərdə Azərbaycan İKT-nin inkişaf etdirilməsi üçün görülən işlər nəticəsində ölkənin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-hökümət, e-ticarət, distant təhsil və s.) təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır.

MDB ölkələri arasında ilk dəfə Azərbaycan Respublikasında sabit telefon şəbəkəsi tam elektronlaşdırılmış və ölkənin

bütün yaşayış məntəqələri telefonlaşdırılmış. Respublikanın bütün rayon mərkəzləri magistral fiber-optik telekommunikasiya şəbəkəsinə qoşulmuşdur.

Mobil şəbəkə genişləndirilmişdir. Respublikada mövcud olan üç mobil operator tərəfindən müasir 3G xidmətləri göstərilir. 2012-ci ildən ölkəmizdə 4G texnologiyasının da tətbiqinə başlanılmışdır.

Statistik məlumatlara görə, ölkədə hər 100 nəfərə 112 mobil abunəçi düşür. Əhalinin 77%-i internet istifadəçisidir, o cümlədən onların 72%-i genişzolaqlı internet istifadəçisidir. İnternet qiymətləri ildən-ilə azalır. Belə ki, 2004-cü illə müqayisədə 1 Mbit/s sürətli internetə qoşulmanın qiyməti 1200 manatdan 10 manata enmişdir. Ölkə üzrə genişzolaqlı xidmətlərə qoşulmanın orta qiyməti orta aylıq əmək haqqının 3%-ni təşkil edir və bu BTİ-nin inkişaf etməkdə olan ölkələrdə bu nisbətin 2015-ci ilədək 5%-dən az olması hədəfinə artıq nail olunmuşdur.

Son 5 ildə beynəlxalq internet kanalının tutumu 12,9 dəfə artaraq 200 Gbit/s-yə çatmış, internet xidmətləri bazarının həcmi təxminən 4 dəfə artmışdır. Hər nəfərə beynəlxalq internet kanallarının həcmi 2010-cu ildə 4,6 kbit/s-dən əhatə olunmuş ölkə əhalisinin xüsusi çəkisi 99,9%-ə çatmışdır.

Əldə edilən nailiyyətlərə baxmayaraq 2020-ci ilə qədər informasiya cəmiyyətinin inkişafına dair milli strategiyada aşağıdakı istiqamətlər üzrə fəaliyyətin genişləndirilməsi nəzərdə tutulmuşdur:

- İKT infrastrukturu və xidmətlərinin genişləndirilməsi;
- yüksək texnologiyalar sektorunun inkişafı;
- yüksək texnologiyaların inkişafı üzrə elmi-texniki potensialın gücləndirilməsi;
- "elektron hökümət"in inkişafı;
- İKT – cəmiyyətin inkişaf etdirilməsi;
- kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- informasiya təhlükəsizliyinin təmin edilməsi;
- milli kontingenin inkişaf etdirilməsi.



## 10.5. Milli iqtisadiyyatın inkişafında informasiya və rabitənin əhəmiyyəti.

Azərbaycanda davamlı iqtisadi inkişafa nail olunmasında qeyri-neft sektorunun aparıcı sahəsi olan İKT-nin rolu yüksək qiymətləndirilir. Ölkədə İKT-nin inkişaf etdirilməsi üçün görülən işlər nəticəsində ölkənin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının təşəkkül tapması istiqamətində mühüm addımlar atılmışdır.

Son illərdə İKT sektorunda müşahidə edilən artım sürəti bu sahənin milli iqtisadiyyatımızın aparıcı və dinamik inkişaf edən sahəsinə çevrildiyini təsdiqləyir. Belə ki, İKT sektorunda gəlirin 12% artması və bunun da müvafiq ümumdünya orta göstəricisindən 1,5 dəfə yüksək olması qəbul edilən Milli Strategiyada müəyyən edilmiş hədəflərə çatılmasında böyük irəliləyişlərə nail olduğunu bir daha təsdiqləyir. İKT-nin mühüm sahəsi hesab edilən telekommunikasiya sektorunda mobil rabitə xidmətləri göstərən operatorların ümumi gəlirlərinin yüksək sürətlə artması, bütün ölkə üzrə 3-cü, Bakı və Abşeron yarımadasında isə 4-cü nəsil texnologiyalarının tətbiqi texniki imkanların inkişafı baxımından vacib amilə çevrilmişdir.

Artıq İKT iqtisadiyyatın qeyri-neft sektorunun dinamik inkişaf edən sahəsinə çevrilmiş və orada yerinə yetirilən işin və xidmətin həcmi hər il 20-25% artmaqdadır. Belə ki, son illər sektorun ÜDM-dəki payı 1,7%-dən 2,0%-ə, qeyri-neft ÜDM-dəki payı isə 4,0%-ə yüksəlmişdir. (sxem 10.5.1.)

Bununla yanaşı, informasiya və rabitə sektoru yeni iş yerlərinin yaradılmasında mühüm rol oynamışdır. Belə ki, 2004-2015-ci illərdə respublika üzrə yaradılan 1,1 mlyn daimi iş yerinin 0,6%-i həmin sferanın payına düşmüşdür. Sahədə ayrı-ayrı illərdə yaradılan daimi iş yerlərinin sayı ilbəil artır.




*Sxem 10.5.1. İnformasiya və rabitə sferasında yaradılan daimi iş yerlərinin sayı.*



AR DSK-nın məlumatlarına görə, 2010-2015-ci illərdə informasiya və rabitə sferasında əsas kapitala 2327,6 mlyn. manat investisiya yönəldilmişdir. Təkcə 2010-2015-ci illərdə həmin sferanın müəssisə və təşkilatlarında 2244,3 mlyn. manat mənfəət əldə edilmişdir ki, onun da qanunda nəzərdə tutulan hissəsi dövlət büdcəsinə keçirilmişdir. İnformasiya və rabitə sferasında əldə edilən mənfəətin yüksək həddi 2014-cü ildə, aşağı həddi isə 2010-cu ildə müşahidə edilir. Son beş ildə həmin sferada zərərin miqdarı da 8 mlyn. manatdan 79,8 mlyn. manata çatmış və yaxud 9,9 dəfə çoxalmışdır (sxem10.5.2.).




*Sxem 10.5.2. İnformasiya və rabitə müəssisə-təşkilatların mənfəəti və zərəri.*

Zərərlə işləyən informasiya və rabitə müəssisələrinin böyük əksəriyyəti kənd şəbəkələridir. Onun başlıca səbəbi isə - hələ də kəndlərdə mütərəqqi xidmət növləri və formalarının geniş tətbiq edilməməsidir. Elə buna görə də "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qeyd edilir ki, proqramın əhatə etdiyi illərdə regionlarda əhaliyə müasir elektron xidmətlərin göstərilməsi imkanları daha da genişləndiriləcək, kənd yaşayış məntəqələri də daxil olmaqla ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli internetə çıxış təmin ediləcəkdir. Bu sahədə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə müvafiq tədbirlər həyata keçiriləcəkdir:

- regionlarda inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, informasiya və kommunikasiya xidmətlərinin daha da genişləndirilməsi;
- regionlarda əhalinin İKT sahəsində bilik və kadr hazırlığı səviyyəsinin yüksəldilməsi;
- regionlarda televiziya yayımı keyfiyyətinin daha da yüksəldilməsi.

İnformasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyada da qeyd edilir ki, yerləşdiyi ərazidən asılı olmayaraq, bütün əhalini və təşkilatları birləşdirən yüksək sürətli dayanıqlı, təhlükəsiz genişzolaqlı şəbəkənin qurulması və onun əsasında, kənd yaşayış məntəqələri də daxil olmaqla, ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli xidmətlərin göstərilməsi təmin ediləcəkdir.

Şübhəsiz, həmin kompleks tədbirlərin icrası regionlarda, xüsusilə kənd yerlərində İKT-nin geniş tətbiqinə təminat yaratmaqla yanaşı, informasiya və rabitə xidməti göstərən müəssisələrin səmərəli işinə də imkan verəcəkdir.



# MÖVZU 11. TİKİNTİ SƏNAYESİNİN İNKİŞAFI

## 11.1. Qeyri-neft sənayesinin inkişafında tikinti sektorunun rolu.

Milli iqtisadiyyatın qeyri-neft sektorunda tikinti məhsul istehsal edən sahələrdən biridir. Məhz tikinti iqtisadi və sosial sektorlarda elmi-texniki tərəqqinin sürətlənməsi, inkişafın sahəvi və regional proporsiyalarının təkmilləşdirilməsi üçün maddi bazanın formalaşdırılmasında, ölkənin iqtisadi potensialının artırılmasında, müdafiə qabiliyyətinin yüksəldilməsində bilavasitə iştirak edir. Müasir maşın və mexanizmlərlə təchiz olunan tikinti-quraşdırma təşkilatları onun institusional vahidləridir.

Onun fəaliyyəti sənaye, kənd təsərrüfatı və digər sosial-iqtisadi sektorlar üçün istehsal və qeyri-istehsal təyinatlı əsas fondlar yaratmaqdan, daşınmaz əmlakın bərpasını, əsaslı və cari təmirini həyata keçirməkdən ibarətdir. Azərbaycanda tikinti sektoru özünün tarixi inkişaf yolunu keçmiş və neft sənayesinin inkişafı ilə daha sıx bağlı olmuşdur. Hələ XIX əsrin II yarısından başlayaraq Bakıda bir çox neft emalı müəssisələri, yeraltı və yerüstü mühəndis kommunikasiyaları, ən başlıca isə Bakının neft milyonçularının öz vəsaitləri hesabına bir-birindən yaraşıqlı və milli memarlıq ənənələrinə uyğun müxtəlif təyinatlı binalar (Bakı-Şollar su kəməri, Z.Tağıyevin toxuculuq fabriki,) "İsmailiyyə" (indiki AMEA-nın Rəyasət Heyətinin yerləşdiyi bina), Murtuza Muxtarovun evi (indiki "Səadət Sarayı"), şəhər meriyasının binası (indiki Bakı şəhər İcra Hakimiyyətinin Filarmaniyasının binası, Z.Tağıyevin evi (indiki Tarix muzeyi) və s.) tikilmişdir.

XX əsrin əvvəllərində Azərbaycanda neft sənayesinin bərpası ilə əlaqədar həyata keçirilən tikinti işləri "Azneft" Birliyinin tikinti-quraşdırma təşkilatları tərəfindən yerinə yetirilmişdir. Hələ 1928-ci ildə "Bakışəhərtikinti" adlı səhmdar cəmiyyəti yaradılmış və onun təsisçiləri isə Bakı Soveti, "Azneft"

Birliyi, Dəmiryol İdarəsi və Xəzər Gəmiçiliyi İdarəsi, iki il sonra, yəni 1930-cu ildə Azərbaycanda Rus-Alman-Tikinti "Səhmdar Cəmiyyəti" fəaliyyət göstərmiş, "İstibeton" tresti yaradılmışdır. Sonrakı illərdə tikinti-quraşdırma işlərinin həcminin artması ilə əlaqədar 10-a yaxın ixtisaslaşdırılmış iri tikinti təşkilatları fəaliyyətə başlamışdır. Tarixi mənbələrdən məlum olur ki, 1920-1941-ci illərdə yeni yaradılan tikinti təşkilatlarının gücü ilə 1267 mlyn. rubl həcmində kapital qoyuluşu istifadə edilmiş və 818 mln. rubl həcmində tikinti-quraşdırma işləri yerinə yetirilmiş 90 iri dövlət müəssisəsi və çoxsaylı sexlər tikilib istifadəyə verilmiş, xeyli sayda mövcud fabrik və zavod rekonstruksiya edilmiş, yeni avadanlıqla təchiz olunmuşdur. Məhz həmin dövrdə Neftçala və Bakı Yod zavodları, iri maşınqayırma zavodu, mebel və tikiş fabrikləri, Çay fabriki, Konserv zavodları, Pambıqtəmizləmə məntəqələri tikilib istifadəyə verilmişdir.

İkinci dünya müharibəsindən sonra təkcə 1946-1950-ci illərdə 34 sənaye müəssisəsi, o cümlədən Bakıda elektrik maşınqayırma zavodu, diyircəkli yastıqlar zavodu və başqa sənaye müəssisələri inşa edilmişdi. 1951-1970-ci illərdə respublikanın iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 15,3 mlrd. rubl həcmində kapital qoyulmuş və 196 iri dövlət sənaye müəssisəsi tikilmişdir.

XX əsrin 70-ci illərdə Azərbaycanın rəhbərliyi tərəfindən hazırlanmış və həyata keçirilmiş tədbirlər nəticəsində tikintidə əsaslı canlanma yaranmış və 1971-1975-ci illərdə iqtisadiyyata yönəldilən kapital qoyuluşu, 1966-1970-ci illərə nisbətən 29% artmışdır. Kapital qoyuluşunun 45%-i məhz qeyri-neft sənayesinin inkişafına yönəlmişdir. Həmin dövrdə 64 yeni iri sənaye müəssisəsi, 32 yeni sex və istehsal sahələri tikilib istifadəyə verildi. İşə salınan obyektlər arasında Bakı məişət kondisionerləri zavodu, Sumqayıt kompressorlar zavodu, Bakıda tikiş və ayaqqabı hissələri fabrikləri, Xudat konserv zavodu, ilkin şərab istehsal edən 14 zavod, 4 pendir zavodu və digər xalq təsərrüfatı əhəmiyyəti olan obyektlər var idi.



Məhz 1971-1975-ci illərdə mülkü tikintidə də əhəmiyyətli dəyişikliklər baş vermiş, yeni evlər, kommunal, mədəniyyət-məişət, səhiyyə və maarif obyektlərinin tikintisinə yönəldilən dövlət və kooperativ müəssisə və təşkilatlarının kapital qoyuluşları 1328 mln. rubl təşkil etdi ki, bu da ümumi kapital qoyuluşlarının beşdə-birindən çox idi. Bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 6915 min elan 147,5 m$^2$ olan 147,5 min mənzil, 179 min nəfərlik ümumtəhsil məktəbləri, 25,5 min nəfərlik klub və mədəniyyət evləri, 5,9 min çarpayılıq xəstəxanalar, çoxsaylı məişət xidməti, kommunal təsərrüfatı və əhaliyə xidmət edən başqa sahələrin obyektləri tikilib istifadəyə verilmişdir.

Bütünlükdə, 1976-1980-cı illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən kapital qoyuluşunun məbləği əvvəlki beş ilə nisbətən 1,4 dəfə artmış və nəticədə 80-dən çox sənaye müəssisəsi, istehsal gücləri və sahələri işə salınmışdır. Onların içərisində yeni Bakı Neft Emalı zavodundan (indiki Heydər Əliyev adına Neft Emalı Zavodu) ED-AVQ ELOU-AVT qurğusu, Yevlax şəhərində yunun ilkin emalı fabriki, Sumqayıt şəhərində xovlu iplik fabriki, Gəncə şəhərində ət emalı və süd zadovları, Naxçıvan şəhərində un kombinatı, 50 heyvandarlıq kompleksi, quşçuluq fabrikləri, damazlıq təsərrüfatları tikilib istifadəyə verilmiş neftmaşınqayırma, kimya, neft kimyası, neft emalı və başqa sənaye sahələrinin yenidən qurulması, genişləndirilməsi və texnika ilə yenidən təchiz olunması həyata keçirilmişdir.

Böyük miqyasda kapital qoyuluşlarının nəticəsi kimi, iqtisadiyyatın əsas fondları 1980-ci ildə 1970-ci illə müqayisədə 83%, o cümlədən əsas istehsal fondları 91% artmışdır. Bütünlükdə, 1970-80 illərdə iqtisadiyyata ümumi məbləği 16,8 mlrd. rubl olan kapital qoyuluşları yönəldilmiş, respublikada əsasını

yüksək inkişaf etmiş sənaye təşkil edən çoxsahəli iqtisadiyyat yaradılmışdır.

AR DSK-nın məlumatlarına görə, əgər 1990-cı ildə ölkə ərazisində 1170 tikinti təşkilatları fəaliyyət göstərmişdirsə, 1995-ci ildə onların sayı 1949 vahidə, 2000-ci ildə isə 4280 vahidə çatmışdır. Təkcə 1995-2000-ci illərdə ərzində tikinti təşkilatlarının öz gücü ilə yerinə yetirdikləri nodrat işlərinin həcmi 2,4 dəfə artmışdır.

Bu illərdə ümumi sahəsi 3,2 milyon kvadrat metr olan 32,8 min yeni mənzil tikilib istifadəyə verilmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin 1,7 milyon kvadrat metri (52,9%-i) kənd yerlərində inşa edilmişdir. Bu illərdə əhalinin öz şəxsi vəsaiti hesabına 2,4 milyon kvadrat metr (cəmi yaşayış evlərinin ölkədə 72,3%-i qədər) fərdi yaşayış evləri istifadəyə verilmişdir.

1995-2000-ci illərdə ölkədə 548 çarpayılıq xəstəxana, növbədə 420 xəstəni qəbul edən ambulatoriya-poliklinika müəssisəsi, 10594 şagird yerlik ümumtəhsil məktəbi, 200 yerlik klub və mədəniyyət evləri və digər sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdir.

ARDSK-nın məlumatlarına görə, 2001-2015-ci illərdə qeyri-neft sektoru üzrə əsas kapitala 86308 mlyn. Man investisiya qoyulmuşdur. Nəticədə, həmin illərdə iqtisadi inkişaf üçün həlledici rol oynayan 108 sənaye müəssisəsi, sex və istehsal sahəsi, 2006-2015-ci illərdə irihəcmli 744 sənaye, ticarət, kənd təsərrüfatı, səhiyyə, ictimai iaşə, nəqliyyat, informasiya və rabitə və digər sosial obyektlər tikilib istismara verilmişdir. Əsas kapitala yönəldilən investisiyanın başlıca mənbəyini müəssisə və təşkilatların öz vəsaiti təşkil edir. Onun xüsusi çəkisi isə ildən ilə azalmaqdadır. Belə ki, əgər 2005-ci ildə əsas kapitala yönəldilmiş investisiyaların 82,6%-i müəssisə və təşkilatın öz vəsaiti təşkil etmişdirsə, 2010-cu ildə həmin göstərici 50,9%; 2015-ci ildə isə 63,8% olmuşdu. Bu illər ərzində də tikilib istifadəyə verilən qeyri-neft sənaye müəssisələrin iqtisadi fəaliyyət



sahələri üzrə əhatə dairəsi geniş şəkildə genişlənmişdir. Təkcə 2015-ci ildə respublika ərazisində 195 çarpayılıq 2 xəstəxana, növbədə 270 nəfəri qəbul etmək imkanına malik 7 poliklinika, 11222 şagird yerlik 53 ümumtəhsil məktəbi, 2182 yerlik 23 məktəbəqədər təhsil müəssisəsi, 280 yerlik 2 klub və s. obyektlər istifadəyə verilmişdir.

Əlbəttə, bütün bunların nəticəsində tikinti kompleksi milli iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmiş, ÜDM-də onun xüsusi çəkisi 1995-ci ildə 3,7%-dən 2015-ci ildə 12,1%-ə çatmışdır (sxem 11.1.1.).




***Sxem 11.1.1. Tikinti sahəsində yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, %-lə.***

Tikinti sektoru əhalinin məşğulluğunun təmin edilməsində də öncül mövqedədir. Belə ki, 2015-ci ildə iqtisadiyyatda məşğul olanların 2,1%-i həmin sektorun payına düşmüş və 2004-2015-ci illərdə orada 79,3 min yeni açılmış daimi iş yerləri yaradılmışdır.

## 11.2. Tikintinin əsas sosial-iqtisadi göstəricilərində baş verən dəyişikliklər.

Azərbaycanda inkişafın ağırlıq mərkəzi sadəcə olaraq qeyri-neft sənayesinin üzərinə deyil, əsasən onun mütərəqqi texnika, texnologiya, elmi yeniliklər tətbiq edən sahələrinin üzərinə keçəcəkdir.

Son 20 ildə tikinti sektorunun maddi-texniki bazası əsaslı şəkildə yeniləşmiş, tikinti fəaliyyət ilə məşğul olan müəssisələrin və fərdi sahibkarların sayı yüksələn xətlə artmışdır. Hazırda iqtisadi fəaliyyət növləri üzrə qeydə alınmış bütün təsərrüfat subyektlərinin 10,6%-i, fərdi sahibkarların təxminən 1,0%-i tikinti sektorunun payına düşür. Qeydiyyatda olan həmin müəssisələrin 93,2%-i kiçik müəssisə statusundadır. Tikinti müəssisələrin 95,1%-i xüsusi müəssisələrdir. Tikinti fəaliyyəti ilə ölkə ərazisində 904 xarici və 260 birgə müəssisə məşğul olur, 17 müəssisə isə bələdiyyə mülkiyyətindədir.

Bunlarla yanaşı, dövlət müəssisələrin bazasında 1997-2015-ci illər ərzində tikinti təyinatlı 266 səhmdar cəmiyyəti yaradılmışdır. Ölkədə eyni adlı cəmiyyətlərin 16,6%-i tikinti sektorunun payına düşür.

Azərbaycanda "Akkord" Sənaye-tikinti investisiya korporasiyası, "Gilan Holdinq"; "Azfen" BM; "AZ-İnşaat"; "Evrascon"; "ANT Group"; "Avesta Consern", Creacan inşaat şirkəti, "AS Group İnvestment" iri tikinti şirkətlərinin yaradılması kiçik və orta tikinti təşkilatlarının sayının azalmasına əsaslı təsir göstərmişdir. Məsələn, "Akkord" STİK-nın tərkibində beton, dəmir-beton, metal-konstruksiya, asfalt, kərpic, mərmər, daş-cınqıl və sair tikinti materialları istehsal edən 40 zavod fəaliyyət göstərir. Korporasiya 150-9001, 150-14001, OHSAS-18001 kimi beynəlxalq sertifikat almışdır. "Akkord" iri yaşayış sahələrinin idman komplekslərinin, körpülərin, keçidlərin,



su təchizatı və kanalizasiya xətlərinin tikintisini maliyyələşdirir və həyata keçirir.

"Gilan Holdinq" 1992-ci ildən Azərbaycanda irimiqyaslı layihələrə sərmayələr yatırır. Onun tərkibində asfalt, tikinti materialları, kərpic, quru suvaq, seramik istehsalı ilə məşğul olan zavodlar, eləcə də Gilan Pacific İnşaat firması fəaliyyət göstərir.

ARDSK-nın məlumatlarına görə artıq 2005-ci ildə şirkətlərin yaranması nəticəsində respublikada tikinti fəaliyyəti göstərən müəssisələrin sayı 1405 vahidə enmiş, 2010-cu ildə 1391 vahid təşkil etmiş, sonrakı illərdə isə onların sayı artıb – azalan xətlə dəyişərək 2015-ci illə 1145 vahid olmuşdur ki, bu da 2005-ci illə müqayisədə 102,8% artım deməkdir. Belə dəyişikliyə baxmayaraq, tikinti təşkilatlarında çalışan işçilərin sayı müqayisə edilən dövrdə 39,3 min nəfər və yaxud 166,8% artmışdır. Həmin dövrdə tikinti işlərinin dəyəri 4,7 dəfə, orada əsas fondların dəyəri 3,6 dəfə, tikintidə yaranan əlavə dəyər - 5,6 dəfə, ümumi mənfəətin məbləği isə 6 dəfə artmış, tikintidə çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2005-ci ildə 27,6 manatdan 2015-ci ildə 677,7 manata çatmış və yaxud 2,8 dəfə yüksəlmişdir.

Azərbaycanda tikintinin əsas sosial-iqtisadi göstəricilərini təhlil edərkən aydın olur ki, 2005-2015-ci illərdə orada əsas kapitala yönəldilmiş investisiyaların 2,7 dəfə artması, istifadəyə verilmiş əsas fondların 2,1 dəfə çoxalmasına səbəb olmuşdur. Nəticədə, həmin dövrdə tikilib istifadəyə verilən yaşayış evlərinin ümumi sahəsi 121,3%, onlardan vətəndaşların şəxsi vəsaiti hesabına tikilən yaşayış evlərin sahəsi 145%, xəstəxanaların sayı 2,9 dəfə, məktəbəqədər təhsil müəssisələrində yerlərin sayı 4,3 dəfə artmış, yalnız poliklinikalar və ümumtəhsil məktəblərinin sayında nisbi gerilik baş vermişdir. Lakin müqayisə edilən dövrdə tikinti işlərinin dəyəri 4,7 dəfə artaraq, 2015-ci ildə 7319,6 mlyn. manata çatmışdır. (cədvəl 11.2.1.)

*Cədvəl 11.2.1.*

**Azərbaycanda tikintinin əsas sosial – iqtisadı göstəriciləri (milyon manat)***

| Göstəricilər | İllər | | | | | | 2005-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| İstifadəyə verilmişdir: əsas fondlar | 47807,7 | 5961,3 | 10194,1 | 11143,1 | 9336,3 | 9933,3 | 2,1 dəfə |
| Yaşayış evləri, ümumi sahə, min kvadrat metr | 1593 | 2049 | 2147 | 2403 | 2197 | 1932 | 121,3 |
| Ondan vətəndaşların şəxsi vəsaiti hesabına | 1115 | 1151 | 1434 | 1595 | 1806 | 1616 | 145,0 |
| Xəstəxanalar, çarpayı | 72 | 886 | 265 | 1750 | 380 | 210 | 2,9 dəfə |
| Poliklinikalar, növbədə qəbul | 441 | 710 | 1056 | 1485 | 727 | 290 | 65,8 |
| Ümumtəhsil məktəbləri, şagird yeri | 44668 | 19183 | 61974 | 53016 | 41572 | 16904 | 37,8 |
| Məktəbəqədər təhsil müəssisələri, yer | 53 | 1010 | 1722 | 3388 | 1447 | 2292 | 4,3 dəfə |
| Əsas kapitala yönəldilmiş investisiyalar | 5769,9 | 9905,7 | 15407,3 | 17850,8 | 17618,6 | 15957,0 | 2,7 dəfə |
| Tikinti işlərinin dəyəri, milyon manat | 1558,0 | 4531,4 | 7716,0 | 8721,2 | 8591,9 | 7319,6 | 4,7 dəfə |

*) *Azərbaycanda tikinti. Bakı, "DSK", 2014, s.87; 2016, s.100*



Son 10 ildə məhz tikinti təşkilatları tərəfindən Azərbaycanda 32 Olimpiya İdman Kompleksi, 10 avto vağzal binası, 14 Şahmat məktəbi, 4-ə yaxın mehmanxana, 15-ə yaxın müalicə - diaqnostika mərkəzi, 10 süd məhsulları emalı zavodu və bir çörək məmulatları istehsalı zavodu, 7 konserv zavodu, 6-sı beynəlxalq statusa malik 7 aeroport, Bakıda, Naxçıvanda və Tovuzda iri sement zavodları, qaçqın və məcburi köçkünlər üçün çoxsaylı qəsəbələr, yaşayış massivləri, regionlarda 7 asfalt beton zavodu, 2 su-elektrik stansiyası, 7 modul tipli elektrik stansiyası, yüzlərlə digər sosial infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir.

## 11.3. Tikintiyə kapital qoyuluşu.

Kapital qoyuluşu investisiyanın bir forması olub istehsal güclərinin təkrar istehsalı, istehsal təyinatlı qurğuların və qeyri – istehsal dairəsi obyektlərinin tikilməsinə yönəldilən məsrəflərin məcmusudur. Kapital qoyuluşu yeni tikililərin və fəaliyyət göstərən müəssisələrin yenidən qurulmasına və yeniləşdirilməsinə, yeni texniki vasitələrlə təchiz edilməsinə, güclərin saxlanmasına çəkilən xərclərdən ibarətdir. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, kapital əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi kapital qoyuluşları şəklində həyata keçirilir.

Kapital qoyuluşu və əsaslı tikinti öz aralarında qarşılıqlı əlaqədədirlər. Kapital qoyuluşu əsaslı tikintini həyata keçirmək üçün maliyyə mənbəyidir. Əsaslı tikinti isə əsas fondların geniş təkrar istehsalının əsas formalarından biridir.

Tikinti istehsalının əsas elementlərinin qarşılıqlı fəaliyyətini yaxşılaşdırmaq üçün tikinti məhsulunun yaradılması texnologiyası hazırlanır ki, bu da əmək predmetlərinin (beton, kər-

pic, metal, daş və s.) keyfiyyət dəyişikliyilə nəticələnən istehsal prosesinin aparılmasının üsul və metodları haqqında biliklərin məcmusunu ifadə edir. Tikinti prosesi dedikdə, tikinti meydançasında həyata keçirilən qarşılıqlı əlaqədə olan əsas, köməkçi və xidmətedici texnoloji əməliyyatların məcmusu başa düşülür ki, onların da qarşılıqlı fəaliyyəti nəticəsində tikinti məhsulu yaradılır.

Statistik məlumatlara görə, 2005-2015-ci illərdə tikinti sferasında əsas kapitala yönəldilmiş investisiyaların məbləği 46,1 dəfə, tikinti məmulatlarının istehsalında isə- 3,9 dəfə artmışdır.

Qeyd edilən illər ərzində əsas kapitala yönəldilmiş investisiyaların tərkibində müəssisə və təşkilatların öz vəsaitinin xüsusi çəkisi 18,8 bənd, əhalinin şəxsi vəsaitinin xüsusi çəkisi isə 1,3 bənd azalmış, digər maliyyə mənbələrinin xüsusi çəkisi isə diqqəti cəlb edəcək dərəcədə artmışdır.

Onların içərisində büdcə vəsaitlərinin xüsusi çəkisi 2015-ci ildə 19,6% təşkil etsə də, əvvəlki dörd ildə 32,9%-lə 45,3% arasında dəyişmişdir. Oxşar vəziyyət büdcəkənar fondların vəsaitləri üzrə də müşahidə edilir.

2005-2015-ci illər ərzində ölkənin iqtisadi fəaliyyət sahələrində əsas kapitala yönəldimiş investisiyaların məbləği 2,8 dəfə, o cümlədən daxili investisiyalar 4,3 dəfə, xarici investisiyalar isə 1,9 dəfə artmışdır. Nəticədə, daxili investisiyaların xüsusi çəkisi artıb-azalan xətlə 36,5%-lə 79,7% arasında, xarici investisiyalar isə 20,3%-lə 63,5% arasında dəyişmişdir. Bununla belə, 2015-ci ildə əsas kapitala yönəldilmiş investisiyalar xeyli dəyişmişdir.

Tikintidə əsas kapitala yönəldilmiş investisiyaların quruluşuna nəzər yetirdikdə aydın olur ki, 2005-2010-cu illərdə tikinti – quraşdırma işlərinə sərf edilən investisiyaların həmi 3,8



dəfə, maşın, avadanlıq və inventarlar üzrə 146,6%, sair işlər üzrə isə 172,1% artmışdır. Nəticədə 2005-ci ildə onların xüsusi çəkisi uyğun olaraq: 53,9%, 23,4% və 22,7% olduğu halda, 2015-ci ildə həmin nisbət əsaslı şəkildə dəyişmiş və uyğun olaraq 73,5%, 12,4% və 14,1% təşkil etmişdir.

Bütün bunların nəticəsində istifadəyə verilən əsas fondların dəyəri qeyd edilən illər ərzində 2,1 dəfə, o cümlədən dövlət mülkiyyətində olan obyektlər üzrə 10,7 dəfə artmış, qeyri-dövlət mülkiyyətində isə əksinə, 11,7% azalmışdır. Bununla belə, 2015-ci ildə bütün investisiyaların 2,2%-i kənd təsərrüfatı, 53,2%-i sənayenin qeyri-neft sahələrinə yönəldilmişdir. Lakin həmin göstərici 2010-2013-cü illərdə 70,1%-lə 76,0% arasında dəyişmiş və 2014-cü ildə 66,2% olmuşdur ki, bu da 2005-ci illə müqayisədə 31,4% çoxdur. (sxem 11.3.1.)




***Sxem 11.3.1. Qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların xüsusi çəkisi, faizlə.***

## 11.4. Əsas növ tikinti materiallarının istehsalı.

Qeyd edildiyi kimi, tikintidə əsas kapitala yönəldilən investisiyaların bir hissəsi də əsas növ tikinti materiallarının, metal – konstruksiyaların və məmulatların istehsalına yönəldilir. Araşdırmalar göstərir ki, bu sahədə dinamik inkişaf təmin edilmişdir. Belə ki, müqayisə edilən illər ərzində ölkədə sement istehsalı 1,8 dəfə, gips istehsalı 6,9 dəfə, tikinti gipsi 1,7 dəfə, sementdən, süni daşdan tikinti blokları 7,5 dəfə, keramik plitələr 2,8 dəfə, qeyri-filiz tikinti materialları 143,2%, yığma dəmir-beton konstruksiyalar 137,2% artmış, yalnız taxta-şalban və inşaat üçün əhəngdaşı istehsalı xeyli azalmışdır.

Əldə edilən nailiyyətlərə baxmayaraq, idxalın tərkibində daş, gips, sement, asbest, keramika məmulatları, şüşə və sairə tikinti materiallarının xüsusi çəkisi təkcə 2010-2015-ci illərdə ərzində 1,9%-lə 2,4% arasında dəyişmişdir. Nəticədə, 2012-ci ildə 235,9 mlyn. dollar məbləğində qeyd edilən məhsulların idxalı baş tutmuş, 2015-ci ildə isə onun məbləği 213,6 mlyn. dollar təşkil etmişdir. İdxalın 41,1%-i daş, gips, sement, asbest və digər analoji məmulatlar, 36,2%-i şüşə və şüşə məmulatları, 22,7%-i isə keramika məmulatları olmuşdur. Lakin ölkəmizdə həmin məhsulların tam həcmdə istehsalını təşkil etmək mümkündür.

Tikinti materialları istehsalı sahəsində Çin ən böyük istehsalçı və istehlakçı ölkədir. Belə ki, dünyada 2013-ci ildə 4 milyard ton sement istehsal edilmişdirsə, onun 2,5 milyard tonu Çində istehsal edilmişdir. Bundan başqa, dünyada istehsal olunan 1,6 milyard ton poladın 779 milyon tonu Çinin payına düşür. Çinin tikinti və tikinti materialları sahəsinin həcmi 2011-ci ildə 1,8 trilyon ABŞ dolları təşkil etmiş və 2007-ci ildəki göstərici (782 milyard ABŞ dolları) ilə müqayisədə 2,4 dəfə artmışdır.



Son illərin tendensiyalarından biri "yaşıl" tikinti materiallarının inkişafıdır. "Yaşıl" tikinti materialları dedikdə ekologiyaya və həmçinin insan sağlamlığına aid bir neçə xüsusiyyətlərə uyğun materialların işlənilməsi nəzərdə tutulur. Bu xüsusiyyətlər aşağıdakı kimidir:

- Texniki baxış üzrə xərcləri daha az olan;
- Enerji itkilərini azaldan;
- İnsan sağlamlığına zərəri daha az olan;
- Yaşayış sahəsinin planirovkasının dəyişməsi ilə bağlı xərcləri daha az tələb edən və s.

2015-ci ildə bu tipli məhsullar üzrə bazarın həcmi 405 milyard dollara bərabər olmuşdur. Artan tələbatın əsas faktorları kimi maya dəyərinin aşağı düşməsi, enerji daşıyıcılarının qiymətlərinin qalxması, ətraf mühit üzrə qanunvericiliyin sərtləşməsi və digər amillər göstərilir. Bu istiqamətdə aparıcı bazar Avropa İttifaqı və daha sonra isə ABŞ bazarıdır. Eyni zamanda, Asiya ölkələrində də "yaşıl" tikinti materialları bazarının inkişafı gözlənilir. Bu regionda əsas tələbat olan "yaşıl" materiallar arasında "yaşıl" döşəmə, "yaşıl" sement və "yaşıl" dam örtükləri vardır.

Məlum olduğu kimi, son illərdə ölkədə böyük həcmli tikinti və infrastruktur layihələri həyata keçirilməkdədir. 2009-2013-cü illərdə ümumi tikinti işlərinin həcmi 2,5 dəfə artaraq 3,4 milyard manatdan 8,7 milyard manata çatmışdır. Qeyd etmək olar ki, bu tikinti işlərinin böyük hissəsi (66,2%) yeni tikinti və yenidənqurma işləridir. Eyni zamanda, tikintidə və tikinti materialları sahəsində artan iş həcmi və tələbatın nəticəsində bu sahələrdə işçi qüvvəsinin artması da müşahidə edilir. Belə ki, 5 il ərzində (2009-2013-cü illər) işçilərin sayı 66 min

nəfərdən 101,4 min nəfərə kimi, yəni 65% artmışdır. Bunlardan 9,6 min nəfəri birbaşa tikinti materialları istehsalı üzrə 220 müəssisədə çalışırlar. Qeyd etmək lazımdır ki, tikinti materialları istehsalı sahəsində çalışanların orta aylıq əmək haqqı 543,2 manat təşkil edir.

## 11.5. Tikinti sənayesinin inkişafının başlıca istiqamətləri.

Azərbaycanda tikinti sənayesinin inkişafının mövcud vəziyyətini, onun sosial – iqtisadi göstəricilərinin təhlili nəticəsində bir sıra ehtiyat imkanlarının mövcudluğu aşkar edilmişdir. Tikintidə maşın və avadanlıqların alınmasına yönəldilən vəsaitin azalması onun texniki – texnoloji səviyyəsinə mənfi təsir göstərir. Bir sıra tikinti məhsullarının istehsalının azalması (inşaat üçün əhəng, keramik plitə, şüşə, taxta yonqar plitələr, gips və s.) onların idxalının artmasına və ixracının azalmasına şərait yaratmışdır. Ölkənin bölgələrində tikinti fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlara SKMF-u vəsaiti hesabına güzəştli kreditlərin ayrılması və onların müvafiq avadanlıqlarla təmin edilməsi yerinə yetirilən işlərin keyfiyyətini artırmış olacaqdır.

Alternativ variant kimi fərdi sahibkarların müasir texnologiyaya malik tikinti məhsulları istehsal edən müəssisələrə cəlb edilməsi də yüksək sosial – iqtisadi səmərə verə bilər.

İxracyönümlü tikinti məhsulları istehsalını təşkil etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlığın inkişaf etdirilməsi sahənin inkişaf istiqaməti kimi çıxış edə bilər.

Əsaslı tikinti sferasında normativ – texniki bazanın yeniləşdirilməsi (tikinti normalarına yenidən baxılması), beynəlxalq standartların tətbiqi, sertifikatlaşmaya dəstək verilməsi də həllini gözləyən vacib məsələdir.

Tikinti materialları sənayesinin inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası zəngin yeraltı və yerüstü minerallara, təbii sərvətlərə malikdir.



*Cədvəl 11.4.1.*

**Əsas növ tikinti materiallarının, məmulat və konstruksiyaların istehsalı** *)

| | Ölçü vahidi | İllər | | | | | | 2005-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| Sement | min ton | 1537,9 | 1278,8 | 1965,8 | 2296,1 | 2940,7 | 2732,9 | 177,7 |
| Gips | min ton | 28,2 | 49,2 | 150,5 | 249,8 | 22,7 | 196,5 | 6,9 |
| İnşaat üçün əhəng daşı və digər daşlar | min ton | 704,5 | 456,8 | 535,2 | 565,0 | 458,5 | 345,1 | 48,9 |
| Tikinti kərpici | min kub m | 161,4 | 272,1 | 213,2 | 450,0 | 426,1 | 280,6 | 173,8 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları | min ton | 19,1 | 122,8 | 132,5 | 145,8 | 200,6 | 142,4 | 7,5 |
| Keramik plitələr | min kv m | 11,3 | 83,7 | 78,2 | 115,3 | 74,9 | 31,9 | 2,8 |
| Qeyri - filiz tikinti materialları | min ton | 1226,4 | 4646,1 | 4057,6 | 2139,1 | 3288,7 | 1756,1 | 143,2 |
| Pəncərə şüşəsi | min kv m | 186,1 | 0,9 | 1,5 | 0,1 | - | - | X |
| Taxta - şalban | min kub m | 0,3 | 2,5 | 0,5 | 4,5 | 18,7 | 0,2 | 66,7 |
| Taxta yonqar plitələr | min kub m | 0,02 | 0,2 | 0,1 | 0,0 | - | - | X |
| Yığma dəmir - beton konstruksiyalar və məmulatlar | min kub m | 19,9 | 49,6 | 47,3 | 28,3 | 36,0 | 36,0 | 137,3 |

*) *Azərbaycanda tikinti. Bakı, "DSK", 2016, s. 246, 247.*

Əsasən ölkədə qum-çınqıl, gil, üzlük daş, sement xammalı, əhəngdaşı, dolomit, mərmər, travertin, bazalt, qranit, vulkan tufu kimi yataqların böyük ehtiyatı mövcuddur. Tikinti materialları yataqları üzrə Abşeron coğrafi rayonunun ərazisi daha zəngindir. Burada istismar edilən Güzdək, Gülbaxt, Korgöz, Qızılqaya yataqlarının təsdiq olunmuş ehtiyatları ümumilikdə 218 milyon kubmetr təşkil edir. Belə zəngin mineral-xammal ehtiyatlarından müxtəlif çeşidli və yüksək keyfiyyətli tikinti materialları istehsal etmək mümkündür və onların səmərəli istifadəsi ilə bağlı əsaslı tədbirlər görülməlidir.

Respublikada fəaliyyət göstərən daş karxanalarında texniki təhlükəsizlik, əməyin mühafizəsi, ekologiya və ətraf mühitin qorunması tələblərinə məhəl qoyulmadan aparılan istismar işləri nəticəsində qiymətli əhəngdaşı yataqları səmərəsiz istifadə edilir. Müvafiq tullantıların sement və əhəng istehsalında, yol tikintisində yararlı xammal kimi istifadəsi mümkün olduğundan bu işə diqqət artırılmalıdır. İnvestisiyaların cəlb edilməsi yolu ilə respublikanın mineral-xammal resurslarının səmərəli istismarının təmin edilməsi əsas vəzifə olmalıdır. Tikinti kompleksinin tələbatının ödənilməsi üçün müasir tələblərə cavab verən, keyfiyyətli məhsul istehsal edə biləcək şüşə, sement və kərpic zavodlarının, kafel, metlax istehsalı müəssisələrinin sayının artırılması və mövcud xammal bazası əsasında belə məhsulların respublikada istehsalının genişləndirilməsi imkanları yüksəkdir. Respublikada istifadə edilən pəncərə şüşəsinin, yayma məhsullarının, kafel və metlaxın, dam örtüyünün, boyaq-bəzək məmulatlarının əksəriyyətinin daxili imkanlar hesabına təmin edilməsi perspektivi yüksəkdir.



# MÖVZU 12. ELEKTROENERGETİKA SƏNAYESİNİN İNKİŞAFI

## 12.1. Elektroenergetika sənayesinin maddi-texniki bazasının və infrastrukturunun formalaşması.

Azərbaycan elektrik energetikasının 100 ildən artıq tarixi olmasına baxmayaraq, onun əsas inkişaf dövrü 1970-ci ildən başlamışdır. Bütünlükdə 1970-1980-ci illərdə elektro-energetikanın inkişafı istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmiş və bir sıra irimiqyaslı layihələr reallaşmışdır. Hələ 1971-ci ildə Naxçıvan MR-in elektrik enerjisinə olan tələbatını qismən ödəmək məqsədi ilə Araz çayı üzərində gücü 22 MVt olan "Araz" su elektrik stansiyası (SES) inşa edilmişdir.

İnkişafda olan Sumqayıt sənaye rayonunun artan istilik və elektrik tələbatını ödəmək üçün "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücünün artırılması planlaşdırılmış və 1972-ci ildə sonuncu - dördüncü turbin generatoru işə salınmışdır. Beləliklə, stansiyanın gücü 220 MVt-ya çatdırıldı. Bu da sənaye rayonunun elektrik təchizatının yaxşılaşdırılmasına imkan verdi.

Qarabağ bölgəsində kənd təsərrüfatının inkişaf etdirilməsi, məhsuldar torpaqların suvarılması üçün su anbarının yaradılması, ölkənin elektrik enerji təchizatının yaxşılaşdırılması, enerjinin ötürülməsində itkilərin azaldılması məqsədilə Tərtər çayı üzərində 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyni adlı su elektrik stansiyası istifadəyə verilmişdir.

1980-ci illərdən etibarən Azərbaycan nəinki özünü elektrik enerjisi ilə tam təmin edə bilirdi, üstəlik, yerli hasilatın bir qismini qonşu respublikalara verirdi.

Bu illərdə Azərbaycanın bütün yaşayış məntəqələrinə, respublikamızdakı hər bir evə elektrik xətti çəkilmişdir. Beləliklə, 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edən res-

publika idisə, 1982-ci ildə artıq elektrik enerjisi ixracatçısına çevrilmişdi. Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı elektrik şəbəkələri də müntəzəm inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. 1968-71-ci illərdə 330-kV-lik Əli Bayramlı (hal-hazırda Şirvan) DRES-Ağdam-Gəncə-Ağstafa və Əli Bayramlı DRES-Yaşma-Dərbənd yüksək gərginlikli xətləri, həmçinin, 330/110/20 kV-lik "Yaşma", "Gəncə" "Ağstafa" qovşaq yarımstansiyaları inşa edilib, istismara verilmişdir.

Azərbaycan İES-in inşası respublikanın enerji şəbəkəsinin inkişafında yeni mərhələnin başlanğıcı oldu. 500kV-lik 1-ci Abşeron EVX, 2-ci Abşeron EVX, Muxrani-Vəli EVX 4-cü və 5-ci Mingəçevir EVX-lər çəkildi. 80-ci illərdə, həmçinin, 500/330/220/ kV-lik "Abşeron", 330/110/10 kV-lik "İmişli" 220/110/10 kV-lik "Hövsan", "Nizami", "Müşfiq", "Səngəçal", "Masallı", "Ağsu", "Babək" qovşaq yarımstansiyaları istismara verildi, 330 kV-lik 3-cü Əli Bayramlı (Şirvan) EVX-1990-cı ilin sonlarında elektrik enerjisi istehsalı 23,4 milyard kilovat-saata çatdırılmışdı. İstehlak isə 21,7 milyard kilovat-saata yaxın olmuşdur. 1,7 milyard kilovat-saat elektrik enerjisi ixrac edilmişdir. Adambaşına düşən elektrik enerjisi isə 3300 kilovat-saatdan artıq olmuşdur.

Tikintisi hələ 1984-cü ildən yarımçıq qalmış Şəmkir SES-in davamı olan Yenikənd su hövzəsinin və su elektrik stansiyasının inşasının başa çatdırılması ilə enerji sistemində yeni inkişaf mərhələsinin əsası qoyulmuşdur. Avropa Yenidənqurma və İnkişaf Bankı Yenikənd Su Elektrik Stansiyasının inşası məqsədilə 53,24 milyon ABŞ dolları məbləğində kredit ayırmış, respublika energetiklərinin və inşaatçıların gərgin işi nəticəsində 2000-ci ilin dekabr ayında stansiya istifadəyə verilmiş, burada elektrik enerjisi hasilatına başlanılmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, Azərbaycan Respublikasında YEK-in inkişaf üzrə dövlət



proqramlarının uğurlu icrası nəticədə ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilmişdir. Beləliklə, elektroenergetika sənayesinin maddi-texniki bazası əsaslı şəkildə yeniləşmiş, müasir elektrik stansiyalarının, paylayıcı şəbəkələrin, transformatorların, yardımçı sahələrin işini əsaslı şəkildə qurulması nəticəsində əhalinin, iqtisadi fəaliyyət sahələrinin və regionların elektrik enerjisi ilə təminatı xeyli yaxşılaşdırılmışdır.

Ölkənin elektroenergetika sistemində yeni istilik və su elektrik stansiyalarının tikilməsi, mövcud enerji bloklarının modernizasiyası, alternativ enerji mənbələrindən (kiçik SES-lər, külək, günəş, termal sular və s) istifadə edilməsi hesabına hazırda fəaliyyətdə olan generasiya gücləri 2015-ci ildə 7793 meqavata çatdırılımışdır.

Azərbaycanda su və modul tipli elektrik stansiyalar haqqında məlumat 12.1.1. və 12.1.2. saylı cədvəllərdə verilmişdir.

*Cədvəl 12.1.1.*

**Azərbaycanda istifadəyə verilən su elektrik stansiyaları, MVt. *)**

| Rayonların adı | İstifadəyə verilmiş güc | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2006 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
| **Cəmi** | **4,5** | **22,0** | **26,2** | **47,1** | **26,4** | **3,1** |
| O cümlədən Naxçıvan ş. | 4,5 | - | - | - | - | - |
| Şərur | - | - | - | 20,5 | 1,4 | - |
| Ordubad | - | 22,0 | - | - | - | - |
| Füzuli | - | - | 25,2 | - | - | - |
| Qusar | - | - | 1,0 | - | - | - |
| İsmayıllı | - | - | - | 1,6 | - | - |
| Şabran | - | - | - | 25,0 | - | - |
| Şəmkir | - | - | - | - | 25,0 | - |
| Göyçay | - | - | - | - | - | 3,1 |

*) *Azərbaycanda tikinti. Bakı "DSK", 2016, s.92.*

*Cədvəl 12.1.2.*

**Azərbaycanda istifadəyə verilən modul tipli elektrik stansiyaları, MVt *)**

| Rayonların adı | İstifadəyə verilmiş güc | | | |
|---|---|---|---|---|
| | 2006 | 2007 | 2008 | 2009 |
| **Cəmi** | **384,0** | **104,4** | **306,0** | **104,0** |
| O cümlədən Bakı | - | 104,4 | 306,0 | - |
| Naxçıvan ş. | 87,0 | - | - | - |
| Astara | 87,0 | - | - | - |
| Quba | - | - | - | 104,0 |
| Şəki | 87,0 | - | - | - |
| Xaçmaz | 87,0 | - | - | - |

*)*Azərbaycanda tikinti. Bakı, "DSK", 2016, s.92.*

Həmin obyektlərin tikintisinə 2003-2015-ci illər ərzində 577,6 mlyn. manat investisiya yönəldilmişdir ki, onun da 631,6 mlyn. manat və yaxud 11%-i xarici investisiyalar təşkil etmişdir. Bunun nəticəsində elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı siferasında əsas istehsal fondlarının dəyəri 2003-cü ildə 1306 milyon manatdan 2015-ci ildə 8975 milyon manata çatmış və yaxud 6,9 dəfə artmışdır. Bu isə, öz növbəsində ƏİF-dən istifadəni xarakterizə edən göstəriciləri əsaslı şəkildə yaxşılaşmaşına təminat vermişdir.

Elektroenergetika sənayesinin maddi-texniki bazasının qeyd edilən istiqamətlərdə yeniləşməsi orada Beynəlxalq Elektroenergetika Komitəsinin (İEC) standartlarının sahədə geniş tətbiqinə imkan vermişdir. Hazırda Azərbaycanda tətbiq edilən 46 İEC standartı əsasən elektrik kabellərinin keyfiyyəti, elektrik izolyasiya, fasiləsiz elektrik enerjisi təchizatı sistemi, güc transformatorlarına olan tələbləri əhatə edir. Bu standartları yerli müəssisələrdə tətbiq etməklə məhsulların xarici bazara çıxışı imkanları artmışdır.



## 12.2. Elektroenergetika sənayesinin fəaliyyətini xarakterizə edən göstəricilər.

Energetika sektorunda yeni güclərin yaradılması və köhnə enerji bloklarının xarakteristikalarının yaxşılaşdırılması hesabına istilik elektrik stansiyalarında 1kVts elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın 386 qramdan 260 qramadək endirilməsi təmin edilmişdir. Mütəxəssislərin hesablamalarına görə, gələcəkdə istehsal ediləcək elektrik enerjisinin təxminən 20-25%-i su elektrik stansiyaları və alternativ enerji mənbələri hesabına, qalan hissəsini isə İES-da istehsal ediləcəkdir ki, bu da yüksək enerji effektinin formalaşmasına təminat yaradacaqdır.

Qarşıda duran vacib məsələ tədqiq edilən sahənin mövcud potensiallarından səmərəli istifadə etməkdir.

2005-2015-ci illər ərzində elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı ilə məşğul olan müəssisələrin sayı 36 vahid və yaxud 117,7%, o cümlədən dövlət mülkiyyətində olan müəssisələrin sayı 34 vahid və yaxud 118,1%, qeyri-dövlət mülkiyyətində olan müəssisələrin sayı isə 2 vahid və yaxud 113,3% artmışdır.

AR DSK-nın məlumatlarına görə sahədə fəaliyyət göstərən bütün müəssisələrin 2005-ci ildə 42,1%-i kiçik və 57,9%-i orta və iri müəssisələr olduğu halda, 2010-cu ildə həmin nisbət uyğun olaraq: 37,2% və 62,8%; 2012-ci ildə 27,5% və 72,5%; 2014-cü ildə isə 19,3% və 80,7% arasında dəyişmişdir. Nəticədə həmin dövrdə orta və iri müəssisələrin xüsusi çəkisi 22,8% artmış, kiçik müəssisələrin xüsusi çəkisi bir o qədər azalmışdır. (sxem 12.2.1.)

Həmin mənbəyin məlumatlarına görə, 01.01.2016-ci il tarixə elektrik enerjisi və təchizatı ilə 58 nəfər fərdi sahibkar,

46 kiçik, 193 orta və iri müəssisə məşğul olur. Təhlilin əhatə etdiyi dövrdə adı çəkilən sahədə sənaye məhsulunun (işin xidmətin həcmi 3,9 dəfə artmış, orta illik fiziki həcm indeksi 106,1%, ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı orta hesabla 5,7% təşkil etmişdir. ARDSK-nın məlumatlarına görə adı çəkilən sferada işçilərin sayı 2005-2015-ci illərdə sabit qalmış və 2016-ci ilin əvvəlinə onların sənayedə məşğul olanların ümumi sayında xüsusi çəkisi 144% olmuşdur. Həmin illərdə sahədə işçilərin orta aylıq əmək haqqı 3,8 dəfə artaraq 513 manata çatmış, əsas kapitala yönəldilən investisiyanın məbləğı isə 4,3% azalmışdır (cədvəl 12.2.1.).




***Sxem 12.2.1. Elektrik, qaz, buxar istehsal bölüşdürülməsi və təchizatı ilə məşğul olan müəssisələrin miqyasına görə qruplaşdırılması.***



*Cədvəl 12.2.1.*

**Azərbaycanda elektrik enerjisi, qaz buxar istehsalı, bölüşdürülməsi və təchizatı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri *)**

| Göstəricilər | İllər | | | | | | | 2005-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Fəaliyyət göstərən müəssisələrin sayı-cəmi | 203 | 226 | 216 | 215 | 220 | 223 | 239 | 117,7 |
| Dövlət | 118 | 187 | 194 | 205 | 211 | 209 | 222 | 118,1 |
| Qeyri-dövlət | 15 | 39 | 22 | 10 | 9 | 14 | 17 | 113,3 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların say, nəfər | 48 | 75 | 80 | 89 | 72 | 66 | 58 | 120,8 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə milyon manat | 480,8 | 1226 | 1556 | 1724 | 1774 | 1824 | 1887 | 3,9 dəfə |
| Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəki ilə nisbətən, faizlə | 105,3 | 108,1 | 108,4 | 111,7 | 103,2 | 106,2 | 99,6 | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə | 5,7 | 4,6 | 4,7 | 5,3 | 5,6 | 6,0 | 7,7 | +2,0 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, faizlə | 0,8 | 0,2 | 0,1 | 0,1 | 0,0 | 0,0 | 0,0 | x |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 27,0 | 28,5 | 29,3 | 29,6 | 30,5 | 29,5 | 27,0 | 100 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərin payı, faizlə | 15,1 | 15,7 | 16,6 | 16,4 | 15,5 | 15,0 | 14,4 | -0,7 |
| Bir işçinin orta aylıq əmək haqqı manat | 134,6 | 349,3 | 413,2 | 443,5 | 466,8 | 488,9 | 512,8 | 3,8 dəfə |
| İlin sonuna əsas fondların mövcudluğu milyon manat | 1501 | 3585 | 5159 | 5944 | 7496 | 8214 | 8975 | 5,9 dəfə |
| Əsas kapitala investisiyalar, milyon manat | 300,0 | 422,6 | 768,9 | 565,8 | 489,4 | 423,7 | 287,2 | 95,7 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə | 7,2 | 9,9 | 14,3 | 9,4 | 6,5 | 5,5 | 3,3 | -3,9 |

Azərbaycanın sənayesi statistik məcmuə Bakı "DSK", 2010, s.135-136; 2016, s.141-142



## 12.3. Sahənin inkişafına yönəldilən daxili və xarici investisiyalar.

Araşdırmalar göstərir ki, təhlilin əhatə etdiyi dövrdə sənaye sektoruna yönəldilmiş investisiyaların elektroenergetika sahəsinə qoyulan investisiyaların xüsusi çəkisi artıb-azalan xətlə dəyişmiş və 3,3%-lə 14,3% təşkil edir.

Bütünlükdə 2005-2015-ci illər ərzində ölkədə elektrik enerjisinin istehsalı, ötürülməsi və bölüşdürülməsi bütün investisiyaların məbləği 112,7%, o cümlədən daxili investisiyaların məbləği 1,8 dəfə artmış, xarici investisiyalar isə 16,5 mlyn. manatla 188,2 mlyn. manat arasında dəyişmiş və onun xüsusi çəkisi 2005-ci ildə 40,7%-dən 2015-ci ildə 6,0%-ə enmişdir. Bu göstəricinin ən aşağı həddi 2010-cu ildə müşahidə olunur. Deməli, adı çəkilən investisiya təminatı əsasən daxili investisiyaların hesabına formalaşmışdır (cədvəl 12.3.1.).

*Cədvəl 12.3.1.*

**Azərbaycanda elektroenergetika sferasında elektrik enerjisinin istehsalı, ötürülməsi və bölüşdürülməsində əsas kapitala yönəldilən daxili və xarici investisiyalar, mlyn. manat*)**

| Mənbələr | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Xarici investisiyalar | 242,0 | 402,7 | 754,8 | 519,1 | 430,0 | 399,4 | 272,8 |
| Xarici investisiyaların xüsusi çəkisi, faizlə | 98,4 | 22,9 | 188,2 | 91,2 | 89,1 | 75,8 | 16,5 |
| Daxili investisiyalar | 143,6 | 379,8 | 566,6 | 427,9 | 340,9 | 323,6 | 256,3 |
| Daxili investisiyaların xüsusi çəkisi, faizlə | 59,3 | 94,3 | 75,1 | 82,3 | 79,3 | 81,0 | 94,0 |

*)*Azərbaycanda tikinti Bakı. DSK, 2007, s.45;57;63;2015,s.115118;145;1-48;151;155,2016,s.68*

Elektroenergetika sənayesinə 2005-2009-cu illərdə 2474,8 mlyn. dollar və 2010-2014-cü illərdə 361,7 mlyn. dollar investisiya yönəldilmiş və onların ölkə iqtisadiyyatına yönəldilən investisiyaların tərkibindəki xüsusi çəkisi azalan xətlə dəyişmiş və 1,46%-lə 4,4% arasında dəyişmişdir.

Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı üzrə I və III Dövlət proqramları, eləcə də Azərbaycan Respublikasında yanacaq enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət proqramının icrası çərçivəsində ölkə əhalisinin elektrik enerjisinə olan tələbatını təmin etmək məqsədilə ümumi gücü 2000 meqavata yaxın 17 elektrik stansiyası tikilmiş, 10 min km çox elektrik verilişi xətləri və 1500-dən çox yarımstansiya tikilmiş və ya yenidən qurulmuşdur.

## 12.4. Azərbaycanda istilik və elektrik enerjisinin istehsalı.

Ölkədə enerji resursları elektrik və istilik stansiyalarında eləcə də alternativ və bərpa olunan enerji istehsalı ilə məşğul olan infrastrukturlarda formalaşır. ARDSK-nın məlumatlarına görə, 2005-2015-ci illərdə Azərbaycanda elektrik enerjisinin istehsalı 107,9%, istilik enerjisi stansiyalarında isə 119,2% artmış, lakın su elektrik stansiyalarında istehsal həcmi 46,7%, istilik enerjisinin həcmi isə 31,3% azalmış, 2013-cü ildən başlayaraq alternativ və bərpa olunan enerji növləri üzrə istehsal dinamik xarakter almışdır (cədvəl 12.4.1.)

Ölkənin elektroenergetika sənayesində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində əhalinin hər nəfərinə düşən elektrik enerjisinin miqdarı təkcə 2010-2015-ci illərdə 123,7% artmışdır. Rəsmi məlumatlara görə, 2015-ci ildə əhalinin hər nəfərinə düşən elektrikenerjisinin miqdarı üzrə bir çox MDB ölkələrini geridə qoymuşdur. Nəticədə Rusiya, Qazaxstan və Ukraynadan sonra həmin göstərici üzrə Azərbaycanda 3-cü yerdə qərarlaşmışdır (cədvəl 12.4.2.).



*Cədvəl 12.4.1.*

**Azərbaycanda elektrik və istilik enerjisi istehsalının quruluşu*)**

| Göstəricilər | İllər | | | | | | | 2005-2015-ci illər də artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Elektrik enerjisi istehsalı, mlrd. kVsaat | 22,9 | 18,7 | 20,3 | 23,0 | 23,4 | 24,7 | 24,7 | 107,9 |
| O cümlədən istilik elektrik stansiyalarında | 19,3 | 15,0 | 17,6 | 21,2 | 21,9 | 23,4 | 23,0 | 119,2 |
| Su elektrik stansiyalarında | 3,0 | 3,5 | 2,7 | 1,8 | 1,5 | 1,3 | 1,6 | 53,3 |
| Küləklə işləyən stansiyaların elektriki | - | 0,5 | - | - | 0,8 | 2,3 | 4,6 | x |
| Günəş fotoelektrik stansiyalarında | - | - | - | - | 0,8 | 2,9 | 4,6 | x |
| İstilik enerjisi min Qkal | 4723 | 2968 | 3057 | 2923 | 3216 | 3514 | 3244 | 68,7 |

*) *Azərbaycanın sənayesi Bakı, "DSK" 2016, s.142.*

*Cədvəl 12.4.2.*

**MDB ölkələri üzrə elektrik enerjisi istehsalı.*)**

| Ölkələr | Cəmi, mird.kvt saat | | | | Əhalinin hər nəfərinə düşən, kvt saat | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2013** | **2014** | **2015** | **2010** | **2013** | **2014** | **2015** |
| Azərbaycan | 18,7 | 23,4 | 24,7 | 24,7 | 2094 | 2512 | 2627 | 2591 |
| Ermənistan | 6,5 | 7,7 | 7,8 | 7,8 | 1994 | 2438 | 2475 | 2481 |
| Belarus | 34,9 | 31,5 | 34,7 | 33,8 | 3677 | 3328 | 3666 | 3560 |
| Qazaxıstan | 82,8 | 92,6 | 94,6 | 91,1 | 5063 | 5436 | 5474 | 5264 |
| Qırğızstan | 12,1 | 14,0 | 14,6 | 13,0 | 2214 | 2450 | 2497 | 2179 |
| Moldova | 1,1 | 0,9 | 1,0 | 0,9 | 299 | 253 | 268 | 263 |
| Özbəkistan | 51,7 | 54,2 | 55,5 | ... | 1841 | 1792 | 1820 | ... |
| Rusiya | 1038 | 1059 | 1064 | 1067 | 7263 | 7381 | 7341 | 7306 |
| Tacikistan | 16,4 | 17,1 | 16,5 | 17,1 | 2167 | 2120 | 1992 | 2063 |
| Türkmənistan | 16,7 | 18,5 | 20,1 | ... | 2288 | 2560 | 2753 | ... |
| Ukrayna | 189 | 194 | 185 | 16756 | 4117 | 4291 | 4213 | 3899 |

**) Azərbaycanın statistik göstəriciləri. Bakı, "DSK", 2016, s56.*

"Azərbaycan Respublilkasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" on il ərzində ölkənin yanacaq enerji resurslarına olan tələbatını tam ödəməklə bərabər bu sahənin yenidən qurulması, müasir avadanlıqlarla təchizatı, habelə bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmış idarəetmə sistemi formalaşmışdır. Lakin bütün bunlara baxmayaraq alternativ və bərpa olunan enerji növlərinin bütün enerji balansında xüsusi çəkisini artırmaq təxirəsalınmaz tədbirlər planının və sənaye üçün müasir qurğu və avadanlıqların istehsalı üzrə yeni emal müəssisələrinin regionlarda yaradılması tədbirləri davam etdirilməlidir. Bütün hallarda sahə üzrə yeni müəssisələrinin yaradılması zamanı yüksək ekoloji tələblərə cavab verən, material və enerjiyə qənaət edən innovasiya texnologiyalarının istifadəsi diqqət mərkəzində saxlanılmalıdır. Bu sahədə əldə ediləcək nailiyyətlərin əsasını məqsədli investisiya-innovasiya layihələri təşkil etməlidir.



## 12.5. Alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi.

Alternativ enerji-karbohidrogen yanacağının istilik və elektrik enerjisinə çevrilməsindən mənbələr əsasında istehsal olunan bütün növ enerjidir.




***Sxem 12.5.1.Alternativ və bərpa olunan enerji mənbələri.***

Dünya ölkələrinin uzun illər ərzində istifadə etdikləri ənənəvi enerji mənbəyi sayılan karbohidrogen ehtiyatları getdikcə tükənməkdədir. Neft-qaz ehtiyatlarının tükənməsi dünyada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə zərurətini yaradır. Buraya müəyyən qurğuların yardımı ilə sudan, küləkdən, günəşdən, bioloji tullantılardan, hətta dənizin dalğalarından alınan, heç bir tullantısı olmayan enerji resursları daxildir. Bu enerjidən istifadə olunmasının üstünlüyü ondan ibarətdir ki, o, ekoloji cəhətdən heç bir problem yaratmır, təbiəti heç bir zərərli tullantı ilə çirkləndirmir. Beynəlxalq miqyasda istifadə olunan alternativ və bərpa olunan enerji mənbələrinin təsnifatı 12.5.1. saylı sxemdə əks etdirilmişdir.

Azərbaycanda həmin enerji mənbələrinin bəzi növündə is-

tifadə özünün ilkin mərhələsindədir. Bu istiqamətdə fəaliyyəti genişləndirmək, xarici investorları və yerli sahibkarları həmin fəaliyyətə cəlb etmək üçün hələ 2009-cu ildə Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABOEMDA) yaradılmışdır.

Alternativ enerji mənbələrindən səmərəli istifadə etmək məqsədilə 2004-cü ildə ölkə prezidentinin 21 oktyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın başlıca məqsədi ölkənin təbii potensialından istifadə etməklə bərpa olunan və ekoloji cəhətdən təmiz mənbələrdən enerji istehsalını genişləndirməkdən və karbohidrogen enerji resurslarından daha səmərəli istifadə edilməsini təmin etməkdən ibarətdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

- elektrik enerjisinin istehsalında alternativ enerji mənbələrinin potensialını müəyyənləşdirmək;
- bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə, ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək;
- yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək.

Həmin vəzifələrin yerinə yetirilməsi məqsədi ilə ABOEM DA 2018-ci ilədək dövrü əhatə edən strateji plan hazırlamışdır. Həmin planda hədəf-alternativ və bərpa olunan enerji resurslarının istehsalının artırılması və ondan səmərəli istifadə olunmasıdır. Məqsəd isə bərpa olunan enerji potensialının müəyyən olunması və ondan istifadənin genişləndirilməsi və s-dir. Son illərdə adı çəkilən Agentlik bir sıra məqsədli layihələr həyata keçirmiş və beynəlxalq səviyyədə əməkdaşlıq qurmuşdur. Belə ki, Azərbaycan Respublikası "İqlim Dəyişmələri haqqında" Çərçivə Konvensiyasını və Kioto protokolunu ratifikasiya etməsi, Təmiz İnkişafda Mexanizmi çərçivəsində Azərbaycan hökumətinin müvafiq sənədlərə qoşulması, ölkəmizin bir mənbədən enerji təhlükəsizliyi və enerji səmərəliliyi məsələlərinin həll edilməsi, həmçinin vahid enerji siyasətinin hazırlanması və ətraf mühitə vurulan ziyanın aşağı salınması məqsədilə "20-20-20" direktivinə də tərəfdar olmuşdur.



Həmin direktivin tələblərinə əsasən, 2020-ci ilə qədər Avropa İttifaqı ölkələrində ABOEM-dən istifadə etməklə enerji istehlakının payının 20%-ə çatdırılması, enerji səmərəliliyinin 20 % artırılması və istixana qazlarının emissiyasının 1990-cı il səviyyəsindən 20 % azaldılması öhdəlikləri müəyyən olunub. Bundan əlavə, Azərbaycan Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinə üzv qəbul edilib, beynəlxalq qurumlarla işgüzar əlaqələr qurulub.

Azərbaycanda əsas alternativ enerji mənbəyi hesab edilən günəş enerjisindən istifadə sahəsində həyata keçirilən tədbirlər son illərdə geniş vüsət alıb. Buna da səbəb Azərbaycanda günəşli günlərin sayının çox olmasıdır. Abşeron yarımadasında və Xəzər dənizinin sahilboyu ərazisində günəş işığının müddəti il ərzində 2500, Naxçıvan MR-da isə 2900 saat təşkil edir. Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzinin yaradılması bu sahədə atılan uğurlu addımlardan biridir.

Günəş enerjisindən istifadə sahəsində həyata keçirilən tədbirlərdən biri də 2014-cü ildə Agentliyin nəzdində "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Suraxanı Günəş Elektrik Stansiyasının yaradılması olub. Stansiyada elektrik enerjisinin istehlakçıya itkisiz çatdırılması üçün bütün imkanlar yaradılıb. Altı hektar sahədə yaradılan stansiya 8 min günəş paneli quraşdırılıb. Bu panellər gündə təqribən 12 min kilovat-saat elektrik enerjisi istehsal etmək iqtidarındadır.

Biləsuvar qaçqın şəhərciyi, Masallı İdman Kompleksi, həmçinin Bakı şəhərində 5 məktəb və 2 poliklinikanın üzərində

quraşdırılan günəş panellərinin fəaliyyətinə nəzarət etmək mümkündür. Yaxın gələcəkdə Sumqayıt, Samux, Səngəçal və Pirallahıda günəş elektrik stansiyalarının istifadəyə verilməsi nəzərdə tutulur. Mövcud stansiyaların fəaliyyəti nəticəsində 4 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub, 1 milyon 300 min kubmetrə yaxın təbii qaza qənaət edilib.

"Azgüntex" Məhdud Məsuliyyətli Cəmiyyətin yaradılması ilə alternativ və bərpa olunan enerjinin alınması üçün müvafiq qurğu və avadanlıqlar istehsal edilərək respublikanın ayrı-ayrı regionlarında quraşdırılmış, yol keçidlərinin işıqlandırılmasında onlardan geniş istifadə edilir.

Azərbaycanda külək enerjisindən istifadə də perspektivli sahə hesab olunur. Belə ki, Abşeron yarımadasında və Xəzər dənizinin sahilboyu ərazisində il ərzində 270 gündən artıq güclü külək əsir. Küləyin orta illik sürəti isə saniyədə 7,2 metrdir. Ölkənin digər regionlarında küləkli günlərin sayı 20-70 gün həddindədir.

Su-elektrik stansiyaları hazırda Azərbaycanda istehsal edilən elektrik enerjisinin 12,5%-ni verir. Mütəxəssislərin hesablamalarına görə, ölkədə çaylar üzərində 60-dan çox kiçik su elektrik stansiyaları quraşdırmaqla ildə 3,2 milyard kilovat-saat elektrik istehsal etmək mümkündür. Bununla yanaşı, Azərbaycan bioqaz, termal sular və dəniz dalğası kimi digər qeyri-ənənəvi enerji ehtiyatlarına malikdir.

Azərbaycan Respublikasında sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün imkanlar açır. Ölkədə biomaddələrin aşağıdakı mənbələri mövcuddur:

- yanma qabiliyyəti olan sənaye tullantıları;
- meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları;
- kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları;
- neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar.



İqtisadiyyatın bütün sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Həmin biokütlə maddələrindən elektrik enerjisinin istehsalında istifadə olunan bioqaz, biomaye və bərk biokütlənin alınması mümkündür. Bu baxımdan Balaxanı Sənaye Parkı öz əhatə dairəsinə görə diqqəti cəlb edir və burada zibillərin yandırılmasından alınan enerji hesabına ətrafdakı yaşayış məntəqələri istilik və elektrik enerjisi ilə təmin edilir. Yandırılmış tullantıların qalıqlarından isə gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunur. Belə zavodların Naxçıvan MR, Gəncə, Sumqayıt və Şirvan şəhərlərində tikilməsi yüksək sosial-iqtisadi səmərə verə bilər.

Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Geotermal enerji mənbələrindən istifadənin üstünlüyü onların tətbiqinin iri həcmli maliyyə vəsaiti tələb etməməsidir.

Azərbaycan Respublikasının ərazisi termal sularla zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı-Quba ərazisi kimi geniş sahələri əhatə edir. Göstərilən ərazilərdə olan termal suları istifadəyə cəlb etməklə məişətdə və digər sahələrdə istilik enerjisinə olan ehtiyacın bir hissəsini ödəmək mümkündür.

Digər tərəfdən, geotermal su mənbələrinin enerjisindən istifadə etməklə ictimai, məişət binalarının, istixanaların və digər obyektlərin qızdırılması mümkündür və bu prosesə yerli sahibkarların cəlb edilməsi vacibdir.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (06.XII.2016) 2025-ci ildən sonrakı dövrdə ölkəmizdə ÜDM-in hər vahidinin istehsalı üçün enerji sərfiyyatının minimuma endirilməsi, enerji balansında bərpa olunan enerji növlərinin payının artırılması nəzərdə tutulur.

# MÖVZU 13. TURİZM SƏNAYESİNİN İNKİŞAFI

## 13.1. Turizmin iqtisadi mahiyyəti, məzmunu və inkişaf mərhələləri.

Turizm fransız sözü olub, mənası gəzinti, səfər, səyahət deməkdir. Turist sözü 1372-ci ildən, turizm sözü isə 1911-ci ildən işlədilir. Ədəbiyyatlarda kütləvi turizmin ilk təşkilatçısı ingilis Tomas Kuk adlı şəxs hesab olunur. O hələ 1841-ci ildə dəmir yolu ilə 570 nəfərlik kütləvi gəzintisini təşkil edib. Turizm sözü müxtəlif formada işlədilir. Böyük İqtisadi Ensiklopediyada qeyd edilir ki, turizm hər hansı bir dövlətin vətəndaşının, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin daimi yaşayış yerindən kənarda müvəqqəti olacağı yerdə yerli mənbədən maliyyələşdirilən ödənişli fəaliyyətlə məşğul olmamaq və müvəqqəti yerləşmə yerində bir dəfədən az olmayaraq gecələmək şərtilə istirahət, sağlamlaşdırma – bərpa (sanatoriya, kurort), tanışlıq, öyrənmə, tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə, iş-peşə, idman, dini, habelə ictimai mənəviyyat və ictimai qayda tələblərinə cavab verən digər məqsədlərlə azı 24 saat müddətində həyata keçirdikləri yerləşmədir. Turizmin leksika baxımdan mənası isə - səyyahların, tacirlərin, elmi axtarışda olan adamların bir ölkədən digər ölkəyə getməsini ifadə edir. Beynəlxalq turizm Assosiasiyası tərəfindən qəbul edilən tərifə görə isə, turizm-sosial-iqtisadi sistem kimi insanların daim yaşayış yerindən fərqli, onların əmək fəaliyyəti ilə bağlı olmayan məkanlara yerdəyişmə və gəlişi zamanı meydana çıxan münasibətlərin, əlaqə və hadisələrin məcmusu sayılır.

Turizmin iqtisadi mahiyyəti baxımından insanlara öz məhsulunu və xidmətlərini təklif etməklə iqtisadi fəaliyyət sahələrinin (sənaye, kənd təsərrüfatı və s.) tələbini canlandırır, onların inkişafına, istehlak mallarının istehsalını artırmağa, eləcə də



məşğulluğun yüksəldilməsinə bilavasitə təsir göstərir. Ölkəyə turist axını mədəniyyət, əyləncə və istirahət müəssisələrinin (muzeylər, idman-kurort, sərgilər, abidələr, xalq sənətkarlığı və s.) mehmanxanaların, nəqliyyat müəssisələrinin gəlirlərini artırır və onların vergi ödəmələri hesabına fayda verir, eləcə də ölkəyə xarici valyuta axınına imkan yaradır.

Dünyanın bir çox ölkələrində turizm insanların sağlamlığında, asudə vaxtlarının səmərəli istifadəsində, iqtisadiyyatda önəmli yer tutur, regionların sosial inkişafına təkan verir, büdcəyə əlavə vəsaitlərin cəlb edilməsinə şərait yaradır. Hazırda dünyada milli məhsulun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10%-i turizmin payına düşür. Turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Ümumiyyətlə turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadəsinin genişlənməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmunu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə həyata keçirilən kompleks tədbirlərdən biri turizmin formalaşması və inkişafıdır. Bu məqsədlə turizm sferasında sahibkarlığın təşkili, turistlərə geniş çeşidli xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların beynəlxalq standartlara uyğunlaşdırılması, turizm infrastruktrunun və sənayesinin inkişafı, xarici investorların turizm sferasına cəlb edilməsi, turizm fəaliyyətinin dövlət tənzimlənməsi kimi vəzifələr ardıcıl həyata keçirilir.

Turizmin iqtisadi mənasını aşağıdakılarla səciyyələndirmək olar:

- turizm, insanların müxtəlif marşrutlarda məqsədyönlü yerləşdirilməsidir;

- turizm müvəqqəti səyahət olub zaman və məkan çərçivəsində müəyyən müddətdən sonra əvvəlki yaşayış yerinə qayıtmağı ifadə edir;

- turizm özünün son məkanını və orada müvəqqəti məskunlaşmasını ifadə edir;

- turizm səyahət olub mənfəət (gəlir) gətirmək kimi iqtisadi fəaliyyətini özündə əks etdirir;

- turizm əmtəə olaraq xidmət formasında reallaşır və istehlak dəyərini özündə əks etdirərək insanın hər hansı tələbatını ödəyir;

- turizm xidmətində əmtəə və xidmət istehlakı onun istehsalı ilə eyni vaxtda baş verir;

- turizm xidməti dəyər və istehlak dəyərinə malik olub, çəkilən xərclər və təkrar istehsal üçün zəruri olan gəlirlilik səviyyəsi ilə müəyyən edilir.

Azərbaycanın malik olduğu zəngin tarixi, mədəni və təbii resursların zənginliyi (mineral sular, müalicəvi neft, müalicəvi duz, 11 iqlim qurşağından 9-da yerləşmə və s.), zəngin milli mətbəx, mədəniyyət nümunələri və s. ölkədə turizmin bir çox növünün inkişafı üçün şərait yaratmışdır.

Azərbaycana ilk səyahətlər qədim dövrlərdən ticarət, dini, siyasi məqsədlərlə olmuşdur. Böyük İpək Yolunun üzərində yerləşməsi ölkənin tanınmasında böyük rol oynamışdır. Xüsusilə Şərq və Qərb arasında mühüm ticarət dayanacağı olmuşdur. Azərbaycanın Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (Şəki) şəhərləri mühüm beynəlxalq ticarət mərkəzləri olmuşdur.

XIV əsrdə Ağ dənizdən Hindistana göndərilən mallar əvvəlcə Volqa çayı ilə Azərbaycana oradan isə İran və Hindistana aparılırdı, bu səbəbdən də Azərbaycan Qərb-Şərq ticarətində



mühüm yerə malik idi. Bakıda bu dövrdə əvvəlki dövrlərə nisbətən daha böyük karvansaralar inşa edilmişdir.

Azərbaycan turizminin rəsmi başlanğıc tarixi kimi 1908-ci il qəbul edilir. Buna səbəb 1908-ci ildə Krım - Qafqaz dağ klubunun Bakıda filialının açılmasıdır. Bu filialın işinin ildən ilə genişləndirilməsi yerli turizmin inkişafına əsaslı təkan vermişdir. Artıq 1992-ci ildə Azərbaycanda bir sıra ekskursiyalar həyata keçirilməyə başlanmışdır. Onun əsas məqsədi Bakının zavod, fabrik və neft mədənlərində çalışan işçilərin digər sahələrlə tanış etməkdən ibarət olmuşdur. Nəticədə, yay aylarında həmkarlar təşkilatı tərəfindən Mərdəkan, Şuvəlan, Buzovna, Türkan, Zığ, Pirallahı adası və sair zonalara istirahət məqsədli ekskursiyalar həyata keçirilirdi. Sonrakı dövrdə, yəni 1929-cu ildə Bakıda "Proletar Turizm və Ekskursiyalar Cəmyyəti"nin şöbəsi yaradılmış və 1935-ci ildə həmin cəmiyyət idarə formasında fəaliyyətə başlamışdır. Əsas məqsəd turizmi kütləvi hərəkata çevirmək, başda aztəminatlılar olmaqla zəhmətkeşlərin müxtəlif təbəqələrini əhatə etmək, turizmdən onların həyat səviyyələrinin yaxşılaşdırılması üçün istifadə etmək idi.

Azərbaycan öz müstəqilliyini yenidən bərqərar etdikdən sonra turizm sahəsinə diqqət artırılmış və artıq 90-cı ilin əvvəllərində Nazirlər Kabinetinin nəzdində Turizm Şurası fəaliyyətə başlamışdır. Turizmin inkişafı məqsədilə Bakı, Gəncə və Naxçıvanda müasir tələblərə cavab verən mehmanxana və otellər yaradılır. Naftalan, Culfa, Masallıda müalicəvi istirahət mərkəzləri, Quba, Qəbələ, Gəncə, Lənkəran, Naxçıvan və digər şəhərlərdə isə mövsümi və daimi turistlərin qəbulu üçün obyektlər qurulmuşdur.

Azərbaycanda turizm bazarının formalaşması və inkişafı məqsədilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Res-

publikasının qanunu qəbul edilmiş, 2001-ci ildə Dünya Turizm Təşkilatının 14-cü Baş Assembleyasında Azərbaycan həmin Beynəlxalq Turizm Təşkilatının üzvlüyünə qəbul edilmişdir. Respublikada turizmin inkişafı üçün "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", "2010-2014-cü illərdə Azərbaycanda turizmin inkişafına dair Dövlət proqramı"nın qəbul olunmuş və uğurlu icrası təmin edilmişdir. Ölkədə turizm imkanlarının tanıdılması üçün "Böyük İpək yolu", "Şərab yolu", Xalçaçılıq", "Aleksandr Düma Qafqazda" "Azərbaycanda alman məskənləri" məqsədli layihələr həyata keçirilmişdir. Bunlarla yanaşı 2011-ci ildə Azərbaycanda "Turizm ili"nin elan edilməsi turizm infrastrukturunun genişlənməsinə imkan yaratmışdır.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədilə 2006-cı ildə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmışdır. Universitetdə beynəlxalq səviyyəli təlim proqramları həyata keçirilməkdədir.

Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə 2002-ci ildən başlayaraq hər il Azərbaycanda Beynəlxalq Turizm Sərgisi təşkil edilir.

Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda 2016-cı ilin əvvəlinə onların sayı 536 vahidə çatmışdır. Təkcə 2005-2015-ci illərdə həmin müəssisələrdə yerləşən şəxslərin sayı 3,2 dəfə artaraq, 838,1 min nəfər təşkil etmişdir ki, onların da 14,2 %-i yaxın və uzaq xarici ölkələrin vətəndaşlarıdır.



*Cədvəl 13.1.1.*

**Azərbaycanda turizm müəssisələrinin fəaliyyətini xarakterizə edən əsas göstəricilər.**

| Göstəricilər | İllər | | | | | | 2005-2015-ci illərdə artım sürəti, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | |
| Səyahət agentlikləri və turoperatorların sayı, vahid | 81 | 126 | 170 | 197 | 218 | 243 | 3 dəfə |
| İşçilərin sayı (kənar əvəzçilər də daxil edilməklə), nəfər | 646 | 1418 | 1730 | 1729 | 1794 | 1586 | 2.5dəfə |
| ondan: turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, nəfər | 564 | 1159 | 1473 | 1515 | 1567 | 1308 | 2.3dəfə |
| Səyahət agentlikləri və turoperatorların əldə etdiyi gəlir, min manat | 6020.9 | 19065.3 | 27121.5 | 29600.9 | 31107.1 | 36482.2 | 6.1 dəfə |
| ondan: turizm fəaliyyətindən | 4035.3 | 14755.5 | 21597.1 | 24823.6 | 26031.0 | 35079.6 | 8.7 dəfə |
| Məhsul (xidmət) istehsalına çəkilən xərclər, min manat | 5661,4 | 17811,3 | 23540,8 | 25292,5 | 27018,1 | 30 811,6 | 5.5 dəfə |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ondan: turizm fəaliyyəti üzrə | 3884,0 | 13805,7 | 18903,1 | 21818,2 | 25708,6 | 29 480,0 | 7.6dəfə |
| Əhaliyə satılmış turizm yollayış blanklarının sayı, ədəd | 16444 | 34121 | 62866 | 65448 | 66233 | 44 615 | 2.7dəfə |
| o cümlədən: ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd | 2681 | 3385 | 5121 | 7078 | 6990 | 4 695 | 175.1 |
| ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd | 12211 | 27030 | 52378 | 53771 | 54900 | 38 002 | 3.1 dəfə |
| Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, ədəd | 1552 | 3706 | 5367 | 4599 | 4343 | 1 918 | 123.6 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri, min manat | 3253,3 | 25848,7 | 40693,2 | 42892,3 | 44820,3 | 33 474,7 | 10.3dəfə |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər | 40008 | 69923 | 101431 | 91961 | 92305 | 61965 | 154.9 |

*) *Azərbaycanın statistik göstəriciləri Bakı, "DSK", 2016, s.328.*



## 13.2. Turizmin formaları, növləri və sistemləri.

Milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi, turizm həyata keçirilən işlərin davamlılığına xidmət etməklə yanaşı ölkənin cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq, ölkələrarası əməkdaşlığın inkişafına təminat yaradacaqdır. Beynəlxalq təcrübədə turizmin müxtəlif formaları, növləri və sistemləri geniş yayılmışdır.

Turizm formalarına görə sərhəddən kənarı və sərhəd daxilində - daxili və s. xarici səyahətlərə bölünür. Onlar turizmin tələbatlarına uyğun təşkil olunmuş və konkret tələbatın ödənilməsi kimi çıxış edir.

Daxili turizm – hər bir ölkədə özünün təyinatı ilə bağlı olub yaşayış yerindən 48-80 kilometr kənarda olan turizm xidmətilə müəyyənləşdirilir.

Beynəlxaq (xarici) turizm xarici ölkələrə səyahət olub onun məqsədi yaşayış yerindən uzaqlaşmanı nəzərdə tutur. Ölkədən kənarda beynəlxalq müqavilələr, prinsiplər, dövlətlərarası iqtisadi və miqrasiya qaydaları əsasında qurulur.

Beynəlxalq turizm, öz növbəsində getmə və gəlmə turizminə bölünür.

Getmə turizmi -Azərbaycan əhalisinin xarici ölkələrdə turist səyahətini özündə əks etdirir. Gəlmə turizmi -Azərbaycana gələn turist axınını müəyyələşdirir.

Ölkələrin əhalisinin maddi rifah halının yaxşılaşması, elm, təhsil və yeni biznes əlaqələri beynəlxalq turizmin zəruriliyini artırmaqla yanaşı ölkəyə gələn gəlirlərin artımına şərait yaradır.

Yüksək gəlir əldə etmək potensialına malik olan turizm xidmətləri (məhsulları) istehlakçı istəklərinə uyğunlaşmanı tələb edir. Turizm əsasən əyləncə xarakteri daşısa da, məqsədlərinə görə bir neçə növləri ilə fərqlənir.




*Sxem 13.2.1. Turizmin məqsədinə görə növlərinin təsnifatı.*

Azərbaycan öz coğrafi mövqeyinə görə, çoxsaylı turizm növləri üzrə potensiala malikdir və həmin potensialın reallaşması üçün dövlətin və özəl sektorun davamlı dəstəyi vacib şərtlərdəndir.

Mədəni turizm – ölkənin (regionların) mədəni irsini, tarixini, incəsənətini, memarlığını, əhalinin həyat tərzini, adət-ənənəsini və s-ni əhatə edən turizm növü kimi xarakterizə olunur. Bu növ turizm şəhərlərdə, kənd yerlərində tarixi məkanlara, mədəniyyət obyektləri sayılan qoruqlara, abidələrə, muzeylərə, teatrlara, köhnə və yeni memarlıq nümunələrinə, eləcə də milli dəyərləri əks etdirən festivallara və bayramlara ziyarəti nəzərdə tutan turizm növüdür.

Sağlamlıq turizm – mənəvi və müasir müalicə obyektləri ilə tanış olmaqla yanaşı orada sağlamlığını bərpa etmək üçün müalicə və istirahəti nəzərdə tutur. İsti-Su, Turşsu, Badamlı, Qalaaltı, Naftalan nefti, Naxçıvan duz dağı və s. müalicə mənbələrindəndir.

Dağ və qış turizm – Azərbaycanın dağlıq ərazisində turizmdən istifadə imkanlarını özündə əks etdirir. "Şahdağ", "Tufandağ" bu növ turizmin inkişafına təminat yaratmışdır.



İdman turizmi – Azərbaycanda ən sürətlə inkişaf edən sahələrdəndir. Ölkə ərazisində 30-dan çox Olimpiya Kompleks və Mərkəzlərin istifadəyə verilməsi, müxtəlif sahələr üzrə idman meydançalarının və təsisatların yaradılması, nüfuzlu idman yarışlarının təşkili idman turizminin inkişafına təminat yaratmışdır.

İşgüzar turizm – ölkədə ən geniş yayılmış turizm növlərindən biridir. Bu turizm növünün inkişafı üçün ölkə ərazisində mövcud mehmanxanaların imkanlarından istifadə edilir. Bu məqsədlə son illər Bakı, Gəncə, Qəbələ, Naxçıvan və digər rayon mərkəzlərində Avropa standartlarına cavab verən otellər tikilib istifadəyə verilmişdir. Turizm səyahətlərinin 20 %-ə qədəri məhz bu turizm növünün payına düşür.

Çimərlik turizmi – ölkə ərazisində çimərliklərdən istifadəni özündə əks etdirir. Abşeron yarımadasından başlamaqla Azərbaycanın Şimal və Cənub zonaları çimərlik turizm potensialına malikdir.

Ekoloji turizm – ölkə ərazisində flora və fauna potensialları ilə tanış olmağı şərtləndirir. Azərbaycanda 4100-dən çox müxtəlif bitki çeşidinin, 11 iqlim tipindən 9-nun bu ölkəyə xas olması, nadir ağac növlərinin mövcudluğu turist gəzintilərinin təşkilinə imkan yaradır.

Ov turizmi – ovçuluğun inkişafı ilə əlaqədar formalaşan turizm növüdür. Azərbaycanda meşə heyvanlarının, çöl quşlarının ovlanması, bir çox su hövzələrində balıq tutmaq imkanı bu turizm növünün mövcudluğunu şərtləşdirmişdir.

Təhsil turizmi – növü də böyük yer tutmağa başlamışdır. Son dövrlərdə əhalinin dil öyrənmək üçün xaricdəki dil məktəblərinə üz tutması, xüsusi ixtisas artırma kurslarına, müxtəlif prestijli universitetlər tərəfindən təşkil olunan yay və qış məktəblərinə üz tutması artan tendensiya ilə davam edir.

Aqro turizm – kənd təsərrüfatı baxımından fermaya baxışı şərtləndirən turizm növüdür. Bu növ turizm fəaliyyətin müxtə-

lif variantlarını özündə cəmləşdirir. Onlara meyvə yığımı, heyvan yemləmək, fermada qəlyanaltı etmək və s. daxildir. Fermerlər öz əməliyyatlarını diversifikasiya etmək və öz əmlaklarını artırmaq məqsədilə qonaqlar dəvət edirlər ki, onlar da turistlər statusuna malik olurlar. Aqroturizm dünyanın bir çox ölkələrində - ABŞ, Kanada, Avstraliya və Filippində qeyri-neft sənayesinin alt sahəsi kimi inkişaf etmişdir.

Tibbi turizm- yaşadığımız ölkənin hüdudlarından kənarda tibbi xidmət almaq, ondan bəhrələnməkdir.

Dini turizm- tarixi dini abidələrlə və tolerantlıq ənənələri ilə tanış olmaqdır.

Tolerantlıq- dini dözümlülük, insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır. Azərbaycan əsrlər boyu – islam, yəhudi və xristian dinlərinin nümayəndələrinin dinc yanaşı yaşadığı ölkədir. Azərbaycan ərazisində qədim zamanlardan inşa edilən məscidlər, imam türbəsi, kilsələr, sinaqoqlar mövcuddur və mədəniyyət-dini obyektlər kimi bu vaxtadək qorunub saxlanılmışdır. Bütün bunlar dini turizmin inkişafına təminat yaradır.

Yuxarıda qeyd edilən turizm növlərinin təşkili müvafiq turizm sisteminin formalaşması və inkişafı ilə üzvü surətdə bağlıdır.

Turizm sistemi- turizmin planlaşdırılması, obyektləri, təşkilati quruluşu, infrastrukturu və digər idarəetmə mexanizmlərinin vəhdətidir.

Turizm sisteminə təsir edən amilləri aşağıdakı kimi təsnifləşdirmək olar: torpaq amili, ekoloji mühit, əhalinin məşğulluğu, turizmdə kommersiya mənfəəti, əhalinin orta aylıq əmək haqqı, inteqrasiya olunan tələbat iqtisadiyyatın digər sahələri ilə əlaqələrin vəziyyəti, ölkənin təhlükəsizlik amilləri və s.

Turizm sisteminin əsas tərkib hissələrinin təsnifatı 13.1.2. saylı sxemdə əks etdirilmişdir.






***Sxem 13.1.2. Turizm sisteminin tərkibi.***

Turistlərin yerləşdirilməsi üçün: otellər, motel, kirayə evlər və s. təklif edilir.

Otellər beynəlxalq standartlara əsasən 5 ulduzlu sistemlə qiymətləndirilir.

Qida və işçi xidmətlərinə: ictimai iaşə obyektlərində təşkil edilən milli xörəklər, alkoqollu və alkoqolsuz içkilər, mürəbbələr və s. daxildir.

İstirahət və əyləncə: bu sahə kino, teatr, gecə klubları, barlar, tədbirlər, sərgilər, alış-veriş mərkəzləri, idman obyektləri və s. daxildir.

Nəqliyyat xidməti və servis – ölkəyə turist cəlb olunmasında müstəsna rol oynayır. Nəqliyyat infrastrukturunun lazımı səviyyədə inkişafı turizm potensialından istifadəyə birbaşa müsbət təsir göstərir. Turistlər məsafədən və maddi durumundan asılı olaraq hava, su, avtomobil, qatar nəqliyyat növlərindən istifadə edirlər.

Beynəlxalq turistlərin 40 %-i hava, gəzinti və turist səyahətlərinin 75%-dən çoxu avtomobil nəqliyyatından istifadə edirlər.

İnformasiya təminatı xidmətləri turizm informasiya istehsalçıları və istehlakçılarının ehtiyaclarına uyğun fərqlənirlər. Məsələn:

- Turist üçün - istiqamətlər, yerləşmə obyektləri, əlverişlilik, qiymətlər, sərhəd nəzarət, coğrafiya, iqlim;
- Tur agentləri üçün - istehlakçıların bazar trendləri, istiqamətlər, obyektlər, əlverişlilik, qiymətlər, sərhəd nəzarəti, turpaketlər, tələb, digər sahələrin inkişaf səviyyəsi;
- istehsalçılar üçün - kompaniya haqqında məlumat, istehlakçılar və turagentlər, rəqiblər haqqında;
- Turizm təşkilatları üçün - sahədə istiqamətlər, həcm və turizm axınları təbiəti, siyasət və inkişaf planları haqqında məlumatlar lazımlıdır.

İnformasiya texnologiyalarının turizm sahəsinə tətbiqinin əsas əhəmiyyətləri aşağıdakı kimidir:

- İstehsalın səmərəliliyini yüksəldir;
- İstehlakçılar üçün xidmətlərin keyfiyyətinin yaxşılaşdırır;
- Turizmdə yeni xidmət növlərinin yaranmasına gətirib çıxardır;
- Turizm sahəsinin beynəlxalq səviyyədə tanınmasına şərait yaradır və s.

## 13.3. Turizmin elementləri, turistin hüquq və vəzifələri.

Turizmin müxtəlif təşkilati – iqtisadi elementləri kompleks əlaqədə olmaqla bütünlükdə turizm fəaliyyətini formalaşdırır. Bu baxımdan turizm təsərrüfatı sosial-mənəvi və etik dəyərlər olmaqla hər hansı ölkə haqqında formalaşmış mədəni və fəlsəfi dəyərlərdir.

Turizm fəaliyyətinə həsr edilmiş ədəbiyyatlara turizmin aşağıdakı elementlərini fərqləndirirlər:



Tur – müəyyən müddət ərzində bu və ya digər marşrut üzrə fərdi və yaxud qrup halında səfərlərdən ibarət olub turistlərin yerləşdirilməsi, daşınması, qidalanması və səyahəti, eləcə də gidlərin tərcümə və tanışlıq xidmətlərini özündə əks etdirir.

Turist məhsulu – turistlərin tələbinə və seçiminə uyğun təklif olunan əmtəə və xidmətlərin (turist suvenirləri, turist əşyaları, sağlamlıq məqsədi ilə reallaşan işlər və s.) məcmusudur.

Turizm idxalı- ölkəyə gətirilən pul vəsaiti və turistlərin ölkə haqqında mülahizələri.

Turizm ixracatı- əhalinin xarici ölkələrə apardığı təsərrüfat və ölkə haqqında mənəvi fikirlər və pul vəsaitləri.

Turizm yollayışı – ciddi hesabat blankı olub proqramla nəzərdə tutulmuş xidmətlərin ödənişini təsdiq edən rəsmi sənəddir.

Turizm vauçeri – xarici turistlərə xidmət göstərmək üçün turun tərkibinə daxil olan xidmətlərin göstəriləcəyi faktı təsdiq edən sənəddir.

Turoperator - turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı;

Turaqent - turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs;

turaqentlik - turizm və ekskursiya yollayışlarının satışı, habelə turizm - ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və s.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilat;

Turizm infrastrukturu - turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə-yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turaqent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşki-

latların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu;

Turizm məhsulunun hərəkətə gətirilməsi - turizm məhsulunun satışına yönəldilmiş tədbirlər kompleksi (reklam, ixtisaslaşdırılmış sərgilər, yarmarkalarda iştirak, turizm məhsulunun satışı üzrə turizm informasiya mərkəzlərinin təşkili, kataloqların, bukletlərin və s. nəşri);

Sosial turizm – sosial ehtiyaclar üçün dövlət tərəfindən ayrılan vəsaitdən yararlanan səyahətdir.

Turizm ehtiyatları - səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusu;

Turizm zonaları – xüsusi ekoloji, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komponentlərinin yerləşdiyi, təbiəti mühafizə, milli və mədəni irsi qoruma, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, turizmin təşkili və inkişafı məqsədilə ayrılan əlverişli turizm potensialına və müvafiq turizm infrastrukturuna malik olan ərazilər nəzərdə tutulur.

Turistlər aşağıdakı qruplar üzrə təsnifləşir:

- ailə vəziyyətinə görə istirahətə, müalicə və başqa məqsədlər üçün gedənlər:
- xidməti işlərə görə gedən vətəndaşlar:
- konfrans və iclaslara gedənlər (elm, inzibati və idman yarışları):
- xarici ölkələrə iş axtarmağa və müqavilə ilə işə gedənlər:
- daimi yaşayış üçün gedənlər:
-sərhəd rayonlarının əməkdaşlarının başqa rayonlarda yaşaması.

Turist - istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini



məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 6 ayadək müddətdə müvəqqəti gələnlərə deyilir.

"Turizm haqqında" Azərbaycan Respublikasının qanununda turistlərin hüquqları aşağıdakı kimi təsnifləşdirilmişdir:

- nəzərdə tutulan proqrama müvafiq getdiyi ölkəyə (yerə) daxil olma, orada qalma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizədə olan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə zəruri və dürüst informasiya almaq;
- getdiyi ölkədə (yerdə), mövcud olan məhdudiyyət tələbləri nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından sərbəst istifadə etmək;
- həyatının və sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi yardım alınması hüququna malik olmaq;
- turizm məhsulunun pərakəndə alqı-satqı müqaviləsi şərtlərinin turoperator və ya turaqent tərəfindən yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi zərərlərin əvəzinin Azərbaycan Respublikasının qanunve-ricíliyi ilə müəyyən olunmuş qaydada ödənilməsini tələb etmək;
- getdiyi ölkənin (yerin) hakimiyyət və yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq.

Azərbaycan Respublikasına gəlmiş turist Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ölkəyə (müvəqqəti olduğu yerə) gəlmə və ölkədən (müvəqqəti olduğu yerdən) getmə, habelə orada qalma qaydalarına riayət etməlidir.

## 13.4. Turizmin iqtisadi və sosial səmərəliliyi.

Turizm sferasının iqtisadi və sosial mənası, məhz turizm təsərrüfatının sosial mənasını genişləndirmək, onun məkan və məzmun mahiyyətini genişləndirməkdən ibarətdir. Azərbaycan

Respublikasına gələn turistlər onun iqtisadi, təbii coğrafi, demoqrafik və milli xüsusiyyətləri haqqında formalaşmış maddi və mənəvi təsərrüfatı, məhsul və xidmətləri dünya ölkələrinə ixracat edir. Həmçinin Azərbaycan əhalisinin digər ölkələrdə turist kimi iştirakı, onun dünya görüşü, həyat tərzi və ölkə daxili münasibətlərin tənzimlənməsində xarici amilin müsbət aspektlərini tətbiq etməyə imkan verir. Turizm ölkə üçün əlavə gəlir mənbəyidir və yerli əhali öz məhsullarını turistlərə satmaq imkanı qazanır. Turizm inkişaf edən ölkələrdə (regionlarda) yerli əhali daha çox fəal həyat tərzi və gəlir əldə etmək vərdişlərinə malik olur.

Turizm iqtisadiyyatı xarici amillərin təsiri və daxili resursların istifadəsi mexanizmləri ilə səciyyələnir. Turizm təsərrüfatı adətən aşağıdakı funksiyaların icrasını təmin edir:

Turizm məhsullarının (xidmətlərin) istehsalı (göstərilməsi) və onun istifadəsinin təşkili;

Turizm məhsullarının (xidmətlərin) reallaşmasının təşkili.

Son onilliklər ərzində beynəlxalq miqyasda turistlərin sayının artması, turizm sferasına cəlb olunan maddi, əmək və maliyyə resurslarının dinamik xarakter alması ölkələrin iqtisadi-sosial münasibətlər sisteminə öz təsirini göstərməyə başlamışdır. Turizmi inkişaf etdirən hər bir ölkə ondan maksimum iqtisadi və sosial səmərə əldə etməyə çalışır. Turizmin iqtisadi səmərəliliyi onun dövlət səviyyəsində təşkilindən turizm xidmətlərinin səviyyəsin-dən, turizm firmalarının istehsal-xidmət sahəsindən qazanc əldə etməsindən asılıdır. Turizm fəaliyyətini qiymətləndirmək üçün sistem göstəricilərindən istifadə edilir ki, onların da hesablanması metodologiyası milli və beynəlxalq standartlara uyğun olmalıdır. Onların içərisində turizm xərcləri və turizm istehlakının dəyər ifadəçisini əks etdirən göstəricilər təcrübədə və statistik hesabatlarda özünü daha çox biruzə verir. Məhz həmin göstəricilər əsasında ölkələrin dünya turizm bazarında rəqabət qabiliyyətinin səviyyəsi qiymətləndirilir.



Ümumdünya Turizm Təşkilatının (ÜTT) tövsiyə etdiyi göstəricilər sisteminə 120 dəyər və 40 - dan çox natural göstəricilər daxildir. Bir sıra dəyər göstəriciləri turizmdə istehsal hesabının qurulması üçün nəzərdə tutulmuşdur. Natural göstəricilər yerləşdirmə vasitələrinin müxtəlif tiplərinin sayını, turizm müəssisələrində məşğul olanların sayını və s. hesablamağa imkan verir. Ümumiyyətlə turizmin inkişafı aşağıdakı göstəricilərin hesablanması yolu ilə müəyyən edir:

- Turist axınlarının həcmi:
- Maddi-texniki bazanın vəziyyəti:
- Turizm firmalarının maliyyə-iqtisadi fəaliyyəti.

Lakin turizm fəaliyyətinin ölkənin sosial-iqtisadi inkişafındakı rolunu və əhəmiyyətini sistemli yanaşma əsasında qiymətləndirmək üçün aşağıdakı istiqamətlərdə informasiya bazası formalaşdırılır: turizmin inkişafının əsas göstəriciləri; beynəlxalq turizm axınları; turizm daşımaları; yerləşdirmə vasitələri; qidalanma turizm üçün məhsulların (suvenirlərin, malların və sairə) istehsalı; turizm sferasında pullu xidmətlər və investisiya, turizm sferasının maliyyəsi və resursları; turizm sferasında əmək və əmək haqqı; turizm fimalarının fəaliyyəti; beynəlxalq müqayisələr, turizm sferasında pullu xidmətlər. Qeyd edilən istiqamətlər üzrə informasiya bazasına uyğun statistik göstəricilər fərqləndirilməli və bu zaman fərdi, nisbi, dəyər, natural, mütləq, birsəviyyəli, çoxsəviyyəli göstəricilərdən istifadə etmək lazımdır. Milli və regional səviyyədə turizmin inkişafını xarakterizə edən göstəricilər uzunmüddətli dövrü əhatə etməlidir ki, təhlil və müqayisə zamanı düzgün nəticələr əldə etmək mümkün olsun.

Beynəlxalq turizm bazarı bu sahədə iqtisadi fəaliyyətin səmərəliliyinin hesablanmasını da tələb edir. Beynəlxalq turizm bazarının fəliyyətinin iqtisadi səmərəliliyin ölkənin inkişaf mərhələlərində tələb və təklifin əlaqəsi kimi hesablamaq mümkündür.

Beynəlxalq turizmin səmərəliliyinin müəyyənləş-dirilmə-

sində ölkənin daxili və siyasəti mühüm yerə malikdir. Turizmdə iqtisadi səmərəliliyin hesablanmasında iki əsas üsul mövcuddur:

- Beynəlxalq turizm kanalı ilə xarici valyutanın daxilolmaları və xərcləri səmərəliliyinin baxılması və ya beynəlxalq turizmin xarici ticarət fəaliyyəti kimi öyrənilməsi:
- Beynəlxalq turizmin ölkənin milli gəlirinin yaradılmasında iştirak edən təsərrüfat sahəsi kimi qəbul edilməsi.

Əgər biz beynəlxalq turizmi xarici ticarət fəaliyyəti kimi dəyərləndirsək bu zaman turizmin iqtisadi səmərəliliyinin hesablanması tam şəkildə ixrac sahəsinə yazılır.

Ölkədə turizmin inkişafı nəticəsində ölkə xarici valyuta qismində müəyyən gəlir əldə edir. Ölkənin xidmət istehsalı üzrə ixtisaslaşması, əməyin ixtisaslaşmaya uyğun olaraq bölgüsü istehsal xərclərini azaldır bu da öz növbəsində xidmətlərin qiymətlərinin azalmasına səbəb olur. Bu isə ölkə səviyyəsində əlavə dəyər yaradır.

Ölkədə beynəlxalq turizmin inkişafı səmərəliliyinin müəyyənləşdirilməsi tədiyyə balansına əsasən hesablanır. Bu zaman aktiv turizm və passiv turizm nəzərə alınır:

- Aktiv turizm – xidmətlərin ixracını,
- Passiv turizm – xidmətlərin idxalını ifadə edir.

İki ölkə arasında makro səviyyədə turizm səmərəliliyini müəyyənləşdirən zaman aşağıdakı düsturdan istifadə edilir:

$$S_{iq}=V_{a.t.k}/V_x$$

Burada: $V_{at}$-aktiv turizmdən gələn valyutadan gəlir; $V_x$- passiv turizmdən olan valyuta xərcləri.

Əgər səmərililik göstəricisi çoxdursa, xidmətlərin ixracı səmərli, 1-ə bərabərdirsə, onda əlaqələr balanslaşdırılmış, 1-dən kiçikdirsə, xidmətlərin ixracı səmərəsiz hesab edilir.

Turizm sferasında ölkənin iqtisadi səmərəliliyinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilməlidir.



Onlara aşağıdakılar daxil edilə bilər:

-yeni turizm obyektlərinin tikintisinə xarici və daxili investisiyaların yönəldilməsi;

- turizm infrastrukturunun genişləndirilməsi;
- turizm məhsullarının (xidmətlərinin) həcminin artırılması;
- turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi yeni formalarının və növlərinin sayının artırılması.

Beynəlxalq turizmin həcmi xarici ticarət əməliyyatlarında olduğu kimi, natural (kəmiyyət) və dəyər göstəricilərində müəyyənləşdirilir.

Natural göstərici dedikdə, burada turistlərin sayı nəzərdə tutulur. Lakin bu göstərici xarici turizmin real həcminin öyrənilməsi üçün yetərli deyil. Bu səbəbdən də əsas göstərici kimi turistin ölkədə keçirdiyi günlərin sayı - turgün qəbul edilir ki, onu da aşağıdakı düsturun köməyi ilə hesablamaq olar:

$$S_{tur}=T_s \cdot M_t$$

Burada: $T_s$- turistlərin ümumi sayı: $M_t$-turistin ölkədə orta qalma müddəti:

Həmin düsturun köməyi ilə aparılan hesablamalar göstərir ki, 2015-ci ildə Azərbaycanda bir turist orta hesabla 5,2 gecələmə keçirmişdir. Beynəlxalq Valyuta Fondunun (BVF) tövsiyələrinə görə turizmdən gələn daxilolmalar və beynəlxalq turizm xərcləri tədiyyə balansında "Turizm" bəndində göstərilir. Tədiyyə balansında xarici turist xərcləri turisti qəbul edən ölkə üçün ixrac, öz vətədaşının başqa ölkədə xərci isə idxal olaraq qeyd edilir. Tədiyyə balansında xarici turistlərdən əldə edilən gəlir xidmət balansında "turizm aktivi", ölkə vətəndaşının xaricdə çəkdiyi xərclər isə "turizm passivi kimi qeyd edilir. Bir çox ölkə üçün turizm əsas xarici valyuta daxilolmaları mənbəyidir. Azərbaycanda turizm sənayesi əlavə gəlir əldə etməklə yanaşı qeyri-neft sənaye sektorunun, inkişaf etdirilməsində mühüm rol oynayır və dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir.

## 13.5. Turizm fəaliyyətinin dövlət tənzimlənməsi.

Turizm sisteminin əsas tərkib hissələrindən biri hesab edilən dövlət tənzimlənməsi ölkədə turizmin təşkili və idarə edilməsinə aid edilən qanunlar, qərarlar, dövlət proqramları, beynəlxalq sazişlər və digər normativ-hüquqi aktların vasitəsilə həyata keçirilir. (sxem 13.3.1.) Turizm fəaliyyətinin tənzimlənməsi üzrə dövlətin əsas məqsədləri, tənzimlənmə üsulları vəzifələri "Turizm haqqında" Azərbaycan Respublikasının qanununda öz əksini tapmışdır.




*Sxem 13.3.1. Turizm fəaliyyətinin tənzimlənməsinin normativ-hüquqi bazası.*



Turizm sahəsində dövlət adətən aşağıdakılara üstünlük verir:

- turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün əlverişli şərait yaradır;
- turizm fəaliyyətinin üstün istiqamətlərini müəyyən edir və onun həyata keçirilməsinə kömək edir;
- Azərbaycan Respublikası haqqında turizm üçün əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşdırır.

Turizm fəaliyyətinin tənzimlənməsi üzrə dövlətin əsas məqsədləri aşağıdakılardır:

- turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqlarını təmin etmək;
- ətraf mühiti (təbiəti) qorumaq;
- turistlərin səyahətləri zamanı onların tələbatlarını təmin edən turizmin infrastrukturunu inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, dövlətin və onun vətəndaşlarının gəlirlərini artırmaq;
- beynəlxalq əlaqələri inkişaf etdirmək, turizm baxış obyektlərini qoruyub saxlamaq, təbii, tarixi və mədəni irsdən səmərəli surətdə istifadə etmək.

Turizm fəaliyyətinin dövlət tənzimlənməsi zamanı aşağıdakı üsullara üstünlük verilir:

- turizm infrastrukturu sahəsində münasibətlərin təkmilləşməsinə yönəldilmiş normativ hüquqi aktların qəbul edilməsi;
- daxili və dünya turizm bazarlarında turizm məhsulunun hərəkətə gətirilməsinə kömək göstərilməsi;
- turistlərin hüquq və maraqlarını müdafiə etmək, onların təhlükəsizliyinin təmin edilməsi;
- turizm infrastrukturu sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması;
- turizmin inkişaf etdirilməsi üzrə məqsədli dövlət proqramlarının işlənib hazırlanması;

- turizm infrastrukturuna investisiya qoyuluşu, o cümlədən xarici investorların cəlb olunması üçün əlverişli şərait yaradılması;

- turizm fəaliyyəti sahəsinin kadr təminatına kömək edilməsi;

- turizm infrastrukturu sahəsində elmi tədqiqatların inkişaf etdirilməsi;

- Azərbaycan turistlərinin, turoperatorlarının, turaqent-lərinin və onların birliklərinin beynəlxalq turizm proqramında iştirakına şərait yaradılması;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər üsullar.

Turizm sahəsində dövlətin vəzifələri aşağıdakılardan ibarətdir:

- turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyənləşdirmək;

- turizmin inkişafına dair dövlət proqramını işləyib hazırlamaq;

- turizmin normativ bazasını işləyib hazırlamaq;

- turizmdə sahələrarası və regionlararası fəaliyyəti əlaqələndirmək;

- Azərbaycan Respublikasını xaricdə əhəmiyyətli turizm ölkəsi kimi tanıtmaq məqsədilə informasiya şəbəkəsi yaratmaq;

- beynəlxalq turizm təşkilatlarında Azərbaycan Respublikasının nümayəndəliyini təşkil etmək, turizmin inkişafına dair beynəlxalq proqramın işlənib hazırlan-masında iştirak etmək, turizm sahəsində əməkdaşlıq üzrə müqavilələr bağlamaq və onların həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq;

- ərazi-turizm ehtiyatları kimi qəbul edilmiş obyekt-lərin qorunmasını və fəaliyyətini təşkil etmək;



- turizm sahəsində peşə-ixtisas təhsili üzrə isti-qamətləri və ixtisasların siyahısını müəyyən etmək;

- turizm qanunvericiliyinin icrasına nəzarət etmək;

- turizm sahəsində standartlaşdırma və sertifikat-laşdırma qaydalarını hazırlamaq;

- turizm təşkilatlrının reyestrini aparmaq;

- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, turizm fəaliyyəti ilə məşğul olan və turistlərə xidmət göstərən bütün müəssisələrdə xidmətlərin dövlət standartlarına riayət olunmasına nəzarət etmək.

Turizm sənayesinin inkişafına dair çoxsaylı normativ-hüquqi sənədlər içərisində Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış, turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi" mühüm əhəmiyyət kəsb edir. Həmin xəritədə ölkədə turizmin inkişafı üzrə aşağıdakı prioritetlər müəyyən edilmişdir.

- Turizm Şurasının fəaliyyətinin səmərəli təşkili;

- Turizm və rekreasiya zonalarının yaradılması;

- Yerli və xarici turistlər üçün mövsümilik problemini regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi;

- Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd keçid qaydalarının sadələşdirilməsi;

- Əsas tələb bazarları ilə hava əlaqələrinin təkmilləş-dirilməsi;

- Sağlamlıq turizmi üçün tələbatın yenidən forma-laşdırılması;

- Qış və işgüzar turizmin inkişafının dəstəklənməsi;

- Mədəni turizm marşrutlarının yaradılmas;

- Davamlı turizm potensialının (ekoturizm, kənd turizmi və s.) gücləndirilməsi;

- Turistlərin məmnunluğunun artırılması üçün milli turizm keyfiyyət sisteminin yaradılması;

- Turizm sahəsində srtandartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi.

Həmin hədəflər üzrə dövlət strategiyasında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi aşağıdakı maliyyə mənbələri hesabına nəzərdə tutulur:

- dövlət büdcəsindən ayırmalar;
- büdcədənkənar fondlar;
- yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- birbaşa xarici investisiyalar;
- ölkənin banklarının kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların, xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər maliyyə-ləşdirmə mənbələri.

Ümumiyyətlə xidmət sektorunun əsası olan turizm fəaliyyətinin formalaşması, inkişafı və rəqabətə davamlılığı ölkənin gələcək sabit inkişafında, beynəlxalq inteqrasiyasında və dünya iqtisadiyyatında əsaslı mövqe tutmasında tam təminatçı olacaqdır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (06.XII.2016) regional və beynəlxalq turizmin inkişafı, tələbatla əlaqədar mədəni turizmin, sağlamlıq turizmi, ekoturizm, kənd turizmi, qış turizmi kimi özəl turizm növlərinin inkişafı və daha da təkmilləşdirilməsi nəzərdə tutulur.



# MÖVZU 14. QEYRİ-NEFT SƏNAYESİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI

## 14.1. Kiçik sahibkarlığın qeyri-neft sənayesinin inkişafında rolu.

Hər bir ölkədə vətəndaş cəmiyyətinin inkişafı sahibkarlıq fəaliyyətinin inkişafından önəmli dərəcədə asılıdır. Məhz sahibkarlığın inkişafı insanların müstəqil, azad fəaliyyətinə imkan yaradır və onların məşğulluq probleminin həllində böyük rol oynayır. Odur ki, sahibkarlığın inkişafı cəmiyyətin inkişafının mühüm elementi kimi çıxış edir. Bütünlükdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kiçik sahibkarlığın inkişafından asılıdır. Onu inkişaf etdirməklə, çoxsaylı sosial-iqtisadi problemləri həll etmək asanlaşır. Odur ki, dövlət kiçik sahibkarlığa dəstək olur və onlara müəyyən güzəştlər verir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyatın önəmli hissəsini kiçik və orta sahibkarlar (KOS) formalaşdırır. Xüsusilə qeyri-neft sənayesində son onilliklərdə KOS-un əhəmiyyəti əsaslı şəkildə hiss edilməkdədir.

Dünyanın innovativ iqtisadiyyatında öz yerini təsdiqləyən ABŞ, Yaponiya, Koreya, Avropa Birliyi ölkələrində KOS-lar iqtisadi inkişafın sürətləndirilməsində ciddi vasitə hesab olunurlar.

KOS-ların iqtisadiyyatda əhəmiyyəti aşağıdakı keyfiyyətlərinə görə fərqləndirilir: məşğulluğu artırmaq, tez uyğunlaşma sayəsində yeniliklərə uyğunlaşma, həmçinin biznes fəaliyyətini təşviq etmək, iri həcmdə məhsul istehsalçılarına istehsalda dəstək göstərmək, nəhayət ümumi istehsala böyük paya sahib olmaq.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun həmin ölçülü müəssisələrin (sahibkarlıq subyektlərinin) meyarları kimi 2016-cı ilin əvvəlindən işçilərin orta siyahı sayı və illik gəlirin məbləği əsas götürülmüşdür. Bu zaman illik gəlirə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və yerinə yetirilmiş xidmətlərin dəyəri, həmçinin satışdan kənar gəlirlər aid edilir (cədvəl 14.1.1.).

*Cədvəl 14.1.1.*

**Azərbaycanda kiçik, orta və iriölçülü sahibkar firmaların meyarları.**

| Kateqoriyalar | İşçilərin orta siyahı sayı | İllik gəlir |
|---|---|---|
| Kiçik sahibkarlıq subyekti | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkarlıq subyekti | 25 nəfərdən 125 nəfərədək | 200 min manatdan 1250 min manatadək |
| İri sahibkarlıq subyekti | 125 nəfərdən yuxarı | 1250 min manat və ondan yuxarı |

Avropa Birliyində KOS-lar işçi sayı 250 nəfərə qədər, dövriyyəsi isə 50 milyon avroya qədər olan sahibkarlıq subyektləri aid edilir. Kiçik sahibkarlar 50-yə qədər işçisi olan, 10 milyon dövriyyəyə sahib şəxslər, orta sahibkarlar isə 250-yə qədər işçisi 50 milyon avroya qədər dövriyyəsi olan şəxslərdir. Türkiyədə işçi sayı 250 nəfərə qədər olan dövriyyəsi 25 milyon lirəyə (10 milyon manat) qədər olanlar kiçik sahibkarlardır. ABŞ-da işçilərin sayı 10-1500 nəfər, Kanadada 50-500 nəfər, İsraildə 50-250, Rusiyada 15-250 nəfər arasında olan sahibkarlıq subyektləri KOS-lara aid olunur.

İnkişaf etmiş ölkələrin çoxunda KOS-un meyarları içərisində işçi sayı, satış həcmi, mənfəət həddi, yaradılan əlavə dəyər, ödənən vergi miqdarı kimi kəmiyyət ölçüləri, kapital bazarından sərmayə təmin edə bilmə gücü, iqtisadi müstəqillik kimi keyfiyyət parametrlərinə üstünlük verilir.

Azərbaycanda KOS-a dəstək məqsədilə bir neçə proqram qəbul edilmişdir. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi adlanan proqramın birincisi 1993-1995-ci illəri əhatə edib. Bu illərə aid olan proqram öz hədəfinə çata bilməyib və ikinci proqram qəbul olunub. Həmin proqram 1997-2000-ci illəri əhatə edib. İkinci proqramın qəbulunda əsas



məqsəd birinci proqramda nəzərdə tutulan tədbirlərin tam həyata keçirilməsi idi.

Proqramın məqsədi sahibkarlığın ardıcıl inkişafı, Azərbaycan iqtisadiyyatında onun rolunun gücləndirilməsi və tədricən dünya iqtisadiyyatına inteqrasiya olunması üçün əlverişli mühitin formalaşdırılmasından ibarətdir. Proqramın maliyyələşdirilməsi mənbələri isə Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri, dövlət büdcəsindən ayırmalar və s. olmalı idi.

Proqramın tətbiq edildiyi dövrdə SKMF-dan vəsait ayrılmasına rast gəlinmədi. Bununla belə həmin dövrdə KOS-ibn ümumi daxili məhsulda payı 24,7%-dən 42,7%-ə çatdı.

Hökumət kiçik və orta sahibkarlığın inkişafı üçün 2002-2005-ci illəri əhatə edən üçüncü proqramı da qəbul etdi. Üçüncü proqramda hədəf sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, KOS-un insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında KOS-un inkişafını təmin etməkdir.

Adı çəkilən 3-cü Proqramın və Nazirlər Kabinetinin qərarı 1999-cü ildə qəbul edilmiş kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının qanununa əsaslanmış və sahibkarlıq subyektlərinə dövlət köməyinin aşağıdakı istiqamətləri müəyyən edilmişdir:

- kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;
- kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kö-

mək göstərilməsi;

- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf-müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;

- kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun), statistik və mühasibat hesabatlarının təqdim edilməsinin, onların istehsal etdikləri məhsulun (işin, xidmətin) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;

- kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili.

Həmin tədbirlərin həyata keçirilməsi nəticəsində KOS-ların istehsal etdikləri məhsulun (işin, xidmətin) ÜDM-dəki xüsusi çəkisi ildən ilə artmaqdadır.

## 14.2. Kiçik sahibkarlığın təşkili və idarə edilməsinin "bir pəncərə" prinsipinin üstünlükləri.

Ölkədə sahibkarlığın inkişafına böyük önəm verildiyinin bariz nümunəsi kimi sahibkarlıq subyektlərinin "bir pəncərə" və yaxud "vahid pəncərə" prinsipi ilə qeydiyyatı sistemini göstərmək olar. Bu sistem vasitəsilə sahibkarlıq subyektlərinin qeydiyyatı zamanı çoxsaylı və uzun müddətli inzibati prosedurlar tamamilə aradan qaldırılmış, bütün proseslərin 3 günə həll edilməsi üçün imkan yaradılmışdır. Təsadüfi deyil ki, sahibkarlıq subyektlərinin "vahid pəncərə" prinsipi ilə qeydiyyatı sistemi Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müəssisələrin qeydiyyatı sahəsində ən uğurlu islahat hesab edilmişdir.

"Vahid pəncərə" sistemini səmərəli şəkildə tətbiq etmək üçün vahid ərizə formasından istifadə olunur. Bu ərizə formasında vergi orqanında, habelə Dövlət Sosial Müdafiə Fondunda və Dövlət Statistika Komitəsində qeydiyyata alınmaq üçün zəruri olan bütün məlumatlar əks olunur. Bunun nəticəsində sahibkarlar müxtəlif orqanlara deyil, yalnız yerli qeydiyyat bölməsinə müraciət edirlər. Həm yeni hüquqi şəxsin qeydiyyatı, həm də qeydiyyata alınmış informasiyanın yeniləşdirilməsi zamanı bu ərizə formasından istifadə olunur. Bundan başqa bütün hüquqi şəxslərin vahid eyniləşdirmə kodu kimi vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən (VÖEN) istifadə olunur. Bu isə, vergi ödəyicisinin qeydiyyatının hüquqi şəxsin dövlət qeydiyyatı prosesi çərçivəsində aparıldığı deməkdir.

Bir pəncərə prinsipinə görə sahibkarları öz müəssisələrini qeydiyyata almaq üçün yalnız aşağıdakı yeddi sənəd ASAN xidmət mərkəzinə təqdim etməlidirlər:

1. Ərizə forması. Ərizədə aşağıdakılar göstərilir:

- təsisçi fiziki şəxs olduqda: onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənəd (seriya, nömrə, verilmə tarixi, sənədi verən orqan, etibarlıq müddəti, ünvan);

- təsisçi hüquqi şəxs olduqda: onun adı, hüquqi ünvanı, qeydiyyat nömrəsi;

- ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda: onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənəd (seriya, nömrə, verilmə tarixi, sənədi verən orqan, ünvan) və vəkalətnamə haqqında məlumatlar.

2. Təsis sənədləri-təsisçi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq olunmuş nizamnamə, həmin qurumun yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında qərar;

3. Dövlət rüsumunun ödənilməsini təsdiq edən bank qəbzi;

4. Təsisçi hüquqi şəxs olduqda: onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;

5. Təsisçi fiziki şəxs olduqda: onun şəxsiyyətini təsdiq edən sənədin surəti;

6. Hüquqi şəxs statusu almaq istəyən qurumun hüquqi ünvanını təsdiq edən sənəd (notarial qaydada təsdiq edilmiş icarə, kirayə, pulsuz istifadə müqaviləsi, obyektin hüquqi ün-

vanından istifadə etmək barədə təsdiq olunmuş razılıq) və ya obyekt üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd;

7. Qanuni təmsilçinin təyin edildiyi halda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti.

"Vahid pəncərə" sisteminin tətbiqi fərdi sahibkarların qeydiyyatına da müsbət təsir göstərmişdir. Belə ki, yerli vergi bölməsində qeydiyyata düşmək üçün fərdi sahibkar yalnız:

- standart müraciət formasını;
- şəxsiyyətini təsdiq edən sənədi;
- yaşayiş yeri barədə arayışı təqdim etməlidir.

Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı prosesində aparılan islahatlar nəticəsində fərdi sahibkarlar qeydiyyat idarəsinə yalnız üç sənəd təqdim etməli və iki proseduradan keçməlidir.

"Vahid pəncərə" sistemi, həmçinin bilavasitə qeydiyyat bölməsində internet vasitəsilə bank hesabı açmaq imkanı verir ki, bu da bildiriş dublikatının alınması və daha sonra bank və ya sahibkar tərəfindən vergi idarəsinə qaytarılması zərurətini aradan qaldırır.

Sahibkarlıq subyektlərinin qeydiyyatı prosesini sürətləndirmək və mümkün ola bilən neqativ halları aradan qaldırmaq üçün elektron qeydiyyat sisteminin tətbiqinə başlanılmışdır.

Elektron qeydiyyat sistemi struktur məlumatın ərizəçidən regional qeydiyyat bölməsinə ötürülməsi üçün vahid yanaşma sistemini təmin edir və bu, ənənəvi kağız blank daşıyıcısının (yaxud onun elektron daşıyıcısının) qoyduğu məhdudiyyətlərdən kənarlaşaraq müasir, istifadə üçün mərkəzləşdirilmiş, internet əsaslı yeni sistemə keçməsi ilə nəticələnir. Bu bazada istifadəçi tərəfindən edilən seçimlər və daxiletmələrə cavab verən intuitiv, məntiqi formada qurulmuş istifadəçi dialoqundan istifadə ediləcəkdir. Ərizəçi tərəfindən qeydiyyat prosesinin ona münasib olan müddətdə tamamlanması üçün əməliyyat müvəqqəti olaraq xüsusi məlumat sistemində saxlanıla bilər. Son



əməliyyat elektron imzadan istifadə etməklə ərizənin imzalanmasından ibarətdir. Bu zaman həm elektron imzadan, həm də kağız daşıyıcısında olan imzadan istifadə etmək olar. Elektron qeydiyyatı sisteminin tətbiqi, həmçinin elektron imzaların sertifikatlaşdırılmasını həyata keçirən müvafiq orqanın yaradılmasını tələb edir.

Elektron qeydiyyati sisteminin tətbiqi qeydiyyat öncəsi prosedurаları da sadələşdirəcək. Yəni bu zaman notarial qaydada təsdiq olunmuş nizamnamənin təqdim olunmasının əvəzinə qanunvericilik aktlarının müvafiq maddələrinə istinad olunur. Elektron qeydiyyati prosesi başa çatdırıldıqdan sonra ərizəçiyə avtomatik olaraq vergi bəyannamələrinin şəxsən təqdim edilməsi əvəzinə onların elektron formada təqdim edilməsi imkanı barədə məlumat verilir.

Elektron qeydiyyat sisteminin tətbiqi aşağıdakı müsbət nəticələrin əldə edilməsinə imkan yaradır:

- sahibkarların (müəssisələrin) sərf etdiyi vaxt və xərclərin azalması (xüsusilə regional qeydiyyat bölmələrin yerləşdiyi ərazilərdən kənarda yerləşən müəssisələr üçün);
- daxil edilən məlumatın düzgünlüyünə dair nəzarətin artırılması;
- digər reyestr məlumatları ilə uyğunluğun yoxlanılması;
- məlumatın hüquqi dəqiqliyinə və etibarlılığına nəzarət;
- məlumatların əllə daxil edilməsi zərurətinin azalması;
- bir məntəqədə qeydiyyat;
- səhvlərin dərhal aşkar edilməsi və bu barədə məlumat verilməsi.

Sahibkarlıq subyektlərinin ləğv edilməsi prosesi də "Vahid pəncərə" sistemi vasitəsi ilə rəsmiləşdirilir. Ləğvetmə prosedura ərizə forması və qanunvericiliyin tələb etdiyi sənədlərin təqdim olunması əsasında qeydiyyat bölməsi tərəfindən həyata keçirilir.

## 14.3. Sahibkarlara Kömək Milli Fondunun qeyri-neft sənayesinin inkişafında rolu.

Azərbaycanda özəl bölmənin inkişafında, sahibkarlığa dövlət maliyyə dəstəyinin gücləndirilməsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) işinin səmərəli təşkili xüsusilə əhəmiyyətlidir.

Fondun fəaliyyətinin Azərbaycan iqtisadiyyatının inkişafının prioritetləri və mərhələlər üzrə həlli tələb olunan vəzifələrlə uzlaşdırılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və genişləndirilməsinin təmin edilməsi məqsədi ilə ümummilli Lider Heydər Əliyevin 2002-ci il 27 avqust tarixli fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" və "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydaları" təsdiq edilmiş, Fondun fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilmiş və bununla da Fondun fəaliyyətinin inkişaf mərhələsi başlanmışdır.

Sahibkarlığa Kömək Milli Fondunin məqsədi Azərbaycan Respublikasında sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərməkdən, onlara maliyyə dəstəyi verməkdən ibarətdir.

SKMF-in əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq investisiya layihələrini qanunvericiliyə uyğun maliyyələşdirmək;
- maliyyə bazarlarından ehtiyatların cəlb olunması üçün tədbirlər görmək və uyğun kredit mənbələrini formalaşdırmaq;
- sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi üçün verilmiş vəsaitlərin səmərəli təminatı üzrə istifadəsinə nəzarət etmək və bu məqsədlə monitorinqlərin keçirilməsi qaydalarını müəyyənləşdirmək;
- maliyyələşdiriləcək investisiya layihələrinin ekspertizasını həyata keçirmək sahibkarlığın inkişafına yönəldilmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsinə üstünlük vermək;
- güzəştli kreditlərin alınması üçün investisiya layihələrinin tərtib olunmasına dair minimal tələbləri investisiya layihələrinin qiymətləndirilmə meyarlarını müəyyən etmək;
- sahibkarlıq subyektlərinə zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanmasına və yayılmasına, bazar konyunkturunun öyrənilməsinə, sahibkarlıq fəaliyyəti ilə bağlı proqramların və investisiya layihələrinin işlənib hazırlanmasına kömək etmək;
- sahibkarlıq subyektləri üçün kadrların hazırlanmasına və onların ixtisaslarının artırılmasına dəstək vermək;
- sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsinə yardım etmək;
- ölkədə sahibkarlığın bazar infrastrukturların formalaşmasına və inkişafına kömək göstərmək;
- sahibkarlıq subyektləri üçün zəruri elmi-texniki biliklərin və yeniliklərin təbliğinə kömək etmək.

Bütün bunlarla yanaşı SKMF öz fəaliyyətində sahibkarlığın inkişafına yönəldilmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsinə üstünlük vermək, sahibkarlığın inkişafını, yeni iş yerlərinin yaradılmasını təmin edən sahə və regional proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində iştirakçı olmaq kimi digər vəzifələri həyata keçirir.

Sahibkarlığa Kömək Milli fondunun vəsaitlərinin istifadəsinin əsas istiqamətləri aşağıdakılardır:

- ətlik və südlük istiqamətli iri buynuzlu cins heyvandarlıq komplekslərinin yaradılması;

- müasir quşçuluq təsərrüfatlarının yaradılması və ya bərpası;

- logistika (qida və qeyri-qida məhsullarının saxlanması daşınması və satışı) mərkəzlərinin yaradılması;

- müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin yaradılması;

- iri taxılçılıq və ya toxumçuluq təsərrüfatlarının yaradılması;

- yağlı bitkilər əkini və emalı müəssisələrinin yaradılması;

- qarışıq yem istehsalı müəssisələrinin yaradılması;

- müasir istixana komplekslərinin yaradılması;

- intensiv bağçılıq (üzüm, alma, nar və s.) və ya tingçilik təsərrüfatlarının yaradılması;

- intensiv üzümçülük təsərrüfatlarının və üzüm emalı müəssisələrinin yaradılması;

- müasir çörək istehsalı müəssisələrin yaradılması;

- digər sənaye (yüngül, tikinti, kimya, maşınqayırma və s.) müəssisələrinin yaradılması;

- kiçik sahibkarlığın (o cümlədən gənclər, qadınlar, əlillər və məcburi köçkünlərin sahibkarlığı) inkişafı.

Hesablamalar göstərir ki, təkcə 2010-2015-ci illərdə Fondun xətti ilə sahibkarlara 1289, 1 mlyn. manat məbləğində güzəştli kredit verilmişdir ki, bu da 20744 investisiya layihəsinin icrasına təminat yaratmışdır. Fond tərəfindən verilmiş güzəştli kreditlərin 70%-i aqrar sektorun, 30%-i isə-müxtəlif sənaye və infrastruktur sahələrinin inkişafına yönəlmişdir.

"Azərbaycan Respublikası" SKMF-in vəsaitlərinin istifadəsi mexanizminin təkmilləşdirilməsi ilə əlaqədar sahib-karlıq



subyektlərinə Fondun vəsaitlərindən veriləbiləcəyi kiçik həcmli kreditlərin həddi 50 min manata, orta həcmli kreditlərin həddi 500 min manata, böyük həcmli kreditlərin həddi isə 10 mlyn. manatadək artırılmışdır. Həmin sənəddə kiçik, orta və böyük həcmli kreditlərin müddətləri müvafiq olaraq: 3, 5 və 10 il kreditdən istifadə üzrə güzəşt müddəti kreditin istifadə müddətinin ilk ½ dövrünün əhatə edəcəyi müəyyən edilmişdir. Fondun kreditlərinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi kredit məbləğinin 6%-dən, kütləvi informasiya vasitələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi üçün isə - kredit məbləğinin 4%-dən artıq olmaması nəzərdə tutulur.

Beləliklə, SKMF tərəfindən ayrılan güzəştli kreditlər bundan sonra da məqsədli dövlət proqramlarına uyğun olaraq, iqtisadiyyatın qeyri-neft sektorunun davamlı və dinamik inkişafı üçün önəmli olan müasir tələblərə cavab verən iribuynuzlu heyvandarlıq komplekslərinin, quşçuluq (o cümlədən damazlıq), taxılçılıq və toxumçuluq, intensiv üzümçülük və çayçılıq təsərrüfatlarının, istehsal və emal müəssisələrinin, istixanaların, soyuducu anbar komplekslərinin, sənaye müəssisələrinin yaradılması üzrə investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsinə, gənclərin, kiçik fermer və ailə təsərrüfatlarının, məcburi köçkünlərin, qadınların və aztəminatlı ailələrin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına və s. istiqamətlərə yönəldiləcəkdir.

## 14.4. Qeyri-neft sənayesində müştərək sahibkarlıq fəaliyyətinin təşkili.

Müstəqilliyi əldə etdikdən sonra Azərbaycanın qarşısında duran başlıca vəzifə müasir bazar prinsipləri əsasında milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirməklə dünya təsərrüfat sisteminə inteqrasiya edilməkdən ibarət olmuşdur. Buna na-

il olmaq üçün ilk növbədə iqtisadi islahatlar aparmaqla ölkədə əhəmiyyətli keyfiyyət dəyişikliklərinə ehtiyac var idi. Bu məqsədlə digər tədbirlərlə yanaşı, Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltmək, onun müstəqilliyinin bütün sahələrdə qorunmasını təmin etmək üçün düşünülmüş strategiya hazırlandı və bu strategiyası, hüquqi, demokratik cəmiyyətin prinsipləri ilə əlaqələndirildi, milli mənafelər, investisiya mühitinin yaxşılaşması, istiqamətində zəruri tədbirlər həyata keçirildi və 1994-cü ilin 20 sentyabrında "Əsrin Müqaviləsi"nin imzalanması Azərbaycan iqtisadiyyatının əsas inkişaf xəttini müəyyən etdi. Həmin müqavilə çərçivəsində dünyanın aparıcı neft şirkətləri ilə hasilatın pay bölgüsü prinsipi üzrə sazişlərin imzalanması nəticəsində ölkəyə xarici investisiyaların cəlb edilməsi neft sektoru ilə yanaşı qeyri-neft sənaye sektorunun inkişafına da növbəti illərdə əsaslı təkan verildi.

Azərbaycanda siyasi sabitliyin təmin edilməsi, dövlət mülkiyyətinin özəlləşdirilməsi, mütərəqqi menecment formalarının tətbiqi əsasında yeni firma və şirkətlərin yaradılması müştərək fəaliyyətin genişləndirilməsinə imkan yaratdı. Onların içərisində xarici və birgə (müştərək) müəssisələrin rolu və əhəmiyyəti danılmazdır.

ARDSK-nın məlumatlarına görə, təkcə 2005-2015-ci illərdə ölkə ərazisində fəaliyyət göstərən xarici və birgə müəssisələrin sayı 155,2%, orada çalışan işçilərin sayı 159,2% istehsal edilən məhsulun (işin, xidmətin) həcmi 3,3 dəfə artmışdır.

Xarici və birgə müəssisələrin də fəal iştirak etdiyi prosesdə Azərbaycanda xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2000-2015-cü illər ərzində 9,7 dəfə artaraq 4903,6 mln.manat təşkil etmiş, lakin onların xüsusi çəkisi həmin dövrdə 52,4%-dən 27,8%-ə enmişdir. Xarici investisiyaların mülkiyyət növləri üzrə bölgüsünə qiymət verərkən aydın



olur ki, müqayisə dövründə dövlət mülkiyyəti üzrə onların məbləği 3,8 dəfə, qeyri-dövlət mülkiyyəti üzrə isə 11,5 dəfə artmış, nəticədə qeyri-dövlət mülkiyyətində olan müəssisələr üzrə əsas kapitala yönəldilən xarici investisiyaların xüsusi çəkisi 76,3%-dən 90,6%-ə çatmışdır.

Ölkəmizdə xarici və birgə müəssisələrin fəaliyyətini xarakterizə edən göstəricilərin 2005-2015-ci illərdə dəyişməsini 14.2.1. cədvəldən görmək olar.

*Cədvəl 14.2.1.*

**Azərbaycanda xarici və birgə müəssisələrin fəaliyyətini xarakterizə edən göstəricilər*)**

| Göstəricilər | İllər | | | 2005-2015-ci illərdə artım sürəti, faizlə |
|---|---|---|---|---|
| | 2005 | 2010 | 2015 | |
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 796 | 1091 | 1235 | 155,2 |
| Orada işləyənlərin sayı, min nəfər | 58,4 | 55,9 | 93,0 | 159,2 |
| Orta hesabla bir müəssisədə işləyənlərin sayı, nəfər | 73 | 51 | 75 | 102,3 |
| Orta aylıq əmək haqqı, man. | 672,7 | 1008 | 1569,3 | 2,3 dəfə |
| İstehsal edilən məhsulun həcmi, mlyn. manat | 7081,4 | 24012 | 23423 | 3,3 dəfə |
| Orta hesabla bir müəssisə tərəfindən istehsal edilən məhsulun həcmi, min manat | 8896,2 | 22009 | 18966 | 2,1 dəfə |

*) *Azərbaycanın statistik göstəricilər. Bakı, "DSK", 2016, s. 122-123.*

Xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyaların məbləği və xüsusi çəkisi də artıb-azalan xətlə dəyişmiş 2014-cü ildə Azərbaycanda əsas kapitala yönəldilən xarici investisiyaların 34,7%-i Böyük Britaniya, 7,8%-i ABŞ, 6,3%-i Yaponiya, 18,5%-i Norveç, 8,6%-i Türkiyə, 6,7%-i Fransa, 2,7%-i Çexiya Respublikası, 6,7%-i Fransa, hər biri 6,0% olmaqla Rusiya və İran, 0,9%-i Hindistan, 0,2%-i Almaniya kimi ölkələrinin payına düşmüşdür. Lakin 2015-ci ildə qeyd edilən qrup göstəricilərdə pozitiv dəyişiklik baş vermiş, xarici investisiyaların məbləği 6898,5 mlyn. manat təşkil edərək, 2014-cü illə müqayisədə 138,1% artmışdır.

Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələr ölkənin innovativ iqtisadi inkişafı prosesində fəal iştirak edirlər. Belə iştirak aşağıdakılarla təzahür olunur:

- ölkəyə investisiya axını təmin edilir;
- yeni və yüksək ödənişli iş yerləri yaradılır;
- istehsalın texniki-texnoloji səviyyəsinin yeniləşməsi hesabına məhsulun keyfiyyət göstəriciləri yaxşılaşır;
- yeni məhsulların mənimsənilməsi və mövcud məhsulların modernləşdirilməsi prosesi sürətləndirilir;
- müəssisələrin innovasiya aktivliyi artır, innovasiya məhsulunun xüsusi çəkisi yüksəlir;
- fərdi və kreativ yaradıcılıq təşəbbüsü dəstəklənir və səlahiyyətli menecer komandası formalaşır;
- məqsədli investisiya-innovasiya layihələri uğurla icra edilir;
- tullantisiz və ya az tullantılı texnologiyaların tətbiqi hesabına ekoloji təhlükəsizliyə təminat yaradılır;
- istehsalin diversifikasiyasının genişləndirilməsi hesabına idxalı əvəz edən və ixracyönümlü məhsulların çeşidi, eləcə də həcmi çoxalır, yeni, genişçeşidli xalq istehlakı mallarının istehsalı genişlənir;
- beynəlxalq standartların tətbiqinə imkan yaranır;
- mülkiyyət forması dəyişir, yeni innovasiya infrastrukturu yaradılır, institusional dəyişiklik baş verir;
- strateji planlaşdırmaya və idarəetməyə üstünlük verilərək uğurlu idarəetmə qərarları qəbul edilir və s.



Lakin xarici və birgə müəssisələrin təşkili və inkişafını qeyd edilən üstünlükləri kontekstində onların sayı və xüsusi çəkisi son illər Azərbaycanda ləğv edilən müəssisələrin tərkibində yüksək olaraq qalır. Təkcə 2012-2015-cü illərdə ölkəmizdə xarici və müştərək müəssisə müxtəlif səbəblərdən ləğv edilmişdir. Onların həmin dövrdə ləğv edilən bütün müəssisələrin tərkibindəki xüsusi çəkisi orta hesabla 15,5% təşkil etmişdir. Bu müəssisələrin normal fəaliyyətinə mənfi təsir edən amillər mövcuddur və onların təsirini azaltmaq üçün qabaqlayıcı təşkilati-hüquqi və stimullaşdırıcı tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Onlara aşağıdakıları aid etmək olar:

- xarici və birgə müəssislərin fəaliyyətinin tənzimlənməsi mexanizminə kompleks şəkildə baxılmalı və bu zaman sistemli yanaşma metoduna üstünlük verilməli, eləcə də mövcud normativ-hüquqi aktlar beynəlxalq təcrübəyə uyğunlaşdırılmalıdır;
- xarici və birgə müəssislərin səmərəli fəaliyyəti üçün əlverişli investisiya mühiti və etibarlı sığorta təminatı yaradılmalıdır;
- bu müəssislərin sahə strukturunda diversifikasiya meyli gücləndirilməli, MDB ölkələri ilə sənaye təyinatlı müəssislərin yaradılması və onların regionlarda yerləşdirilməsinə üstünlük verilməlidir və s.

## 14.5. Fərdi sahibkarlıq fəaliyyətinin təşkili və onun yaxşılaşdırılması yolları.

Sahibkarlıq fəaliyyəti ilə fiziki (yəni hüquqi şəxs yaratmadan) və yaxud hüquqi şəxs kimi məşğul olurlar. Fiziki şəxs statusunda adətən fərdi sahibkarlıq çıxış edir.

Fərdi sahibkarlıq - hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədi ilə yaradılan sahibkarlıq fəaliyyətinin bir növüdür. Bu növ fəaliyyət həmin şəxslərin mülkiyyətinə əsaslanaraq, risk və məsuliyyəti öz üzərinə götürməklə həyata keçirilir. Hazırda ölkədə yaradılan fermer təsərrüfatlarının mütləq əksəriyyəti fərdi sahibkarlıq statusuna malikdir.

AR DSK-nın rəsmi məlumatlarına görə, 01.01.2016-cı il vəziyyətinə ölkədə fərdi sahibkarların sayı 576,9 min nəfərdir. Sahibkarlıqla məşğul olanların 80,3%-ni kişilər, 19,7%-ni isə qadınlar təşkil edir. Qadınlar 36,3%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, hər biri 20,5% olmaqla kənd, meşə təsərrüfatı və balıqçılıq, eləcə də digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində fəaliyyət göstərirlər. Sahibkar qadınlar 38,3%-i Bakıda, 16,5%-i Aran, 15,3%-i Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

2016-cı il yanvarın 1-i vəziyyətinə torpaq payı almış ailələrin sayı 850 mini keçmişdir ki, bu da ölkədə torpaq payı alanların 98%-ni təşkil edir.

Ailə-kəndli təsərrüfatına mülkiyyətində olan istehsalat təyinatlı torpaq üzərində aşağıdakı hüquqlar verilir:

- torpaqda müstəqil təsərrüfatçılıq etmək;
- kənd təsərrüfatı bitkilərinin əkinləri və istehsal edilmiş məhsul üzərində mülkiyyət hüququ (qadağan edilmiş bitkilərin becərilməsi istisna olmaqla);
- torpaq sahəsində olan meşələrdən, geniş yayılmış faydalı qazıntılardan və su ehtiyatlarından öz təsərrüfat ehtiyacları



üçün istifadə etmək;
- torpağın təbii münbitliyinin bərpası və digər səbəblərlə əlaqədar dövlət torpaq orqanı tərəfindən əkin dövriyyəsindən müvəqqəti çıxarılan (dincə qoyulan) torpaq sahələrinə görə kompensasiya almaq;
- istehsal təyinatlı müvafiq yardımçı tikililər və qurğular ucaltmaq;
- torpağın geri alındığı və torpaq sahəsindən könüllü imtina edildiyi hallarda torpağın yaxşılaşdırılmasına çəkilən xərclərin, habelə əldən çıxan fayda da daxil olmaqla dəyən zərərin əvəzini almaq;
- qanunla müəyyən edilmiş qaydada yer quruluşu layihələrinə və təbiəti mühafizə tələblərinə uyğun olaraq meliorasiya işləri aparmaq, gölməçələr və digər sututarları yaratmaq;
- müəyyən edilmiş qaydada torpaq sahələrini dəyişmək, müvəqqəti istifadəyə və icarə vermək satmaq bağışlamaq girov qoymaq və vəsiyyət etmək.

Torpaq sahəsinə mülkiyyət hüququna malik olan şəxslər:

- torpaqdan təyinatı üzrə səmərəli istifadə etməli, onun münbitliyini artırmalı, özünün təsərrüfat fəaliyyəti nəticəsində ərazidə ekoloji şəraitin pisləşməsinə yol verməməli;
- torpaqlarda kompleks mühafizə tədbirlərini həyata keçirməli;
- torpaq vergisini vaxtında verməli;
- digər torpaq mülkiyyətçilərinin, sahiblərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarına pozmamalı, torpaq sahəsində olan mərz və geodeziya nişanlarını qoruyub saxlamalı;
- torpaqdan istifadəyə dair müəyyən edilmiş məlumatları vaxtında müvafiq təşkilatlara verməli;
- Azərbaycan Respublikasının Torpaq Məcəlləsində nəzərdə tutulmuş digər vəzifələrə əməl etməlidirlər.

Ailə-kəndli təsərrüfatının əmlakının əmələ gəlməsinin

başlıca pul mənbələri aşağıdakılardır:

- kəndli təsərrüfatı üzvlərinin təsərrüfata verdiyi pul və digər maddi vəsaitlər;

- məhsulun satışından, işlərin görülməsindən, xidmətlər göstərilməsindən, habelə əmək fəaliyyətinin başqa növlərindən əldə edilən gəlirlər;

- qiymətli kağızlardan gəlirlər, kreditlər;

- müəssisələrdən, idarələrdən, təşkilatlardan, vətəndaşlardan əvəzsiz olaraq daxil olan vəsaitlər və xeyriyyə yardımları;

- qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən daxil olan vəsaitlər.

Ailə-kəndli təsərrüfatının torpaq sahəsinə mülkiyyət hüququna xitam verilməsi aşağıdakı hallarda baş verə bilər:

- torpaq sahəsindən könüllü imtina edildikdə və ya torpaq mülkiyyətçisi onu özgəninkiləşdirdikdə;

- kəndli təsərrüfatının fəaliyyətinə xitam verildikdə;

- torpaqdan məqsədi təyinatına görə istifadə edilmədikdə;

- müəyyən edilmiş torpaq vergisi üzrlü səbəb olmadan ardıcıl olaraq iki il ödənilmədikdə;

- torpaq sahəsindən bir il ərzində üzrlü səbəb olmadan istifadə edilmədikdə;

- dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün torpaq sahələrinin geri alınması zəruri olduqda;

- tikinti və qurğu üzərində mülkiyyət hüququ başqasına keçdikdə;

- torpaq mülkiyyətçisi öldükdə;

- torpaq müsadirə edildikdə.

Adı çəkilən qanunun ayrı-ayrı maddələrinin təsir dairəsini gücləndirmək məqsədilə 2014-cü ilin aprelində ölkə prezidenti tərəfindən "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsilə bağlı tədbirlər haqqında" imzalanmışdır. Həmin fərmanda:



- rayonlar üzrə aqrar siyasətin həyata keçirilməsinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyi tədbirlərinin təşkili, aqrar sahə ilə bağlı problemlərin həllində müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması məqsədi ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin yaradılması;

- aqroparkların yaradılması və inkişafı;

- "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması;

- kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı sisteminin formalaşdırılması;

- aqrar elminin inkişaf konsepsiyasının işlənilməsi;

- kəndli fermer təsərrüfatının daha iri kənd təsərrüfatı müəssisələri formasından birləşdirilməsinin iqtisadi stimullaşdırılması və s.

Bütünlükdə sahibkarların fəaliyyətinin səmərəliliyini yüksəltmək üçün aşağıdakı diqqət yetirilməlidir:

- investisiya-innovasiya layihələrinin həyata keçirilməsi istiqamətində dövlət dəstəyinin təmin edilməsi;

- onların müasir texnologiyalar əsasında istehsalı təşkil olunan müəssisələrə, texnoparkların tərkibinə pay bölgüsü prinsipi üzrə cəlb edilməsi;

- məhsulların ixracına şərait yaradılması;

- informasiya-məsləhət xidmətinin imkanlarından istifadəyə rəvac verilməsi;

- ixtisaslarının artırılmasına köməklik göstərilməsi;

- istehsal edilən məhsulların yerli və beynəlxalq sərgilərdə nümayiş etdirilməsinə şərait yaradılması;

- "Ən yaxşı fərdi sahibkar" adının təsis olunması.

# MÖVZU 15. QEYRİ-NEFT SƏNAYESİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ PROQRAMLAR ƏSASINDA İNKİŞAF ETDİRİLMƏSİ

## 15.1. Dövlət tənzimlənməsinin mahiyyət və zəruriliyi.

Azərbaycanın bazar iqtisadiyyatı modelinə keçməsi ilə dövlətin iqtisadi proseslərə müdaxiləsi əhəmiyyətli dərəcədə artmışdır. Dərin iqtisadi, sosial və siyasi dəyişikliklər dövründə dövlətin iqtisadiyyatın tənzimlən-məsindəki rolu danılmazdır. Məhz bu zaman ölkə öz iqtisadiyyatını malik olduğu imkanlara uyğun inkişaf etdirir, xalqın həyat səviyyəsinin yüksəldilməsi istiqamətində uğurla nailiyyətlər qazanır və dünya birliyində layiqli yer tutur. Bazar və dövlət tənzimlənməsi iqtisadi sistemin daim dəyişən şəraitə uyğunlaşmasını təmin etmək məqsədilə iqtisadi promexanizmlərinin qarşılıqlı əlaqəsi əsasında daha mürəkkəb tənzimləmə mexanizmi formalaşır. Bu proses nəinki bazar iqtisadiyyatına keçməkdə olan ölkələr, həm də sabit bazar strukturları, möhkəm xüsusi mülkiyyət institutları və inkişaf etmiş dövlət tənzimləmə sistemi olan ölkələr üçün də səciyyəvidir. Kapitalizmin inkişafının ilk dövrlərində iqtisadi proseslərə dövlətin müdaxiləsinin güclü olduğunu etiraf edən müəlliflər bunun səbəbini iqtisadiyyatda sahibkarlığın dövlət tərəfindən müdafiə olunmasının zəruriliyi ilə əsaslandırırlar.

İqtisadiyyatın dövlət tənzimlənməsi - iqtisadi, siyasi və hüquqi tədbirlər sistemidir ki, bunların köməyilə dövlət sabit inkişafa nail olmaq, eləcə də iqtisadi sistemin daim dəyişən şəraitə uyğunlaşmasını təmin etmək məqsədilə iqtisadi proseslərə müdaxilə edir.

İqtisadiyyatın dövlət tənzimlənməsi zərurətdir və aşağıdakı amillərlə müəyyən olunur:

Birincisi, cəmiyyətdə elə sosial-iqtisadi problemlər yaranır ki, bazar mexanizmi ilə onların həlli mümkün olmur və



hətta bazarın özünün həll edə bilmədiyi problemlər meydana gəlir. Məsələn, işsizlik, gəlirlərin bölgüsündə qeyri-bərabərlik, inflyasiya, inhisarçılıq, böhranlar və s.

İkincisi, ölkələrarası xarici iqtisadi əlaqələrin yaranması, genişlənməsi, dərinləşməsi və yeni-yeni normaların meydana gəlməsi dövlətlərin bu proseslərdə yaxından iştirakını və tənzimlənməsini tələb edir.

Üçüncüsü, elm və texnika və texnologiya sahəsində əldə olunmuş nailiyyətlərin istehsala tətbiq edilməsi nəticəsində istehsalın miqyası artmış, coğrafiyası genişlənmiş, onun yeni-yeni sahələri meydana gəlmişdir ki, nəticədə idarəetmə prosesləri mürəkkəbləşmişdir. Bütün bu proseslər uzunmüddətli proqramların hazırlanması, maliyyələşdirilməsi, həyata keçirilməsi ilə mümkün olur və bu da dövlətin iştirakını zəruri edir.

Dördüncüsü, iqtisadiyyatda insan amilinin rolunun artması ilə əlaqədar meydana çıxan sosial problemlərin həlli məqsədilə sosial təyinatla yanaşı istehsal və xidmət sahələrinin genişlənməsi, sosial proqramların hazırlanıb həyata keçirilməsi və nəticədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi bazar mexanizmi vasitəsilə deyil, dövlətin fəaliyyəti sahəsində mümkün olur.

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi-dəyişən şərtlərə (şəraitə) mövcud sosial-iqtisadi sistemin uyğunlaşması və sabitləşməsi məqsədilə səlahiyyətli dövlət orqanları və ictimai təşkilatlar tərəfindən həyata keçilən qanunverici, icra və nəzarət xarakterli tipik tədbirlər sistemidir.

Dövlət iqtisadiyyatda baş verən bütün çətinlikləri, ziddiyyətləri həll etmək əzmində olmalıdır.

Müasir dünya iqtisadi ədəbiyyatında dövlətin iqtisadi funksiyalarına geniş diqqət yetirilir. Belə ki, iqtisadiyyat üzrə populyar amerikalı dərsliklərindən birində hökumətin ən mühüm vəzifələri kimi aşağıdakılar göstərilir: 1) bazar sisteminin səmərəli fəaliyyət göstərməsinə səbəb olan hüquqi bazanın və

ictimai ab-havanın təmin edilməsi; 2) rəqabətin qorunması; 3) gəlirlərin və sərvətin yenidən bölgüsü; 4) milli məhsulun strukturunu dəyişmək məqsədilə resursların bölgüsündə düzəlişlərin edilməsi; 5) iqtisadiyyatın məşğulluq və inflyasiya səviyyəsi üzərində nəzarət, eləcə də iqtisadi artımın təmin edilməsi.

Dövlətin gücü onun iqtisadiyyatında və bu iqtisadiyyatı necə idarə edilməsindədir. Mütəxəssislər iqtisadiyyat sferasında dövlətin aşağıdakı fəaliyyət istiqamətlərini fərqləndirirlər: 1) infrastrukturun və iqtisadi fəaliyyət mühitinin yaradılması; 2) iqtisadi fəaliyyətin əsas norma və qaydalarını təmin edən instusional infrastrukturun formalaşdırılması; 3) əlverişli sosial mühitin yaradılması; 4) iqtisadi inkişafın prioritet istiqamətlərini müəyyən etməyə qadir iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi; 5) özünün xüsusi iqtisadi fəaliyyətinin həyata keçirilməsi; 6) dövlət sifarişlərinin müəyyən edilməsi və dövlət satın almalarının həyata keçirilməsi. Onlar həm iqtisadiyyatda, həm də vətəndaş cəmiyyətində dövlətin iki əsas funksiyasını xüsusi qeyd edir: büdcə-vergi, regional siyasət və siyasətin digər növləri vasitəsilə iqtisadi və sosial fəaliyyətin subyektlərinin (istehsalçıların və istehlakçıların, şəhər və kənd əhalisinin, iş verənlərin və muzdlu işçilərin və s.) maraqlarının balansının təmin edilməsi; 2) adları çəkilən sferaların və onların təşkil edən ünsürlərin səmərəli fəaliyyət göstərməsinin və inkişaf etməsinin ümumi şərtlərinin müəyyən edilməsi.

Sosial-iqtisadi inkişafın müasir mərhələsinin başlıca xüsusiyyəti "sosial dövlət" siyasətindən səmərəli dövlət siyasətinə keçilməsidir. "Səmərəli dövlət" siyasəti öz ifadəsini aşağıdakı iki əsas müddəada tapmışdır.

Birincisi dövlət, dövlət büdcəsinin kəsirli olmasına səbəb olan yersiz xərcləri azaltmaq məqsədilə yerinə yetirdiyi vəzifələrin dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı;

İkincisi, pensiya təminatı, tibbi sığortalama, işsizliyə görə



müavinətlər və digər sosial ödənişlər yalnız dövlət büdcəsi hesabına ödənilməməlidir. Bu xərclər bütün subyektlər arasında bərabər bölünməlidir.

Beləliklə, dövlət iqtisadi artımı təmin etməklə kifayətlənməməli, həm də bazar iqtisadiyyatının tərəfdaşı, köməkçisi olmalıdır.

### 15.2. Dövlət tənzimlənməsinin obyektləri, subyektləri və prinsipləri.

İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektləri aşağıdakılardır: 1) iqtisadi-təşkil; 2) təsərrüfat sektoru (bölməsi), sahə, regional təsərrüfatı; 3) kapital yığımının şərtləri; 4) məşğulluq; 5) pul tədavülü; 6) tədiyyə balansı; 7) qiymətlər; 8) elmi-tədqiqat təcrübə konstruktor işləri; 9) rəqabət şərtləri; 10) sosial münasibətlər; 11) kadrların hazırlığı və yenidən hazırlığı; 12) ətraf mühit; 13) xarici iqtisadi əlaqələr. Dövlət tənzimlənməsi zaman göstərilən obyektlərdə bu və ya digər problem əmələ gələrkən bazar mexanizmi onları avtomatik həll etməlidir. Yəni, bu obyektlərdə iqtisadiyyatın normal fəaliyyətinə zəruri şərait yaratmaq üçün dövlətin müdaxiləsinə ehtiyac duyulur.

Makroiqtisadi proseslərə dövlət təsirinin səmərəliliyi perspektiv və cari məqsədlərin bacarıqla əlaqələndirilməsindən asılıdır. Perspektiv vəzifələrə iqtisadiyyatın sosial-bazar variantının formalaşması aiddir. Eyni zamanda konkret proqramlarda və planlarda cari vəzifələr (büdcə kəsiri, dövlət büdcəsi və s. problemlərin həli edilməsi) əks olunur.

İqtisadiyyatın dövlət tənzimlənməsinin subyektlərinə təsərrüfat maraqlarının icraçıları-ierarxiya prinsipi üzrə qurulmuş hakimiyyətin üç qolu: qanunverici hakimiyyət, icra hakimiyyəti və məhkəmə hakimiyyəti daxildir.

Azərbaycan Respublikasında hakimiyyətin bölünməsi – prinsipi aşağıdakı formada təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Klassik mənada hakimiyyətlər bölgüsü hər kəsin əməl etməsi məcburi olan ümumi qaydaları qoyan parlamenti, bu qaydaları icra edən icra hakimiyyəti orqanını və bu qaydaların tətbiqindən yaranan mübahisələrin həlli üçün məhkəmə orqanını və bir-birindən ayrılmasını nəzərdə tutur.

Daha geniş mənada iqtisadiyyatın dövlət tənzimlənməsinin prinsiplərinə-proqnozlaşdırma, maliyyələşdirmə, büdcə təminatı, vergiqoyma, kreditləşdirmə, uçot nəzarət inzibatçılıq daxildir və bunlar müvafiq reallaşma mexanizmlərini özündə əks etdirir.

### 15.3. Qeyri-neft sənaye sahələrində tənzimlənmənin iqtisadi-inzibati metodları və funksiyaları.

Tənzimlənmə metodlarını izah etməzdən əvvəl metodologiya, metod və metodika anlayışlarını bir-birindən fərqləndirmək lazımdır.

Metodologiya - ictimai təkrar istehsalın dəyişilməsi və dərk olunması metodlarının məcmusundan ibarətdir.

Metod - metodologiyanın tərkib hissəsi olub, iqtisadi inkişaf planlarının işlənib hazırlanması üsullarından biridir.

Metodika - iqtisadi inkişaf planlarının işlənib hazırlanmasında istifadə olunan fərdi qayda və üsulları, fəndləri əhatə edir.

İqtisadi sahədə qarşıya qoyulan məqsədlərə ən optimal səviyyədə nail olmaq üçün müvafiq sahədə baş verən münasibətlərin tənzimlənməsində metodların düzgün müəyyən olunması və bu münasibətlərə tətbiq olunması böyük əhəmiyyətə



malikdir.

Dövlət iqtisadiyyatı tənzimləmək üçün ilk növbədə, dəqiq informasiyaya malik olmalı, onu elmi əsaslandırılmış şəkildə təhlil etməli, şəraitlə bağlı düzgün nəzəri nəticəyə gəldikdən sonra onun hansı metodlarla tənzimlənməsi barədə qərar verməlidir.

İqtisadiyyatın dövlət tənzimlənməsi metodlarını 2 əsas əlamətinə görə təsnifləşdirirlər:

1. Təsir xarakterinə görə. Bu əlamətinə görə metodlar: a) İqtisadi; b) İnzibati təsir metodlarına bölünür.

a) İqtisadi təsir metodları. Bu metodlar müxtəlif iqtisadi subyektlərin motiv və maraqlarını nəzərə almağa, onlar arasında şərtləri müəyyən etməyə, iqtisadi fəaliyyəti seçməyə və s. imkan verir. Bu metodların köməyilə: dövlət maliyyələşdirilməsi və kreditləşdirilməsi, güzəştli vergitətbiqetmə və s. həyata keçirilir.

b) İnzibati təsir metodları. Bu metodlar hakimiyyət gücünə əsaslanır və aşağıdakıları nəzərdə tutur:

- qanunvericilik məhdudiyyətləri (ixracın lisenziyalaşdırılması və ixrac kvotalarının tətbiq edilməsi, qiymətlərin dondurulması, sahibkarlıq fəaliyyətinin müəyyən növlərinə lisenziyaların verilməsinin tətbiq edilməsi və s.).

- sahibkarlıq fəaliyyətinin əldə edilməsi üçün birmənalı olaraq müəyyən parametrlərin ödənilməsində iqtisadi subyektlərə məcburi tələblərin müəyyən edilməsi (nizamnamə kapitalının minimum həcmi, işçilərinə minimum əmək haqqı və s).

- təşkiletmə qaydası, onun tətbiqi və biznesin likvidliyi (sahibkarların dövlət qeydiyyatının qaydaları, onlarla müqavilələrin bağlanması, onlardan vergilərin alınması ölçüsü və müddəti və s.)

2. Tətbiqetmə üsuluna görə. Bu əlamətə görə metodlar iki qrupda birləşirlər:

a) Birbaşa təsir metodları;

b) Dolayı təsir metodları.

Birbaşa təsir metodları. Bu metodlar *iqtisadiyyatın elə* tənzimlənməsilə şərtlənir ki, burada dövlət təşəbbüskar qaydada müəyyən edilmiş fəaliyyətləri ona məxsus olan obyekt və resurslardan istifadə edərək həyata keçirir. Məs. 1) Dövlət dövlət müəssisələrinin fəaliyyətinin profilini və istiqamətini müəyyən edir, onların planını təsdiq edir, maliyyə əməliyyatları üzərində nəzarəti həyata keçirir, onların məhsullarına qiymətləri təyin edir; 2)İnhisar birliklərinin inzibati bölgüsünü aparır; 3) Müəssisələri bütövlükdə və ya səhm paketini əldə etmək; 4) Dövlət elmi-tədqiqat mərkəzlərində elmi-tədqiqat və təcrübi konstruktiv işləri həyata keçirir və s. Bu cür təsir vasitəsilə büdcənin icrası planlaşdırılır və təmin edilir.

Birbaşa təsir vasitələrilə dövlətin sosial təminat sistemi işlənib-hazırlanır və təşkil olunur. Sosial təminat proqramlar çərçivəsində - sosial sığorta, sosial yardım kimi həyata keçirilir.

Birbaşa tənzimləmə, həmçinin, vergi (vergilərin tərkibinin və onların ödənilməsi müddətinin müəyyənləşdirilməsi), pul-kredit (pul təklifinin həcminin və dinamikasının tənzimlənməsi), qiymət (qiymətlərin dondurulması, ayrı-ayrı əmtəələr üçün qiymətlərin müəyyənləşdirilmiş səviyyəsinin təyin edilməsi), dövlətin xarici iqtisadi siyasəti (tarif və kvota sistemlərinin müəyyən edilməsi) vasitəsilə həyata keçirilir.

Dolayı təsir metodları. Bu metodlar hər şeydən əvvəl dövlətin vergi, pul-kredit, büdcə, qiymət, xarici iqtisadi siyasətilə həyata keçirilir. Vergi siyasətinin instrumentarisi (bu sahədə işlənən alətlər komplekti) bu halda özünə investisiyaya olan vergi güzəştlərini, əsas kapitalın sürətləndirilmiş amortizasiyasını, xüsusi vergi güzəştlərini daxil edir.

Qeyri-neft sənaye sektorunun tənzimləməsi funksiyalarına aşağıdakılar aid edilir:

- dövlət mülkiyyətində fəaliyyət göstərən müəssisələrin səmərəli idarə edilməsi;



- müəssisələrdə sağlam maliyyə-iqtisadi siyasətin həyata keçirilməsi;
- investisiya siyasətinin formalaşması və uğurla icrası;
- sənaye sahələri üzrə innovasiya siyasətinin formalaşması və icrası.

Tənzimləmə metodlarının və funksiyalarının icrası kontekstində qeyri-neft sənayesində dövlət tənzimlənməsinə makro-iqtisadi, regional və müəssisələrin maraqları baxımından yanaşmaq lazımdır. Bununla əlaqədar tənzimlənmənin aşağıdakı istiqamətlərinə xüsusi diqqət yetirilməlidir:

- iqtisadiyyatın və istehsalın diversifikası;
- neftdən asılılıq səviyyəsinin azaldılması;
- alternativ ixrac strukturunun formalaşdırılması;
- yoxsulluğun səviyyəsinin azaldılması;
- ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi;
- sahənin və məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi;
- regionların sosial-iqtisadi inkişafı;
- elmi-texniki tərəqqinin nailiyyətlərinin sahələrin müəssisələrində geniş tətbiq edilməsi;
- məhsul innovasiyasının genişləndirilməsi və stimullaşdırılması;
- *sahələrin investisiya təminatının yaxşılaşdırılması;*
- vergiqoyma sisteminin təkmilləşdirilməsi və vergi güzəştlərinin tətbiqi;
- ekoloji tarazlığın təmin edilməsi;
- sahibkarlığın inkişafı və onlarında gəlirlərinin artırılması;
- qeyri-neft sənaye sferalarında müştərək fəaliyyətin intensivləşdirilməsi;
- regionlarda emal sənayesi sahələrinin modernləşdirilməsi və yeni aqrar-sənaye komplekslərinin, texnoparkların, holdinqlərin və digər mütərəqqi menecment formalarının tətbiqi;
- sosial infrastrukturların yaradılması;

- müasir, iri fermer təsərrüfatlarının istehsal və emal komplekslərinin, tədarük mərkəzlərinin servis xidmətlərinin təşkili;

- qeyri-neft sənaye sahələrində, onların idarə edən və idarə olunan sistemlərində İKT-nin geniş tətbiqi və sahələr üzrə Vahid İnformasiya Mərkəzlərinin yaradılması.

### 15.4. Qeyri-neft sənayesinin dövlət proqramları əsasında inkişaf etdirilməsi.

Ölkə iqtisadiyyatının dayanıqlığının və davamlılığının təmin olunması üçün onda əhəmiyyətli kəmiyyət dəyisikliklərinin aparılması zəruridir.

Müasir mərhələdə milli sənayenin inkişafının sürətləndirilməsi onun rəqabətqabiliyyətinin yüksəldilməsindən asılıdır.

Sənaye siyasəti istənilən dövlətdə müəyyən tarixi mərhələdə qaçılmaz olub, iqtisadiyyatın modernləşdirilməsi və sənayesinin yenidən qurulması üçün dövlətin köməyini və müdaxiləsini tələb edir.

Dünya ölkələrinin təcrübəsində fərqli sənaye siyasətləri həyata keçirilmiş və onun aşağıdakı üç modeli formalaşmışdır: idxalı əvəzləmə, innovasiya və ixracyönümlü sənaye siyasəti modeli.

Hazırda Azərbaycanda innovasiyayönümlü iqtisadiyyat şəraitində ixracyönümlü sənaye siyasəti modelinə üstünlük verilir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında isə qeyd edilir ki, "Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf sürətini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. Bu konsepsiyada nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır". "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında məqsədyönlü şəkildə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir. Bu konsepsiyaya əsasən neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi əsas prioritet istiqamətlər olaraq müəyyən edilmişdir.

Hökumətin sənaye siyasəti və qeyri-neft sektorunun inkişaf prioritetləri müxtəlif dövlət proqramlarında, öz əksini tapmışdır:

"Kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər üzrə)". "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya (2005-2025-ci illər üzrə)". "Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008-2015-ci illər üzrə)". "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008-2015-ci illər üzrə)". "Turizmin inkişafına dair Dövlət Proqramı (2010 - 2014-cü illər üzrə)" və s.

Regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramının məntiqi davamı kimi 2009-2013-cü illəri əhatə edən II Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, ta-

razlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Regional inkişaf üzrə hər iki dövlət proqramlarının icrası dövründə bütün iqtisadi rayonları daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır.

Ümumilikdə, ötən 10 il ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olmuş, ÜDM 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9% təşkil etmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusi ilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Qeyri-neft sənayesinin intensiv inkişafı problemləri və onların həlli yolları Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında öz əksini tapmışdır. Proqramda müəyyən edilmiş əsas məqsədlər aşağıdakılardan ibarətdir:

- sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi;
- qeyri-neft sənayesinin ixrac potensialının artırılması;
- enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi;
- elmtutumlu və innovativ istehsalın genişləndirilməsi;
- yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması.






***Sxem 15.4.1. Azərbaycanda sənayenin inkişafının əsas istiqamətləri.***

Qeyri-neft sənayesi sahələrinin inkişaf səviyyəsi, müasir problemləri və potensial inkişaf imkanlarını özündə əks etdirən ayrıca proqram dövlət tərəfindən qəbul edilməsi vaxtı çatmışdır.

Azərbaycan Respublikasında innovasiyalı inkişafa əsaslanan, rəqabətqabiliyyətli qeyri-neft sənayesinin yaradılması aşağıdakı istiqamətliliyi özündə ehtiva edəcəkdir:

- qeyri-neft sənaye sahələrinin strukturunun və texnoloji

bazasının təkmilləşdirilməsi;

- qeyri-neft sənaye sahəsində texnoloji tərəqqiyə, yeni nəsil avadanlıq istehsalına yönəlmiş istiqamətliyin inkişafı;

- yeni elmtutumlu, resursaqənaətedici və bioməhsulların, nana-texnologiyaların istehsalının təşkili;

- qeyri-neft sənaye sahələrinin təkmil infrastruktur sisteminin yaradılması;

- qeyri-neft sənaye sahələrinin inkişafında innovasiyayönümlü istiqamətin aparıcılığının təmin edilməsilə, intellektual qabiliyyətli və yüksək ixtisaslı kadr heyətinin hazırlanması;

- qeyri-neft sənaye sahələrinə investisiya qoyuluşlarını stimullaşdırmaqla, yerli xammal və resurslarından rəqabətqabiliyyətli məhsul istehsalına nail olunması;

- səmərəliliyin, məhsuldarlığın və rəqabətqabiliyyətinin artırılmasına əsaslanaraq sahə strukturunun, istehsal prosesinin restrukturizasiyasının həyata keçirilməsi;

- qeyri-neft sənaye sahələri ilə digər sahələr arasında səmərəli təsərrüfat münasibətlərinin yaradılmasının sürətləndirilməsi;

- intensiv regional və texnoloji inteqrasiyanın qurulması;

- qeyri-neft sahələrinin fəaliyyətinin yeni bazarlara yönəldilməsi;

- qeyri-neft sahələrində ixracayönümlü məhsulların istehsalına nail olunması;

- qeyri-neft sənayesinin regional inkişafına nail olması;

- qeyri-neft sənayesində ənənəvi sahələrin inkişafının təmin edilməsi;

- bu sahələrdə rəqabət mühitinin genişləndirilməsi;

- istehsal prosesində, məhsul istehsalında beynəlxalq standartların tətbiq edilməsi.



## 15.5. Qeyri-neft sənayesinin proqramlar əsasında inkişafının sosial-iqtisadi nəticələri.

Dünya bazarında neftin qiymətinin sürətlə ucuzlaşması və maliyyə böhranının dərinləşməsinə baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik qorunmuş, işlənilmiş sahə, regional və sosial proqramlar uğurla icra edilmişdir. Azərbaycanın davamlı inkişafının təmin olunmasında həyata keçirilən sosial-iqtisadi siyasət və bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynamış, son beş ildə iqtisadiyyatın artımı əsasən qeyri-neft sektorunun hesabına təmin olunmuş, ÜDM-in bu sektorunun xüsusi çəkisi 70%-ə çatmışdır. Bütünlükdə son 12 ildə qeyri-neft sektorunda 2,5 dəfədən çox artım qeydə alınmışdır. Həyata keçirilən inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli kreditlərin ayrılmasına kənd təsərrüfatına, subsidiyaların yönəldilməsinə, ölkə ərazisində nəqliyyat kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollar həcmində vəsait xərclənmişdir. Bu da əsas makroiqtisadi göstəricilərin dayanıqlığına və yüksək artım sürətinə təminat yaratmışdır, çoxlusaylı infrastruktur layihələri icra edilmişdir.

Azərbaycan infrastruktur layihələr arasında içməli su layihələri prioritet xarakter daşımışdır. Belə ki, 2010-cu ildə Oğuz-Qəbələ-Bakı magistral su kəmərinin istifadəyə verilməsi ilə Bakı magistral su kəmərinin istifadəyə verilməsi ilə Bakı şəhərinin su ilə təminatı 80%-ə çatmışdır. Ölkənin bölgələrində çoxsaylı su təmizləyici qurğuların quraşdırılması, artezan quyularının qazılması əhalinin su təchizatını əsaslı şəkildə yaxşılaşdırmışdır. Müasir turizm obyektlərinin tikilib istifadəyə verilməsi turizmin inkişafına öz töhvəsini verməkdədir. Əhalinin elektrik enerjisinə olan tələbatını təmin etmək istiqamətində son 10 ildə regionlarda 17 elektrik stansiyası, 1500-dən çox yarımstansiya tikilmiş və ya yenidən qurulmuş, 10 min km çox təbii qaza olan tələbatını ödəmək üçün yaşayış evlərinin qazlaş-

ma səviyyəsi 90%-ə çatdırılmışdır. Həmin dövrdə təhsil infrastrukturunun inkişafı sahəsində 2700-dən çox məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur. Hazırda Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir.

Azərbaycan öz təbii resurslarından məqsədli şəkildə istifadə edərək iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilmişdir. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası davam edir. Məhz bu tendensiyanın nəticəsidir ki, son on iki ildə ölkəmizdə 1 milyon 480 min iş yeri yaradılmışdır ki, bunun da böyük əksəriyyəti qeyri-neft sektorunun payına düşür. Yeni yaradılan iş yerlərinin 74,3%-i daimidir. Onların 15,4%-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 24,7%-i mövcud müəssisələrdə, 2,1%-i fəaliyyəti bərpa edilmiş müəssisələrdə, 57,8%-i fərdi sahibkarlıq subyektlərində təşkil edilmişdir. Bundan başqa müxtəlif beynəlxalq və yerli layihələrin icrası abadlıq işlərinin aparılması üçün əlavə olaraq 378,4 min yeni iş yeri açılmışdır. Bütün iş yerlərinin 8,6%-i 2014-cü ildə, 7,8%-i isə 2015-ci ildə yaradılmışdır.

Dövlət Proqramlarının uğurla icrası nəticəsində ölkənin regionlarında qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün güclü potensial yaradılır. Hazırda Azərbaycanda kənd təsərrüfatı, turizm informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Beynəlxalq maliyyə institutları Azərbaycanda kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Hazırda ölkənin məşğul əhalisinin 36%-ə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən Azərbaycanda kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramlarının icrası, bir sıra islahatların və yeni texnologiyaların cəlb edilməsi sürətlənir.



*Cədvəl 15.5.1.*

**Azərbaycanda yeni açılmış iş yerlərinin sayı *)**

| | Cəmi | O cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | 2003 (IV rüb-2008) | 2009-2013 | 2014 | 2015 |
| Yeni iş yerlərinin sayı, cəmi | 1480420 | 766277 | 470959 | 127315 | 115869 |
| Ondan daimi iş yerləri | 1102055 | 547573 | 358243 | 105120 | 91119 |
| O cümlədən: Yeni yaradılmış müəssisə və təşkilatlarda | 169727 | 106626 | 39632 | 13214 | 10255 |
| Mövcud müəssisə və təşkilatlarda | 272736 | 193091 | 59029 | 10933 | 9503 |
| Fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | 22708 | 18899 | 2557 | 695 | 557 |
| Fərdi sahibkarlıq subyektlərində | 636884 | 228957 | 256845 | 80278 | 70804 |
| Digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | 378365 | 218704 | 112716 | 22195 | 24750 |

**) Azərbaycanın statistik göstəriciləri, Bakı, "DSK", s.682*

Təsadüfi deyil ki, üçüncü regional inkişaf proqramının icrasının ilk ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyev demişdir. "...Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir."

Azərbaycanda kənd təsərrüfatının potensialı olduqca yüksəkdir və bu imkanlardan istifadə edilməsi istiqamətində dövlət tərəfindən təsirli tədbirlər görülür.

Azərbaycanda qeyri-neft sektorunun prioritet sahələrindən biri də turizmdir. Adı çəkilən sahə gəlir gətirmək baxımından olduqca cəlbedicidir. Ölkənin turizm imkanlarından tam istifadə ümumi daxili məhsulda qeyri-neft sektorunun payının artmasına gətirib çıxaracaq.

Azərbaycanda qeyri-neft sənaye sektorunun inkişafı özəl bölmənin fəaliyyətindən çox asılıdır. Odur ki, son illər ölkədə yaradılmış əlverişli biznes mühiti, özəl sektora dövlət dəstəkliyinin durmadan artması sahibkarlığın sürətli inkişafına səbəb olmuşdur.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" (2014) ölkədə sənaye sahələrinin inkişaf etdirilməsi məqsədi ilə üçün güclü potensial yaradır.

Azərbaycanda mövcud ehtiyatlardan səmərəli istifadə edilməsi və iqtisadiyyatın şaxələnməsinin dövlət proqramlarının icrası hesabına qeyri-neft sektorunun strukturu daha da təkmilləşdirilir, məşğulluq səviyyəsi artır və sahələrin tarazlı inkişafı təmin edilir.



## İstifadə edilmiş ədəbiyyat

### a) Normativ-hüquqi aktlar, Ölkə Prezidentinin fərman və sərəncamları, Dövlət Proqramları.

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
2. "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 1992.
3. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" AR-in qanunu, BB №32. Bakı, 1999, 12 s.
4. "Sahibkarlıq fəaliyyəti haqqında" AR-in qanunu BB №23 Bakı, 1994, 16 s.
5. "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının (AR) qanunu. Biznesmenin Bülleteni (BB) №47, Bakı, 1996, 18 s.
6. "Energetika haqqında" AR-in qanunu. BB №8, Bakı, 1999, 17 s.
7. "Turizm haqqında" AR-in qanunu. Bakı, "Azərbaycan qəzeti", 5 iyun 1999-cu il,10 s.
8. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, "Respublika" qəzeti, 17 aprel 2014-cü il.
9. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı. (2002-2005-ci illər) Bakı, "Xalq" qəzeti, 18 avqust 2002-ci il.
10. Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiyaları üzrə Milli Strategiya (2003-2013-cü illər) Bakı, "Xalq" qəzeti, 18 fevral 2003-cü il.
11. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, "Xalq"qəzeti, 30 dekabr 2012-ci il.
12. "Azərbaycan Respublikasında sənayenin inkişafına

dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Bakı, "Respublika" qəzeti, 27 dekabr 2014-cü il.
13. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya". Bakı, "Xalq" qəzeti, 03 aprel, 2014-cü il.
14. "Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Bakı, "Xalq" qəzeti, 01 mart 2014-cü il.
15. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı". Bakı, "Respublika" qəzeti 15 fevral 2005-ci il.
16. Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunması üzrə Dövlət Proqramı" Bakı, "Respublika" qəzeti, 22 oktyabr 2004-cü il.
17. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş. "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" (2008-2015-ci illər üzrə) Bakı, "Xalq" qəzeti, 26 avqust 2008-ci il.
18. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 06 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Bakı, "Xalq" qəzeti, 07 aprel 2010-cu il.

**b) Statistik məcmuələr, bülletenlər, hesabatlar.**

19. Azərbaycanın statistik Göstəricilər. Bakı,"DSK", 2015, 814 s; 2016-824 s.
20. Azərbaycan sənayesi. Bakı, "DSK", 2016, 344 s.
21. Azərbaycanda tikinti. Bakı, "DSK", 2016, 388 s.
22. Sosial iqtisadi inkişaf Aylıq Statistik məcmuə. Bakı, "DSK", 2015, 303 s.
23. Azərbaycanın xarici ticarəti. Bakı, 2016, "DSK", 2015, 258 s. 2016-232 s.



24. Azərbaycanın regionları. Bakı, "DSK", 2015, 834 s.
25. ARDSK-nın xüsusi buraxılışı."Yeni tərəqqi" illəri 2003-2011-ci illər. Bakı, 2011, 254 s.
26. Azərbaycanın nəqliyyatı. Bakı, "DSK", 2016, 138 s.
27. Böyük İqtisadi Esiklopediya, V cild. Bakı, "Şərq-Qərb", 2012, 632 s.
28. Müstəqil Azərbaycan-20 l il. ARDSK-nın xüsusi buraxılışı. Bakı, "DSK", 2011, 640 s.
29. Azərbaycan ASC-nin 2010-2015-ci illər üzrə hesabatları.

**c) Azərbaycan və rus dillərində ədəbiyyat.**

30. Allahverdiyev H, Qafarov K, Əhmədov Ə. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, ADİU, 2017, 215 s.
31. Alıyev İ.H, Məmmədov Y.Ə. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının tətbiqi Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramı Bakı, "Avropa", 2014, 134 s.
32. Abdullayev Ş. Güzəştli kreditlərdən bəhrələnmək üçün onunla işləməyi bacarmaq lazımdır. II Biznes həyatı №12. Bakı, 2015, s.27-34.
33. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı, "CBS", 2004, 632 s.
34. Gülməmmədov V.M. Azərbaycanda kiçik və orta sahibkarlığın tənzimlənməsində vergitutma amilləri. II Azərbaycanın Vergi jurnalı №3. Bakı, 2014, s.161-172.
35. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, "Azərnəşr", 2009, 600 s.
36. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016, 655 s.
37. Səmədzadə Ş.Ə., Musayev V.R, Seyfullayev İ.Z. Sahibkarlığın əsasları. Bakı, "Çaşıoğlu", 2000, 371 s.
38. Sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatı. Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi layihəsi (http://www.ifc.orq./wps/wcm/commect/.../reg_az.pdf.)

39. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, İqtisadi Universiteti, 2011, 542 s.

40. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı, "İqtisadi Univ-ti", 2010, 529 s.

41. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin komseptual əsasları. Bakı, "AVROPA", 2013, 422 s.

42. Əliyev R.M, Məmmədov M.A, Novruzov N.A. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 2003, 432 s.

43. Əliyev T.N., İsayev R.Ə. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üzrə beynəlxalq təcrübə. //AMEA-nın Xəbərləri. Elm və İnnovasiya seriyası №3. Bakı, "Elm", 2010, s.15-21.

44. Əliyev T.N. Azərbaycanın qeyri-neft sənaye sektorunda innovasiya prosesinin investisiya təminatı. "İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər" mövzusunda BEPK-nın materialları. Sumqayıt, "DSK", 2016, s. 40-43.

45. Əliyev T.N, Həsənov Ə.H, Əsədov X.Ə. İnnovasiya sahibkarlığının əsas xüsusiyyətləri və təşkilinin səmərəliliyi. //AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası №2. Bakı, "Elm", 2012, s. 5-12.

46. Zöhrab İsmayıl, Azər Mehtiyev, Kənan Aslanlı, Rövşən Ağayev. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi, Azad İqtisadiyyata Yardım İctimai Birliyinin hesabatı.

47. Алиев Т.Н Инновационное развитие промышленности Азербайджана: нефтепереработка, химия и нефтехимия. Москва – Берлин, 2016, 232 с.

48. Наумов А.Ф., Захарова А.А. Инновационная деятельность предприятия. М, ИНФРА – М, 2015, 256 с.

49. Шамхалов Ф.И. Государство экономика (власть и бизнес) М, ЮНИТИ, 1999, 320 с.



**d)İnternet mənbələri.**

50. http://az.wikipedia.org/.../sahibkarığa_kömək_milli_fondu.
51. http://www.prezident.az/articles/11312/print
52. http://www.prezident.az/articles/13900/print
53. http://www.azerbaijans.com/content_725_az.html
54. http://www.xalqqazeti.com/az/news/economy/60094
55. http://az.wikipedia.org/wiki/N%C9%99qliyyat
56. http://ru-ru.facebook.com/niim.gov.az/
57. http://azərtac.az/xeber/Naxchivan Avtomobil
58. http://www.anl.az/down/meqale/xalqqazeti/2015/avqust/
59. http://www.ictnews.az/read-13343-new-1.html
60. http://kayzen.az/blog/azerbaycan/7453/az%C9%rbaycan-rabitə
61. http://olaylar.az/news/sosial/116749
62. http://az.wikipedia.org/wiki/kənd_təsərrüfatı
63. http://apa.aztag/BMT
64. http://www.azerbaijans.com/content_718_az.html
65. http://www.aqro.gov.az/98-2005-2014-cü illər
66. http://metbuat.az/news/494281/agrolizing-fermerlera
67. http://kayzen.az/blog/azerbaycan/7453/az%C9%99rbaycan-rabitə%C9%99sinin-inki%C5%
68. http://qhtxeber.az.news/a-20303.htlm
69. http://www.asan.az
70. http://www.azerbaijan.news.az/index.
71. http://www.azerbaijans.com/content_733_az html
72. http://www.minenergy.gov.az/db/elektrik_və_istilik_stansiyaları_haqqında
73. http://report.az/ikt/bakida_beynelxalq_elektrotexnika_komitesinin_seminari_kecirilir/
74. http://www.bizimyol.info/news/61753.html
75. http://www.economy.gov.az/index.php
76. http://www.ekspress.az/KIDF_express/12370_ki...
77. http://www.anl.az/down/meqale/azerbaycan/2012/aprel
78. http://www.xalqqazeti.com/az/news/economy/6085/

## MÜNDƏRİCAT


**GİRİŞ** ... 3

**Mövzu 1. Kursun obyekti, predmeti, məqsədi vəzifələri və metodları** ... 6

1.1. Kursun məzmunu, məqsədi və vəzifələri ... 6
1.2. Kursun öyrənilməsinin zəruriliyi ... 8
1.3. Kursun obyekti, predmeti və subyektləri ... 10
1.4. Kursun tədqiqat metodları ... 12
1.5. "Qeyri-neft sənayesinin iqtisadiyyatı" kursunun digər fənlərlə əlaqəsi ... 14

**Mövzu 2. Qeyri-neft sənayesinin xarakterik xüsusiyyətləri, strukturu və əlaqələri** ... 15

2.1. Sənaye iqtisadiyyatının xarakterik xüsusiyyətləri ... 15
2.2. Qeyri-neft sənaye sahələrinin sosial - iqtisadi əlamətləri ... 18
2.3. Sahənin texniki-texnoloji əlamətləri ... 21
2.4. Sahənin strukturunun ünsürlər üzrə qruplaşdırılması ... 27
2.5. Sahənin restrukturlaşması ... 31

**Mövzu 3. Qeyri-neft sənayesinin formalaşmasının əsas prinsipləri və inkişaf strategiyası** ... 39

3.1. Qeyri-neft sənaye iqtisadiyyatı milli iqtisadiyyatın tərkib hissəsi kimi ... 39
3.2. Qeyri-neft sənayesinin davamlı inkişafına təsir göstərən amillər ... 43
3.3. İnnovasiyalı inkişafa əsaslanan qeyri-neft sənayesinin yaradılması ... 45
3.4. Sənaye siyasəti və qeyri-neft sektorunun inkişaf prioritetləri ... 47

**Mövzu 4. Milli iqtisadiyyatın inkişafında qeyri-neft sənayesinin rolu və əhəmiyyəti** ... 50

4.1. İqtisadiyyatın və sənayenin sahə strukturunda baş verən dəyişikliklər ... 50
4.2. Milli iqtisadiyyatın investisiya təminatı ... 54
4.3. Qeyri-neft sənayesinin investisiya təminatının yaxşılaşdırılması əsasında inkişaf etdirilməsi ... 57
4.4. Qeyri-neft sənaye sahələrinin ixrac potensialından səmərəli istifadə olunması ... 60
4.5. Qeyri-neft sənaye sektorunda biznes mühitinin yaxşılaşdırılması ... 65

**Mövzu 5. Maşınqayırma və elektrotexnika sənayesinin xarakterik xüsusiyyətləri** ... 69

5.1. Maşınqayırma sənayesinin strukturu və təkamül yolu ilə inkişafı ... 69
5.2. Neft maşınqayırma sənayesinin formalaşması və inkişafı ... 71
5.3. Avtomobil və sair nəqliyyat vasitələrinin istehsalının inkişafı ... 74
5.4. Elektronika sənayesinin formalaşması və inkişafı ... 75
5.5. Kompüter və elektrik avadanlıqları sənayesinin inkişafı ... 79

**Mövzu 6. Qara və əlvan metallurgiya sənayesinin inkişafı.** ... 82

6.1. Sənayenin xammal və maddi texniki bazası ... 82
6.2. Qara metallurgiya sənayesinin inkişafı ... 84
6.3. Əlvan metallurgiya sənayesinin inkişafı ... 86
6.4. Qara və əlvan metalların idxalı – ixracının strukturunda baş verən dəyişiklik ... 89
6.5. Qara və əlvan metallurgiya sənayesinin inkişafının başlıca istiqamətləri ... 92

**Mövzu 7. Aqrar sahənin formalaşması və inkişafı** .......... 94
7.1. Aqrar sahənin əhəmiyyəti və digər sahələrlə əlaqəsi. 94
7.2. Aqrar – emal sənayesinin formalaşması və inkişafı. 97
7.3. Aqrar sahənin təşkilati, texniki-iqtisadı durumu və investisiya təminatı .......... 102
7.4. Aqrar sektorun istehsal vasitələri ilə təmin edilməsində "Aqrolizinq" ASC-nin rolu .......... 105
7.5. Aqrar sahəsinin qeyri-neft sənaye sahələrinin inkişafına təsiri .......... 108

**Mövzu 8. Yüngül sənayenin inkişafı** .......... 111
8.1. Yüngül sənayenin xarakterik xüsusiyyətləri və tarixi inkişaf meylləri .......... 111
8.2. Yüngül sənayedə baş verən institusional dəyişiklik.. 115
8.3. Yüngül sənayedə məhsul istehsalında baş verən dəyişikliklər .......... 119
8.4. Yüngül sənaye məhsullarının ixrac və idxalın strukturu .......... 122
8.5. Yüngül sənayenin perspektiv inkişaf istiqamətləri ...... 123

**Mövzu 9. Yeyinti sənayesinin inkişafı** .......... 127
9.1. Yeyinti sənayesinin xarakterik xüsusiyyətləri və inkişafı .......... 127
9.2. Yeyinti sənayesində institusional dəyişiklik və sahənin maddi-texniki bazasının mövcud durumu .......... 130
9.3. Yeyinti sənayesi məhsullarının istehsalı .......... 133
9.4. Yeyinti məhsullarının idxal-ixracının strukturu və coğrafiyası .......... 135
9.5. Yeyinti sənayesinin inkişafının başlıca istiqamətləri 141

**Mövzu 10. Rabitə və informasiya texnologiyaların inkişafı** .......... 144
10.1. Rabitə və poçt sferasının təkamül yolu ilə inkişafı... 144
10.2. Sahənin maddi-texniki bazasının genişləndirilməsi... 147
10.3. Rabitə və informasiya sferasında yeni xidmət növləri və formalarının tətbiqi .......... 152
10.4. İnformasiya – kommunikasiya texnologiyaları sferasının inkişafı .......... 155
10.5. Milli iqtisadiyyatın inkişafında informasiya və rabitənin əhəmiyyəti .......... 159

**Mövzu 11. Tikinti sənayesinin inkişafı** .......... 163
11.1. Qeyri-neft sənayesinin inkişafında tikinti sektorunun rolu .......... 163
11.2. Tikintinin əsas sosial-iqtisadi göstəricilərində baş verən dəyişikliklər .......... 168
11.3. Tikintiyə kapital qoyuluşu .......... 171
11.4. Əsas növ tikinti materiallarının istehsalı .......... 174
11.5. Tikinti sənayesinin inkişafının başlıca istiqamətləri.. 176

**Mövzu 12. Elektroenergetika sənayesinin inkişafı** .......... 179
12.1. Elektroenergetika sənayesinin maddi-texniki bazasının və infrastrukturunun formalaşması .......... 179
12.2. Elektroenergetika sənayesinin fəaliyyətini xarakterizə edən göstəricilər .......... 183
12.3. Sahənin inkişafına yönəldilən daxili və xarici investisiyalar .......... 187
12.4. Azərbaycanda istilik və elektrik enerjisinin istehsalı. 188
12.5. Alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi .......... 191

**Mövzu 13. Turizm sənayesinin inkişafı** ............................ 196
13.1. Turizmin iqtisadi mahiyyəti, məzmunu və inkişaf mərhələləri ............................ 196
13.2. Turizmin formaları, növləri və sistemləri ................ 203
13.3. Turizmin elementləri, turistin hüquq və vəzifələri 208
13.4. Turizmin iqtisadi və sosial səmərliliyi ..................... 211
13.5. Turizm fəaliyyətinin dövlət tənzimlənməsi ............. 216

**Mövzu 14. Qeyri-neft sənayesində kiçik və orta sahibkarlığın inkişafı** ............................ 221
14.1. Kiçik sahibkarlığın qeyri neft sənayesinin inkişafında rolu ............................ 221
14.2. Kiçik sahibkarlığın təşkili və idarə edilməsinin "bir pəncərə" prinsipinin üstünlükləri ............................ 224
14.3. Sahibkarlara Kömək Milli Fondunun qeyri-neft sənayesinin inkişafında rolu ............................ 228
14.4. Qeyri-neft sənayesində müştərək sahibkarlıq fəaliyyətinin təşkili ............................ 231
14.5. Fərdi sahibkarlıq fəaliyyətinin təşkili və onun yaxşılaşdırılması yolları ............................ 236

**Mövzu 15. Qeyri-neft sənayesinin dövlət tənzimlənməsi və proqramlar əsasında inkişaf etdirilməsi** ...................... 240
15.1. Dövlət tənzimlənməsinin mahiyyət və zəruriliyi...... 240
15.2. Dövlət tənzimlənməsinin obyektləri, subyektləri və prinsipləri ............................ 243
15.3. Qeyri-neft sənaye sahələrində tənzimlənmənin iqtisadi-inzibati metodları və funksiyaları ................ 244
15.4. Qeyri-neft sənayesinin dövlət proqramları əsasında inkişaf etdirilməsi ............................ 248
15.5. Qeyri-neft sənayesinin proqramlar əsasında inkişafının sosial-iqtisadi nəticələri ............................ 253
**Ədəbiyyat siyahısı** ............................ 257
**Mündəricat** ............................ 262



**Abbasov İbad Musa oğlu**
**Əliyev Tərbiz Nəsib oğlu**

# QEYRİ-NEFT SƏNAYESİNİN İQTİSADİYYATI
**(Dərslik)**

**Redaktor:** İ.H.İbrahimov
**Texniki redaktor:** Ə.N.Bağırov
**Kompüter tərtibatçısı:** Ə.G.Bağırzadə
**Kompüter operatoru:** G.M.Məmmədova

**Yığılmağa verilmişdir:** 19.09.2017
**Çapa imzalanıb:** 22.11.2017
**Kağız formatı:** 60/84 1/16
**Həcmi:** 17,0 ç/v
**Tirajı:** 500